# BAKI AVRASİYA UNİVERSİTETİ
## Elmi-nəzəri jurnal

# SİVİLİZASİYA

# ЦИВИЛИЗАЦИЯ

# CIVILIZATION

"Sivilizasiya" jurnalı Tarix; Siyasi elmlər; Fəlsəfə və Sosiologiya; Filologiya; Pedaqoqika sahələri üzrə Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərın siyahısına daxildir.

DRJI

**Directory of Research Journals Indexing (DRJI) ilə indekslənmişdir.**

**Jurnal ildə 4 dəfə nəşr edilir.**
**The magazine is published 4 times a year.**
**Журнал выходит 4 раза в год.**

**Cild 10 №1 2021 (46)**
**Vol. 10 №1 2021(46)**
**Том 10 №1 2021 (46)**

**BAKI – 2021**

**Təsisçi**
**Bakı Avrasiya Universiteti**

**Baş redaktor**
**F.e.d., prof. Hüseynli Nazim Ziyad oğlu**

**Baş redaktorun müavini**
**S.e.d., prof. İbrahimova Gülzar İsaxan qızı**

**Məsul katib**

**Fil.ü.f.d., dos. Şıxıyeva Səadət Məmməd qızı**

**REDAKSİYA HEYƏTİ**

**Tarix və siyasi elmlər üzrə:**

Prof.Dr. Attar Aygün (Türkiyə)
S.e.d., prof. Ryabova Yelena Lvovna (Rusiya)
T.e.d., prof. Nikonov Aleksandr Vasilyeviç (Rusiya)
T.e.d. Natia Mirianaşvili (Gürcüstan)
AMEA-nın həqiqi üzvü, t.e.d., prof. Bünyadov Teymur Əmiraslan oğlu
T.e.d., prof. Cəfərov Əsədulla Qüdrət oğlu
T.e.d., prof. İsgəndərov Anar Camal oğlu
T.e.d., prof. Qasımlı Musa Cəfər oğlu
T.e.d., prof. Şükürov Kərim Kərəm oğlu
T.e.f.d., dos. Mehdiyev Aqşin Şəfaət oğlu
S.e.d., prof. Məmmədov Hikmət Baba oğlu
B/m.Qasımov Səyavuş Kamran oğlu
S.e.d., prof. Nəsirli Elman Xudam oğlu (şöbə redaktoru)

**Fəlsəfə və sosiologiya elmləri üzrə:**

Prof. Dr. Suat Günsel (KKTC)
Prof.Dr. Məmmədov Nizami Mustafa oğlu (Rusiya)
Doç. Dr. Abdıldayev Kurmanbek (Qırğızıstan)
F.e.d., prof. Orucov Zahid Məlik oğlu (Rusiya)
AMEA-nın müxbir üzvü, prof. Əliyev Bəxtiyar Həmzə oğlu
F.e.d., prof. Rüstəmov İzzət Əşrəf oğlu
F.e.d., prof. Məmmədov Əziz Bəşir oğlu
F.e.d., prof. Talışlı Siyavuş Murtuza oğlu
F.e.f.d., dos. Məmmədov Hüseyn Qaraxan oğlu
Fe.f.d., dos.Qaraməmmədli Yasin Alı oğlu
F.e.f.d. Rəhimov Mütəllim Qara oğlu (şöbə redaktoru)

**Filologiya elmləri üzrə:**

Prof. Dr. Bozkurt İsmayıl (Türkiyə)
Prof. Dr. Hikmət Koraş (Türkiyə)
AMEA-nın müxbir üzvü, fil.e.d., prof. Cəfərov Nizami Qulu oğlu
Fil.e.d., prof. Qasımov Cəlal Əbil oğlu
Fil.e.d.,prof. Cəlilov Firudin Ağası oğlu
Fil.e.d.,prof. Qasımov İkram Ziyad oğlu
Fil.e.d. prof. Veysəlli Fəxrəddin Yadigar oğlu
Fil.e.d., dos. Rzayev Seyfəddin Gülverdi oğlu
Fil.ü.f.d, prof. Məmmədov Novruz İsmayıl oğlu
Fil.ü.f.d.,dos. Quliyev Əsgər Qədir oğlu
Fil.ü.f.d.,dos. Gündoğdu Səriyyə Gülağa qızı
Fil.ü.f.d.,dos. Məmmədova Elmira Kekeç Fikrət qızı
Fil.ü.f.d.,dos. Hüseynova Nigar Nazim qızı
Fil.ü.f.d.,dos. Rzayeva Sevda Ramiz qızı
Fil.ü.f.d.,dos. Cəlil Fərəh Cabbar qızı
B/m. Musayev Nəsrəddin Musa oğlu
Dr. Hakan Yılmaz (Türkiyə)
Fil.e.f.d., prof. Tahirzadə Ədalət Şərif oğlu (şöbə redaktoru)

**Pedaqoqika sahəsi üzrə:**

P.e.d., prof. Hüseynzadə Rüfət Lətif oğlu
P.ü.f.d., dos. Səmədov Oqtay Əlipaşa oğlu
Ps.ü.f.d., dos.Cavadov Rövşən Əli oğlu

**© Bakı Avrasiya Universitetinin nəşri, 2021**

# İ Ç İ N D Ə K İ L Ə R

## FƏLSƏFƏ VƏ SOSİOLOGİYA

**Məhəmməd CƏBRAYILOV**
*Maliyyə imperializmi və dördüncü sənaye inqilabı*............................................... 6

**Əhməd QƏŞƏMOĞLU**
*Ailədə ahəngdar mühitin yaradılması konsepsiyasının mühüm şərtləri*.................. 16

**Mədinə MEHDİYEVA**
*İnternetin insanların həyat tərzinə təsiri xüsusiyyətləri*......................................... 24

**Araz ƏLİYEV**
*Post-orientalizm: türk fəlsəfi fikrinin tədqiqinin zəruriliyi problemi*....................... 31

**Bəhruz GÜLMALIYEV**
*İdrakın elm, xülya və abstrakt təfəkkürdə inikası*................................................ 39

**Адиль КУРБАНОВ**
*Феномен виртуализации в контексте стратегии развития информационного общества* ........................................................................................................ 46

**Хикмет Н.ВЕЗИРОВ, Фарида Н. АГАЕВА, Фикрет Х. ВЕЗИРОВ-КЕНГЕРЛИ**
*Азербайджан – центральное звено развития мира* .................................... 53

**Natəvan NƏCƏFOVA**
*Valideyn himayəsindən məhrum olmuş uşaqların sosiallaşması problemi*............. 73

**Nərgiz NƏSİROVA**
*Böyük qayıdışın idarə edilməsinin sosioloji aspektləri*............................................ 84

**Rəna QAFAROVA**
*"Özünüreallaşdırma" anlayışının mahiyyəti və məzmunu*.................................... 92

**Rəşad MURADOV**
*Sosial sahibkarlıq, kommersiya və qeyri-kommersiya fəaliyyətinin qarşılıqlı münasibəti* ........................................................................................................ 103

## TARİX, ANTROPOLOGİYA VƏ SİYASİ ELMLƏR

**Vidadi UMUDLU**
*XIX əsrin əvvəlində İrəvan xanlığının siyasi vəziyyətinə dair (Türkiyə tarixşünaslığı əsasında)* ........................................................................................................ 113

**Məhəmməd ƏKBƏROV**
*C.Nayın "yumşaq güc" konsepsiyasının tənqidi təhlili* .......................................... 120

**Asim CƏNNƏTOV**
*Azərbaycan mühacirlərinin araşdırmalarında İran türkləri və Güney Azərbaycan məsələsi* ........ 130

**Aysel ALLAHVERDİYEVA**
*Yerli özünüidarəetmənin formalaşma modelləri. Dünya təcrübəsi* ........ 137

**Sahib VƏLİYEV**
*Müasir arxeologiya elminin inkişafı ictimai-iqtisadi formada təhlil obyektinə çevrilməkdədir* ........ 144

**Nazim BAYRAMLI**
*Türkiyə Cümhuriyyətinin yeni prezidentlik sisteminin xarici siyasətə təsiri* ........ 150

**Nərgiz QULİYEVA**
*XX əsrin sonu-XXI əsrin əvvəllərində Avropa Birliyinin genişlənmə siyasətində Türkiyə* ........ 156

## FİLOLOGİYA

**Nazim HÜSEYNLİ**
*Sümerce Türkçe İlişkisinin Tarihi Boyutu* ........ 168

**Fidan YUSİFOVA**
*Azərbaycan dilinin şərq qrupu dialekt və şivələrində alınma sözlərin işlənmə məqamları* ........ 179

**Şəbnəm ORUCLU**
*Frazeoloji evfemizmlərin funksional təhlili* ........ 184

**Nərmin SADƏDDİNLİ**
*Bozqurd obrazı mifik süjetləri özündə qovuşduran mifoloqem kimi* ........ 191

## PEDAQOQİKA

**Günay NƏZƏROVA**
*Sosial-mədəni kontekstdə təhsilin humanitar paradiqması* ........ 198

**Düzəlişlər** ........ 205

**Bizim müəlliflər** ........ 206

**Yazı qaydaları** ........ 209

**Правила написания** ........ 211

**Rules of writing** ........ 213

**Yazı kuralları** ........ 215

F Ə L S Ə F Ə V Ə S O S İ O L O G İ Y A

**UOT 316.34**

# MALİYYƏ İMPERİALİZMİ VƏ DÖRDÜNCÜ SƏNAYE İNQİLABI

**Məhəmməd CƏBRAYILOV**[1]

*Məqalə redaksiyaya daxil olmuşdur: 23 sentyabr 2020; çapa qəbul edilmişdir: 29 sentyabr 2020; online-da çap edilmişdir: 31 mart 2021.*

*Received: 23th of September, 2020; accepted: 29th of September, 2020; published online: 15th of March, 2021.*

***Açar sözlər:*** *imperializm, kriptovalyuta, sənaye inqilabı, maliyyə*

## Giriş

Kriptovalyutanın nə olduğu onun dünyanın maliyyə sisteminə necə təsir edəcəyi, qlobal güc mərkəzlərinin ondan siyasi təzyiq vasitəsi kimi istifadəsi haqqında ümumi biliklərə sahib olmaq üçün, pulun yaranması, inkişafı və dünya nizamında iştirakçı olan dövlətlərin hədəfi olan ölkələrə qarşı maliyyə siyasətini təhlil etmək lazımdır. Mövzu daxilində pulun yaranması, inkişafı və onun (pulun) üzərində bölgü, nəzarət və xüsusilə müasir dövrdə nüfuz və təzyiq aləti kimi formalaşan qlobal maliyyə institutları haqqında təhlillər aparılacaq. Lakin ilk öncə kriptovalyutaların yaranmasını zəruri edən yeni rəqəmsal texnologiyalar, dördüncü sənaye inqilabının qlobal maliyyə sisteminə gətirdiyi yenilikləri aydınlaşdırmaq lazımıdr. Məhz bu baxımdan kriptovalyutalar nədir, maliyyə imperializminin formalaşmasında ondan necə istifadə etmək mümkündür, hansı gələcək təhlükələr doğura bilər, yeni dünya nizamında kriptovalyutalardan əsas maliyyə resursu olaraq istifadə edilə bilərmi, yeni maliyyə imperializmi ilə klassik maliyyə imperializm arasında fərqləri göstərən əsas səbəblər hansılardı? Bütün bu sualları mövzu daxilində sorğulamaqda əsas məqsəd, dördüncü sənaye inqilabının diktə etdiyi mövcud şərtlər daxilində dünyanın güc mərkəzlərinin yaratdıqları maliyyə imperiyalarının yeni vəziyyətə transformasiya etməsini, onun yerli maliyyə institutlarına təsirini, baş verə biləcək spekulyasiya və manipulyasiya əməliyyatlarını təhlil edə bilən elmi nəticələrə varmaqdır.

## 1. Kriptovalyutaların yaranması və maliyyə imperializminin yeni mərhələsi

2020-ci il KOVİD-19 pandemiyasının bəşər tarixində bu vaxta qədər müşahidə edilməyən və təsir etdiyi sahələr baxımından mürəkkəb bir dövr kimi xarakterizə olunmalıdır. Qlobal pandemiyanın yaratdığı şərait və bu şəraitə uyğunlaşma tamamilə yeni şərtlər diktə edir. Yeni şərtlər iki istiqamətdə qlobal təsir və təzyiqlər yaradır:

Birincisi, 4-cü sənaye inqilabının yaratdığı yeni vəziyyətə uyğunlaşmanı zəruri edən şərtlər;

İkincisi, qlobal pandemiyannın yaratdığı yeni vəziyyətin diktə etdiyi şərtlər;

Yuxarıda qeyd etdiyimiz birinci və ikinci şərtlər beynəlxalq münasibətlər sistemində, o cümlədən qlobal maliyyə institutlarının qarşısında yeni suallar yaradır və bu suallara cavab axtarışlarını zəruri edir. Məhz bu baxımdan qlobal maliyyə böhranı və antiböhran siyasəti ilə bağlı mövzular beynəlxalq elmi ictimaiyyətin, həmçinin ictimai və humanitar elmlər sahəsində çalışan alimlərin müzakirə etdiyi mövzulardı. Dördüncü sənaye

* fəlsəfə üzrə fəlsəfə doktoru, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
*e-mail: mehmetsoltanedu@gmail.com*

inqilabının və pandemiyanın yaratdığı vəziyyətə uyğun olaraq ölkələrin maliyyə siyasətində yeni yanaşmalar, yeni baxışlar meydana çıxır.

3.12.2020-ci il tarixində Nyu-Yorkda BMT Baş Assambleyasının koronavirus xəstəliyi – COVİD-19 ilə mübarizəyə həsr edilən xüsusi sessiyasının keçirilən videokonfransında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışı zamanı qeyd edib ki, “2020-ci il ərzində dünya ictimaiyyəti müasir tariximizin ən ciddi səhiyyə böhranı ilə üzləşib. ...Səhiyyə, ictimai, iqtisadi və maliyyə sahələrində çoxşaxəli fəsadlara yol açan bu böhran cəmiyyətlərə, iqtisadiyyata, qlobal ticarət və səyahətə böyük zərər yetirmiş və insanların yaşayışına sarsıdıcı təsir göstərmişdir. ...Həmçinin narahatlıq hissi ilə onu da qeyd etmək istərdik ki, pandemiya ədalətli və bərabərhüquqlu dünya nizamına nail olmaq üçün mövcud fundamental problemlərin daha da artmasına səbəb olmuşdur. Qoşulmama Hərəkatının 2019-cu ildə Bakıda keçirilmiş 18-ci Zirvə toplantısında da müzakirə edilmiş bu problemlər qlobal maliyyə və iqtisadi böhranın təsirləri, inkişaf etməkdə olan ölkələrin əksəriyyətində resurs qıtlığı və iqtisadi-sosial gerilik, qeyri-bərabər ticarət şərtləri və inkişaf etmiş ölkələrin kifayət qədər əməkdaşlıq etməməsi, onların bəziləri tərəfindən birtərəfli və məcburedici tədbirlərin tətbiqi, habelə gücdən istifadə və ya gücdən istifadə ilə hədələmə və digərlərindən ibarətdir”. (4)

Pandemiyanın yaratdığı qlobal maliyyə böhranı dünyanın əksər ölkələrini əhatə etməkdədir. Bu cür vəziyyətin davam etməsi bir tərəfdən mövcud beynəlxalq maliyyə münasibətlərinə təzyiq göstərirsə, digər tərəfdən yeni dünya düzəninin formalaşmasında iştirakçı və iddiaçı dövlətlərin yeni geosiyasi maraqlarını həyata keçirmək üçün maliyyə imperializmi üzərində qurulan texnologiyaların yaranmasını diktə edir. Heç də təsadüfi deyildir ki, Çin dövləti yaranmış şəraitə uyğun olaraq yeni maliyyə texnologiyaları üzərində işləyir. Məsələn, “Çinin İnformasiya Texnologiyaları və Sənayenin İnkişafı Mərkəzi (CCID) kriptovalyutalar üzrə 2020-ci il avqust ayı üçün tərtib etdiyi rəsmi reytinqini açıqlayıb. 2018-ci ilin may ayından etibarən tərtib edilən sayca 19-cu reytinqdə 37 kriptovalyutanın 3 əsas kateqoriya – baza texnologiyası, tətbiqi və innovasiya üzrə göstəriciləri nəzərə alınır. İlk beşlikdə yer alan kriptovalyutalar: EOS, Ethereum, İOST, Tron, NEO. Bitcoin 14-cü, İOTA isə 37-ci sırada yer alıb. Çinin Sənaye və İnformasiya Texnologiyaları Nazirliyi kriptovalyutalar üzrə reytinqi 2018-ci ilin may ayından etibarən dərc etməyə başlayıb. Bununla da Çin, kriptovalyutaların rəsmi hökumət reytinqini dərc edən ilk ölkə olaraq tarixə düşdü”. (7)

Yuxarıda Çinin yeni maliyyə siyasəti ilə bağlı faktları nəzərə alsaq qeyd etməliyik ki, ənənəvi maliyyə imperiyasına malik olan ABŞ-la, yeni maliyyə imperiyası yaratmağa cəhd edən Çin arasında maliyyə imperializmi uğrunda iqtisadi “alətlər” dəyişir. Qlobal maliyyə bazarında ənənəviliklə müasir maliyyə texnologiyaları arasında mübarizə mərhələsinə daxil olan dövlətlərin maliyyə imperializmini genişləndirmək niyyətini hiss etmək  çətin deyil. Misal üçün, Yeni yaradılan kriptovalyutaların dövriyyəyə buraxılmasında əsas rəqabəti Çin, ABŞ, Hindistan arasında müşahidə etmək mümkündür.

Kriptovalyutaların (Bitcoin, Ether və LiteCoin və s.), başqa sözlə, yeni maliyyə sisteminin (Blockchain) yaranması dünyada ilk pulun dövriyyəyə buraxılmasından hazırkı dövrə qədər bir çox xüsusiyyətlərinə görə inqilabi hadisə sayılır. Hazırda kriptovalyutaların sürətlə artması müşahidə olunur. Aparılan təhlillər nəticəsində aydın olur ki, “2017-ci ilə qədər dövriyyəyə buraxılan 200 müxtəlif kritovalyutaların ümumi dəyəri dünya miqyasında bir trilyon ABŞ dollarına yaxındır. Bütün kriptovalyutaların təxmin edilən bazar kapitalının 2020-ci ilin sonuna qədər 10 dəfə artaraq 20 trilyon dollara artacağı proqnozlaşdırılır”. (6)

Kriptovalyutaların proqnozlaşdırılan səviyyədə əhəmiyyətli artımı onu göstərir ki, yaranacaq yeni qlobal maliyyə sisteminin forması, icrası, nəzarət, tənzimləyici kimi funksiyalrında köklü dəyişikliklərin ehtimalı böyükdür. Məhz bu baxımdan yeni dünya

nizamına təsir edən aktorların istifadəsində olan qlobal maliyyə sisteminin mövcud şəraitə uyğunlaşması prosesində meydana çıxan problemlər və onun digər dövlətlərin maliyyə sistemi və milli təhlükəsizliyinə yaratdığı təhlükələrin araşdırılması zəruri və aktual məsələdir.

Kriptovalyuta – əməliyyatları qeyd etmək və təsdiqləmək üçün blok zənciri adlanan mərkəzləşdirilmiş bir sistemdən istifadə edən şifrəli bir rəqəmsal valyutadır. Kriptovalyutalar üçüncü tərəfin nəzarəti olmadan fəaliyyət göstərən tərəfdaşla mübadilə vasitəsidir. Yeni maliyyə sistemini formalaşdıracaq kriptovalyutaların yaranması və gələcəyi ilə bağlı fikirləri olan mütəxəssisləri üç qrupa ayırmaq olar:

- Birinci qrup mütəxəssislər: rəqəmsal valyutanın dövriyyəyə buraxılmasını dövrün tələbi kimi qiymətləndirməklə yanaşı, qarşı tərəfin risklərini və əlavə xərcləri aradan qaldıracağını bildirirlər.
- İkinci qrup mütəxəssislər: kriptovalyutaların yaranmasını "şəffaf, mərkəzləşdirilmiş aktiv rəqəmsal təhlükəsiz bir sistemə olan ehtiyacla" əlaqələndirir.
- Üçüncü qrup mütəxəssislər: rəqəmsal valyutaların və maliyyə sisteminin gələcəyi ilə bağlı təhlükəsizliyi də ciddi problemləri qeyd edirlər.

**2. Rəqəmsal valyutanın yaranmasında həyata keçirilən məqsəd**

Blokçeyn termini 2009-cu ildə ingilis dilində "Blockchain" kimi qeyd edilir və block-blok, chain-zəncir deməkdir. Adından da göründüyü kimi, "Blokchain" də rəqəmsal qeydlər "bloklar"da birləşir, bu bloklar isə daha sonradan çətin riyazi alqoritmlərin köməkliyi ilə kriptoqrafik və xronoloji "zəncir"də birləşir. Hər blok özündən əvvəlki blok ilə əlaqəlidir və özündə bir sıra qeydə sahibdir. Yeni bloklar nizamlı şəkildə zəncirin sonuna əlavə olunur. Şifrləmə prosesi eyni şəbəkədə işləyən çox sayda müxtəlif kompüterlər vasitəsilə yerinə yetirilir. Onların hesablaması nəticəsində hər biri eyni nəticəni əldə etdikdə bloka unikal rəqəmsal imza atılır. Reyestr yeniləndikdən və onda yeni blok təşkil edildikdən sonra o dəyişdirilə bilməz. Bununla da onu saxtalaşdırmaq mümkün deyil. Ona sadəcə yeni qeydlər əlavə etmək olar. Bir detalı nəzərə almaq mütləqdir ki, reyestr bütün kompüterlərdə eyni anda yenilənir". (7)

Yuxarıda Blokceyn texnologiyasının hansı məqsədlə yarandığı təhlil edərkən faktlardan da aydın olur ki, yeni maliyyə imperiyası kimi yaradılan "kriptovalyutalar"ın təhlükəsizlik məsələləri nəzərə alınıb. Məhz bu baxımdan yeni şəraitdə yaradılan maliyyə texnologiyaları, onu dünyanın maliyyə imperiyasına təsiri, bunun səbəb və nəticələrini elmi cəhətdən müzakirə edərək araşdırmaq çox mühüm əhəmiyyət və həm də zəruri məsələdir. Digər tərəfdən, qlobal maliyyə institutlarının yeni yaranmış kriptovalyutaların ənənəvi maliyyə bazarına təsirini və təhlili elmi cəhətdən araşdırılmalıdır. Məhz bu baxımdan araşdırdığımız mövzu yeni kriptovalyutaların yaranması ilə bağlı analizlər aparmaq deyil, həmçinin yeni maliyyə imperializmini zəruri edən amilləri nəzərdən keçirməklə bu sahədə vacib aktorları müəyyənləşdirməkdir. Bu araşdırmanı aktual edən digər vacib məsələ, geosiyasi aktorların dünya nizamında yerinin müəyyənləşdirilməsi və yeni maliyyə lonsepsiyaları, geostrateji məqsədləri olan güc mərkəzlərində müasir maliyyə imperializmin yaranmasını şərtləndirən texnologiyaların sürətlə tətbiqinin həyata keçirilməsi ilə bağlıdır.

"Dünya təcrübəsində Mərkəzi Banklar yeni kriptovalyutalara maliyyə münasibətdə iki mühüm məqamın üzərində dayanırlar. Birincisi, "Mərkəzi Bankların kriptovalyuta emissiya etməsi qeyri-müəyyən olaraq qalır. Çünki belə bir emissiya ikipilləli bank sistemindən birpilləli bank sisteminə keçid deməkdir. İkincisi, Mərkəzi Banklar digər maliyyə institutlarına kriptovalyutalarla əməliyyat aparmağa və kripto xəzinəyə nə dərəcədə icazə verməklə bağlı yekun qərara gələ bilmirlər. Çünki kriptovalyutalarla əməliyyat zamanı vergidən yayınma və kirli pulların yuyulması kimi risklərin həlli ilə bağlı da

mexanizmlər hələ ki, yoxdur. Eyni zamanda yeni protokollar da işlənilir. Məsələn, İngiltərə Bankı Paylaşılan Mühasibat Texnologiyasının (Distributed Ledger Technology (DLT) tətbiqinə şərait yaradır. Bu protokol sindikatlaşdırılmış kreditlərin verilməsi üçün imkandır. Azərbaycanın maliyyə-bank sektorunun nümayəndələri ilə DLT-nin müzakirə edilməsi və uyğun olarsa təkliflərin hazırlanması məqsədəuyğun görünür. Bütün hallarda kriptovalyutalarla əməliyyatlara nəzarət mexanizmi kövrəkdir, milli sərhədləri aşır və hələ formalaşmaqdadır". (7)

Azərbaycanda yeni kriptovalyutaların gələcəkdə tətbiqi ilə əlaqədar olaraq İngiltərənin Paylaşılan Mühasibat Texnologiyasının (Distributed Ledger Technology (DLT) Bankı ilə əməkdaşlıq olunması onu göstərir ki, dünyada inkişaf edən yeni maliyyə texnologiyalarının mənimsənilməsi zəruri və prioritet istiqamətlərdən biri sayılır. Dünyada gedən inqilabi dəyişiklərə hazırlaşmaq, yeni texnologiyalardan qaynaqlanan təhlükəsizlik tədbirlərinə cavab verən alternativ imkanları özündə saxlayan nəticələrə nail olmaq, dördüncü sənaye inqilabının həyatın bütün sahələrinə təsirini nəzərə alan strateji konsepsiyalara sahib olmaq üçün ilk növbədə baş verən proseslər arasında əlaqə və dərinliyini anlamaq lazımdır. Məhz bu baxımdan yeni maliyyə imperializminin formalaşmasına qlobal güclər tərəfindən cəhd olunması dördüncü sənaye inqilabının yaratdığı sonsuz imkanlarla əlaqələndirmək mümkündür.

Dördüncü sənaye inqilabının araşdırmaçısı olan Klaus Şvab rəqəmsal kriptovalyutaları "hazırda reallaşan dəyişiklik" adlandıraraq qeyd edir ki, "2015-ci ildə blokçeyn vətəndaşların şəxsiyyət vəsiqələri üçün şəxsiyyətin dəyişdirilməsi texnologiyasının təməli kimi blokçeyndən istifadə edən ilk virtual millət – "BitNation" yaradıldı. Eyni zamanda, Estoniya blokçeyn texnologiyasından istifadə etməyə başlayan ilk real dövlət oldu". (1, 176)

Müasir maliyyə imperializmin və yeni maliyyə texnologiyalarının yaranmasını hansı məqsədə xidmət etdiyini müəyyənləşdirmək üçün 4-cü sənaye inqilabını şərtləndirən prosesləri aydınlaşdırmaq lazımdır.

### 3. Dördüncü sənaye inqilabının yaranmasının tarixi-texniki aspekti

Dördüncü Sənaye İnqilabını yaradan prosesləri təhlil etmədən öncə sənaye inqilablarını zəruri edən iqtisadi-siyasi prosesləri tarixi və mədəni aspektdən dəyərləndirilməsi vacibdir. Ümumiyyətlə, Sənaye İnqilabı anlayışının məzmun və xüsusiyyətlərini dəqiqləşdirmədən Dördüncü Sənaye İnqilabında nə baş verdiyini və bütövlükdə bunun maliyyə imperializmi ilə hansı əlaqəsi olduğunu anlamaq çətindir. Məhz bu baxımdan "Sənaye İnqilabı" bir anlayış olaraq müəyyən bir sahədə sürətli, köklü və ixtisaslı dəyişiklik" olaraq nəzərdə tutulur.

Birinci sənaye inqilabı 1760-cı ildən 1840-cı ilə qədər davam etdi. İnqilab dəmir yollarının inşa edilməsi və buxarlı maşının ixtira edilməsi ilə mexaniki istehsala start verdi. XIX əsrin sonu XX əsrin əvvəllərində ortaya çıxan ikinci sənaye inqilabı elektrik enerjisinin və montaj xəttinin köməyi ilə kütləvi istehsalı mümkün etdi. Üçüncü sənaye inqilabı isə 1960-cı illərdən başladı. Bu inqilab yarımkeçiricilərin inkişafı, meynfreym kompüterlərin (1960-cı illər), fərdi kompüterlərin (1970-ci və 1980-ci illər) və internetin (1990-cı illər) katalizatorluğu ilə baş verdiyi üçün, adətən, kompüter inqilabı və ya rəqəmsal inqilab da adlandırılır.

Kənd təsərrüfatı inqilabından sonra bəşəriyyətin iqtisadi və sosial inkişafında ən mühüm dönüş nöqtələrindən biri hesab edilən "Sənaye İnqilabı" baş verdi. "Birinci sənaye inqilabı toxuculuq dəzgahlarının su və buxar gücünün təsiri ilə mexanikləşməsinə təsirini göstərməyə başladığı dövr kimi qəbul edilir. İngiltərədə başlayan bu inqilab qısa müddətdə Avropaya və Amerika Birləşmiş Ştatlarına (ABŞ) yayıldı". (1, s. 18)

İkinci Sənaye İnqilabını şərtləndirən mühüm amil, 870-ci illərdə istehsalda elektriklə işləyən qurğuların geniş yayılması ilə avtomatlaşdırmaya keçidlə bağlıdır. ABŞ

1880-ci ildən sonra istehsalda tətbiq etdiyi yeniliklər sayəsində Birinci Dünya Müharibəsindən əvvəl sənayedə dünya lideri İngiltərəni geridə qoydu. ABŞ-ın müvəffəqiyyətinin təməlində duran mühüm amillərdən biri də kütləvi istehsala imkan yaradan idarəetmə sisteminə malik olması idi. Daha sonra dövrün tələblərinə uyğunlaşma, istehsalın avtomatlaşdırmaya keçidini tələb edən rabitə sahəsindəki ciddi inkişaf üçüncü sənaye inqilabı zəruri etdi.

James Watt (1736-1819) tərəfindən buxar mühərrikinin icad edilməsi və buxar mühərriklərinin istehsalata tətbiqi o zamana qədər istehsal rejimində inqilab yaratdı. Nəhəng fabriklər yeni istehsal üsulunun mərkəzini meydana gətirdi və kütləvi şəkildə istehsalın reallaşması həyata keçirildi. Sənaye inqilabının təsiri yalnız iqtisadi quruluşla məhdudlaşmırdı, həm də ictimai quruluşda əsaslı surətdə təsirlərini hiss etmək mümkün idi. Cəmiyyətdə siniflər arasında sürətli yerdəyişmə baş verir. Məsələn, feodal cəmiyyətlərində mövcud olan feodallar və ruhanilər yerlərini yeni siniflərə buraxdılar. Onların yerini tutan siniflərdən biri də işçi sinfidir. Sənaye inqilabının yaratdığı yeni vəziyyətə uyğun olaraq işçi sinfi tarixdə öz yerini müəyyən bir əmək haqqı ilə müntəzəm olaraq tək bir işi yerinə yetirən və iş intizamına sahib olmaqla özündən əvvəlki keçmişlə müqayisədə yeni bir sinif kimi tutmuşdur.

Sənaye İnqilablarını araşdırarkən aydın olur ki, bəşəriyyətin inkişafında inqilabın yaratdığı xüsusiyyətlər hər bir mədəni kontinentdə eyni cür təzahür etmişdi. Məsələn, işçi sinfinin yanında burjua kimi təsvir olunan yeni bir kapital sinfinin meydana gəlməsi hər bir mədəni kontinentdə gec və ya tez eyni cür təzahür etmişdi. Bu inqilab çox qısa müddətdə digər Avropa ölkələrinə və ABŞ-a yayılmışdır. Sənaye inqilabında liderlik edən ölkələrdə iqtisadi quruluşlar sürətli bir dəyişmə dövrünə qədəm qoydu, ticarət həcmləri sürətlə böyüdü və iqtisadi inkişaf sürət qazandı. 1970-ci illərə qədər müəyyən inkişaflarla gedən sənaye cəmiyyəti müasir dünyadakı dəyişikliklər ilə yeni bir mərhələyə qədəm qoydu. Məhz bu baxımdan informasiya cəmiyyəti, post-sənaye cəmiyyəti və şəbəkə cəmiyyəti kimi çox fərqli anlayışlarla ifadə edilən bu yeni cəmiyyət keçmişin sosial və iqtisadi quruluşlarından çox fərqli xüsusiyyətlərə malikdir. Bu fərqli xüsusiyyətlər "mavi yaxalı" işçilərin fiziki əməyə əsaslanan işlərdə yerini, tədricən "ağ yaxalı" bilik işçisinə və peşəkar işlərdə, xidmət sektorunda işləyən konsepsiyalarla ifadə olunan yeni bir işçi sinfi əvəz etməyə başladı. İşçi profilindəki bu dəyişiklik istehsal strukturlarındakı dəyişikliklə paralel olaraq meydana gəldi.

1970-ci illər ərzində informasiya-kommunikasiya texnologiyalarında sürətli inkişaf və transformasiya baş verdi. Bu gün yeni iqtisadi və texnoloji inkişaf dövründə olduğumuz halda bu yeni inqilabın sürətini və genişliyini hələ tam anlamaq çətindir. Milyardlarla insanın mobil cihazlara bağlantısı, görünməmiş səviyyədə yeni kvant texnologiyalarının işləmə gücü və yaddaş imkanları buna misaldır. "Süni intellekt (AI), robotik cisimlərin interneti (kiberfiziki sistemlər), kiber fiziki sistemlər, nanotexnologiya, biotexnologiya, bulud hesablama, müstəqil nəqliyyat vasitələri, 3D printerlər, enerji mənbəsi olaraq yeni texnoloji kəşflər müxtəlif sahələrdə qarışmağa başladı. Bu yeniliklərin əksəriyyəti günümüzdədir. Lakin fiziki, rəqəmsal və bioloji aləmlərdə texnologiyaların bir-birinə güclənərək bir-birinə girəcəyi və inkişaf edəcəyi proqnozlaşdırılan bir həqiqətdir". (1, 17)

İlk üç sənaye inqilabını təsvir etmək məqsədilə istifadə edilən tərifləri və akademik arqumentləri nəzərə alsaq, əminliklə söyləmək olar ki, biz dördüncü sənaye inqilabına bəşəriyyət artıq daxil olmuşdur. Bu inqilab hazırki əsrlə birlikdə başladı və indi rəqəmsal inqilabın üzərində inkişaf edir. Onu hər yerdə əlçatan olan daha mobil internet, ucuzlaşan daha kiçik sensorlar, süni intellekt proqram təminatları ilə xarakterizə etmək mümkündür.

Əsasını kompüter aparat təminatı, proqram təminatı və şəbəkələrin təşkil etdiyi texnologiyalar yeni dövrün innovativ məhsulları hesab olunmasına baxmayaraq, üçüncü sənaye inqilabından sonra daha mürəkkəb, sistemli xarakter alaraq cəmiyyətləri və qlobal

iqtisadiyyatı transformasiyaya məruz qoyur. Məhz bu baxımdan Massaçuesets Texnologiya İnstitutunun (MIT) professorları Erik Brincolfson (Erik Brynjolfsson) və Andreu Makeyf (Andrew McAfee), 2014-cü ildə nəşr olunan kitablarının adında da olduğu kimi bu dövrü "İkinci maşın dövrü" adlandırırlar. Onlar bu kitabda "...dünyanın bir dönüş nöqtəsində olduğunu və rəqəmsal texnologiyaların təsirinin avtomatlaşma sayəsində "bütün gücü" ilə özünü ortaya qoyacağını və "görünməmiş hadisələrə" yol açdığını iddia edirlər". (2)

Müasir dövrdə fərqli konsepsiyalara üstünlük verilməsinə baxmayaraq, son vaxtlar elmi ictimaiyyətdə tez-tez eşidilən anlayışlardan biri dördüncü sənaye inqilabıdır. Bu konsepsiya bir çox müasir avtomatlaşdırma sistemini, məlumat mübadiləsini və istehsal texnologiyalarını əhatə etməklə yanaşı süni zəka, əşyalar interneti, kiber fiziki sistemlər, bulud hesablama, müstəqil nəqliyyat vasitələrindən ibarət olan dəyərlər toplusudur. Dördüncü sənaye inqilabında, kompüter proqramı ilə istehsalda avtomatlaşdırmaya keçid təmin edilərkən, müxtəlif istehsal proseslərində elektron və informasiya texnologiyaları sistemlərindən istifadə edildi.

"2011-ci ildə Hannoverdə keçirilən sənaye yarmarkasında ilk dəfə istifadə edilən "Dördüncü sənaye inqilabı" anlayışı kiber-fiziki sistemlərə əsaslanan bir istehsal metodu kimi nəzərdə tutulmuşdu. Lakin bu gün bizi əhatə edən dördüncü sənaye inqilabı – ağıllı fabriklər, ağıllı əşyalar, yeni maliyyə texnologiyaları bir sözlə maddi dünyanın dəyişməsini özündə ehtiva edir. Alman Milli Elm və Mühəndislik Akademiyasının (Acatech) dördüncü sənaye forumunun hesabatında, dördüncü sənaye inqilabının əvvəlki inqilablardan fərqli cəhətləri aşağıdakı kimi sıralanır: "Saxlama sistemləri və mənbələrin maşınlarla qlobal qarşılıqlı təsiri, məkan məlumatları ilə unikal ağıllı məhsulların inkişafı; məhsul xüsusiyyətləri yeni iş modellərinin reallaşması (Big Data istifadə ilə ortaya çıxan yeni xidmətlər kimi); iş yerindəki işçilər üçün yeni sosial infrastruktur". (3, 37)

Dördüncü sənaye inqilabının sosial-iqtisadi təsirləri milli və qlobal səviyyələrdə şirkətlərə, fərdlərə, cəmiyyətə təsiri qaçılmazdır. Həyat tarazlığı, fərdi istehlakçı tələblərinə və problemlərinə anında cavab vermək üçün formalaşan dördüncü sənaye inqilabının yaratdığı təhdidlər daha çox iş tərəfində, istehsal dünyasında olur. Əməyin payı əhəmiyyətli dərəcədə azalıb. Bu gün bir çox şirkət "məlumat bazası" sıfır saxlama, nəqliyyat və təkrarlama xərcləri ilə istehsal edir. İndi şirkətlərin böyüməsi üçün çox az kapitala ehtiyac var. Məsələn, dördüncü sənaye inqilabının araşdırıcılarından biri olan Klaus Şvab qeyd edir ki, "10 və 15 il öncəki dövrlə müqayisədə bir vahid sərvətin daha az sayda işçi ilə yaradıla bilməsinin rəqəmsal şirkətlərin sıfıra yaxın marjinal xərcə sahib olmalarıdır. Bundan başqa rəqəmsal dövrün reallığı, bir çox yeni şirkətin saxlanc, daşınma və çoxalma xərcləri, həqiqətən də, sıfır olan "informasiya malaları" istehsal etməsidir. Bəzi qeyri-ənənəvi texnologiya şirkətlərinin böyümək üçün çox az maliyyəyə ehtiyacı vardır. Məsələn, "İnstagram və ya WhatsApp kimi şirkətlərin elə də böyük start kapitalına ehtiyacı yoxdur. Başqa sözlə, dördüncü sənaye inqilabı kontekstində və miqyas effektinin rolları dəyişir. Ümumilikdə bütün bunlar miqyasdan əldə edilən qazancların miqyasını daha da təşviq etdiyini və bütün sistemlərdə dəyişikliyə təsir göstərdiyini ortaya qoyur". (1, 21)

Yuxarıda Klaus Şvabın qeyd etdiyi "Dördüncü Sənaye İnqilabında maliyyə və kapitalın rolu dəyişir" yanaşmasının doğruluğunu ifadə etmək üçün Çin Xalq Respublikasının Mərkəzi Bankı tərəfindən 2020-ci ilin aprel ayından dörd fərqli əyalətdə (Şençjen, Suçjou, Çendu, Syunyan) rəqəmsal valyutalarla pilot proqramlarına başlaması və bu əyalətlərin rəsmilərinin ilk maaşlarını rəqəmsal yuanda almasını misal gətirmək olar. Çin Xalq Respublikasının 2022-ci il Qış Olimpiya Oyunlarında rəqəmsal yuandan istifadə etməyi planlaşdırma təşəbbüsü dünyada klassik maliyyə sistemində ciddi dəyişikliklərin baş verdiyini göstərir.

Texnoloji maşınların və robotların sənayedə geniş tətbiqi bir çox peşənin avtomat-

laşdırılmasına səbəb olsa da, ixtisaslı işçi qüvvəsinə tələbi də artırır. Avtomatlaşdırmaya meylli olan peşələr daha çox gündəlik işləri əhatə edirsə, avtomatlaşdırmaya meylli olmayan peşələr insan bacarıqları, inandırma və irrasional zəka kimi sosial bacarıqları əhatə edən peşələrlə xarakterizə olunur.

"Forrester araşdırma mərkəzinin hesabatına görə, ABŞ-da iş yerlərinin 6%-nin 2021-ci ilə qədər avtomatlaşdırılacağı proqnozlaşdırılır. Avtomatlaşdırmaya təslim olacaq 10 peşə aşağıdakılardır: Mərkəzi operator, kuryer, cərrahiyyə, fermer, mühafizəçi, pərakəndə satış üzrə köməkçi, restoran işçisi, jurnalist, yük maşını sürücüsü, müəllim". (5)

Bu gün dördüncü sənaye inqilabı yuxarıda qeyd olunduğu kimi, bir tərəfdən, ənənəvi iş yerlərinə təzyiqləri artırır, digər tərəfdən, yeni maliyyə əsaslarını yaradan texnologiyaları inkişaf etdirməklə daha rahat və əlçatan sistemin formalaşmasını diktə edir. Çünki getdikcə inkişaf edən rəqəmsal texnologiyalar sayəsində daha asan məlumat əldə etmək həm fərdlər arasındakı asimmetrik məlumat problemini azaldır, həm də şirkətlərə və dövlət qurumlarına daha çox kömək etməklə, digər tərəfdən, şəffaflığı təmin edir, şirkətlərin iş etikası və dövlət idarəçiliyində ənənəvi yanaşmalara təsir edir. Daim inkişaf edən rəqəmsal texnologiyalar dünyada qlobal geosiyasi proseslərə birbaşa və ya dolayısı ilə təsir edir, həm də imperializmin, yəni kapitalın ixracının maliyyə kapitalı ilə əlaqəsində yüz illərlə davam edən ənənəyə sarsıdıcı zərbə vurur. Məsələn, dördüncü sənaye inqilabını xarakterizə edən "alətlərdən" biri olan kriptovalyutaların dövriyyəyə buraxılması ənənəvi maliyyə imperializminə təsir etməklə yanaşı yeni oyunçuların bazara daxil olmasını şərtləndirir.

"Dördüncü Sənaye İnqilabı" Əşya İnterneti (IoT), süni intellekt (AI), blok zənciri və daha çox ağıllı texnologiyaların qlobal iqtisadiyyatda yaratdığı yeni trendlər klassik maliyyə insitutlarına birbaşa təsir edir. Məhz bu baxımdan qlobal güclərin klassik maliyyə imperializmindən yeni maliyyə imperializminə transformasiyasiyanı təşviq edən modelə keçməsi, əslində dördüncü sənaye inqilabının yaratdığı imkan və təsirlər kimi qiymətləndirilməlidir. Yuxarıda dördüncü sənaye inqilabıyla bağlı ayrı-ayrı müəlliflərin fikirlərindən qeyd edilən faktları ümumiləşdirsək, yeni şərtlərin dünyanın qlobal maliyyə sisteminə təsir edəcəyi ilə bağlı imperativ nəticəyə varmaq mümkündür. Digər tərəfdən texnologiya və rəqəmsallaşmanın hər tərəfdə inqilab yaratması dünya iqtisadiyyatında və maliyyə sistemində böyük faydalar gətirməsi ilə yanaşı, müxtəlif istiqamətlərdə mənfi təsir göstərəcəyini ehtimal etmək mümkündür. Bütün bu qeyd olunanlar onu göstərir ki, ilk növbədə yeni maliyyə imperiyasını yaradan qlobal güclərin digər dövlətlər üzərində yeni təzyiq vasitələrinə sahib olması məqsədilə dövriyyəyə buraxdıqları rəqəmsal kriptovalyutaları gələcəkdə milli valyutalar üzərində spekulyasiya imkanlarını artırır.

**Nəticə**

Qlobal güclərin yeni maliyyə imperiyasının təzyiqinə məruz qalan dövlətlərin və maliyyə institutlarının qarşılaşa biləcəyi müsbət və mənfi təsirlərin ehtimal edilən nəticələri aşağıdakı kimi təsnifatlaşdırmaq mümkündür:

***Müsbət təsirlər***

- Süni zəka vasitəsilə icazəsiz müdaxilənin aşkar edilməsi
- Qlobal maliyyə sistemində çeviklik
- Maliyyə sisteminə girişin nəzarətdə saxlanması
- Maliyyə bazarına daha sürətli çıxış imkanları

***Mənfi təsirlər***

- Qlobal rəqəmsal maliyyə sisteminin bir neçə güc mərkəzi tərəfindən idarə olunması
- Qlobal şəbəkələrin çökmə risqi
- Milli valyutaların təzyiqlə qarşılaşması
- Kiber hücumların qarşısında effektiv müdafiənin yetərli olmaması

Yeni maliyyə imperiya mərkəzlərinin formalaşmasından sonra baş verə biləcək müsbət və mənfi təsirlərinin regional və lokal maliyyə mərkəzlərində yarada biləcək "pozitiv və neqativ" təzahürlərindən çıxarılan nəticədən aydın olur ki, bu prosesin dayandırılmasını durduracaq hər hansı vasitələr mövcud deyildir. Məsələn, Klaus Şvabın yeni kriptovalyutaların dəyərləndirməsini apararkən qeyd edir ki, "bir dövlət tərəfindən ilk dəfə blokçeyn vasitəsilə verginin yığılması dönüş nöqtəsidir. Blokçeyn ölkələr üçün yeni fürsətlərlə yanaşı, yeni çağırışlar da yaradır. Bir tərəfdən, bunun tənzimlənməsi yoxdur və hər hansı bir mərkəzi bankın nəzarəti altında deyildir. Bu, pul siyasətləri də daha az nəzarətin olması deməkdir. Digər bir tərəfdən isə, blokçeynin daxilində yerləşdirilə biləcək kiçik bir əməliyyat vergisi yeni vergi mexanizmləri üçün imkanlar açır:

Bilinməyən, həm müsbət, həm də mənfi ola biləcək təsirlər

- Mərkəzi banklar və pul siyasətləri
- Korrupsiya
- Real vaxt rejimində vergitutma
- Dövlətin rolu". (1, 26)

Dördüncü Sənaye İnqilabında "günün qaydası" yeni vəziyyətə uyğunlaşmaqdan keçir. Lakin burada heç də qlobal güclərin yaratdığı yeni maliyyə imperiyasının diktə etdiyi vəziyyətə uyğunlaşmaqdan söhbət getmir. Yeni vəziyyətə uyğunlaşmaq dedikdə, dördüncü sənaye inqilabının yaratdığı imkanlara, yeni innovasiyalara, texnoloji təcrübəyə, rəqəmsal iqtisadiyyatda maliyyənin yaradılması və onun təhlükəsiz idarə olunması bacarıqlarına sahib olunması nəzərdə tutulur. Digər tərəfdən qlobal güclər və onların geosiyasi maraqlarını həyata keçirən klassik maliyyə imperiyasına sahib olan transmilli şirkətlər və beyin mərkəzləri dördüncü sənaye inqilabının yaratdığı imkanları fürsət bilməklə yeni vəziyyətə uyğunlaşma siyasəti həyata keçirəcəyi ilə bağlı təşəbbüsləri diqqətdə saxlamaq və bu təsirləri minimuma endirən layihələr üzərində düşünməyə ehtiyac yaranır.

## ƏDƏBİYYAT


1. Klaus Ş. Dördüncü Sənaye İnqilabı. Bakı: İqtisad Universiteti Nəşriyyatı, 2020, 200 s.
2. Erik Brynjolfsson and Andrew McAfee. The Second Machine Age (https://edisciplinas.usp.br/pluginfile.php/622156/mod_resource/content/1/Erik-Brynjolfsson-Andrew-McAfee-Jeff-Cummings-The-Second-Machine-Age.pdf)
3. https://www.acatech.de/wp-content/uploads/2016/11/acatech_eng_STUDIE_Industrie40_global_Web.pdf
4. Henning Kagermann, Reiner Anderl, Jürgen Gausemeier, Günther Schuh, Wolfgang Wahlster (Eds.). Industrie 4.0 in a Global Context. Germany. (https://www.acatech.de/wp-content/uploads/2016/11/acatech_eng_STUDIE_Industrie40_global_Web.pdf)
5. Prezident İlham Əliyev BMT Baş Assambleyasının COVID-19 ilə mübarizəyə həsr edilən xüsusi sessiyasında çıxış edib. (https://apa.az/az/xarici_siyaset/Prezident-Ilham-liyev-BMT-Bas-Assambleyasinin-COVID-19-il-mubarizy-hsr-ediln-xususi-sessiyasinda-cixis-edib-618075)
6. Burak K. Otomasyona Yenik Düşecek 10 Meslek. 2017. (http://www.endustri40. com/otomasyona-yenik-dusecek-10-meslek/13)
7. Bitcoin Nedir? Bitcoin Nasıl Üretilir? (https://www.melihguney.com/bitcoin-nedir-nasil-uretilir.html)
8. Çin kriptovalyuta reytinqi: avqust 2020. (https://kriptoinvest.az/2020/08/27/cin-kriptovalyuta-reytinqi-avqust-2020/)


***Summary***

***Mahammad Jabrailov***

**_Financial imperialism and the fourth industrial revolution_**

Today, in a new era of economic and technological development, it is still difficult to fully understand the speed and breadth of this new revolution. Examples include the connectivity of billions of people to mobile devices, the unprecedented power of new quantum technologies, and memory capabilities.

The fourth industrial revolution, on the one hand, increases the pressure on traditional jobs, on the other hand, dictates the formation of a more convenient and accessible system by developing technologies that create new financial foundations. This is because easier access to information, thanks to evolving digital technologies, reduces the problem of asymmetric information between individuals, as well as providing greater transparency by helping companies and government agencies, influencing companies' work ethics and traditional approaches to public administration. The ever-evolving digital technologies directly or indirectly affect global geopolitical processes in the world, but also deal a crushing blow to the centuries-old tradition of imperialism, that is, the export of capital to financial capital.

Introduction To gain a general understanding of what cryptocurrency is, how it will affect the global financial system, and how global power centers use it as a tool of political pressure, it is necessary to analyze the origin, development, and financial policies of countries participating in the world order against target countries. The topic will analyze the origin, development and distribution on it (money), control and global financial institutions, especially formed in modern times as a tool of influence and pressure. However, first of all, it is necessary to clarify the new digital technologies that necessitated the emergence of cryptocurrencies, the innovations brought by the fourth industrial revolution to the global financial system. From this viewpoint, what are cryptocurrencies, how can they be used in the formation of financial imperialism, what are the future threats, can cryptocurrencies be used as the main financial resource in the new world order, what are the main reasons for the differences between new financial imperialism and classical financial imperialism? The main purpose of asking all these questions within the topic is to reach scientific conclusions that can analyze the transformation of the financial empires created by the world's power centers into a new situation, its impact on local financial institutions, and possible speculation and manipulation under the current conditions dictated by the fourth industrial revolution.

***Keywords**: imperialism, cryptocurrency, industrial revolution, finance*

***Резюме***

***Мухаммед Джабраилов***

***Финансовый империализм и четвёртая промышленная революция***

Несмотря на то,что мы находимся в эпохе нового экономического и технологического развития, нам всё таки сложно осознавать скорость и обширность этой революции. Одним из показателей этой революции является связь миллиардов людей с помощью мобильных устройств, сила работы и возможность памяти новых квантовых технологий невиданного уровня. С одной стороны четвёртая промышленная революция держит традиционные рабочие места под своим давлением,а с другой стороны с помощью развития технологий, которые создают новые финансовые основы, эта революция,диктует формирование новых,более удобных и доступных систем. По этой причине, с помощью развития новых цифровых технологий, лёгкий доступ к информации решает проблему ассиметричного доступа к информации среди индивидов, и помогая компаниям и государственным учреждениям, гарантирует прозрачность, в то время как влияет на традиционные подходы в государственном управлении и на этичность работы крупных компаний. Вечно развивающиеся цифровые технологии тем или иным путём влияют на глобальные геополитические процессы, и наносят сокрушительный удар по вековым традициям империализма, которые заключаются в экспорте финансовых капиталов.

Для того чтобы иметь общую информацию о том что такое криптовалюта, какое влияние она окажет на мировую финансовую систему и как глобальные центральные силы будут использовать его как средство политического давления, нужно проанализировать появление денег, развитие и финансовую политику, являющуюся целью против стран, со стороны государств участвующих в мировом порядке. В рамках темы будут проанализированы появление денег, развитие и разделение (денег), контроль и в особенности глобально финансовые институты, которые формировались как орудие влияния и давления в современном периоде. Но в первую очередь нужно исследовать новые цифровые технологии, которые делают необходимым создание криптовалют, также новшества в глобальной финансовой системе вызванные четвёртой промышленной революцией. И с этой точки зрения возникают вопросы, что такое криптовалюты, как можно использовать их в формировании

финансового империализма, какие опасности могут быть в будущем, можно ли в новом мировом порядке использовать криптовалюты как основной финансовый ресурс, какие основные причины показывающие разницу между новым финансовым империализмом и классическим финансовым империализмом?

Целью задачи этих вопросов является придти к научным результатам, которые могут исследовать трансформацию в новом положении финансовых империй, созданных мировыми центральными силами, продиктованными четвёртой промышленной революцией в существующих условиях, его влияние на местные финансовые институты, а также спекуляцию и манипуляцию, которые могут возникнуть.

***Ключевые слова***: *империализм, криптовалюта, промышленная революция.*

Redaksiya heyətinin üzvü f.e.f.d., dos. Məmmədov Hüseyn Qaraxan oğlunun rəyi əsasnda çapa məsləhət görülmüşdür.

**UOT 316**

# AİLƏDƏ AHƏNGDAR MÜHİTİN YARADILMASI KONSEPSİYASININ MÜHÜM ŞƏRTLƏRİ

**Əhməd QƏŞƏMOĞLU** *

*Məqalə redaksiyaya daxil olmuşdur: 1 iyul 2020; çapa qəbul edilmişdir: 3 avqust 2020; online-da çap edilmişdir: 31 mart 2021.*

*Received: 1st of July, 2020; accepted:3rd of August, 2020; published online: 15th of March, 2021.*

***Açar sözlər:*** *ailə problemləri, Azərbaycan ailəsi, elmi təminat, ahəngyol elmi, konsepsiya*

## 1. Giriş

Müasir dövrdə ən aktual problemlər sırasında ailə problemləri olduqca mühüm yer tutur. Son onilliklərdə qlobollaşma prosesinin sürətlənməsi hər bir cəmiyyətin, o cəmiyyətdə baş verən müxtəlif xarakterli proseslərin daha çox mürəkkəbləşməsinə səbəb olmaqdadır. Belə bir vəziyyətdə ailə çox ciddi təsirlərə məruz qalır. Təəssüf ki, indi ölkəmizdə də ailələrdə ciddi gərginlik yaşanmaqdadır. Boşanmaların sayı ilbəil artır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin analitik hesabatındakı məlumatlara görə, Azərbaycanda da bir çox ölkələrdə olduğu kimi, nikahların azalması və boşanmaların artması müşahidə olunmaqdadır: misal üçün Azərbaycanda 2011-ci ildə 88.145 nikah olubdur. 2019-cu ildə bu rəqəm 63 869 olub. Boşalanmaların sayı 2011-ci ildə 10 747 boşanma olub. 2019-cu ildə – boşanmaların sayı 17 148 olub[11 ]. Amma problem təkcə boşanan ailələrdə deyil ki. Boşanmaların sayı ona görə bu qədər çoxdur ki, gərginlik olan ailələrin sayı çoxalıb.

Ailə münasibətləri bütün tarix boyu hər zaman insanların diqqət mərkəzində olmuşdur. Qədim şumerlər dövründə də ailəyə olduqca ciddi münasibət vardı [4; 13]. Bütün sonrakı dövrlərdə də hər bir xalqın özünə məxsus, ciddi əməl etdiyi ailə adət-ənənələri olmuşdur. Bütün dinlər, xüsusi ilə islam dini ailə məsələlərinə olduqca mühüm əhəmiyyət verir. Orta əsr islam alimlərinin ailə ilə bağlı xeyli kitabları, elmi əsərləri olmuşdur. Lap yaxın keçmişə qədər də əksər xalqlar arasında ailə kultu olduqca yüksək idi. Ailə problemi hər zaman sosioloqların da diqqət mərkəzində olmuşdur [3; 5; 9].

## 2. Ailə institutunda baş verən gərginliyin əsas səbəbləri

Təəssüf ki, bütün tarix boyu bu qədər diqqət verilmiş ailə institutu son onilliklərdə ciddi aşınmalara məruz qalmışdır. Artıq hər bir ölkədə ailələrdə müxtəlif şəkildə dəyişmələr getməkdədir. Bu dəyişmələr, əsasən, aşağıdakı kimi amillərin təsiri altında baş verir:

1. Hər bir ölkədə, uzun əsirlər boyu davam edən adət-ənənələrin təsiri altında formalaşan, xalqın daxili potensialından doğan ailə stereotipləri ortadan çıxır. Onların yerini ailə barədə mücərrəd, bir sıra hallarda isə yanlış təsəvvürlər tutur.
2. İndi ailəni əhatə dən mühitdə ailə institutuna diqqət xeyli azalıb. Əksinə bu mühitdə, cəmiyyətdə ailədə gərginliyin artmasına səbəb olan proseslər, vasitələr, davranış tərzləri xeyli çoxalıb. Bir vaxt ailə ilə bağlı cəmiyyətdə hakim olan ictimai rəy, ictimai qınaq daha

* iqtisad üzrə fəlsəfə doktoru, dosent, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
*e-mail: ahmgmm@gmail.com*

əvvəlki rolunu oynamır. Lap yaxın keçmişə qədər ailələrdəki münasibətlərin tənzimlənməsində "ictimai qınaq" amili də mühüm rol oynayırdı. Ailənin hər bir üzvü hər zaman özünə "el nə deyər?" sualını verirdilər. Bu sual xalqın ailə ilə bağlı adət-ənənələrinin keşiyində dururdu. Hər bir cəmiyyətdə, mühitdə bu sualın hökmü mövcud qanunların hökmündən daha güclü idi. İndi bu amil xeyli zəifləyibdir.

3. Cəmiyyətin hər bir üzvü, xüsusi ilə gənclər ailə institutuna dağıdıcı təsir göstərən güclü informasiya axınının təsiri altındadır. Bu informasiyalar sırasına TV kanallarının naşı fəaliyyətləri hesabına ortaya çıxan xeyli sayda şit, mənəvi aşınmaya səbəb olan verilişlər, müəyyən texnologiyalarla yaradılan teleseriallar, proqramlar, sosial şəbəkələrdəki söhbətlər və s. aiddir.

4. Ailə institutunda münasibətlərin formalaşmasına olduqca ciddi təsir edən amillərdən biri insanların, əhalinin üstünlük verdikləri dəyərlər sistemidir. Dəyərlər sistemində bir stabillik olanda, mənəvi dəyərlər öndə olanda ailədə qarşılıqlı münasibətlər daha arzu edilən formada olur. Əksinə olduqda isə gərginlik artır.

5. Ailələrdə iqtisadi çətinliklərin artması ilə paralel olaraq mənəvi dəyərlərin arxa plana keçməsi prosesi də baş verir ki, bunun da nəticəsində ailədə çox ciddi gərginliklər yaranır.

### 3. Ailə institutunun zəruriliyi

Artıq ailənin köhnəlmiş bir model olduğu fikrində olanlar, bunu elmi olaraq əsaslandırmaq istəyənlər də az deyil. Ona görə də, ailə institutunun əsas mahiyyətini aydınlaşdırmağa, onun indiki dövrdə və gələcəkdə də nə dərəcədə lazım olduğunu elmi olaraq təhlil etməyə böyük ehtiyac vardır.

Əvvəla, onu qeyd edək ki, əsas dini sistemlərin hamısı olduqca müdrik insanların əksəriyyəti ailənin cəmiyyətin həyatı, inkişafı üçün olduqca mühüm bir özül olduğunu dönə-dönə qeyd etmişlər. Bununla bağlı saysız-hesabsız misallar çəkmək olar. Bəs bu fikirlər müasir dövrün reallığına nə dərəcədə uyğundur? İndiki dövrdə ailə institutuna nə dərəcədə ehtiyac vardır? Müasir dövrün ailəsi necə olmalıdır? Hansı prinsiplər əsasında qurulmalıdır?

Əvvəla, onu qeyd edək ki, ailə, insanların nə vaxtsa qəbul etdiyi bir normalarla, qaydalarla, yalnız sosial bir təsisat olaraq yaranmayıb. Elmə yaxşı məlumdur ki, müxtəlif növ həşəratlar, böcəklər, balıqlar, quşlar, heyvanlar aləmində də ailə qurma halları vardır [15]. Həm də onlarda, bir çox hallarda sədaqət hissi insanlardan daha yüksəkdir. Deməli, ailə qurmaq təkcə sosial hadisə deyildir. Müxtəlif növ canlılara xas olan bir xüsusiyyət, bir mühüm tələbatdır. Amma təbii ki, insanlara aid ailədə sosial-psixoloji, mənəvi, iqtisadi və s. amillər də mühüm rol oynayaraq ailənin xarakterini xeyli dəyişir. Tarixi inkişaf prosesində müxtəlif xalqlarda onların həyat tərzindən, məşğuliyyət növlərindən, etiqad etdikləri dindən, başlarına gələn hadisələrdən, elmin, təhsilin inkişafından və s. asılı olaraq, ailə barədə təsəvvürlər müxtəlif cür formalaşmış, müxtəlif xarakterlər almışdır. Amma bütün xalqların həyatında ailə institutu mühüm rol oynamışdır.

Bir anlıq təsəvvürümüzə gətirək ki, hansısa bir məkanda ailə institutu yoxdur. O zaman nə baş verərdi? Bunu təsəvvür etmək üçün məqsədəuyğun, normal bir ailənin olmasının müsbət cəhətlərini nəzərdən keçirək. Normal bir ailə aşağıdakı kimi xüsusiyyətləri ilə seçilir:

1. Normal ailə hər bir insanı mənəvi, psixoloji olaraq tənhalıqdan qurtarır. Əks cinsin yaratdığı energetika, ilham, doğmalıq onun daxili potensialını hərəkətə gətirir, həyat eşqini çoxaldır. Musiqi alətində bir tel başqa telə köklənəndə, onların hər ikisinin potensialı ortaya çıxıb gözəl bir melodiya yaratdığı kimi iki insan da biri-biri ilə ahəngdar olaraq kökləndiyi zaman gözəl münasibətlər qurulur.

2. İnsan öz məxsusi qayğılarını doğmalıqla bölə bildiyi bir insanla yaxın ünsiyyət-

də olur. Əks cins onun ehtiyacı olduğu bir çox məsələlərdə ən yaxın, təmənnasız köməkçi olur. Onlar bir-birlərini ahəngdar olaraq tamamlayırlar. Bu isə öz növbəsində onların fəaliyyətlərini xeyli gücləndirir. Bir çox hallarda stress hallarının qarşısını alır.

3. Hər bir ailə insanın daha əhatəli şəkildə sosiallaşmasına, cəmiyyətlə daha qayğıkeş, ahəngdar münasibətlərin qurulmasına mühüm kömək edir.

4. Normal ailə, ailə üzvlərinin daha mənəviyyatlı davranmasına, kamilləşməsinə, dini baxımdan maariflənməsinə, cəmiyyətdə də mənəvi inkişafın zənginləşməsində iştirak etməsinə kömək edir.

5. Hər bir ailə xalqın yeni nəslinin yaranmasında iştirak edir.

6. Hər bir normal ailə fərdləri – körpələri, uşaqları cəmiyyətə kompleks şəkildə hazırlayan ən ciddi, unikal bir məktəbdir.

7. Hər bir normal ailə ən doğma, etibarlı bir müalicəxanadır. Cəmiyyətdə insanın üzərinə gələn neqativ enerjidən azad olmaq, öz daxili rahatlığını bərpa etmək məkanıdır. Eyni zamanda o fiziki olaraq xəstələnəndə, qayğıkeş bir mühitdə sağalmaq yeridir. Ailənin olması ilk növbədə ər və arvadı bir çox yoluxucu xəstəliklərdən qoruyur. Uşaqların sağlamlıq mədəniyyətinin formalaşmasına kömək edir.

8. Hər bir normal ailə insan üçün öz peşəsində kamilləşmək, təhsildə uğur qazanmaq üçün hazırlaşmağa şəraitin yarandığı məkanıdır. Ailə üzvləri biri-birlərinə öz karyeralarını qurmaqda, hansısa bir iş, təsərrüfat yaratmaqda mühüm kömək edir.

9. Ailə asudə vaxtı daha səmərəli, faydalı, məzmunlu şəkildə keçirmək üçün mühüm bir yerdir.

10. Hər bir normal ailə o ailənin üzvü olan hər bir kəs üçün bir qürur mənbəyidir. Ailə insan üzərinə məsuliyyət qoymaqla yanaşı onu daha da fəallaşdırmağa, tək özü üçün yox, ailə üzvlərinin də qayğısına qalmaq üçün də hərəkətə gətirir.

11. Ailə üzvləri biri-birinin cəmiyyətdəki davranışının daha ahəngdar şəkildə formalaşmasına həm kömək edir, həm də doğmalıqla nəzarət edir.

12. Hər bir normal ailə öz yaşlı nəslinin, doğma, qayğıya ehtiyacı olan insanların qayğısına qalır, onlara kömək edir. Eyni zamanda, ailədəki yaşlı insanlar arxayın olur ki, onlar qocalsa, yaxud ağır xəstələnsə kimsəsiz qalmayacaq. Onun qayğısını çəkənlər olacaq. Bu isə öz növbəsində cəmiyyətdəki bir sıra sosial problemlərin həllinə kömək edir.

Təbii ki, bir sıra başqa cəhətləri də qeyd etmək olar. Göründüyü kimi, bütün bu cəhətlər hər bir şəxsin həyatını daha məzmunlu etməklə yanaşı, eyni zamanda cəmiyyətdə də dayanıqlı, ahəngdar münasibətlərin qurulmasına, tərəqqi imkanlarının yaranmasına mühüm kömək edir. Bu şərtlərin ödəndiyi bir institutun, mexanizmin olması cəmiyyət üçün çox əhəmiyyətlidir. İstənilən tarixi dövrdə bu şərtlərin bir necəsinin yerinə yetməməsi həmin cəmiyyətdə ahəngdarlığı pozulmasına səbəb olur. *Ona görə də tarixi şəraitin dəyişmələrindən asılı olmayaraq hər zaman məqsədəuyğun olar ki, yeni şəraitdə, yeni dövrün xüsusiyyətlərini nəzərə alaraq bu funksiyalara yerinə yetirən bir ailə modeli fəaliyyətdə olsun.* O ailə daha çox xoşbəxtdir ki, bu sadalanan cəhətlər həmin ailədə daha çox vardır. Təəssüf ki, indiki vaxtda dünyanın hər yerində, o cümlədən Azərbaycanda artıq belə normal, xoşbəxt ailələrin sayı get-gedə azalmaqdadır. Bu isə cəmiyyətdə gərginliyin artmasına, yeni nəslin keyfiyyətli böyüməsi sahəsində ciddi problemlərin yaranmasına, insanlarda müxtəlif tip xroniki, ağır xəstəliklərin əmələ gəlməsinə səbəb olur.

## 4. Ailədaxili gərginliyin azaldılması yolları

Cəmiyyətdə normal, xoşbəxt ailələrin sayının artması üçün aşağıdakı kimi tədbirlərin həyata keçirilməsinə ehtiyac vardır:

1. Yeni nəslin nümayəndələri arasında uşaqlıqdan başlayaraq, ailənin mahiyyəti, ailə qurmağın zərurəti, məsuliyyəti, ailə qarşısındakı vəzifələr barədə müasir tələblərə uyğun maarifləndirmə işləri aparılmalıdır. İndiki vaxtda ailələrin əksəriyyətində ciddi

gərginlik yaşandığından bu sahədəki maarifləndirmə təhsil sisteminin üzərinə düşür. Bunun üçün yeni təhsil konsepsiyalarının yaradılmasına, təlim tərbiyə sistemlərinin qurulmasına böyük ehtiyac vardır.

2. Eyni zamanda valideynlərin maarifləndirilməsi sahəsində ciddi texnologiyaların yaradılmasına, həyata keçirilməsinə ehtiyac vardır. Nəzərə almaq lazımdır ki, indiki valideynlər əsasən son 30-40 ildə formalaşmış insanlardır, ortada xeyli problemin olduğunu demək olar. Çünki bu dövrdə həm bütün yer üzündə gərginlik xeyli artmış, həm də ölkəmizdə xaotik proseslər çoxalmışdır. Belə vəziyyət valideynlərin əksəriyyətinin əsəblərinə, davranışlarına, dünyagörüşlərinə təsir etmiş, arzu olunmayan xüsusiyyətlər yaratmışdır.

3. Min illərdir ki, bütün müdrik insanlar, dini kitablar, peyğəmbərlər insanları mənəvi dəyərləri öndə tutmağa çağırır. Bu tamamilə haqlı bir çağırışdır. Çünki bütün tarix boyu, insanların keçdiyi yol onu göstərir ki, hansı bir sosial sistemdə, cəmiyyətdə mənəvi dəyərlər öndə olanda orada ahəngdar münasibətlər yaranır. Sosial sistemin, cəmiyyətin özündə bir tənzimlənmə mexanizmi formalaşır və mühüm fəaliyyət göstərir. Mənəvi dəyərlər sıxışdırıldıqda, arxa plana keçdikdə isə, həmin sosial mühitdə hökmən gərginlik artmağa başlayır, neqativ xüsusiyyətlər, qarşıdurmalar yaranır. Cəhalət, kriminal vəziyyət artır. Bu qanunauyğunluq bir sosial sistem olaraq ailəyə də, istənilən yaşayış məkanına da, bütün yer üzünə də aiddir. Aydındır ki, davranışın formalaşmasına təsir edən ən mühüm amillərdən biri mühitdir. Mühitdəki şərait bir başa ailədaxili proseslərə təsir edir. Ona görə də humanitar siyasətdə mühüm dəyişiklik edilməlidir. Elə bir təşviqat, şərait yaradılmalıdır ki, cəmiyyətdə mənəvi dəyərlər daha həlledici rol oynasın. Maddi dəyərlər mənəvi dəyərlərin daha da zənginləşməsinə kömək etsin. Təəssüf ki, indiki vaxtda, bir çox hallarda maddi dəyərlər, harınlıq, özünü nümayiş etdirmə halları bir çox hallarda mənəvi dəyərlərin aşınmasına səbəb olur. Belə halların qarşısının alınması üçün də elmi təminatlı yeni konsepsiyalar yaradılmalı və həyata keçirilməlidir.

4. Təbii ki, ailələrdə gərginliyin yaranmasında, boşanma hallarının çoxalmasında ən ciddi rol oynayan amillərdən biri də iqtisadi, maddi imkanlardır. Təəssüf ki, indi əhali arasında işsizlik, aşağı əməkhaqqı ilə işləmək halları çoxdur. Digər tərəfdən, cəmiyyətdə maddi dəyərlərə meyl get-gedə güclənir. İqtisadi çətinliklə paralel olaraq maddi dəyərlərin get-gedə daha həlledici mövqe qazanması olduqca ciddi mənəvi-psixoloji problemlərin yaranmasına səbəb olur. İnsanlar arasında meşşanlıq, özünün maddi imkanlarını nümayiş etdirmək, dəbdəbəli həyat, harınlıq halları artır. Sosial psixologiyada da qəbul edilən universial Pareto qanununa [7; 12] görə, əhalinin 80%-dən çoxu hər zaman başqalarını yamsılamağa, başqalarına oxşamağa meylli olur. Elə bu bu qanunauyğunluğa görə də əhalinin əksər hissəsi həmin neqativ davranışların təsiri altında olur. Bu isə birbaşa ailə münasibətlərində öz əksini tapır. Ona görə də, ailə münasibətlərində gərginliyin artmasının qarşısını almaq üçün, bir tərəfdən, ailələrin maddi probleminin həll olunması istiqamətində çox ciddi layihələrin həyata keçirilməsi ilə yanaşı, cəmiyyətdə mənəvi dəyərlərin həlledici rolunun artması sahəsində də ciddi işlər görülməlidir.

5. Ailədaxili problemlərin artmasına indi ciddi təsir edən amillərdən biri bəzi ictimai, qeyri-hökumət, feminist təşkilatlarının fəaliyyətidir. Belə təşkilatlar böyük canfəşanlıqla Azərbaycanda qadına qarşı şiddətdən danışırlar. Onların dedikləri ilk baxışdan doğru görünür. Bəli, indi Azərbaycanda qadınlara qarşı zorakılıq halları artıb. Bunu statistik rəqəmlər də deyir. Amma bu statistikanın artmasının arxasında daha dərin məsələ dayanır. Qadına qarşı zorakılıq onun təzahür edən hissəsidir. Azərbaycanda bu sahədəki əsas problem ailələrdəki gərginlik problemidir. Ailədədaxili münasibətlərin gərginləşməsində mühüm rol oynayan amillərdən biri də insanların çoxunun "azadlıq", "demokratiya", "liberalizm" kimi anlayışlar barədə aydın təsəvvürə malik olmamalarıdır. Çox teztez bu anlayışlar özbaşınalıq, ucuz şüarçılıq, xaos tipli anlayışlarla dəyişik salınır. Qadınlar arasında belə psevdo azadlıq ideyaları təbliğ olunur. Kişilər isə müasir dünyanın

tələblərinə uyğun olaraq maarifləndirilməlidirlər. Digər tərəfdən isə, həmin kişilər mənəvi, əxlaqi dəyərlərə zidd olan bir sıra davranış formalarını qəbul etmək istəmirlər və bunda da haqlıdırlar. Halbuki həm kişilər həm də qadınlar arasında günün tələblərinə və adət-ənənələrimizə uyğun olaraq elmi təminatlı maarifləndirmə işləri aparılsa bu sahədəki gərginlik aradan daha tez qalxar. Yoxsa bəziləri tez-tez bu tip şüarlar səsləndirir: "qadınlarımız öz hüquqlarını daha yaxşı bilsələr, öz hüquqlarını daha yaxşı qoruyar, zorakılıq hallarının qarşısını alarlar!" Tamamilə yanlış müddəadır. Qarşıdurma yaradan dağıdıcı müddəadır. Bəyəm bizim nənələrimiz öz hüquqlarını indiki qadınlardan daha yaxşı bilirdilər? Onların zamanında ailədə gərginlik az hallarda olurdu. Ailə problemlərinə belə yanlış yanaşma hesabına ailədə gərginlik, bunun da nəticəsində qarşıdurma yaranır. Qarşıdurmada hər kəs özünün daha güclü olduğu tərəfindən istifadə edir. Qadınların dili, kişilərin qolu işə düşür. Qadınların döyülməsi, öldürülməsi haqda məlumatlar dərhal yayılır və belə bir mənzərə yaranır ki, qadınlara qarşı zor tətbiq edilir. Bir daha təkrar etmək lazım gəlir ki, bəli qadınlara qarşı zorakılıq halları artıb. Amma bu ailədə yaranan gərginliklə bağlıdır. Qadınlara qarşı zorakılıqdan danışmazdan əvvəl ailədəki gərginliyin ortadan götürülməsi yollarının axtarılmasından danışmaq daha faydalı olar. Bu gərginlik azalmadıqca qadınlara qarşı fiziki, kişilərə qarşı isə mənəvi-psixoloji zorakılıq halları ortadan götürülə bilməz.

6. Ailənin dağılmasında ən çox rol oynayan amillərdən biri xəyanət hadisəsidir. Yəni ailə üzvlərindən biri o birindən xəlvət olaraq, başqa biri ilə sevgi macərası qurur, yaxud sadəcə müəyyən bir istək hesabına cinsi əlaqədə olur. Belə bir hal xəyanət edənin hərəkətlərində, davranışında, öz həyat yoldaşına qarşı münasibətdə özünü büruzə verir. Tarixi təcrübə göstərir ki, belə bir davranış insanın öz fitrəti, xisləti, psixoloji xüsusiyyətləri ilə yanaşı həm də onun yaşadığı mühitdən, aldığı informasiyanın məzmunundan və üstünlük verdiyi dəyərlərdən çox asılıdır. Mühit, informasiyaların məzmunu və dəyərlərin formalaşması ilə bağlı müəyyən, ciddi işlər görülərsə, xəyanət hallarının sayı xeyli azalar. Ona görə də, humanitar siyasətin formalaşmasında bu məsələlərə ciddi diqqət verməyə ehtiyac vardır.

7. Ailədəki problemlərin tənzimlənməsinə cəmiyyətin bu problemə yanaşmasından, problemlərin ortadan götürülməsi üçün həyata keçirdiyi metodlardan, texnologiyalardan çox şey asılıdır. Bu münasibət müxtəlif formalarda ola bilər: 1) problemlər kəskin tənqid edilə bilər; 2) ailələrə kənardan, məqsədyönlü, dağıdıcı təsirlər aşkar edilib, onların ortadan götürülməsi üçün tədbirlər görülər; 3) ailə üzvlərinə hazır təlimatlar, tövsiyələr verilə bilər; 4) vəziyyətlə barışıb, hər şeyi zamanın axarına buraxmaq olar və s. İndiki dövrün xarakteri elədir ki, bu cür yanaşmalar arzu olunan nəticələrin alınması üçün bəs edə bilməz. İndiki dövr tələb edir ki, ailənin, ailə üzvlərinin öz daxili potensialını hərəkətə gətirərək, onların özü də də problemlərin həllinə cəlb edilsin. Bunun üçün sosial iş sahəsindəki müasir texnologiyalardan istifadə etmək lazımdır. Bu sahədə elmi təminata olduqca böyük ehtiyac vardır.

8. Ailələrimizdəki problemlərin ortadan götürülməsi üçün din xadimlərinin, bu sahədə fəaliyyət göstərən təşkilatların da köməyindən istifadə etməyə ehtiyac vardır. Məlumdur ki, əhalinin mühüm bir hissəsi din xadimlərinin təsiri altındadır. Eyni zamanda, ümumən dini dəyərlərə üstünlük verən insanlar da çoxdur. İndiki vaxtda dini təşkilatların müasir dünyanın tələblərini nəzərə alaraq, dinin potensialı əsasında ortaya ailələrlə bağlı yeni konsepsiyalar, yeni yanaşmalar qoymasına çox böyük ehtiyac vardır. Bunun üçün dini idarələrin ciddi alimlərlə birlikdə müzakirələrinə böyük ehtiyac vardır.

9. Ailədaxili problemlərin tənzimlənməsində televiziya kanalları olduqca mühüm, müsbət rol oynaya bilər. Amma təəssüf ki, hələlik televiziyanın bu imkanlarından, demək olar ki, istifadə olunmur. Televiziyalarda daha çox problemli, kriminal proseslərin baş verdiyi ailələr barədə məlumatlar gedir. Normal, nümunəvi ailələr barədə danışılmır. Belə

bir münasibət əhali arasında ailədəki gərginlik halları adiləşdirir. Onlar arasında, xüsusi ilə yeni ailə quran gənclərin şüurunda bu istiqamətdə, ailə barədə ziyanlı təsəvvürlər yaradan xüsusi bir psixoloji nizamlanma, psixoloji qəlibləşmə yaradır. Halbuki sosial psixologiya elmi tamamilə əsaslandırır ki, yeniyetmə və gənclərin davranışında müsbət dəyişiklik etmək üçün nümunəvi halların təbliği mühüm rol oynayır. Televiziyalarımızda tez-tez ailə problemlərinə həsr olunmuş məzmunlu, eyni zamanda yüksək reytinqli belə verilişlərin hazırlanması diqqət mərkəzində olmalı, bunun üçün lazımi kadrlar hazırlanmalıdır. Çünki neqativ rol oynayan verilişlərin hazırlanmasının əsas səbəbləri bir çox hallarda televiziya kadrlarının səviyyəsi ilə bağlıdır.

10. Ailə problemlərini həll edilməsi üçün hökmən müasir elmin imkanlarından istifadə etmək lazımdır. Artıq 150 ilə qədər bir vaxtdır ki, qərb ölkələrində sosial xarakterli prosesləri tənzimləmək, idarə etmək üçün onlarca xüsusi elm sahələri yaranmışdır. Bir çox ölkələrdə bu elm sahələrinin imkanlarından uğurlu şəkildə istifadə olunur. Bu elm sahələrinə misal olaraq sosiologiyanı, sosial psixologiyanı, sosial idarə etməni, pedaqogikanı, bihoverizmi [8; 14], valeologiyanı [2; 6], ahəngyolu [10] və s. göstərmək olar. Ailə problemlərinin həllində bu elmlərin qarşılıqlı imkanlarından istifadə etmək zəruridir. Əks halda, yerinə yetirilən işlər kor-koranə xarakter daşıyacaqdır və lazımi nəticə verməyəcəkdir.

11. Ailələrimizdəki problemlərinin həll edilməsi sahəsində sosial işçilərdən istifadə edilməsinə, sosial iş xidmətlərinin yaradılmasına böyük ehtiyac vardır. İndi, yaşayış ərazilərində Sahə Polis müvəkkilləri olduğu kimi, Sosial İş Xidmət Qrupunun olması çox faydalı olardı. 3-4 nəfər mütəxəssisdən ibarət olan bu xidmət qrupu ayrıca olaraq da fəaliyyət göstərə bilər, hər hansı bir başqa qrupun tərkibində də. Onlar eyni zamanda bu ərazidəki ailələrdəki sosial-psixoloji, mənəvi, iqtisadi, tibbi və s. problemləri vaxtında aşkar edərək sosial problemlərin həllinə xeyli kömək edə bilər.

12. Təbii ki, ailə problemlərinin tənzimlənməsində ən mühüm, həlledici rol oynayan amillərdən biri qanunvericilik bazasıdır. Hər bir ölkədə də ailə ilə bağlı qanunvericilik bazası mövcuddur. Amma indiki vaxtda bu mühüm baza ailələrdəki problemlərin həll olunmasına, ailənin cəmiyyətin həyatında mühüm müsbət rol oynamasına lazımi qədər kömək edə bilmir. Bunun əsas səbəbi odur ki, həmin qanunvericilik bazası, ayrı-ayrı qanunlar yaradılarkən müasir dövrün tələbləri lazımi qədər nəzərə alınmır. Çünki əksər hallarda qanunlar yaradılarkən elmi təminatın imkanlarından istifadə edilmir. Amma yer üzündə qloballaşma müxtəlif formalarda davam etdikcə cəmiyyət günü-gündən mürəkkəbləşir. Artıq indiki cəmiyyətdə, istənilən xarakterli prosesləri, təsirləri yalnız ənənəvi mühakimələr, müzakirələr əsasında nəzərə almaq qeyri-mümkündür. Müasir dövr 10-cu bənddə sadalanmış elmlərin xüsusi metodlarından istifadə etməyi zəruri edir.

Ailə problemləri ilə bağlı qanunvericilik bazasını müasir tələblər baxımından qurmaq üçün ailənin mahiyyəti fəlsəfi olaraq əsaslandırılmalı və müasir dövrdə normal ailə institutunun yaradıla bilməsi üçün elmi əsaslarla strategiyalar müəyyənləşməli, vəzifələr konkretləşdirilməlidir. Onların əsasında Fəaliyyət Proqramları, yol xəritələri hazırlanmalıdır. Bu işlərin görülməsi qanunvericilik bazasının lazımi şəkildə təkmilləşdirilməsinə kömək edə bilər.

## 5. Nəticə

Uzun müddətdir ki, istər siyasətçilər, QHT nümayəndələri, jurnalistlər, mütəxəssislər və s. ölkədə ailə problemlərinin aktuallığı barədə tez-tez söz açırlar. Problemlərin tezliklə həll olunması zərurətindən danışırlar. Kimlərsə qanunvericilik bazasının təkmilləşdirilməsini, kimi maarifləndirmə işinin genişləndirilməsini, bədii əsərlərin yaranmasını, kimi inzibati metodları gücləndirilməsi zərurətini vacib sayır. Təklif olunan məqalədə elmi olaraq əsaslandırılır ki, ailə institutundakı mövcud problemlərin həlli müasir elmi

metodlardan istifadə etməklə konkret təhlillər aparmadan, konkret Fəaliyyət Proqramı, yol xəritələri hazırlamadan mümkün deyil. Bunun üçünsə elmi metodlarla əvvəl ailədə indiki problemlərin yaranmasının əsas səbəbləri təhlil edilməli, ailənin funksiyaları konkret olaraq müəyyənləşməli, problemin həlli üçün əsas strategiyalar müəyyənləşdirilməlidir. Bu strategiyalara uyğun olaraq müəyyən texnologiyalar əsasında qarşıda duran vəzifələr, onların həyata keçmə mexanizmləri müəyyənləşdirilməlidir.

Məqalədə elmi təhlillər əsasında bu sahədə konkret təkliflər irəli sürülmüşdür. Bu təkliflər istər qanunvericilik, siyasi, iqtisadi sahələrdə, istər mədəniyyət, maarifləndirmə sahələrində, KİV-lərin fəaliyyətində və s. hansı tədbirlərin həyata keçirilməsini müəyyənləşdirməkdə kömək edə bilər.

Bu məqalədəki elmi yenilik problemə tamamilə yeni bir yanaşma ilə, ahəngyol elminin müddəaları, sistemli yanaşma metodları əsasında baxılmasıdır. Ailə problemləri ilə bağlı bir sıra məsələlərin elmi şərhi ilk dəfə verilmiş, ailə problemlərinin həllində konkret konstruktiv, konseptual istiqamətlər müəyyənləşdirilmişdir.

## ƏDƏBİYYAT


1. Басыйров А.М. Валеология: учебное пособие. Казань: ЗАО «Новое знание», 2010, 104 с.
2. Вайнер Э.Н. Валеология: учебник для вузов. М.: ФЛИНТА, 2016, 448 с.
3. Кирянова О. Г. Кризис американский семьи. М.: “Педогогика” 1987, 240 с.
4. Крамер С. История начинается в Шумере. М: “Наука”, 1965, 256 с.
5. Микросоциология семьи (методология исследования структур и процессов): Учебн. пособие для вузов, М.: «Nota Bene», 1998, 360 с.
6. Петленко В.П. Основы валеологии. Книга первая. Киев: “Олимпийская литература”, 1998, 433 с.
7. Социология Энсклопедия. Минск.: “Книжный дом”. 2003, 1312 с.
8. Торндайк Э. Джон Б. Уотсон. Бихевиоризм, М: АСТ-ЛТД, 1998, 704 с.
9. Черняк Е. М. Социология семьи. М.: “Дашков и К0”, 2004, 238 с.
10. Qəşəmoğlu Ə. Sosial idarəetmənin fəlsəfi, sosioloji problemləri/Ahəngyol elminə giriş. Bakı: “Teknur”, 2008, 241 s.
11. В Азербайджане выросло число разводов (https://haqqin.az/news/187093)
12. Закон Парето или принцип 80/20. (https://goal-life.com/page/principle/pareto-law-80-20)
13. Семейное право древних шумеров. Брак, развод, измена. (http://melma.ru/ethnic/sumerian/sumerian_history/289-semeynoe-pravo-drevnih-shumerov-brak-razvod-izmena.html)
14. Уотсон Дж., Торндайк Э., Б. Скиннер, Э. Толмен Бихевиоризм (https://impsi.ru/general-psychology/biheviorizm-dzh-uotson-e-torndajk-b-skinner-e-tolmen/)
15. 13 животных, образующих пару на всю жизнь. Моногамные пары зверей (https://www.crazypapa.ru/13-zhivotnyih-obrazuyushhih-paru-na-vsyu-zhizn-monogamnyie-paryi-zverey/)



***Резюме***

***Ахмед Гашамоглу***

***Важнейшие условия концепции создания гармоничной среды в семье***

Сегодня семейные проблемы приобрели особую актуальность во всем мире. В последние десятилетия и в Азербайджане возникло немало проблем, связанных с институтом семьи: налицо многочисленные случаи обострения напряженности внутри семей, резко возросло количество разводов. В семьях появились объективные препятствия для качественного роста нового поколения. Поэтому в настоящее время проблемам семьи уделяется особое внимание как со стороны властей, так и со стороны общественности.

В предлагаемой ниже статье, с применением методов системного подхода и положений науки

ахенгйол, проанализированы основные причины этих проблем в семьях. Всесторонне обосновано мнение о том, что во все времена и во всех обществах семья была и остается важнейшим институтом. Автор, ссылаясь на факты существование семьи даже в животном мире, отмечает, что семья отличается не только социальным и психологическим характером. Уточнены специфические особенности человеческих семей и их роль в обществе. На первый план был выдвинут вопрос о возможных негативных общественных последствиях, вызванных ослаблением института семьи.

Предложен новый подход к определению основных функций нормальной семьи, показан, что в каждом обществе всегда существует большая потребность в институте, выполняющем такие функции. Автор,считая семью, которая выполняет больше этих функций, более счастливой, подчеркивает, что процветающему обществу необходимы побольше таких семей. Подчеркивается, что для уменьшения и устранения проблем, которые возникают в семьях в наше время необходимо пользоваться методами современной социологии, социальной психологии, социального управления, социальной работы, бихевиоризма, валеологии, ахенгйол и других отраслей науки, позволяющими разрабатывать специальные технологии и концепции в этой области. При этом следует иметь в виду, что к каждой стране нужен особый подход. Определены, проанализированы основные направления построения таких технологий и концепций, разработаны конкретные рекомендации. В статье впервые дается научное объяснение ряда факторов, способствующих возникновению напряженной обстановкив семьях. Определены конкретные направления решения проблемы с применением системного, комплексного подхода и возможностей современной науки.

***Ключевые слова:*** *«проблемы семьи», «азербайджанская семья», «научное обеспечение», «наука ахенгйол», «концепция»*

***Summary***

***Ahmad Gashamoglu***

***Key Conditions for the Conception of Formation of Harmonic Environment in Families***

Currently, family problems are very topical all over the world. In the recent decades, many problems related to the family institution have appeared in Azerbaijan, too: stress has enormously increased in families and the number of divorces has severely increased. Obstructions for a good quality growth of the new generation in families have arisen. Therefore, today, family problems are at the center of attention of both state authorities and the public. The Article firstly discusses the reasons for the appearance of these problems based on a systematic approach and the provisions of the Science of Ahangyol (Way of Harmony). It comprehensively justifies that families are an important institution for all periods and all societies. It is noted that there are families even in the animal world and families do not only have social and psychological natures. Specific characteristics of human families and their role in society are concretely described. The Article focuses on the complications that may weaken the family institution in society. Key functions of a normal family are determined through a new approach and it is mentioned that every society always keenly need an institution implementing such functions. The Author finding the family satisfying more of the mentioned functions happier also underlines the importance of availability of such families more in socity. The importance of use of the capacity of modern science to mitigate or eliminate problems occurring in families at the modern time is underlined. Available methods of such science spheres as Sociology, Social Psychology, Social Management, Social Work, Behaviorism, Valeology, Ahangyol and etc. enable to develop special technologies and conceptions in this sphere. However, every country needs a specific approach. Key directions for the development of such technologies, conceptions have been determined and analyzed, and concrete recommendations have been developed. The Article for the first time provides a scientific interpretation of a range of factors that have an impact on the generation of stress in families. It determines concrete directions for the solution of the problem by considering the capacity of complex approach and modern sciences.

***Keywords:*** *«Family Problems», «Azerbaijani Family», «Scientific Guarantee», Science of Ahangyol, «Conception»*

Şöbə redaktoru f.ü.f.d. Rəhimov Mütəllim Qara oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 316.77**

# İNTERNETİN İNSANLARIN HƏYAT TƏRZİNƏ TƏSİRİ XÜSUSİYYƏTLƏRİ

**Mədinə MEHDİYEVA** *

*Məqalə redaksiyaya daxil olmuşdur: 29 iyun 2020; çapa qəbul edilmişdir: 16 iyul 2020; online-da çap edilmişdir:31 mart 2021.*

*Received: 29th of June, 2020; accepted: 16th of July, 2020; published online: 15th of March, 2021.*

***Açar sözlər:** İKT, internet, insan şüuru, insan təfəkkürü, internet asılılıq*

## Giriş

İnsan cəmiyyətinin tarixi inkişaf mərhələləri göstərir ki, sosial münasibətlər daima ünsiyyət üzərində qurulmuş, bunun da əsasını kommunikativ imkanlar təşkil edirdi. İnsanlar dünyanın dərk edilməsində daha geniş bilikləri və bacarıqları əldə etdikcə ünsiyyət dərinləşir, informasiya məkanı artır, bu da onların həyatının müxtəlif tərəflərinə təsir göstərirdi. Ünsiyyət həm yeni biliklərə, həm də artıq mədəniyyətdə müxtəlif kodlarda və işarələrdə öz ifadəsini tapmış və ənənə xarakteri almış adət-ənənələrdə, həyat tərzi və həyat ukladında öz ifadəsini tapmışdır.

Kapitalizm mərhələsində bu istiqamətdə inkişaf sürəti elmi-texniki inqilablara gətirib çıxarıb, hər hansı bir fəaliyyət sahəsində texnoloji imkanlarını artırmışdır. Mərhələdən mərhələyə sosial institutların, sosial münasibətlərin daha mürəkkəb xarakter alması öz ifadəsini sosial proseslərin sürətinin artmasında göstərirdi. İnsanlar həyat boyu çalışırdılar ki, daha çox iş görsün, daha çox irəliyə doğru getsinlər. Getdikcə məlum olurdu ki, böyük bir problemin həlli qarşısında aciz qalırlar – bu da vaxt çatışmamasıdır. İnformasiyanın əldə edilməsi və mənimsənilməsi yolları və imkanları da dəyişmişdir. Təhsil sistemi daima islahatlarla rastlaşır, elm də öz inkişafında indiyədək iki istiqamətdə inkişaf edir: inteqrasiya və differensiasiya. Praktik sahələrdə də informasiyanın faydalılığını artırmaq üçün onun sistemləşdirilməsi, qorunub saxlanılması məqsədilə kitabxanalar, digər informasiya daşıyıcıları yaradılır və təkmilləşdirilirdi.

Görülən işlər hər bir tarixi mərhələdə öz ifadəsini insanların gündəlik həyatında tapırdı. İş sahələri, asudə vaxtının keçirilməsi xüsusiyyətləri, adət-ənənələr, ailə və məişət, idarəçilik strukturlarının fəaliyyət xüsusiyyətləri, burada geniş əhali kütlələrin əyani və demokratik şəkildə dövlət işlərinə cəlb edilməsi informasiyanın həcmi və ondan istifadə imkanlarından asılı idi. Müasir dövrdə İnternet kimi texnoloji-informativ şəbəkənin yaradılması informasiyanın nəhəng kütləsinin sistemli şəkildə qoruyub saxlamaq və həyatımızın bütün sahələrində istifadə etmək qabiliyyətinə malikdir. Təbii ki, insan həyatı əsaslı şəkildə dəyişməyə başlamışdır.

İnternetin insan həyatında oynadığı rolunun günü-gündən artmasını nəzərə alsaq, başa düşmək çətin deyil ki, bu sahədə elmi araşdırmalar da olduqca çox və hərtərəfli olacaqdır. Demək olar ki, XXI əsrdə insan həyatı köklü şəkildə dəyişəcək. Bunu təhsildə, elmdə, mədəniyyətdə, təsərrüfatçılıq sahələrində, insanların ünsiyyətində, mənəvi dəyərlərin strukturunda görmək olar [10]. Internetin sürətlə yayılması ilk növbədə bütün

* dissertant, Bakı Dövlət Universiteti
*ORCID: org / 0000-0003-2485-0977*
*e-mail: madina.qasimova@mail.ru*

ölkələrin informasiya cəmiyyətinin məkanına daxil olunması kimi göstərici ilə ölçməyə başladılar. Beynəlxalq qurumlar bu sahədə beynəlxalq standartlar yaratmışlar ki, hər bir ölkə həmin meyarlar əsasında öz səviyyəsini təyin edə bilir. Məsələn, 2018-ci ilin İnformasiya Cəmiyyəti Hesabatında göstərilir ki, 2018-ci ilin sonunadək dünya əhalisinin yarısından çoxunun internetdən istifadə edəcəyi üçün kritik bir məqamdan keçəcək. Bu, daha əhatəli bir informasiya cəmiyyətinə doğru əhəmiyyətli bir addımdır [8].

Bundan başqa, məlumatın toplanılması, təhlili və istifadə üçün hazırlanması işində də İnternetin rolu əvəzsizdir. Tədqiqatçılar ölkələr arasında hələ də mövcud olan fərqləri ciddi şəkildə tənqid edir və göstərirlər ki, "rəqəmsal uçurum" cəmiyyətlərin informasiya və kommunikasiya texnologiyalarının təmin edə biləcəyi bütün üstünlüklərdən istifadə etməsinə mane olur. Bu kontekstdə internetə fiziki çıxışı təşviq etmək üçün tədbirlər vacib olaraq qalır, lakin həqiqətən əhatəli bir informasiya cəmiyyətini təmin etmək üçün kifayət deyil. Bu səbəbdən, hökumətlər, yerli hakimiyyət orqanları və yerdəki aktorlar arasında daha koordinasiyalı səyləri təmin etmək üçün qlobal və yerli səviyyədə güclü liderliyə ehtiyac var. Və əksinə, mövcud vəziyyət qalsa, texnologiya tədricən iqtisadiyyatın hər sektorunu əhatə etsə də, ölkələr və milli ərazilər daxilindəki fərqləri kritik şəkildə artıra bilər [6]. Tədqiqat sahələrindən biri də insan həyatının sosial-mənəvi və psixoloji tərəflərə internetin təsir etməsidir. Belə bir nəticəyə gəlmişlər ki, internet xidmətləri daha sürətli olduqda və daha çox ani məmnuniyyət təmin etdikdə insanlar daha az səbirli olurlar və "məmnuniyyəti gecikdirə və daha uzunmüddətli mükafatlar istiqamətində təmin bilmirlər" [11, c. 192].

Psixoloq Steven Pinker isə göstərir ki, insan gördükləri işlərə nəzarət edir, araşdırma və düşünmə isə heç də ona təbii şəkildə verilməyib, yəni bunu insanlara öyrətmək lazımdır. Əldə edilən təcrübə beynin əsas informasiya işləmə bacarıqlarını dəyişmir və İnternet insanları həqiqətən ağıllı edir [9].

Bu sahədə fikir müxtəlifliyi həm də ona görə yaranır ki, İnternetin təsiri qlobal və sürətli xarakter daşıyır. Burada sosial fəaliyyət sahələri, müxtəlif sosial qruplar, dünya bölgələri nəzərə alınsa görmək olar ki, fərqlilik nə qədər böyükdür.

**İnternetin müxtəlif həyat fəaliyyəti sahələrinə təsiri xüsusiyyətləri**

İnternetin insan əməyinə və bütövlükdə əmək fəaliyyəti sahəsinə təsirini nəzərdən keçirək. Insan əməyi əmək alətləri, əmək vasitələri və işçi qüvvəsinin peşəkarlığı ilə bağlıdır. Təbii ki, göstərilən hər üç sahəyə Internetin təsiri var.

Məlumdur ki, həyatımızın müxtəlif, o cümlədən sahələrində, texniki-iqtisadi, siyasi və sosio-mədəni sahələrdə qloballaşma prosesi gedir. Bu prosesin başlıca xüsusiyyətləri tədqiqatçılar tərəfindən belə qiymətləndirilir: elektronika, kommunikasiyalar, nəqliyyat sahələrində yeni texnologiyaların sürətlə artması (xüsusilə mikroprosessor texnikası, rəqəmsal televiziya, telekommunikasiyalar vasitələri və s.) müşahidə edilir. Digər xüsusiyyət – bazar münasibətlərinə əsaslanan dünya iqtisadiyyatının sürətlə inkişafıdır. Transmilli korporasiyalar dünya ticarət bazarında istehlakçı malların 75%-nə nəzarət edirlər [12, c. 47].

Azərbaycanda da bütün dünyada olduğu kimi müştərək müəssisələr, səhmdar cəmiyyətlər və digər iqtisadi subyektlərin sayı artır, cəmiyyətin müxtəlif sosial qrupları bir sıra göstəricilər üzrə bir-birinə yaxınlaşır, orta sinfin sayı artır, şəhər əhalisi çoxalır (urbanizasiya nəticəsində şəhər həyat tərzinə keçənlərin sayı çoxalır). Sosial təminatla bağlı proqramlarda əmək haqqı, sosial müdafiə, pensiya təminatı, məşğulluq, təhsil, elm, idman, səhiyyə və digər məsələlər öz əksini tapır. Ümumiyyətlə, sosial yönümlü iqtisadiyyatın formalaşmasında başlıca məqsəd sosial ədalət prinsipinin təmin olunmasıdır. Bu baxımından müasir İKT imkanlarından istifadə etməklə əhalinin iqtisadi davranışı tənzimlənir, nəticədə istehsal və istehlak, bölgü və mübadilə sahələrində ahəngdarlıq yaranaraq insan həyatını sabit və rahat edir.

Birinci növbədə dövlət siyasətində demokratik islahatlar, açıq iqtisadi məkan, inteqrasiya və iqtisadi inkişaf milli dəyərlər zəminində qurulmalıdır. Hər hansı bir layihə, proqram o zaman qəbul edilə bilər ki, o, regionların iqtisadi inkişafına cavab versin, əhalinin maddi rifahını yaxşılaşdırsın, gələcək nəsillərin inkişafına səbəb olsun. Həyat tərzinin iqtisadi tərəfi balanslı şəkildə təmin olunanda məişət, asudə vaxtının təşkili, keyfiyyətli təhsil həyata keçirilir, maddi və mənəvi tələbatların ödənilməsi imkanları genişlənir. Bu sahələrin inkişafı isə öz növbəsində texniki yeniliklərlə bağlı olduğu üçün daha da sürətlənir, yeni forma və məzmunla zənginləşir.

Cəmiyyətdə əmək bölgüsü əsasında formalaşan sosial-əmək münasibətləri indiki dövrdə bazar iqtisadiyyatı üzərində qurulur. Bazar iqtisadiyyatı şəraitində isə işçi qüvvəsinin də dəyəri artır. İşçi qüvvəsi əmək bazarında əsas əmtəədir. Burada yaranan münasibətlər cəmiyyətin inkişaf səviyyəsinə əsaslanır. Təklif və tələbatın nisbəti isə işçi qüvvəsinin əmək bazarında istifadəsini müəyyən edir. Işçi qüvvəsinin hazırlanması prosesi müasir dövrdə yeni yanaşmalar üzərində qurulur. Məsələn, Azərbaycanda ali təhsil sistemi dünyanın bir çox ölkələrində qəbul olunmuş xüsusi platforma, yəni Boloniya deklarasiyası ilə bağlı qəbul olunmuş prinsiplər üzərində qurulur [1]. Bu istiqamətdə əldə edilmiş uğurlar göstərir ki, peşəkar kadrların hazırlanması ilk növbədə elm və texnika sahələrində əldə edilən nailiyyətlərlə əlaqəlidir. Təhsil və elm sahələrində beynəlxalq inteqrasiya prosesləri göstərir ki, bu sahədə işi irəliyə doğru aparan və yüngülləşdirən məhz yeni idarəetmə metodlarıdır. Həmin metodlar isə informasiyanın toplanması, təhlili və istifadəsi ilə bağlı birbaşa əlaqəlidir [2].

İqtisadi fəaliyyət sahələrindən biri olan ticarət İnternetlə əlaqəli şəkildə inkişaf edir. Burada zəruri informasiya istehlakçılara ötürülür, seçim edilir, təkliflər əsasında alqı-satqı əməliyyatları həyata keçirilir. Nəticədə rahat bir şəkildə istehlakçı öz alıcılıq tələbatlarını ödəmək şansını qazanır. Məlumdur ki, müasir dövrdə iş sahələrində yeni texnologiyaların tətbiqi nəticəsində iş vaxtı azalır, asudə vaxtın həcmi isə çoxalır. Bu da insanların ünsiyyət imkanlarını genişləndirir, ailədaxili münasibətlərin zənginləşməsinə, insanların qarşılıqlı anlaşması üçün daha yaxşı fürsətlərin əldə edilməsinə gətirib çıxarır.

Ümumiyyətlə, İKT-nin Azərbaycanda həyat tərzinin iqtisadi tərəfinin inkişafına təsiri bir sıra sahələrdə nəzərdən keçirilə bilər, bunlar arasında aşağıdakıları göstərmək olar:

- ictimai-siyasi, iqtisadi və mənəvi-əxlaqi inkişafda, yaradılan siyasi strukturlarda, sosial-iqtisadi fəaliyyət sahələrində idarəetmə sisteminin fəaliyyətinin xarakterində ifadə olunan institusional sistemin və idarəetmə strukturunun səmərəliliyi;
- İKT sektorunun potensialının müxtəlif sahələrdə bilavasitə tətbiqi ilə əlaqəli iqtisadi artım perspektivləri və iqtisadiyyatın strukturunda zəruri dəyişikliklər ehtimalı;
- birbaşa xarici kapitalın dövriyyəsi ilə əlaqəli xarici likvidlik və xarici investisiya siyasəti problemləri;
- dövlət borcu, büdcə kəsiri, pul iqtisadiyyatının nəticələri kimi büdcə göstəriciləri [3].

Azərbaycanda elektron ticarətin, bazarın və sahibkarlığın inkişafı birbaşa İKT-nin ölkəmizin iqtisadi həyatındakı rolu və mövqeyi ilə bağlıdır. Dünyanın bir sıra ölkələrində, o cümlədən Şərqi Avropa və ABŞ-da oxşar problemlərlə bu sahədəki vəziyyətin müqayisəli təhlili, ölkənin iqtisadi inkişafının bu istiqamətini yaxşılaşdırmaq üçün resursları və imkanları müəyyənləşdirməyə kömək edə bilər.

İKT sektoru hər şeydən əvvəl kadrların düzgün seçimini, intellektual mülkiyyətin qorunmasını təmin etmək, imic yaratmaq və yenilikçi bir məhsulu təbliğ etmək, yenilikçi idarəetmə təhsili təşkil etmək və s.-dir [4].

Bütövlükdə həyat tərzində həyat fəaliyyəti sahələrindən biri olan asudə vaxtın və məişətin təşkilində də İnternetin rolu olduqca yüksəkdir. Bunu iki mənada göstərmək olar:

sosial şəbəkələrdə ünsiyyət qurmaq və burada həm informasiya axtarmaq, həm də sosial kapital olan yeni tanışları və dostları artırmaq mümkündür. Gənclər xüsusilə bu imkandan istifadə edirlər. Texniki yeniliklər rahatlıq verməklə eyni zamanda psixoloji asılılıq yaradırlar. Nəticədə internet fayda verməklə yanaşı həm də böyük zərər verir. Demək olar ki, bu sahədə valideynlər və tərbiyəçilər qarşısında hələ çox vəzifələrə durur.

Buna görə də tədqiqatçılar hesab edirlər ki, innovasiya uzun müddət məhsuldarlıq və iqtisadi artımdakı irəliləyişləri idarə etmişdir. Yeniliklərin verdiyi töhfələrin yalnız iqtisadi olmadığı doğru olsa da, sənayedəki yeniliklər işçiləri avtomatlaşdırma yolu ilə çətin və təhlükəli vəzifələrdən azad etdi, eyni zamanda innovasiyaların səfərbər edilməsi üçün səylərin çoxunun iqtisadi və sosial cəhətdən diqqət mərkəzində olması da doğrudur [5]. Bununla belə sahibkarlar, firmalar və tədqiqatçılar müasir iqtisadi artımın cəmiyyətin sosial tərəqqisi ilə paralel getməli olduğunu vurğulayırlar.

Günümüzün qlobal problemləri iqlim dəyişikliyindən işsizlik və yoxsulluğa qədər həm iqtisadi, həm də sosial xarakter daşıyır. İstehsal belə qurulmalıdır ki, o, təkcə iqtisadi mənfəət əldə etmək üçün deyil, həm də sosial problemləri gözləmək və ona cavab vermək üçün səfərbər etməyə bacarsın [7, s. 5].

İnternetin həyat tərzinə təsiri xüsusiyyətlərindən biri də məişət və sağlamlıqla bağlı onun müsbət təsirləridir. Məsələn, indi ən əsas tendensiyalarından biri, fərdi rifah və rəqəmsal zehni sağlamlığa yenilənmiş imkanların genişlənməsi olmuşdur. Daha yaxşı yuxu, rahatlama, diqqəti cəmləmək imkanı və meditasiyanı özündə formalaşdırmaq üçün İnternet bir çox yeni cihazları, yəni rəqəmsal sağlamlıq məhsulları və xidmətləri ev təsərrüfatlarında və mobil cihazlarda təklif edir, bu da artıq adi hala çevrilib. Digər tərəfdən, insanlar öz sərmayələrini artırmaq üçün virtual kazino, cəzbedici oyunlar, internet hərracları yolu ilə artırırlar. Amma belə hərəkətlərin əksəriyyəti kapitalın məhvinə gətirib çıxarır, ailədaxili münasibətlərə mənfi təsir göstərir. Burada həm də informasiyanı toplamaq kimi adət də var ki, nəticədə internet asılılıq formalaşır və insan öz iş vaxtını, asudə vaxtını yalnız bu nəhəng məkanda keçirməklə kifayətlənir, həyatdan təcrid şəklə düşür.

Gənc nəslin asudə vaxtın keçirmə formalarından biri də internet oyunları olmuşdur. Bu da onların şəxsiyyət kimi formalaşmasına, sağlamlığına, sosial ünsiyyət tərzinə mənfi təsir göstərir.

Qloballaşma, iqtisadi və siyasi fikir tarixində yeni bir mərhələ olaraq, özündən sonra yeni bir nizam yaratsa da, uğursuz oldu. Bütöv dünya daha çevik oldu. İnternet qlobal bir layihə olaraq daim dəyişir. İnternet məkanının təzyiqi altında yeni dünyanın əsas xüsusiyyətləri kütlələr tərəfindən məlumatların sürətli hərəkəti və başa düşülməsidir. Bu baxımdan İT əsasında hər hansı bir müəssisə və ya layihənin yaradılması prosesi hər bir ölkə üçün olduqca vacibdir. Ancaq hər halda kadr məsələləri və problemin istənilən səviyyədə optimal həlli, istər sosial şəbəkənin, istərsə də pilotsuz uçuş aparatın yaradılmasında yeni, xüsusi bir yanaşma meydana gəlməlidir. İstənilən halda informasiyanın durmadan artan həcmi məhz yeni düşüncə tərzini və yeni yanaşmaları tələb edir.

Qeyd etmək lazımdır ki, ildən-ilə ölkəyə idxal olunan telekommunikasiya, elektron və digər avadanlıqların həcmi, eləcə də İKT sahəsində çalışan işçilərin sayı artır. Bu tendensiya ölkənin bölgələrdəki müəssisələrdə istifadə olunan ofis ləvazimatları miqdarına və digər göstəricilərə müsbət təsir göstərir.

Demək olar ki, istər işdə, istərsə də işdən sonra hər bir insan öz fəaliyyət sahələrində internet imkanlarından geniş istifadə edir. Dünya haqqında məlumat getdikcə artır, bu da insanların dünyagörüşünə, onun dünyaya münasibətinə təsir edir. Insanlar bir-biri ilə əlaqə saxlayır, dünyanın istənilən guşəsi ilə ünsiyyət yaradaraq öz fəaliyyətini həyata keçirir. Hər hansı bir hadisə baş verərkən onu hətta real şəkildə izləmək imkanını əldə edən cəmiyyət üzvləri dünyanın həm qloballığını, həm də bütövlüyünü, qarşılıqlı asılılığı dərk

edir, özündə ümumbəşəri keyfiyyətləri aşılamaq məcburiyyətindədirlər.

İnternetin ailə həyatına təsiri də böyükdür. Ilk növbədə ev şəraitində peşəkar fəaliyyəti həyata keçirmək imkanı yaranır. Məsələn, dərs demək, ofis işlərini həyata keçirmək, lazımi məlumatı toplamaq və təhlil etmək və s. Ev işlərində, məsələn, qidanı sifariş etmək, müxtəlif xidmətlər barədə məlumat almaq və onlardan faydalanmaq, istənilən şəkildə bizi maraqlandıran hadisə ya fakt barədə məlumatı öyrənmək imkanını əldə etmiş oluruq. Nəticədə internet həyatımızı idarə edən müəyyən edilmiş qaydaları pozur. Ticarətdən, əyləncədən başlamış hökumətə qədər bizi əvvəllər görünməmiş şəkildə birləşdirən bir texnologiyanın geniş təsirlərini artıq yaşayırıq.

Hal-hazırda avtomobillərdən və qapı zənglərindən tutmuş ev heyvanınızın yaxasına və mətbəx sobasına qədər milyardlarla cihaz internetə bağlanılıb. Gündəlik ev əşyaları getdikcə daha çox texnoloji baxımından təkmilləşir və öz istifadə imkanlarını genişləndirir [9].

Həyat tərzi baxımından daha bir istiqamətdə aparılan işi qeyd etmək lazımdır, bu da informasiya təhlükəsizliyidir. İnformasiya təhlükəsizliyi məhsullarının layihələndirilməsi və istehsalı ilə bağlı fəaliyyət son illərdə meydana çıxsa da, sürətlə inkişaf edir. Burada dövlət təhlükəsizliyi məsələləri həll olunur, bununla əlaqədar qanunvericilik bazası formalaşır, idarəetmə sistemində struktur bölmələri yaradılır və bu müdafiəni təmin etmək üçün texniki vasitələr təkmilləşdirilir. Bank sistemləri, iri şirkətlər və firmalar, eləcə də dövlət və güc strukturları üçün strateji cəhətdən vacib olan sahələr bu baxımdan xüsusilə fəaldırlar. Simsiz telekommunikasiya bu günə qədər ən fəal şəkildə inkişaf edən İKT sektorudur ki, bu da bu tip rabitə istifadəsinin çox sürətlə artması deməkdir. Burada ölkəmizin öz rabitə peykinin buraxılması da mühüm rol oynadı. Peyk rabitə imkanları üç dəfə artdı və gələcəkdə daha da artacaqdır.

Eyni zamanda kompüterlərin, periferik və rabitə avadanlığının təmiri sürətlə inkişaf edir. İKT inkişafının bu sektoru da perspektivlidir. Çünki təmir də yüksək ixtisaslı kadrları, təcrübə mübadiləsini və s. tələb edir və prosesin özü bir çox mütəxəssis və texniklərin bu istiqamətdə ixtisaslaşmasını mümkün edir.

Veb səhifələrin (internet portallarının) istifadəsində böyük irəliləyiş əldə edilmişdir. Bu istiqamətdə işlər kifayət qədər uğurludur. Buradakı vacib məsələlərdən biri də veb səhifələrin normal trafikinin təmin edilməsidir. Yeni texnologiyalar həyat tərzinin hər bir sahəsini təyin edərək gələcək inkişafının təməlini formalaşdırır. Bu, həm də qeyri-neft sektorunun sürətli inkişafının bir təsdiqidir, çünki ölkənin sosial siyasətinin əsas istiqamətləri ilə əlaqədar həyata keçirilən dövlət proqramlarına uyğun olaraq bölgələrdə yeni iş yerlərinin açılması mövcud müəssisələrin inkişafına köməklik edir. Müəssisələrin fəaliyyəti isə İKT ilə təmin olunan yeni texnologiyaların və informasiya imkanlarının istifadəsini tələb edir.

**Nəticə**

Ümumiyyətlə, ölkəmizdə müxtəlif informasiya texnologiyaları və hesablama işləri sürətlənir. Bu o deməkdir ki, bütün informasiya və kompüter texnologiyaları ölkənin iqtisadi-sosial fəaliyyətinin dövriyyəsindədir: bunlar sənayenin müxtəlif sahələri, kənd təsərrüfatı, hüquq mühafizə orqanlarının fəaliyyəti, təhsil, elm və mədəniyyətdir. Eyni zamanda, dövlətin iqtisadi siyasətində İKT sektoru, ölkənin iqtisadi və hərbi-siyasi gücünün artmasında müstəsna əhəmiyyətini nəzərə alaraq, strateji cəhətdən mühüm yer tutmalıdır. Texnoloji imkanlar artdıqca (o cümlədən "Azerspace-1" ilk milli telekommunikasiya peykinin buraxılması) məlumatların işlənməsi və bununla bağlı həyata keçirilən fəaliyyətlər on qat artmışdır. Bu proses təkcə ölkəmiz üçün deyil, bütövlükdə bütün dünya üçün xarakterikdir. Daxil olduğumuz informasiya cəmiyyəti məlumatların əyaniliyi və İKT tərəfindən təmin olunan yeni keyfiyyət səviyyəsi ilə xarakterizə olunur. Nəticədə

iqtisadi inkişaf prosesləri əhəmiyyətli dərəcədə sürətlənir, xüsusən bu ilk növbədə maliyyə, ticarət, iqtisadi fəaliyyətin infrastruktur bölmələri, turizm, idman, ümumiyyətlə istirahət fəaliyyəti, müxtəlif xidmət sektorları, bütövlükdə iqtisadi idarəetmə sistemi, sənaye, kənd təsərrüfatı sahələrində baş verən struktur dəyişikliklərə aiddir.

Azərbaycan İKT sektorunun vasitələr və imkanlarının əsas istehlakçısıdır. Bununla birlikdə, hələ müəyyən növ İKT cihazlarını istehsal etmək imkanlarımız hələ yoxdur. Buradakı inkişaf, inkişaf etmiş ölkələrlə bu və ya digər istiqamətdə fəaliyyətlərin əlaqələndirilməsi istiqamətində gedə bilər və bu istiqamətdə işlər hal-hazırda davam etdirilir.

## ƏDƏBİYYAT


1. Abbasov Əli. İKT əsaslı biliklər iqtisadiyyatına doğru // "Azərbaycan" qəzeti, 16.05.2014
2. Azərbaycanda təbii inhisarçılıq sferasında innovasiya fəaliyyəti. Bakı: Elm, 2010. 300 s.
3. 10Azərbaycanın sürətli artan maliyyə imkanları ölkəmizin hərtərəfli inkişafına, xalqın həyat səviyyəsinin yüksəldilməsinə yönəldilir: Rabitə və informasiya texnologiyaları naziri Əli Abbasovun çıxışı // Xalq qəzeti. 2008, 6 avqust.
4. Əliyev Ə. İnternet-bankinq texnologiyalarının əhəmiyyəti və innovativ xüsusiyyətləri /Ə. Əliyev // Rabitə dünyası, 2013. 11 yanvar, № 1, c. 16-17.
5. Əliyev Ə. Elektron-kommersiya texnologiyalarının tətbiqi və inkişaf etdirilməsi günün tələbidir /Ə. Əliyev // Azərbaycan, 2009. 15 avqust, № 179. c. 3.
6. Ben Shenglin, Felice Simonelli, Romain Bosc, Ruidong Zhang, Wenwei Li. Digital infrastructure: Overcoming Digital Divide in Emerging Economies. January 15, 2018 / (https://www.g20-insights.org/policy_briefs)
7. Fostering Innovation to Address Social Challenges. OECD Innovation Strategy // Workshop proceedings, 2011 (https://www.oecd.org/sti/inno/47861327.pdf)
8. Measuring the Information Society Report. Volume 1.( 2018) ITU (International Telecommunication Union Place): des Nations CH-1211 Geneva, Switzerland (https://www.itu.int/en/ITU-D/Statistics/Documents/publications)
9. Pinker, Steven (10 June 2010). "Mind Over Mass Media". The New York Times. Retrieved 4 July 2010.
10. Герасимова Д.В. Интернет и его влияние // Международный журнал прикладных и фундаментальных исследований. 2016, №11-4. c. 649-65 (URL: https://applied-research.ru/ru/article/view?id=10618 (дата обращения: 13.10.2020)).
11. Денисов А. Психология Интернет-зависимости // Развитие личности, 2014, № 1, с. 190-202.
12. Иванов В.Н и др. Массовая коммуникация в условиях глобализации // "Социологические исследования", 2003, №10, с. 45-56.


***Резюме***

***Мадина Мехдиева***

***Особенности влияния интернета на образ жизни людей***

В статье показано, что мысленная деятельность человека – это не просто заранее сформированные, врожденные знаки и производство кодов на основе ряда врожденных атрибутов. Психическая жизнь ориентирована на общение, формируется в общении с другими людьми и всегда активна. Действия и способности людей нельзя понять без контекста каких-либо реальных практических целей и социокультурных задач. Только общество предоставляет средства общения для организации практической деятельности, усвоения и формирования новых знаний. В этой связи технологическое оснащение, специально разработанное информационное пространство также можно назвать одним из ведущих факторов в этом процессе. Интернет не только формирует особый образ мышления и отношение людей к миру, но и вносит коренные изменения в различные сферы жизне-

деятельности. Это влияет на восприятие и использование информации, эффективность управления, человеческое мышление и мировоззрение. Во многих частях мира очевидно сходство в том, как люди живут, ведут себя и реагируют на события. В то же время Интернет создает ряд психологических проблем, влияющих на общение людей, их эмоционально-волевую сферу, а также характеристики поведения. В результате усиливаются отчуждение, одиночество, индивидуализм, меняются внутригрупповые и межгрупповые отношения. Социальные сети в Интернете также становятся важной частью жизни. Социальные сети, используемые в любой сфере социальной деятельности, становятся приумножением социального капитала, способности людей более активно использовать информацию. Через социальные сети люди принимают единые решения в схожих жизненных ситуациях. В результате влияния социальных сетей вполне вероятно, что в будущем появятся новые сферы жизнедеятельности людей, а вес и престиж старых форм жизнедеятельности резко изменится. Это также связано с тем, что рабочее время все время уменьшается, а формы проведения свободного времени развиваются и в значительной степени связаны с информационно - коммуникационными технологиями. Все это значительно изменит характер общения людей и их мировоззрение.

***Ключевые слова***: *ИКТ, человеческий разум, человеческое сознание, Интернет-зависимость*

***Summary***

***Madina Mehdieva***

***Peculiarities of the Internet Influence on the Lifestyle Of People***

The article shows that human mental activity is not just pre-formed, innate signs and the production of codes based on a number of innate attributes. Mental life is focused on communication, is formed in communication with other people and is always active. The actions and abilities of people cannot be understood without the context of some real practical goals and sociocultural tasks. Only society provides a means of communication for organizing practical activities, assimilating and forming new knowledge. In this regard, technological equipment, a specially designed information space can also be called one of the leading factors in this process. The Internet not only forms a special way of thinking and people's attitude to the world, but also makes fundamental changes in various spheres of life. This affects the perception and use of information, management efficiency, human thinking and worldview. In many parts of the world, there are clear similarities in the way people live, behave and react to events. At the same time, the Internet creates a number of psychological problems that affect the communication of people, their emotional-volitional sphere, as well as the characteristics of behavior. As a result, alienation, loneliness, individualism intensifies, and intragroup and intergroup relationships change. Social media on the Internet is also becoming an important part of life. Social networks used in any field of social activity become an increase in social capital, the ability of people to use information more actively. Through social networks, people make uniform decisions in similar life situations. As a result of the influence of social networks, it is likely that in the future new spheres of human activity will appear, and the weight and prestige of old forms of life activity will change dramatically. This is also due to the fact that working hours are constantly decreasing, and forms of spending free time are developing and are largely associated with information and communication technologies. All this will significantly change the nature of communication between people and their worldview.

***Keywords:*** *ICT, human reason, human consciousness, Internet addiction*

Şöbə redaktoru f.ü.f.d. Rəhimov Mütəllim Qara oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 1**

# POST-ORİENTALİZM: TÜRK FƏLSƏFİ FİKRİNİN TƏDQİQİNİN ZƏRURİLİYİ PROBLEMİ

**Araz ƏLİYEV***

*Məqalə redaksiyaya daxil olmuşdur: 27 avqust 2020; çapa qəbul edilmişdir: 25 sentyabr 2020, online-da çap edilmişdir: 31 mart 2021.*
*Received: 27th of August, 2020; accepted: 25th of September, 2020; published online: 15th of March, 2021.*

***Açar sözlər:** orientalizm, diskurs, hegemonluq, güc, Şərq, türkologiya*

## Giriş

Müasir dövrdə türk fəlsəfi fikrinin tədqiqi özlüyündə bir sıra ciddi problemlərlə xarakterizə olunur. İlkin olaraq Qərb alimləri tərəfindən aparılan tədqiqatların qərəzli və Qərbin hakim ideoloji xəttinə uyğun formada hazırlanmış olması diqqət çəkir. Xüsusilə də XIX əsrin əvvəllərin etibarən başlanmış bu yanaşma təkcə türk fəlsəfi fikrinə yox, ümumilikdə Şərqə baxışda özünü göstərmişdi. Uzun müddət Şərqin əsas gücü mövqeyinə sahib olan türklər də bu münasibətdən öz bəhrəsini görmüş və Qərbin öz düşüncəsində yaratmış olduğu Şərq obrazının bir parçasına çevrilmişdi.

İkinci məsələ isə türk fəlsəfi fikrinin bütövlükdə Şərq obrazı içərisində dəyərləndirilməsidir. Bu baxımdan qiymətləndirmə cəhdləri türk fəlsəfi fikrinin öz müstəqil xarakterini itirməsi və Şərqin çoxşaxəli mədəni sistemi içərisində itib-batması ilə nəticələnir. Qərb təsəvvüründəki Şərq obrazının dağıdılması ehtimalı, elə Qərbin özü tərəfindən Şərqin içərisinə məhkum edilən türk fəlsəfi fikrinin də müstəqil sürətdə tədqiq olunmasını şərtləndirir.

Edvard Səid özünün 1978-ci ildə nəşr etdirdiyi “Orientalizm” adlı əsərinin ilk cümlələrində “antik dövrdən etibarən davam edən Avropa icadı olan Şərqin artıq yox olduğunu, öz miladını doldurduğunu” qeyd edirdi. (10, s. 2-5)

Səidin qeyd etdiyi “Qərbin icadı olan Şərq” anlayışı özündə Qərb və Şərq arasındakı münasibətlərin yeni şərhini ehtiva edirdi. Onun fikrincə, Qərb bilik-iqtidar arasındakı münasibətlərdən yola çıxaraq özünü tanımaq, öz müstəmləkəçi fəaliyyətlərinə haqq qazandırmaq və öz məqsədlərini reallaşdırmaq üçün xəyali bir “Şərq” obrazı yaratmışdı. “Mən və digərləri” ayrılığına əsaslanan bu obraz nəticəsində Qərb özünü dünyanın mərkəzinə yerləşdirmiş Orta əsrlərdən etibarən Şərq haqqında aparılan araşdırmaların istiqamətini müəyyən etmişdi. Bu baxımdan Səidin fikrincə, heç də saf bir nəzəriyyə olmayan orientalizm “mədəni və siyasi” bir anlayışa çevrilmişdi və onun ciddi şəkildə sorğulanmasına ehtiyac var idi. (10, s. 22)

## 1. Mişel Fukonun “diskurs” nəzəriyyəsi və orientalist yuxudan oyanma

Edvard Səid Qərbin yaratmış olduğu “Şərq” obrazını izah etmək üçün məşhur fransız filosofu Mişel Fukonun bilik və iqtidar arasındakı münasibətləri izah etdiyi nəzəri yanaşmasını əsas olaraq almışdı. Fukonun bilik və iqtidar anlayışları arasındakı münasibətləri analiz edən Səid belə qənaətə gəlirdi ki, Qərbdə aparılan orientalist tədqiqatlar akademik araşdırmalar olmaqdan daha çox, Qərbin Şərqdən üstün olduğunu göstərməyə

* Bakı Dövlət Universiteti
*e-mail: arazaliyev1606@gmail.com*

və hər cür mənfiliklərin aid edildiyi Şərqin xilas edilməsi, modernləşməsi üçün Qərbin müdaxilələrini haqlı çıxarmağa yönəlib. (9, s. 17-45)

Edvard Səid Mişel Fukonun bilik və iqtidar arasındakı münasibətə verdiyi izahdan yararlanaraq Şərq haqqındakı məlumatlarla Şərq üzərindəki hakimiyyət arasında əlaqəni müəyyən etməyə çalışır. Belə ki, Mişel Fuko Qərb hegemoniyasının Şərq haqqındakı bəzi ədəbi mətnləri təzyiq vasitəsi kimi istifadə etdiyini qeyd edirdi. Təzyiq vasitəsi olaraq istifadə olunan bu mətnlər tədricən iqtidar münasibətlərinin davamlılığını təmin edən məlumat qəliblərinə çevrilirdi. Bu məlumat qəlibləri isə Qərb hegemoniyasına digər mədəniyyətlərin tarixini yazmağı və dolayısı ilə onlar üzərində iqtidar sahibi olmağı təmin edirdi.

Həqiqətin nə olduğun məhz bu məlumat qəliblərini idarə edən iqtidar qərar verirdi. Fukonun fikrincə, bu cür məlumat qəliblərinə sahib olan bir qrup insan uyğun olaraq müəyyən dünyagörüşü formasını da yaradacaq gücə sahib olurdu. Bu gücün tətbiq olunması da özlüyündə yeni məlumat qəlibləri kimi istifadə olunacaq mətnlərin yaranmasına imkan verirdi. (6, s. 51) Fukoya görə, hər iqtidar öz davamlılığını qoruyub saxlayacaq şəkildə məlumatları manipulyasiya edir, nəyin həqiqət olduğunu ancaq öz davamlılığı perspektivindən qiymətləndirməyə çalışır. İstər tarixə, istərsə də sosial həyata baxış olsun hər sahədə öz hegemoniyasına güc qatacaq məlumatların, mətnlərin var olmasına imkan verir.

Səid Fukonun yanaşmasına əsasən Qərbin əsas düşüncə formaları daxilində hər zaman bir əksliyin, ziddiyyətin hakim olduğunu qeyd edir. Sokratdan etibarən Qərb düşüncəsi ideyalar aləmi və kölgələr aləmi, ruh və bədən, forma və maddə kimi əksliklər yaratmışdı. Səidin fikrincə, heç bir Qərb düşüncə forması öz əksini yaratmadan mövcud ola bilməzdi. İdeyalar aləminin var olması üçün hər zaman bir kölgələr aləminə ehtiyac var idi. İdeyalar aləminin kölgələr aləmindən üstün olması isə Qərbin də eyni dərəcədə Şərqdən üstün olması demək idi. (11, s. 47) Çünki Qərbin var olması üçün onun əksi olan başqa bir anlayışa (Şərq) ehtiyac var idi. Qərb insanı Şərq obrazından özünün tamamilə əksini görməli idi ki, öz Qərb şəklindəki varlığını tam olaraq dərk edə bilsin.

Düşüncə formaları ilə yanaşı Qərbin mənimsədiyi "dil" də mədəni hegemoniyanın həyata keçirilməsində aparıcı rola malik idi. Səidin fikrincə, Avropanın ədəbi mətnlər vasitəsilə öz mədəni kimliyini müəyyən etməklə yanaşı digər mədəniyyətlərin də kimliyini müəyyən etmiş olurdu. Avropada Şərq haqqında yazılan əsərlər təkcə Şərqi ifadə etməklə qalmır, eyni zamanda Şərq obrazını da yaratmağa xidmət edirdi. (3, s. 30) O, "Orientalizm" kitabının giriş bölümündə Fukonun "diskurs" anlayışından istifadə etməklə maarifçilik dövründən etibarən Avropanın Şərqi necə başa düşdüyü ilə bağlı yetkin forma təqdim edir.

Fukonun da olduqca qəliz formada istifadə etdiyi "diskurs" anlayışı yazılı və şifahi formada dildən istifadə, ictimai praktikanın bir forması kimi başa düşülməlidir. Dil sadəcə olaraq insanlar arasında informasiya almaq və ya ötürmək funksiyasını icra etmir, eyni zamanda da bəzi şeyləri icra etməyə də imkan verir. Məsələn, dildə istifadə olunan müxtəlif peşə adları, elmi dərəcələr, siniflərdən istifadə etməklə siz qarşınızdakı şəxslər haqqında müəyyən oturuşmuş məlumatlar əldə edə və onların sosial kimliklərini müəyyən edə bilərsiniz. Bu baxımdan yanaşdığımızda diskurs müəyyən bir dildən istifadə və ictimai ünsiyyət formasıdır. (4, s. 527-552)

Fukonun fikrincə, yazarın düşüncələri iqtidarın düşüncələri ilə birbaşa bağlı idi. İstər alim olsun, istər tədqiqatçı hər kəs bu diskursun içərisində yer alır. Çünki onların nəyi yazacaqları və nəyi yazmayacaqlarını müəyyən edən şərtlər daxilində fəaliyyət göstərirlər. Ancaq bu şərtlər yazılan əsərlərin məzmununu müəyyən edir. Bu şərtləri yaradan və idarə edən isə iqtidarın özüdür. Beləliklə, diskurs ideologiya və tarixin bir-birinə qarışdığı dilin sahəsini bir xeyli genişləndirmiş olur.

Səidin fikrincə, Fukonun bu yanaşması Qərbdə Şərq haqqında fikirlərinin meydana gəlməsini izah etmək üçün istifadə oluna bilərdi. Qərbdə mövcud olan "Şərq" anlayışı həqiqi Şərqdən və onun siyasi-mədəni fərqliliyindən kənar anlayış olaraq Qərbin özü tərəfindən yaradılmış bir şey idi. Qərb tədqiqatçıları Şərq haqqındakı təsəvvürlərini, subyektiv düşüncələrini "Şərq" obrazı altında formalaşdırmışdılar. Bunun nəticəsində həqiqi Şərqdən fərqli, onunla hər hansı real əlaqəsi olmayan, tamamilə Qərb düşüncəsində yer alan başqa bir "Şərq" obrazı yaradılmış olurdu. Hansı ki, bu yeni "Şərq" obrazı Qərbdən geri qalan, Qərbdə olması istənilməyən bütün mənfi cəhətlərin toplamını özündə ehtiva edirdi. Daha sonra isə imperializmin və sənayeləşmənin verdiyi güclə Qərb öz düşüncəsində formalaşmış bu "Şərq" fikrini həqiqi Şərqin özünə diktə etməyə başlamışdı. Səidin fikrincə, Məhz bu baxımdan yanaşdığımızda "Orientalizm"i Qərbdə gücsüz olduğu üçün Şərqə diktə edilmiş siyasi nəzəriyyə kimi qiymətləndirə bilərik. Qərb bu diktə prosesində Şərqin gücsüzlüyü ilə yanaşı, onun fərqliliyini də görməzdən gəlirdi. (10, s. 216)

Bizim gündəlik həyatda gerçəklik deyərək arxasınca qaçdığımız şey əslində iqtidarın oynadığı bir oyundur. İqtidar bu oyununda dili özünə alət edir. Bu səbəblə də Fuko Qərbi tədqiq edərkən sadəcə olaraq sənaye metodlarının inkişaf xətti ilə yox, həm də siyasi metodların inkişaf xətti ilə nəzərdən keçirilməli olduğunu qeyd edirdi. (6, s. 149)

Məhz bu səbəblə də Səid: "Orientalizm heç də Qərb akademik çevrələri tərəfindən Şərqi öyrənmək və anlamaq üçün yaradılan nəzəriyyələr bütünü deyil", deyə qeyd edir. Orientalizm eyni zamanda Şərqi müstəmləkəyə çevirməyə imkan yaradan və Şərqi Qərbin gözündən anlamağı təmin edən siyasi diskursdur. Nitsşenin də dediyi kimi, "həqiqətlər illüziya olduqları yaddan çıxarılmış illüziyalardır". (8, s. 42)

Səidin qeyd etdiyi bu yanaşma "Orientalizm" əsərinin əvvəlində qeyd etdiyi və Karl Marksın "Lui Bonapartın 18 brümeri" adlı əsrindən istinadla izah etməyə çalışırdı: "Onları özlərini təmsil edə bilməzlər, təmsil olunmalarına ehtiyac var". (3) Məhz bu düşüncə Qərbin Şərqə yanaşmasını ifadə edirdi. Qərbin gözündə Şərq o qədər zəif idi ki, başqa birisi tərəfindən, kənardan təmsil olunmasına, izah olunmasına ehtiyac var idi. Yalnız Qərb Şərqin kim və ya nə olduğunu, Şərq üçün nəyin yetərli olduğunu müəyyən edə bilərdi. Bu mövzu ilə əlaqədar olaraq XIX əsrdə bir sıra Avropa universitetlərində Şərqə olan münasibəti izah etmək üçün istifadə olunan "Bon pour l orient" ifadəsini nümunə göstərmək olar.

"Bon pour l orient" fransız dilində "Şərq üçün yaxşıdır", "Şərq üçün kifayətdir" mənalarında işlədilən ifadədir. Bu ifadə əsasən Fransız universitetlərinin təhsil alan şərqli tələbələr üçün verdiyi diplomlarda yer alırdı. Mahiyyət etibarilə diplomların ancaq Şərqdə işə yaradığını. Qərbdə isə dəyərsiz olduğunu göstərmək üçün istifadə edilirdi. Yəni Şərqi tanımaq üçün bu qədər kifayətdir və kifayətlilik dərəcəsini müəyyən edən meyar isə Qərb düşüncə sistemidir.

## 2. Türk fəlsəfi fikrinin orientalizm çərçivəsində qiymətləndirilməsi

Edvard Səid öz "Orientalizm" əsərində Qərbin təsəvvüründə formalaşmış "Şərq" obrazını göstərməyə çalışmış, lakin bu "Şərq" obrazına daha çox ümumi aspektdən yanaşaraq təməl fərqləndirilmələri ifadə etməmişdi. Xüsusilə türk tədqiqatçılar tərəfindən tənqid olunmasına səbəb olan bu yanaşmaya görə Səidin araşdırmalarında türk fəlsəfi fikri ilə bağlı problemlər ümumi Şərq kontekstindən nəzərdən keçirilirdi. Qərbin xüsusilə türklərə və türk fəlsəfi fikrinə qarşı münasibətinə yer vermirdi. Bu məsələdə Edvard Səidin haqlı olduğu məqam ondan ibarətdir ki, Qərb düşüncə tərzi uzun müddət "Şərq" dedikdə etnik fərqliliklərdən daha çox dini fərqlilikləri başa düşürdü. Qərb düşüncəsində qarşıdakı "düşmən"in türk, fars ya da başqa bir etnik qrupa aid olmasından çox onun xristianlıq üçün təhdid təşkil edəcək başqa bir dinin daşıyıcısı olması amili daha həyati əhəmiyyətə malik idi.

Sənayeləşmə və maarifçi burjua inqilabları ilə öz dini kimliyini dəyişən sekulyar Avropa artıq Şərqdən gələn təhdidi əvvəlki kimi "müsəlman" kimliyi ilə yox, daha çox etnik "türk" kimliyi ilə xarakterizə etməyə başlamışdı. Hətta daha əvvəlki dövrlərə aid travmatik qorxuları bu yeni obraza yüklənmiş, "müsəlman" obrazına aid olan cəhətlər eynilə "türk" obrazına köçürülmüşdü. Təsadüfi deyil ki, XV əsrdən etibarən Avropa mətnlərində yer alan türk obrazı ilə, ərəb işğalları dövründə müsəlmanlar haqqında yazılmış ifadələr arasında ciddi bənzərliklər mövcuddur.

Bu məsələsini izah etmək üçün məşhur fransız türkoloqu Leon Kahunun (1841-1900) türklər və Şərq ilə bağlı yanaşmasını nəzərdən keçirmək daha uyğun nümunə ola bilər. Fransada doğulmuş və yəhudi əsilli Kahun Avropada Ari tayfalarından daha əvvəl də məskunlaşmış başqa xalqların da ola biləcəyinə diqqət çəkirdi. Onun fikrincə, mədəniyyət dediyimiz məfhum Avropaya elə türk tayfaları tərəfindən Orta Asiyadan gətirilmişdi. Onun fikrincə, türklər olmasaydı, nə İran, nə ərəb, nə də Çin mədəniyyətləri öz sərhədlərindən kənara çıxa bilməzdi. Lakin Kahunun burada qeyd etdiyi xüsusiyyətlər türklərin Şərqdə İslamla qarşılıqlı əlaqəyə girdikləri dönəmə qədərki tarixləri ilə bağlıdır. (2, s. 173)

Kahuna görə, müsəlmanlıq və türklük bir-biri ilə tamamilə zidd olan anlayışlardır. Təbiəti etibarilə uyuşmaz olan bu iki anlayış bir araya gəldiklərində biri mütləq şəkildə digərini sıxışdırıb çıxarırdı. Türklər, Kahunun fikrincə, məhz İslamı qəbul etməklə öz üstün xüsusiyyətlərini itirmiş, İranın və Çinin dövlət quruluşlarının təsirinə düşmüşdülər. Əslində isə əsl və yüksək türk ruhu Orta Asiyada və türk tarixinin dərinlərində yatmaqdadır. (2, s. 174)

Bu nümunədən də aydın olduğu kimi, Qərbin təsəvvüründəki "Şərq" obrazı daha çox öz dini mahiyyəti ilə fərqlənir. Bu baxımdan da orientalizm mövqeyindən qiymətləndirildiyində türklərin də ayrıca kateqoriya kimi yox, məhz "müsəlman" kateqoriyası içərisində qiymətləndirilməsi nəzərə çarpır. Qərbin Şərq təsəvvürü İslamın hakim olduğu coğrafi məkan haqqındakı təsəvvürlərin cəmidir.

Qərbin türk fəlsəfi fikri ilə bağlı "diskurs"unda isə əsas yeri İslamaqədərki türk anlayışı tuturdu. Çünki orientalizmin və türkologiyanın ayrıca tədqiqat sahələri kimi ortaya çıxdığı XIX əsrin siyasi ab-havası Qərbin "İslamaqədərki türk" anlayışını qabartmasını şərtləndirirdi. Məhz bu tarixi və siyasi zərurətdən dolayı Qərb Orta Asiyada və Şərqdə türk varlığının araşdırılması, yeni tarixi və mədəni kimliyin formalaşdırılması istiqamətinə xüsusi diqqət ayırmışdı.

Digər tərəfdən türkoloji araşdırmaların ilk olaraq Qərbdə və müxtəlif siyasi strategiyalar əsasında formalaşdığını da qeyd etməliyik. Fransız və ingilis türkologiyası Rusiyanın geopolitik genişlənmə siyasətinə qarşı pantürkist ideologiyanın formalaşdırılması və bu vasitə ilə Rusiyanın Orta Asiyadan daha cənuba enməsinin qarşısının alınması istiqamətində inkişaf etmişdi.

Bu baxımdan Orta Asiyadakı türklərin tarixi və mədəni kimliklərinin araşdırılması və bu xalqların siyasiləşdirilməsi istiqamətində işlərin görülməsi Rusiya üçün təhdid xarakteri daşıyırdı. Armin Vamberi və Artur Lumley Davids kimi ingilis türkoloqları Şərqdə və Orta Asiyadakı türklərin tarixi və mədəniyyəti istiqamətində apardıqları araşdırmalarla XIX əsrin sonlarında türk siyasi fikrindəki oyanışa təsir göstərəcək ideoloji baza təmin etmişdilər. (1)

Rusiyada aparılan türkoloji araşdırmaları da eyni səbəblərdən ötrü türk xalqların daha kiçik etnik kimliklərə parçalanması və vahid birliyin yaradılmasının qarşısının alınmasına istiqamətlənirdi. Rus türkoloqu İlminskinin tədqiqatları nəticəsində hər bir türk ləhcələri milli dil səviyyəsinə çıxarılmış, hər bir türk xalqı üçün fərqli əlifba və fərqli milli tarixin olduğu ifadə edilmişdi. (1)

Şərqin özündə isə türk xalqları özlərini etnik kimliklərdən daha çox dini kimliklər altında ifadə edir, türklük anlayışı "ümmət" anlayışı içərisində əriyib itirdi.

### 3. Post-orientalizm və Şərqin intellektual obrazına olan ehtiyac

"Şərq haqqında yazan, dərs verən və Şərqi izah edən hər kəs orientalistdir", deyən Edvard Səid orientalizmin Qərbin düşüncəsində və eləcə də Qərbin Şərq haqqındakı mətnlərində yer alan "diskurs"a əsasən meydana gəldiyini izah etməyə çalışır. Əslində Şərqin digər hər bir mədəni sistem kimi özünəməxsusluğa malik olduğunu heç də Qərbin diktə etdiyi dəyərləri daşımadığını qeyd edir. Qərb Şərqi öyrənmək məsələsinə böyük ölçüdə uğursuz olub və öz yaratdığı illüziyalara qapılıb. Çünki Qərb hər zaman öz pozitivist-rasional baxış bucağından qiymətləndirməyə çalışıb. Tarixən Qərb mədəni hegemoniyasının, mədəni iqtidarının müəyyən etdiyi ideoloji xətt üzrə Şərqi təsvir etməyə çalışıb və böyük ölçüdə də bu məsələdə uğursuz olub.

Lakin Qərbin Şərqi və paralelində digər mədəni sistemləri ifadə etmək üçün istifadə etdiyi "diskurs" bu gün belə dəyişməyib. Səid Qərb hegemoniyasının yeni qəliblər istehsal etdiyi bir anda ən önəmli məsələnin bu hegemoniyanın təzyiq strategiyasına qarşı çıxacaq intellektualların yetişdirilməsi olduğunu qeyd edir. (3, s. 8)

Yeni intellektual mədəni sistemləri qiymətləndirərkən Qərbin iqtidar "diskurs"una əsaslanmadan tədqiqat aparmağı bacaran şəxs olacaq. Çünki yalnız bu halda dünya tarixində və sivilizasiya içərisində digər mədəni sistemlərin yaşamaq və var olmaq haqqı tanınmış olacaq.

Bu məqamda orientalizmlə bağlı səsləndirdiyimiz tənqidlərlə yanaşı Qərbin siyasi diskursunun səbəblərinin də müəyyən olunmasına ehtiyac olduğunu qeyd etməliyik. İlk növbədə ona görə ki, Qərbin öz təsəvvüründə yaratmış olduğu Şərq obrazını gerçək Şərqə diktə etdirəcək iqtidar və güc sistemini hər hansı bir şəkildə formalaşdıra bilib. Lakin Şərq bu cür güc və iqtidar sistemini formalaşdırmaq məsələsində uğursuz olub. Əgər şərtlər müxtəlif olsa idi, bəlkə də bu gün Şərqin öz təsəvvüründəki Qərb obrazının okzidentalizm formasında diktə edildiyinin şahidi olacaqdıq. Şərtlər həqiqətən fərqli ola və Qərb müəllifləri Şərq haqqında ədəbi mətnlər yazmaq əvəzinə Şərq müəllifləri Qərbin ardıcıl və fəal şəkildə araşdırılması ilə məşğul ola bilərdi.

Burada nəzərdən keçirmək istəyimiz əsas məsələ Şərqin özündən qaynaqlanan bəzi problemli cəhətlərdir. Orası da həqiqətdir ki, biz bu müqayisəni apararkən yenə Qərbə məxsus siyasi diskursdan istifadə edirik. Məsələn, "inkişaf", "maarifçilik", "tərəqqi", "elmi texniki inqilab" kimi anlayışlar məhz Qərbin diktə etdiyi diskursun elementləridir. Biz tarixə müraciət etdiyimizdə Qərbin diktə etmiş olduğu tarix anlayışı ilə qarşılaşırıq.

Eynilə fəlsəfəyə, sosiologiyaya, mədəniyyət nəzəriyyəsinə müraciət etdiyimizdə də qarşımızda Qərb mədəni hegemoniyasının verdiyi təriflər və pozitivist-rasional düşüncə forması çıxmış olur. Hətta Qərbin özünü Şərqə "özgəsi" münasibəti göstərməkdə, öz təsəvvüründəki Şərq obrazını diktə etməkdə günahlandırdığımızda belə bunu yenə Qərbin dikdə etdiyi diskurs daxilində edirik. Hətta Edvard Səidin özü belə "Orientalizm" əsərində istifadə etdiyi metodika və tənqidi arqumentasiya, informasiyanın verilmə forması Qərb diskursunun tərkib hissəsidir.

Məşhur Türkiyə filosofu Ahmet Arslan Qərb anlayışını ifadə edərkən təkcə Avropa və ABŞ-ın nəzərdən keçirilməli olmadığını qeyd edir. Onun fikrincə, bu gün "Qərb" deyərkən bütün dünya nəzərdən keçirilməlidir. Çünki dünyanın harasında olursaq olaq hər birimizin düşüncə forması məhz Qərb düşüncəsidir. Hər birimiz cəmiyyəti, fərdi, dünyanı Qərbin başa düşdüyü diskurs daxilində şərh edir və Qərb həyat tərzinə meyllənirik. Bu gün də eynilə XIX əsrdə olduğu kimi və bəlkə də daha artıq şəkildə Qərb dünyanın mərkəzinə çevrilib. Bütün dünya da bu mərkəzin periferiyasında fırlanmaqda davam edir.

Məsələyə Səidin orientalizmi tənqidi mövqeyindən baxdığımızda qarşımızda sadəcə olaraq Qərbin diktə etdiyi və süni olaraq yaradılmış, reallıqla hər hansı əlaqəsinin olmadığı "Şərq" obrazı yaranmış olur. Bu gün də biz Qərbin yaratdığı bu "Şərq" obrazının bir hissəsiyik. Əslində isə hər şey çox fərqli ola bilərdi. Məşhur türk mütəfəkkiri Fuad

Köprülünün sözləri ilə ifadə etsək: "Həqiqəti axtarmaq üçün birlikdə fəaliyyət göstərən müxtəlif millətlərə mənsub elm adamları insanlığın müştərək malı olan mənəvi dəyərlərin müdafiəsində və millətlər arasındakı qarşılıqlı anlayışın və sevginin təlqin edilməsində bütün insanlıq üçün bələdçi olmalıdırlar. Elm ancaq belə bir məqsədə xidmət etdiyi müddətcə dəyərlidir". (7, s, 37-42, 54)

**Nəticə**

Orientalizm hər nə qədər XX əsrin sonlarına doğru ciddi şəkildə tənqidlərə məruz qalsa da, bütövlükdə Qərb düşüncəsində öz hakim mövqeyini hələ də qorumaqdadır. Xüsusilə Qərbin baxış mövqeyindən "üçüncü dünya ölkələri" adlandırılan mədəniyyətlər mövcuddur. Hansı ki, bu mədəniyyətlər Qərb tərəfindən "Üçüncü dünya dövlətlərinə mədəniyyət və sülh gətirmək" adı altında tətbiq olunan yeni mədəni hegemoniyanın nümunələridir. Bu nümunələr içərisində Qərbin türk fəlsəfi fikrinə qarşı münasibəti də yer alır. Ümumi olaraq orientalizm baxış bucağı içərisində yer alan bu fikirlər XIX əsrin sonları və XX əsrin əvvəllərində türk siyasi fikrinin formalaşmasına təkan vermişdi. Lakin bu amili türk fəlsəfi fikrinin müəyyən olunmasında Qərbin birbaşa təsiri kimi qəbul etmək o qədər də doğru olmazdı. Çünki istənilən halda Qərbin tarixi-mədəni təsiri qarşı tərəfi müəyyən olunmuş qəliblər daxilində var olmasını istəyir. Əgər orientalizm çərçivəsində bu bütöv Şərq idisə, müəyyən mənada bu Gün üçün bütöv Türk dünyasıdır. Əsas məsələ Şərqin Qərbə qarşı azadlıq mübarizəsindən daha çox, Qərb və Şərq arasındakı siyasi diskursun xarakterinə yönəlikdir. Ancaq siyasi diskursun dəyişilməsi Qərbin qarşı tərəfi (istər Şərq olsun, istərsə də türk dünyası) vahid mədəni sistem kimi qəbul etdiyinin göstəricisi ola bilər.

Əgər Şərq Qərbin onu yanlış anladığını və yanlış təsəvvür etdiyini düşünürsə, o zaman doğru hesab etdiyi, öz təsəvvüründəki Şərq obrazını ifadə etməlidir. Ancaq bu şəkildə Qərbin yanlış təsəvvürlərinin əsasında dayanan Qərb hegemoniyasının aləti olan Şərq haqqındakı ədəbi mətnlərin xarakterini dəyişdirmək mümkün ola bilər. Post-orientalizm dövründə Şərq intellektualının əsas vəzifəsinin məhz bu olacağını təsəvvür etmək çətin deyil. Əgər digər mədəni sistemlər öz mövcudluqlarını təmin etmək, o cümlədən mədəni kimliklərini qoruyub saxlamaq istəyirlərsə, özlərini ifadə və təmsil imkanlarından yararlanmalıdırlar. Karl Marksın sözlərini xatırlayacaq olsaq, özlərini təmsil etməyi bacarmayan sistemlər, başqaları tərəfindən təmsil olunmağa məcburdurlar.

**ƏDƏBİYYAT**


1. Bayram, M. Oryantalizm-Türkçülük ilişkisi ve Üç Tarzı-Siyaset // IV. Uluslararası Türk Dünyası Araştırmaları Sempozyumu, IV cild, Niğde, 2017.
2. Cahun, D.L Asya Tarihine Giriş, Türkler ve Moğollar. Terc. İ.K.Sabit. İstanbul: Altınordu, 2020, 368 s.
3. Eren G. Edvard Said: Oryantalist Söylem Analizinin Metodolojik Temelleri, Erzurum, Atatürk Üniversitesi, 2013, 206 s.
4. Ercan, G.S. Söylem, Söylem Çözümlemesi ve Eleştirel Söylem Çözümlemesi: Tanımları ve Kapsamları, Pınar Danış, DEÜ Edebiyat Fakültesi Dergisi, C.: 6, Say: 2, 2019.
5. Foucault, M., Prison Talk. Power/Knowledge: Selected Interviews and Other Writings, tr. Colin Gordon, Brighton, Harvester Press, 1980, 282 s.
6. Foucault, M. Seçme Yazılar 2: Özne ve İktidar, tr. I. Ergüden- O. Akınhay, İstanbul, Ayrıntı Yayınları, 2000, 319 s.
7. Köprülü, M.F. XXII. Müsteşrikler Kongresinin Açış Nutku // İslam Tetkikleri Enstitüsü Dergisi, 1954.
8. Nietzsche, F. On Truth and Lies in an Extra-Moral Sense, The Portable Nietzsche. New York: Viking Press, 1954.
9. Öztürk İ. Kültürlerarası Çeviri Kapsamında Oryantalizm ve Öteki Kavramı, Sosyal ve

Kültürel Araştırmalar Dergisi, 2018, C.: 4, Sayı: 8.
10. Said E. Oryantalizm, Batının Şark Anlayışları. terc. Berna Ünler, İstanbul: Metis Yayınları, 2004, 412 s.
11. Yavuz H. Modernleşme, Oryantalizm ve İslam. İstanbul: Boyut Kitapları, 1999, 174 s.

***Резюме***

***Араз Алиев***

***Пост-ориентализм: проблема необходимости изучения турецкой философской мысли***

Ориентализм – это пример политического дискурса, который выражает взгляд Запада на Восток и его впечатления о Востоке. Исследования о Востоке с XIX века ведутся в рамках ориентализма. С этой точки зрения турецкая философская мысль была включена в состав Востока и существенно не отличалась от него. Долгое время взгляд Запада на Восток соответствовал его отношению к турецкой философской мысли. Однако геополитические реалии конца XIX и начала XX веков вытеснили тюркологические исследования за пределы ориентализма и привели к их формированию как самостоятельной области. Этот фактор порождая политическую идеологию тюркизма, также пробудил интерес к истории Средней Азии и проживающим там тюркоязычным народам. На фоне политических изменений тюркологические исследования были выведены из рамок ориентализма и заменены прямым подходом к турецкой истории и культуре. Однако, как и в случае с Востоком, западный политический дискурс использует свою культурную гегемонию для определения турецкой идентичности. Независимое представление турецкой философской мысли в пост-ориенталистский период очень важно с точки зрения объективной оценки турецкой идентичности и историко-культурной системы. В статье сначала исследуются основы ориентализма, взгляд Запада на Восток и отражается подход к турецкой философской мысли в рамках ориентализма. Причины интереса западных авторов к турецкой истории и культуре были исследованы, и в наше время появились размышления о политическом дискурсе Запада. Одной из главных черт востоковедных идей Запада была многолетняя оценка особенностей турецкого образа в мусульманском образе. Запад видел все на Востоке под мусульманской идентичностью и соответственно реагировал на эту точку зрения. В статье подчеркивается необходимость альтернативных исследований в XXI веке против политического дискурса Запада, который ранее использовался восточными интеллектуалами при возникновении ориентализма.

***Ключевые слова:*** *ориентализм, дискурс, гегемония, власть, Восток, тюркология*

***Summary***

***Araz Aliyev***

***Post-Orientalism: the Problem of the Necessity of the Study of Turkısh Phılosophıcal Thought***

Orientalism is an example of political discourse that expresses the West's view of the East and its impressions of the East. Orientalism has been the focus of Oriental research since the 19th century. From this point of view, Turkish philosophical thought was included in the East and did not differ significantly from it. For a long time, the West's view of the East was in line with its attitude towards Turkish philosophical thought. However, the geopolitical realities of the late nineteenth and early twentieth centuries pushed Turkological research beyond orientalism and gave rise to its formation as an independent field. This factor gave rise to the political ideology of Turkism, on the other hand, it aroused interest in the history of Central Asia and the Turkic-speaking peoples living there. Against the background of political changes, Turkological research was removed from the framework of Orientalism and replaced by a direct approach to Turkish history and culture. However, just as in the case of the East, the Western political discourse uses its cultural hegemony to determine Turkish identity. Independent presentation of Turkish philosophical thought in the post-Orientalist period is very important in terms of an objective assessment of the Turkish identity and historical and cultural system. The article first explores the basics of Orientalism, the West's view of the East, and reflects the approach to Turkish philosophical thought within Orientalism The reasons for the interest of Western authors in Turkish history and culture have been investigated, and opinions have been expressed against the ongoing political discourse of the West in modern times. One of the main

features of the orientalist ideas of the West was the long-term assessment of the peculiarities of the Turkish image in the Muslim image. The West saw everything in the East under a Muslim identity and reacted accordingly to this point of view. The article emphasizes the need for alternative research in the 21st century against the political discourse of the West, which was previously used by Eastern intellectuals when Orientalism emerged.

***Key words:*** *Orientalism, discourse, hegemony, power, the East, Turkology*

Redaksiya heyətinin üzvü f.e.d., prof. Məmmədov Əziz Bəşir oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 1**

# İDRAKIN ELM, XÜLYA VƏ ABSTRAKT TƏFƏKKÜRDƏ İNİKASI

**Bəhruz GÜLMALIYEV** *

*Məqalə redaksiyaya daxil olmuşdur: 20 avqust 2020; çapa qəbul edilmişdir: 18 sentyabr 2020, online-da çap edilmişdir: 31 mart 2021.*

*Received: 20th of August, 2020; accepted: 18th of September, 2020; published online: 15th of March, 2021.*

***Açar sözlər:** idrak, elm, analiz-sintez, metod, abstrakt təfəkkür, təxəyyül*

## Giriş

İdrak nəzəriyyəsi fəlsəfə ilə birlikdə yaranmışdır. Demokrit, Platon, Aristotel, Epikür, skeptiklər və stoiklər idrakı təhlil etməyin əsasını qoymuşlar. Yeni dövrdə Bekon, Dekart, Lokk, Spinoza, Leybints, Kant, Didro, Hegel, Feyerbax bu nəzəriyyəni inkişaf etdirirdilər. İslami Şərq ölkələrində isə Ə.Bəhmənyar, Ş.Şührəverdi, N.Tusi, E.Miyanəçi, S.Urməvi, Axundov və b [9, s. 130].

XX əsrin bəzi fəlsəfi cərəyanlarının nümayəndələri, xüsusilə neokantçılar, neotomistlər, məntiqi pozitivistlər, intuitivistlər və başqaları belə bir ideyanı sübut etməyə çalışırdılar ki, bizim biliklərimiz obyektiv aləmin inikası deyil, insanın əqlinin subyektiv qarşıdurmasıdır, “xalis təfəkkür”lə bağlıdır, varlığın inkişaf qanunu ilə idrak qanununun heç bir ümumi əlaqəsi yoxdur. Onlar idrakın varlığın adekvat inikası olduğunu, varlıqla təfəkkür qanunlarının eyniyyəti ideyasını rədd edirdilər.

Müasir qabaqcıl fəlsəfəyə görə isə gerçəklik və onun qanunları dərkediləndir. Təfəkkür və gerçəklik qanunları eyniyyət təşkil edir, vəhdətdədirlər. İdrak – gerçəkliyin nisbi adekvat inikasıdır, obyektiv aləmin, təbiət, cəmiyyət və təfəkkürün predmet və hadisələrinin, xassələrinin, keyfiyyətlərinin, tərəflərinin, əlaqə və münasibətlərinin insan şüurunda inikasıdır. İdrak gerçəklik və onun qanunlarının dərk edilməsi haqqında fəlsəfi təlimdir. Bu qanuna görə dünya və onun qanunları dərk ediləndir, insan predmet və hadisələrin mahiyyətini dərk edib aşkara çıxara bilər.

İnikas prosesi dünyanın dərk olunması ilə əlaqədardır. Dünya dərkediləndirmi? Təfəkkürümüzlə obyektiv gerçəkliyin adekvat, düzgün inikasını verə bilərikmi? İnsan təfəkkürü gerçəklik qanunlarını aşkar edə bilərmi, təbiətin sirlərinə yiyələnə bilərmi? Marksizm-leninizm klassikləri qeyd edirlər ki, gerçəklik və onun qanunları dərk ediləndir. Dünyada dərkedilməz heç bir şey yoxdur. Əgər bu gün bir cismi, hadisəni dərk etmiriksə, gec-tez elmin və təbiətşünaslığın inkişafı nəticəsində onu dərk edəcəyik. İdrak prosesində insan təfəkkürü az bilikdən çox biliyə, sadədən mürəkkəbə, biliksizlikdən tam və dəqiq biliklərə doğru inkişaf edir. Buna görə də idrak prosesinin özü mürəkkəb və ziddiyyətli xarakter daşıyır.

İdrakın məqsədi həqiqətə nail olmaq, təbiət və cəmiyyət qanunlarını kəşf etmək və ondan bəşəriyyətin tərəqqisi naminə istifadə etməkdir. Məsələn, qədim babalarımız odun, daşın, dəmirin və s. cisimlərin xassələrini öyrənməklə, ondan müdafiə məqsədilə silah kimi, yaxud da təsərrüfatda alət kimi istifadə ediblər [5, s. 9, 10]. İdrak nəticəsində əldə edilən həmin nailiyyətlər bu gün də bütün bəşəriyyət tərəfindən istifadə olunmaqda və yeni-yeni tərəqqilərə yol açmaqdadır.

* dissertant, Naxçıvan Dövlət Universiteti
*e-mail: gulmaliyev.behruz@gmail.com*

## 1. Elmi idrak

Elm idrakın spesifik məntiqi-nəzəri və ən yüksək formasıdır. Elmi idrak bilik və fəaliyyətin vəhdətindən ibarət obyektiv prosesdir. Elm subyektiv insan idrakının məhsuludur, lakin obyektiv gerçəkliyi əks etdirdiyinə görə həm də obyektiv məzmun daşıyır. Elm ancaq praktiki fəaliyyətdə maddiləşməklə özünün həqiqət olduğunu təsdiq edir.

Elm çox mürəkkəb idraki hadisədir, özünəməxsus mühüm spesifik xüsusiyyətlərə malikdir: a) gerçəkliyi nisbi dolğun əks etdirməsi, həmişə həqiqətin əldə edilməsinə istiqamətlənməsi; b) dünyanın obyektiv inikasını verdiyinə görə obyektivliyi; c) gerçəklidə, praktikada maddiləşməsi və təsdiq edilməsi; ç) müəyyən dəlil və sübutlara, təbii-tarixi faktlara istinad edib əsaslandırılması, sübut edilməsi; d) xüsusi elmi dillə - anlayışlar, qanunlar, kateqoriyalar, mühakimə və məntiqi nəticələrlə ifadə edilməsi; e) elmi biliyin sistemliliyi, ardıcıllığı və varisliyi; ə) elmi biliyin humanist sərvət, mənəvi dəyər səciyyə daşıması, bəşəriliyi və ümumi tərəqqiyə xidmət etməsi və s. Məhz bu cür spesifik xüsusiyyətləri ilə elm dünyanın adi, bədii, dini və s. mənimsənilməsi formalarından fərqlənir [4, s. 187].

İnsan idrakında gerçəkliyin dərk edilməsi uzunmüddətli, mürəkkəb bir prosesdir. Burada hissi və məntiqi momentlər, praktiki-dəyişdirici və elmi-nəzəri fəaliyyət bir-birini əsaslandırır və tamamlayır. Buna görə də, idrak prosesi birdən-birə yüksək elmi-nəzəri səviyyəyə qalxa bilmir. O, yanılmalardan, əyrintilərdən keçib gəlir, tədricən təcrübi təsdiqin tapır. İdrak adi-empirik səviyyədən elmi-nəzəri səviyyəyə yüksələnədək ziddiyyətli bir yol keçir.

Elmi idrakın başlıca məqsədi, əsas forması elmi ideyalar, prinsiplər və qanunların kəşf edilməsidir. Elm məhz müəyyən ideyalardan, prinsiplərdən və qanunlardan ibarətdir. Elm o vaxt həqiqi elm olur ki, onun özünəməxsus qanunları, prinsipləri olsun. Müəyyən prinsip və qanunların əldə edilməsi isə çətin, mürəkkəb və uzunmüddətli bir prosesdir və insandan yorulmaz iradə, əzmkarlıq və üzücü əmək tələb edir. Təkcə onu deyək ki, predmet və hadisələrin inkişafını şərtləndirən, daxili mahiyyətli əlaqələri tapmaq üçün çoxsaylı əlaqə və münasibətlər sistemini araşdırmaq, təhlil etmək, müqayisələr aparmaq, mümkünsə təcrübələr keçirmək, həmin münasibətlər üzərinə dəfələrlə qayıtmaq, nəticələri yoxlamaq, tətbiq etmək və digər məsələlər lazım gəlir. Bəzən həmin proses dəfələrlə təkrar olunur, məsələyə yenidən qayıdılır. Ona görə deyilir ki, əgər qanunlar aşkarda olsaydı, onda heç bir elmi axtarışa yer qalmazdı. Müxbirlər D.İ.Mendeleyevdən soruşanda ki, "deyirlər, siz "elementlərin dövri sistemi qanunu"nu yatarkən yuxuda kəşf etmisiniz, bu doğrudurmu?" sualına o, çox narahat olaraq belə cavab vermişdir: "Mən həmin qanun üzərində bütün ömrüm boyu işləmişəm" [4, s. 192].

Dünyanı necə dərk edilməsi məsələsi elmi idrakın diqqət mərkəzində duran məsələlərindən biridir. Müasir insan təbiətin getdikcə daha güclü qüvvələrini özünə xidmət etdirir. Bu qüvvələrdən istifadə etmək üçün isə onları dərk etmək, tədqiq etmək lazımdır. Zəmanəmizdə istehsal elmsiz inkişaf edə bilməz. Mühərriklər, atom reaktorları, hesablayıcı qurğular, raketlər, kompüterlər, televizor, internet – bunların hamısı elmi-tədqiqatın nəticəsidir. Buna görə də, təəccüblü deyil ki, texniki tərəqqi yolunda bəşəriyyətin atdığı hər addımda adamların qarşısına getdikcə idrakın daha mürəkkəb vəzifələri çıxır [3, s. 167].

Biz idraka yalnız zavodda və ya elmi laboratoriyalarda ehtiyac hiss etmirik. Yolda piyadalar arasından dolama keçərkən, meşədə yol axtararkən, radioqəbuledicinin qüsurunu düzəldərkən, kompüter, planşet və ya telefonların funksiyasını quraşdırarkən - əslində hər yerdə biz idrakımızın işləməsinə əsaslanır və onun nəticələrindən istifadə edirik [1, s. 158].

Elmi idrakın strukturu mürəkkəb olub müxtəlif elementlərdən təşkil olunmuşdur. Bunlardan nəzəriyyə, metod, analiz-sintez, fakt və problem kimi mürəkkəb səciyyə daşıyan formaların adını çəkə bilərik.

Nəzəriyyə anlayışı ilə, sözün geniş mənasında, aləmin hər hansı sahəsində, hər hansı hadisələr haqqında həqiqi, sınanılmış təsəvvürlər, ideyalar, prinsiplər sistemi nəzərdə tutulur. Daha dar mənada isə nəzəriyyə – real gerçəkliyin bu və ya digər sahəsinin mövcudluğu və inkişafının xarakterini müəyyən edən, onun xassələri, qanunauyğunluqları, səbəb-nəticə əlaqələri, determinatları, mahiyyəti haqqında ən yüksək əsaslandırılmış, məntiqi ziddiyyətsiz baxışlar verən dolğun elmi biliklər sistemidir.

Nəzəriyyə həmçinin bilik verməklə yanaşı, metodoloji funksiyanı yerinə yetirir və ümumi dünyagörüşü üçün zəmin yaradır. Nəzəriyyə faktlar, prinsiplər və qanunlar əsasında ərsəyə gəlir. Qanunu ifadə etməyən bilik qeyri-elmidir. Məhz güman, şübhə, fərziyyə, nəzəriyyə əsasında insanın elmi təfəkkürü formalaşır, müxtəlif bilik sahələri yaranıb inkişaf edir [4, s. 193].

Konkret olaraq deyə bilərik ki, səbəb, hadisə, daxili qanunayğunluq nəzəri biliyin köməkliyi ilə açılır. Məsələn, Eynşteynin nisbilik nəzəriyyəsi, V.İ.Lenin tərəfindən kapitalizmin iqtisadi-siyasi cəhətdən qeyri-bərabər inkişafı qanununun kəşfi böyük nəzəri məsələləri anlamağa kömək edir [2, s. 159].

Metod məqsədə çatmaq, gerçəkliyin dərk olunmasına və onun praktiki dəyişdirilməsinə nail olmaq üçün istifadə olunan üsullar ilə insanların nəzəri və praktiki fəaliyyətini tənzimləyən müəyyən prinsiplərin məcmusudur. Dekartın təbirincə desək, hər bir elmi yaradıcılığın xüsusi bir alətə böyük ehtiyacı vardır. Bu alət isə metoddur. Elmi idrak metodu alimin yaradıcı fəaliyyətini düzgün istiqamətləndirməklə öz tədqiqatı sahəsində həqiqi biliklərə yiyələnməkdə, ən qısa və optimal yolu seçməkdə ona yaxından kömək edir. Elmi idrak metodu elmi tədqiqata düzgün istiqamət götürməyə, vaxta və enerjiyə qənaət etməyə, həqiqətə daha səmərəli yolla çatmağa imkan verir.

Müasir elm zəngin idrak metodlarına malikdir. Bunun da səbəbi aydındır: öz təbiəti etibarilə sonsuz və rəngarəng olan maddi dünyanın hər bir predmeti, hadisəsi özünə xüsusi yanaşma üsulu, spesifik tədqiqat metodu tələb edir. Bu isə elmin tədqiqatdakı mövqeyindən və elmin inkişafındakı rolundan asılı olaraq metodları müxtəlif əsaslara görə təsnif etməyə əsas verir [7, s. 250].

Demək olar hər bir elmin spesifik tədqiqat metodları və vasitələri vardır. Fəlsəfə elmi bu spesifiklikdən kənar qalmayaraq idrakın ən ümumi metod və vasitələrinə üstünlük verir. Fəlsəfəni əsasən idrakın qanunuyğunluqları maraqlandırır. Əslində elmi idrakın vəzifəsi predmetlərin və hadisələrin daxili təbiətini, mahiyyətini, onların fəaliyyət və inkişaf qanunlarını aşkara çıxarmaqdan ibarətdir. Lakin mahiyyət, qanunlar hadisələrin səthində deyildir. Bunları aşkara çıxartmaq üçün elmin və praktikanın uzun sürən mürəkkəb inkişafı prosesində bütöv bir elmi tədqiqat üsulları işlənib hazırlanmışdır. Bu üsullar ümumi əhəmiyyətə malikdir və gerçəkliyin müxtəlif sahələrinin araşdırılmasında istifadə olunur [8, s. 348].

Analiz və sintez elmi idrakın ən ümumi metodlarından biridir. Elmi idrakda onlar vəhdət halında çıxış edir, onları ayrı təsəvvür etmək mümkün deyil. Tədqiqat obyekti ilə ümumi tanışlıq onun daxili mahiyyətinin öyrənilməsinə imkan vermir. Obyektin mahiyyətinə çatmaq isə heç vaxt analizsiz, yəni fikrən tədqiqat obyektini daxili struktur hissələrinə ayırmadan mümkün deyildir. Analiz metodu öyrənilən obyekti daxili struktur hissələrinə, tərəflərinə parçalayıb tədqiq etmək deməkdir. Lakin analiz heç də sadəcə olaraq parçalamaq olmayıb, həmin predmetin, hadisənin mahiyyətinə nüfuz etmək deməkdir. Vahidi, mürəkkəbi, çoxcəhətlini onu təşkil edən hissələrə, tərəflərə ayırmaqla biz hər bir tərəfin rol və yerini dərk etməliyik, elə bir əsas hissəni aşkara çıxarmalıyıq ki, həmin predmet hadisə üçün zəruri cəhət olsun. Bunu bilmədən predmet və ya hadisələri dərk etmək mümkün deyil.

Sintez isə elə metoddur ki, bunun vasitəsilə öyrənilən predmet və ya hadisəni təşkil edən tərəflər, xassələr haqqında əldə olunan bilik fikrən birləşdirilir və vəhdət, sintez halında təhlil edilir. Sintezin gedişində hər bir ünsürün yeri və rolu aşkara çıxarılır.

Fakt və problem elmi idrak üçün zəruri şərtdir. Fakt, problem subyektdən kənarda mövcuddur, obyektivdir, varlığın bir fraqmentidir. Fakt, problem müəyyən şəraitdə şüurun fəaliyyəti predmetidir ki, onsuz elmi biliyin əldə edilməsi qeyri-mümkündür. Elmi biliyin həqiqiliyi fakt və ya problemin düzgün seçilməsindən asılıdır. Ona laqeyd münasibət real gerçəkliyin təhrif edilməsinə, yanlış əqli nəticələrə gətirib çıxarır. Tikinti materialları hələ bina olmadığı kimi, fakt, problemin düzgün seçilməsi də hələ elm demək deyildir. Bunun üçün faktlar üzərində fərziyyə şəklində də olsa, təsnifat, yığım, ümumiləşdirmə, izahetmə və s. əməliyyatlar aparılmalıdır. Təsadüfi faktlar atılmalı, zərurəti, qanunauyğunluğu ifadə edən faktlar təhlil olunmalıdır, onun əsasında bilik, nəzəriyyə əldə edilməlidir [4, s. 192, 194].

**2. Təxəyyül**

Duyğu, qavrayış, təsəvvür və s. kimi psixi proseslərin verdiyi məlumat mürəkkəb idrak prosesi olan təxəyyülün əmələ gəlməsinə səbəb olur. Təxəyyülün fəaliyyəti idrak prosesinin iki pilləsi – hissi idrakla məntiqi idrak arasında keçid təşkil etməklə obyektiv aləmin dərk olunmasında çox böyük əhəmiyyət kəsb edir.

İnsan bilavasitə qavramadığı cisim və hadisələr haqqında da şüurunda müəyyən təsəvvür yarada bilir. Həmin cisim və hadisələrin surətini yaratmaq qabiliyyətinə təxəyyül (fantaziya) deyilir. Yəni əmək prosesinin sonunda işçinin əldə etdiyi nəticə, hələ proses başlamazdan əvvəl xəyalən onun təsəvvüründə mövcud olur. Məsələn, sənətkar hər hansı bir əmək aləti düzəltməmişdən əvvəl onun formasını təsəvvüründə canlandırır. İnsanın yaradıcı fəaliyyətinin elə bir sahəsi yoxdur ki, orada təxəyyülün rolu olmasın. Təxəyyülün fəaliyyətini tələb etməyən heç bir elm, heç bir əməli iş sahəsi yoxdur. Bir çox filosoflar ən mücərrəd elm sahəsi olan riyaziyyatda belə, təxəyyülün zəruri olduğunu bildirmiş və qeyd etmişdir ki, böyük riyazi kəşflər təxəyyül prosesinin iştirakı olmadan mümkün ola bilməz.

Təxəyyül prosesi öz dərəcəsinə görə ixtiyari və qeyri-ixtiyari olmaqla iki hissədən ibarətdir.

Qeyri-ixtiyari təxəyyül insanlarda niyyətsiz formada özünü göstərir. Bu obrazlar hissi idrak prosesində əldə edilmiş materiallar zəminində əmələ gəlir və təzahür edir. Qeyri-ixtiyari təxəyyülün fəaliyyəti zamanı insan qarşısına heç bir məqsəd qoymur, hadisələr, obrazlar öz-özünə, xüsusi niyyət olmadan qeyri-ixtiyari yolla təcəssümləşdirilir.

Qeyri-ixtiyarın ifrat halı röyadır (yuxugörmə). Röya zamanı beynimizdə bu və ya digər obrazlar idarə və niyyətimizdən asılı olmayaraq, müəyyən formalara girir, öz-özünə dəyişir və nəticədə, gözlənilməyən, qəribə, bəzən mənasız və fantastik birləşmələr əmələ gəlir. İnsanın yuxuya getməzdən əvvəl mürgüləməsi, yarımyuxulu halda bu və ya başqa obrazları yaratması prosesi də qeyri-ixtiyari təxəyyülün fəaliyyətinə aiddir. Müasir elm sübut edir ki, röya insan yatarkən baş beyin qabığının bəzi sahəsinin fəaliyyət göstərməsinin nəticəsidir. Röya görmək o deməkdir ki, baş beynin bəzi sahələrində bu və ya digər səbəbdən müəyyən qrup sinir hüceyrələri oyaq qalır.

Qeyri-ixtiyari təxəyyülün fəaliyyət formalarından biri də xülyadır. Qeyri-ixtiyari təxəyyüllə əlaqədar olaraq xülya insanı, xarici aləmin özünə məxsus cəhətlərini dərk etməkdən uzaqlaşdırır. Xülyapərəst adamlar xülya prosesinin özündən həzz alırlar. İnsanlarda qeyri-ixtiyari baş verən bu vəziyyət onları fəaliyyətə təhrik etmir, əksinə, fəaliyyətdən çəkindirir.

İxtiyari təxəyyül fəaliyyəti isə qeyri-ixtiyari təxəyyüldən fərqli olaraq məqsədəuyğun xarakter daşıyır. Obyektiv aləm qanunlarının, predmet və hadisələrin dərk olunmasında ixtiyari təxəyyül fəaliyyəti çox böyük əhəmiyyət kəsb edir. İxtiyari təxəyyül obrazları məzmunca üç növə bölür. Bu növlər bərpaedici, yaradıcı və xəyali təxəyyüldən ibarətdir.

Elə bir fəaliyyət sahəsi, elm sahəsi yoxdur ki, orada bərpaedici təxəyyül öz təsirini göstərməsin. Bərpaedici təxəyyülün fəaliyyəti insanın hər hansı bir hadisənin, obyektin, cismin təsvirinə, sxeminə və çertyojuna istinad etməsi zamanı, onların obrazlarını yaratmaq qabiliyyətində təzahür edir. Bərpaedici təxəyyül obrazları görmə, eşitmə, hərəkət və s kimi təsəvvürlərə əsaslanır. Bu cür təxəyyüllə insanlar hissi idrak vasitəsi ilə inikas etdirdiyi bu və ya digər hadisələri təsəvvüründə birləşdirir və nəticədə müəyyən bir obraz yaradır.

Yaradıcı təxəyyül bərpaedici təxəyyüldən fərqli olaraq şəxsiyyətin yaradıcılıq göstərməsi ilə xarakterizə olunur. Yaradıcı fəaliyyətə daxil olan, yeni, eləcə də qiymətli məhsul verən işlərin hamısı yaradıcı təxəyyülün fəaliyyəti nəticəsində əldə edilir. Elə bir yaradıcı fəaliyyət sahəsi yoxdur ki, orada yaradıcı təxəyyül iştirak etməsin. Hər bir yaradıcı fəaliyyət prosesi özünün icrası, başa çatdırılması və başqa psixi prosesləri ilə birlikdə yaradıcı təxəyyülə istinad edir. İnsanların şəxsiyyəti, varlığa münasibəti, obyektiv aləmi dərk etmə və izah etmə bacarığı, sənətkarlığı və s. bu kimi cəhətlər yaradıcı təxəyyül obrazlarında bütün aydınlığı ilə ifadə olunur.

İxtiyari təxəyyülün mühüm növlərindən biri də xəyaldır. Xəyal, gələcəyə, həm də uzaq gələcəyə yönəlmiş təxəyyüldür. Hər bir şəxsdə xəyal prosesi ehtiyac və tələbatdan doğur. Aktiv yaradıcı xəyal ancaq ayrı-ayrı şəxslərin həyatı üçün deyil, eləcə də bütövlükdə bəşər cəmiyyəti üçün çox böyük əhəmiyyət kəsb edir. Xəyal hər bir şəxsə güc verir, ona ilham gətirir və həyatda çətinliklə mübarizə etməyə kömək edir. Xəyali təxəyyül insanlara uzaq gələcəyə nəzər salmağa imkan verir, həmçinin onları təbiət və cəmiyyət qanunlarını, predmet və hadisələri dərk etməyə, öyrənməyə, yeni-yeni şeylər kəşf etməyə ruhlandırır. Məsələn, bir zamanlar bəşəriyyətin aya uçmaq xəyalı artıq həyata keçmişdir.

Xüsusilə qeyd etmək lazımdır ki, bütün təxəyyül növləri obyektiv aləmin dərk olunmasında, əməli fəaliyyətdə müstəsna əhəmiyyətə malikdir [6, s. 38-45].

### 3. Abstrakt təfəkkür

Abstrakt termini latıncadan tərcümə edildikdə "mücərrəd" mənasını verir. Demək olmaz ki, hissi idrakda heç bir abstrakt cəhət yoxdur. İnsan obyekti qavrayarkən onun bəzi tərəflərinə diqqət yetirir, onları ayırır, digər tərəflərdən, xassələrdən, cəhətlərdən və s. sərf nəzər edir. Bu xüsusiyyət təsəvvürdə daha çox nəzərə çarpır.

Saniyədə 300 min kilometr surəti olan işığın belə bir böyük surətini hiss orqanları vasitəsi ilə qavramaq və konkret bir şey kimi təsəvvür etmək olarmı? Ümumiyyətlə, rəngi, gücü, cəsurluğu, proporsiyanı təsəvvür etməyə çalışsaq, biz bunun nə olduğunu anlaya və ona tərif verə bilərik. Lakin bunları konkret, əyani varlıqlar şəklində göstərə bilmərik.

Çünki bunlar konkret cisimlər deyil, həmin cisimlərdən ayrılmış, mücərrəd xassələrdir (rəng fiziki cisimlərin xassəsidir, cəsurluq adamların keyfiyyətidir). Belə bir abstraksiya, ayırma yalnız təfəkkürdə mövcuddur. Bu bizim təfəkkürümüzün nitqdən, sözlərdən ayrılmaz olduğuna görə mümkün olur. Bu isə onu göstərir ki, sözlərlə bütövlükdə obyektlər və onların ayrı-ayrı xassələri arasında münasibət vardır [1, s. 166, 167].

Abstrakt təfəkkür prosesi insanların qarşısına çıxan çətinlikləri aradan qaldırmaq, meydana gələn suallara cavab tapmaq prosesində fəaliyyət göstərir. Cisim və hadisələr arasındakı əlaqə və münasibətlərin dərk edilməsinə əsaslanan abstrakt təfəkkür, bilavasitə müşahidə etdiyimiz cisim və hadisələr haqqında bilik əldə etməyə, hadisənin inkişaf gedişini və onun nəticəsini qabaqcadan görməyə imkan verir. Məsələn, bilirik ki, astronomiya günəşin tutulmasını və müəyyən vaxtlarda planetlərin vəziyyətini qabaqcadan müəyyən edir. Eynilə də ictimai inkişaf qanunlarına yiyələnmək, ictimai hadisələrin gedişini qabaqcadan görmək abstrakt təfəkkürün, məntiqi idrakın fəaliyyəti ilə sıx surətdə bağlıdır. Abstrakt təfəkkür obyektiv aləmdə mövcud olan cism və hadisələrin ümumi xassələrinin inikasında, onların mahiyyəti arasındakı qanunauyğun əlaqə və münasibətlərin

aşkara çıxarılması prosesində özünü təzahür etdirir.

Məntiqi idrakın məzmununu təşkil edən abstrakt təfəkkür bizə obyektiv aləm haqqında elə biliklər verir ki, onu duyğu və qavrayışların köməyi ilə əldə edə bilmərik. Abstrakt təfəkkür varlığın məntiqi surətdə dərk edilməsidir. Xarici aləm haqqında doğru, düzgün məlumatı ancaq abstrakt təfəkkür verə bilər [6, s. 53, 54].

**Nəticə**

Müasir elmin və ictimai praktikanın inkişafı göstərir ki, bizi əhatə edən hadisələrin mahiyyətini, onların inkişaf qanunauyğunluqlarını dərk etmək, təbiət və cəmiyyətin mütərəqqi surətdə yenidən qurulması uğrunda mübarizənin yollarını və vasitələrini müəyyən etmək yalnız idrak haqqında düzgün nəzəri-fəlsəfi konsepsiyaya yiyələnməklə mümkündür.

Əlbəttə, formalaşan idrakın sonrakı istiqamətləndirilməsi isə dövrümüzə qədər gəlib çatan elmi biliklərin öyrənilməsi, tədqiq edilməsi, zehniyyətimizdə daima analiz edilməsi, eyni zamanda praktikada işlədilməsindən asılıdır ki, bunun da nəticəsində ətraf-mühit haqqında daha irəli nəzəri-fəlsəfi fikirlər konsepsiyası ortaya çıxara bilərik.

## ƏDƏBİYYAT

1. Arefyeva Q, Butenko A, Zotov A, Kelle V, Kovalzon M, Pozner A, Roqoçov P, Sverblin M, Sibirov M, Stolyarov V, Titarenko A. Dialektik və tarixi materializm. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1970, 408 s.
2. Əliyev M, Rəhimov O, Quliyev C. Dialektik materializm. Bakı: Maarif nəşriyyatı, 1970, 335 s.
3. Fərhadoğlu M. Fəlsəfənin əsasları. Bakı: Maarif nəşriyyatı, 1996, 392 s.
4. Fərhadoğlu M. Fəlsəfənin əsasları. Bakı: Nurlan nəşriyyatı, 2006, 400 s.
5. İsrafilov M. Məntiq. Bakı: Maarif nəşriyyatı, 1987, 333 s.
6. Nəcəfov M. Məntiqi idrak prosesi və onun təbii elmi əsasları. Bakı: Azərbaycan dövlət nəşriyyatı, 1967, 296 s.
7. Ramazanov F, Zaynalov M, Məmmədov Ə, Kərimov V, İmanov H, Məmmədov Z, Tağıyev Ə, Dadaşov X, Fətəliyev A, İsayev N, Teymurlu M, Zeynalov E. Fəlsəfə. Bakı: Azərbaycan Texniki Universitetinin nəşriyyatı, 2001, 442 s.
8. Şükürov A. Fəlsəfə. Bakı: Adiloğlu nəşriyyatı, 2002, 492 s.
9. Tağıyev Ə. Fəlsəfə. Bakı: ADMİU mətbəəsi, 2012, 384 s.

***Summary***

***Bahruz Gulmaliyev***

***Display of Understanding in Science, İmagination and Abstract Thinking***

The theory of knowledge arose together with philosophy. The goal of knowledge is to reach the truth, discover the laws of nature and society and use them for the progress of humanity. In the process of cognition, the human mind develops from less knowledge to more knowledge, from simple to complex, from ignorance to complete and accurate knowledge,therefore, the cognitive process itself is complicated and contradictory. There is nothing incomprehensible in life. If we do not perceive an object, an event, today, sooner or later we will understand this as a result of the development of science and natural science.

Science is a specifically logical, theoretical and highest form of knowledge. Science is the product of subjective human intelligence, but since it reflects the objective reality, it also carries in itself the objective content. The main purpose, the main form of scientific cognition is the scientific ideas, principles and discovery of laws. The question of how to perceive the world is one of the central issues in scientific cognition. Science consists of certain ideas, principles and laws. Science becomes a real science when it has its own laws and principles.

Another way to realize existence and move forward in the scientific cognitive process is abstract

thinking. Abstract thinking, based on an understanding of the connections and relationships between mothers and events, allows us to acquire knowledge about the body and events that we observe directly, to see the progress of the event and its result in advance.

Azərbaycan üçün bu köklü dəyişikliklər bir tərəfdən qloballaşan dünyaya fəal inteqrasiya, digər tərəfdən, sürətli inkişaf meyli ilə şərtlənir. Hər iki meyil əsasən, müsbət xarakter daşımaqla yanaşı, müasir cəmiyyətdə ailə böhranın genişlənməsinə də yol açır. Cəmiyyətdə bu meyillər mürəkkəb və ziddiyyətli bir şəkildə özünü göstərir. Belə ki, hazırda ailə, valideyn-övlad münasibətlərinin liberallaşması, humanistləşdirilməsi, uşaq hüquqlarının qorunması, genişləndirilməsi və möhkəmləndirilməsi daha çox təbliğ olunur. Bununla yanaşı, müvafiq meyil valideynlərdə yeni nəslə – övladlara, uşaqlara marağın azalmasına, müxtəlif sosial çətinliklər qarşısında dözümsüzlüyə, kiçik problemlər müqabilində uşaqlardan imtina hallarının çoxalmasına gətirib çıxarır. Valideynlərin bir qismi "qiymətli" vaxtlarını övladlarına ayırmaq, əziyyət çəkmək istəmirlər, əyləncəyə, normadan kənar davranışa üstünlük verirlər. Belə münasibət valideyn-övlad sevgisinin zəifləməsinə, ailədə uşaqlara münasibətdə apatiya hissinin formalaşmasına gətirib çıxarır. İndi cəmiyyətdə sosial-iqtisadi sahədə əldə olunan nailiyyətlər, eyni zamanda, kəskin qütbləşmə, asosial davranışın güclənməsi, nəsillər arasındaki anlaşılmazlıqlar, gender problemi və s. günün reallığıdır. Bu vəziyyət şəxsiyyət probleminə, insan amilinə yenidən

nəzər salmağa, yeni dövrün tələblərinə cavab verə bilən şəxsiyyətlər formalaşdırmağa sövq edir.

Ailə istənilən cəmiyyətin mühüm təməli, özəyi kimi çıxış edir. Bu səbəbdən valideynlərin itirilməsi, ata-ana himayəsindən məhrum olma uşaqlar üçün təbii ailə bağlarından məcburən qoparılmaq deməkdir. Çünki ailə uşaqların ilkin sosiallaşmasının baş verdiyi vacib sosial təsisatdır. Reallıq ondan ibarətdir ki, uşağa doğma ata-ananın verdiyi emosional-psixoloji dəstəyi yadların, hətta yaxın-uzaq qohumların təmin etməsi mümkün deyildir. Bu, təkcə genetik, irsi deyil, həm də mənəvi, sosial-psixoloji bağlılığı, dəyərlərin, biliklərin nəsildən nəsilə ötürülməsini ifadə edən təzahürdür. Başqa sözlə, valideyn himayəsinin yoxluğu uşaqlar üçün tərbiyəvi, sosiallaşdırıcı təsirin mühüm, aparıcı xəttinin itirilməsi deməkdir. Doğrudur, uşaq tərbiyə müəssisələrində, xüsusən, yaxın qohumların himayəsində böyüdükdə bu itki çox da nəzərə çarpmır, lakin onların cəmiyyətə çoxcəhətli inteqrasiyasında, sosiallaşmasında, xüsusən, ailə-nəsil bağlılığı ilə əlaqədar təsəvvürlərində bir natamamlıq, qeyri-müəyyənlik meydana gəlir.

Uşaqlarsız ailəni təsəvvür etmək çətin olduğu kimi, valideynlərin iştirakı olmadan da uşaqların gerçək ailə dəyərlərini mənimsəməsi, cəmiyyətə ahəngdar inteqrasiyası, yetkin şəxsiyyət kimi formalaşması olduqca çətindir. Bu mənada, ailənin kiçik bir dövlət modeli olduğu çox tez-tez vurğulanır. Nə qədər kiçik görünsə belə, bu “dövlət”in öz mövcudluq, fəaliyyət və inkişaf qanunauyğunluqları var. Ailənin bir dövlət kimi, möhkəm təməl üzərində qurulması üçün bir sıra mühüm şərtlərin gerçəkləşməsi zəruridir. Ailə əsasən, ana-ata və uşaqlardan ibarət olan xüsusi sosial birlik forması sayılır. Onun tamlığı, bütövlüyü üçün ailədə bütün üzvlərin mövcudluğu və bərabər səviyyədə iştirakı önəmlidir. Bu üzvlərdən hər hansısa birinin olmaması və ya ailə həyatında iştirak etməməsi kiçik dövlət hesab etdiyimiz ailənin təməlinin müəyyən qədər laxlaması ilə nəticələnir [13, s. 79].

Uşaqların sosiallaşması onların cəmiyyətin bir üzvü olması prosesidir, yəni mənsub olduğu toplumun bir parçası olduğunu öyrənməsidir. Yəni  sosiallaşma - uşağın yaşadığı cəmiyyətə uyğunlaşması deməkdir. Bu prosesə eyni zamanda, cəmiyyətdə yaşamağa hazırlanma da deyilir. Çünki uşaq bu prosesdə hər hansı bir cəmiyyətlə, dar mənada isə hər hansı bir qrupla bütünləşir. Böyüməkdə olan uşaq ətrafındakı insanların təsiri nəticəsində, onların hərəkətlərinə oxşar hərəkətləri daha da inkişaf etdirir.

Burada sosiallaşmanın iki mühüm istiqamətini – uğurlu və uğursuz sosiallaşmanı fərqləndirmək mümkündür. Uğurlu sosiallaşma həm formalaşdırıcı,  həm də yaradıcı bir prosesdir. Belə ki, uğurlu sosiallaşma uşağı cəmiyyətin istədiyi yöndə şəkilləndirir, daha sonra isə ondan, cəmiyyətə xeyir verən, onun mənafeyini qoruyan bir şəxsiyyət yaradır [14, s. 83].

Uğursuz sosiallaşma mənfi davranışların qazanılmasına səbəb olur. Bəzən uşaqlar onları əhatə edən mikromühitin mənfi təsirlərinə məruz qalır və cəmiyyət tərəfindən qəbul edilməyən davranışlara yiyələnirlər [21].

Ailə  uşağın sosiallaşdığı ilk mühitdir. Bu mənada, valideyenlərin yoxluğu – ata, ana himayəsindən məhrum olma uşaqların sosiallaşmasına əhəmiyyətli dərəcədə mənfi təsir göstərən amillər sırasındadır. Görkəmli uşaq psixoloqu D.B.Elkonin müvafiq şəkildə uşağın anadan olandan orta məktəbi qurtarana qədər sosiallaşma ilə bağlı aşağıdakı altı yaş dövrünü keçdiyini xüsusi qeyd etmişdir:

1. Körpəlik dövrü: anadan olandan bir yaşa qədər.
2. Erkən uşaqlıq dövrü: bir yaşdan üç yaşa qədər.
3. Bağça yaşı dövrü: üç yaşdan altı-yeddi yaşa qədər.
4. Kiçik məktəb yaşı dövrü: altı-yeddi yaşdan on-on bir yaşa qədər.
5. Yeniyetməlik dövrü: on-on bir yaşdan on dörd-on beş yaşa qədər.
6. İlk gənclik dövrü: on dörd-on beş yaşdan on yeddi yaşa qədər [17, s. 26].

Yeniyetməlik dövründən başlayaraq, yetkinlik yaşına çatana qədər olan dövrə mürəkkəb xüsusiyyətlərə və təzahürlərə malik **"keçid", "təhlükəli", "dönüş" dövrü də deyilir. Bu yaş dövrlərində ayrı-ayrı dəyişiklliklərin baş verməsinin müxtəlif səbəbləri və hərəkətverici qüvvələri vardır [17, s. 27-28].**

**2. Valideyn himayəsindən məhrum olmuş uşaqların sosiallaşmasında yaranan çətinliklər**

**Faktlar göstərir ki, valideynlərin sosiallaşdırıcı rolu uşaqların tərbiyəsində və ahəngdar inkişafında olduqca mühümdür. Uşaq şəxsiyyətinin formalaşması əqli intellektual inkişafın müəyyən həddə çatması – yetkinliyə qədəm qoymasıdır.** Keçid dövrü hər kəsdə eyni formada baş vermir. Həmin dövrdə həm fizioloji, həm psixoloji, həm də sosial baxımdan əhəmiyyətli dəyişikliklərin baş verməsi qaçılmazdır. Valideynlərin iştirakı olmadığı şəraitdə uşaqların bir qismi yeniyetməlik dövrünü ciddi mənəvi-psixoloji problemlər yaşamadan keçirirlər. Bu, daha çox müəyyən yaş dövründən sonra yaxın qohumların himayəsində, digər ailələrdə qayğı ilə əhatə olunan, ögey-doğmalıq hiss etmədən böyüyən uşaqlara aiddir; bəzilərinə münasibətdə isə təsir daha ciddi xarakter kəsb edir [15, s. 67].

Hazırda müşahidə edilən mənfi sosial meyillərdən biri də böyüklərin, valideynlərin, cəmiyyətin uşaqlara qarşı diqqəti, sevgisi və qayğısının azalmasıdır. Valideynlər çox vaxt sosial təminat, iqtisadi məşğulluq zərurətindən övladlarına böyük diqqət və vaxt ayıra bilmirlər. İndi atasız doğulan, küçəyə atılan, valideynlərini (xüsusən, ataları) uzun müddət görə bilməyən uşaqların sayı ötən dövrlərlə müqayisədə xeyli çoxdur. Uşaqların davranışında aqressiya, qeyri-müəyyənlik, hər şeydən narazı qalmaq ovqatı, ənənələrə, normalara qarşı çıxmaq meyli nisbətən, daha fəal nəzərə çarpır. Bu şərtlər daxilində yaranmış yeni sosial şərait istər-istəməz fərqli standartları formalaşdırır. Valideynlərin sosiallaşdırıcı təsirindən kənarda özünütəsdiqə cəhd edən yeniyetmə müxtəlif həyati çətinliklərlə üzləşir. Həyatda məna axtaran, lakin diqqətdən, sevgidən, qayğıdan kənar qalmış uşaq nə etməli olduğunu, nəyi necə etməli olduğunu müəyyənləşdirməkdə aciz qalır. O, hələ yetkinlik yaşına çatmayıb, valideynlərini itirdiyi və ya himayələrindən məhrum olduğu üçün onların dəstəyinə ümid edə bilməz. Çox vaxt həyatda üzləşdiyi problemlərlə təkbaşına, valideynlərinin, yaxınlarının, doğmalarının dəstəyinə ümid etmədən mübarizə aparmalı olur. Bu, onda kobudluq, eqoizm, aqresiya kimi mənfi davranış meylləri formalaşdırır. Nəticədə tənhalıq, zərərli vərdişlər gündəlik həyat normasına çevrilməyə başlayır. Bu yaşda valideynlərinin zəruri diqqət və qayğısını hiss etməyən uşaqlar bəzən evdən qaçmağa, eləcə də cinayət əməllərinə meyilli olurlar.

Valideyn himayəsindən məhrum olmuş uşaqlar reallığı, öz gerçək vəziyyətlərini daha aydın bir şəkildə dərk edirlər. Bu dövrdə bir qrup uşaqlarda depressiya halları özünü göstərir. Özünə inamla, qarşı cinsə münasibətlə, məktəb və ailənin vəziyyəti ilə bağlı problemlər buna misal ola bilər. Ümumiyyətlə, bu tip depressiyalar qısa müddət ərzində yaranır və onlara müdaxilə etmək o qədər də vacib deyildir. Yeniyetmə özünü üzgün hiss edir, ancaq gündəlik həyatına davam edə bilər. Ruhi sarsıntı keçirən yeniyetmələrin vəziyyəti isə bir qədər fərqli olur. Ata-ananın itirilməsi və ya valideyn qayğısından məhrumolma yetkin uşaqlarda depressiyanın ağır formalarının yaranmasına səbəb ola bilər. Belə olan halda, yaranmış problemə önləyici müdaxilənin edilməsi, böhranlı sosial-psixoloji vəziyyətin qarşısının vaxtında alınması vacibdir. Əks halda, belə problemlər böyük fəsadlara, hətta həyatda məna tapa bilməyən uşaqların intiharlarına səbəb olur. Məsələn, belə uşaq özünü mənəvi cəhətdən dəyərsiz hiss edir. Bunun səbəbləri arasında yaxınlarının, doğmalarının yoxluğundan, qayğısızlıqdan təsirlənmək, ölümün nə olduğunu hiss etmək, yalnızlıq hissi, uşaqlıqdan gələn sevgi əksikliyi, ölüm, ayrılıq və s. kimi postravmatik mərhələlər vardır [3, s. 152].

Qeyd olunan amilləri nəzərə alaraq, söyləmək mümkündür ki, indiki dövrdə valideyn himayəsindən məhrum olmuş uşaqların davranışı problemi son dərəcə aktual, diqqəti cəlb edən, çoxşaxəlidir və bu problem böyük araşdırma tələb edir. Statistikaya əsasən, qeydə alınan cinayətlərin 4%-i uşaqlar tərəfindən törədilən cinayətlərdir. Rəsmi statistika polis şöbələrinə daxil olan müraciətlər və qeydə alınan cinayətlər əsasında aparılır. Cinayət Məcəlləsinə görə, uşaqlar 16 yaşından cinayət məsuliyyətinə cəlb oluna bilər (ağır cinayətlərdə uşaqlar üçün cinayət məsuliyyəti 14 yaşdan başlayır). Çox vaxt aşağı yaş həddində hüquq pozuntusuna yol verən uşaqların statistikası aparılmır [23].

Ümumilikdə, 10-17 yaşa qədər olan dövr uşaqların inkişafında, sosiallaşmasında və şəxsiyyətinin formalaşmasında "keçid" yaş mərhələsi hesab olunur. Başqa sözlə, burada uşaqlıqdan yetkinliyə – yəni qeyri-yetkin yaş dövründən yetkinlik yaşı dövrünə keçid nəzərdə tutulur. Lakin bu dövrün başlanmasına və bitməsinə dəqiq sərhəd qoymaq o qədər də doğru deyildir. Müxtəlif amillərin təsiri altında həmin yaş dövrü bir il tez və ya gec başlaya, bir il tez və ya gec başa çata bilər. Bu dövr özünün praktik əhəmiyyəti, sosial, pedaqoji çətinlikləri və uşaq şəxsiyyətinin dinamikasında baş verən psixoloji xüsusiyyətləri ilə diqqəti cəlb edir.

Keçid dövründə xarakterin bir sıra keyfiyyətləri – təşəbbüskarlıq, təkidlilik, qətiyyət, məqsədəçatma yolunda qarşıya çıxan çətinlik və maneələri dəf etmək, müstəqil olaraq qarşıya məqsəd qoymaq bacarığı təşəkkül tapır. Bu xüsusiyyətləri müsbət keyfiyyətlər kimi qiymətləndirmək lazımdır. Buna baxmayaraq, yeniyetmələrin hərəkətləri əksər hallarda hələ də impulisiv səciyyə daşıyır. Çox zaman onların arzuları ilə real hadisələr arasında fəsadlar olur.

Yeniyetməlik dövrü mexanizminin açılmasında görkəmli psixoloq A.N.Leontyevin – uşağın psixi inkişafının hərəkətverici qüvvəsi onun ictimai münasibətlər sistemində tutduğu real yerin dəyişməsidir müddəası çox böyük əhəmiyyət kəsb edir [4, s. 298].

Bu dövr, uşaqlıqla böyüklük arasındakı ruhi inkişaf və həyata hazırlıq dövrüdür. Çünki yeniyetmə nə uşaq, nə də böyükdür. Bu yaşda inkişafda da mürəkkəb dəyişikliklər baş verir, orqanizmdə lazımı bərkimə, möhkəmlənmə gedir, əsəb sistemi, əzələ-damar sistemi sürətlə inkişaf edir. Bunların hamısı yeniyetmənin psixologiyasına müəyyən təsir edir, neqativ emosiyaları və reaksiyaları bir qədər qüvvətləndirir. “Keçid dövrü” adlanan bu mərhələdə uşaqda fizioloji, bioloji və psixoloji baxımdan olduqca sürətli dəyişikliklər yaranır. Valideynlərin dəstəyindən və himayəsindən məhrum olduqda surətli dəyişikliklərlə əlaqəli olaraq, yeniyetmənin ruhu və emosional dünyası da bəzi dəyişikliklərə məruz qalır, buna öyrəşməyə çalışan yeniyetmə də təbii olaraq bəzi çətinliklər keçirir [3, s. 149]. Oyanıqlığın artması və ya güclənməsi çox zaman yeniyetmələrdə əsəb gərginliyinin artmasına, tez özündən çıxmağa, kicik qıcıqlayıcılara belə kəskin reaksiya vermələrinə səbəb olur. Bu, onlarda tez yorulma, başgicəllənmə, ürək döyüntüsü və s. kimi hadisələr törədir. Baş verənlər daha çox onların sinir sisteminə mənfi təsir edir [2, s. 16].

Uşağı əhatə edən insani münasibətlər aləmində əvvəllər tutduğu yer, onun tərəfindən öz imkanlarına müvafiq gəlməyən kimi dərk olunur və uşaq onu dəyişdirməyə səy göstərir. Beləliklə, valideyn diqqəti görməyən uşağın həyat tərzi ilə artıq onun bu həyat tərzini qabaqlamış imkanları arasında açıq ziddiyyət meydana çıxmağa başlayır [6, s. 34].

Xarakter və davranışında çatışmazlıqlar olan uşaq və yeniyetmələr "çətin" hesab edilirlər. Bu mənada, valideyn himayəsindən məhrum olmuş uşaqlar həm özləri, həm də başqaları ilə münasibətdə çətinlik hiss edirlər. Əksər halda “çətin” uşaqların sırasına sözə baxmayan, şıltaq, tərs, intizamsız, kor-kobud, tənbəl, yalançı və s. uşaqları daxil edir və bunları asosial uşaqlar kimi xarakterizə edirlər. Bu cür uşaqların pedaqoji baxımsızlıqdan irəli gəldiyini xüsusilə qeyd edirlər. Adətən valideyn himayəsindən məhrum olmuş uşaqların xüsusiyyətləri ən çox yeniyetməlik dövründə özünü göstərir. Bu dövr uşaqlarda “çətinliyin” yaranmasına təkan verir [5, s. 520-521].

Müasir elmi və pedaqoji ədəbiyyatın təhlilinə əsasən, valideyn himayəsindən məhrum olmuş uşaqlar konsepsiyasının məzmununu təşkil edən üç əsas xüsusiyyətləri ayırd etmək olar. Birinci əlamət belə uşaqlarda və ya yeniyetmələrdə normadan kənara çıxan davranışların olmasıdır. Bu davranışı xarakterizə etmək üçün xüsusi terminlərdən istifadə olunur: deviant və delinkvent. Yeniyetməlik dövründə qarşıçıxma, dağıdıcı, hiperaktiv, antisosial və ya cinayət tərkibli davranışlar deviant və delinkvent davranışlar kimi qarşımıza çıxa bilirlər [18, s. 14].

Valideyn himayəsindən məhrum olmuş, deviantlığa meyilli yeniyetmələrin davranışında aqressiya mühüm yer tutur. Bəzi uşaqlarda tez-tez müşahidə edilən aqressiya – təcavüz reaksiyaları güclü sosial problemləri əks etdirir. Digər tərəfdən, aqressiya bir bərabərləşdirmə ehtiyacını, yaxud çatışmazlıq hisslərini təmsil edir. Həddindən artıq aqressiv olan uşağın məqsədi vəziyyətə hakim olmaq, özünə qoyulan maneəyə qalib gəlmək, yaxud nəyisə sıradan çıxarmaq, xarab etməkdir. Fərdləri aqressivliyə şövq edən hirs, nifrət qisqanclıqda, hücümda, müdafiədə, itaətsizlikdə, narahatçılıqda olduğu kimi, xoş olmayan gərginliklərlə əlaqədar ola bilər.

Valideyn qayğısını hiss etməyən yeniyetmələrin digər bir xüsusiyyəti isə özünütəsdiqə meyillilikdir. Təlim uğurları və digər nailiyyətlərlə özünü təsdiqləyə bilməyən yeniyetmə bunu bacardığı tərzdə digər sahələrdə gerçəkləşdirməyə çalışır. Bəzi yeniyetmələr tez-tez sinifdə özündən zəif olanlara, müəllimlərə qarşı kobud davranmaları ilə diqqəti cəlb edirlər. Dövrümüzdə belə yeniyetmələrin davranışında konfliktə meyillilik daha geniş yayılmışdır. Yeniyetmələr səbrsiz və aqressiv olduqlarından sinif yoldaşları, müəllimlər və hətta rəhbər işçilərlə konfliktə girirlər. Bu yeniyetmələr tez-tez sinifdə münasibətləri gərginləşdirən tərəf olaraq, münaqişələrin yaranmasının başlıca səbəbkarı kimi çıxış edirlər. Onlar əksər hallarda müəllimlərin tələblərini yerinə yetirmirlər, çox vaxt dərsləri pozmağa, əyləncəyə çevirməyə cəhd edirlər. Bir çox hallarda bu yeniyetmələr sosial, ictimai, ailə və nəhayət, təlim, tədris normalarını pozurlar. Valideyn himayəsindən məhrumluq deviant davranışlı yeniyetmələrin sosiallaşmasında ciddi adekvatlıq problemi yaradır. Onlar sosial mühit normalarını nəzərə almırlar, sərbəst olmağa, asudə vaxt keçirməyə cəhd göstərir və əlavə güzəştlər tələb edirlər [2, s. 18].

Valideyn himayəsindən məhrum olmuş uşaq böyüklərin az məşğul olduğu və ya ailənin diqqətindən, himayəsindən tam kənarda qalan uşaqlardır. Onlar çox vaxt yaxınların, doğmaların dəstəyi olmadan, özləri böyüyürlər. Belə uşaqların bir hissəsi küçə həyatına alışırlar: yoldan keçənlərə yalvarırlar, avaralıqla, oğurluqla məşğul olurlar. Onlar təcavüzkar, həyəcanlı həyatın kölgəli tərəfləri ilə tanış olurlar. Onlar erkən siqaret çəkməyə, spirtli içki içməyə, narkotik maddə almağa başlayırlar. Onlar mütəşəkkil dəstələrə qoşularaq, oğurluq, soyğunçuluq edirlər, hətta adam öldürürlər. Bu hallarda uşaqların davranışları delinkvent termini ilə xarakterizə olunur.

Delinkvent davranış dedikdə kiçik qanun pozuntuları, eyni zamanda, cinayət məsuliyyəti doğuran qanun pozuntuları və ağır cinayətlər başa düşülür. Delinkvent davranışa nümunə olaraq, şəxsi əşyaya ziyan vurmaq, qəsdən yanğın törətmək, oğurluq, narkotik istifadəsi, maşın qaçırma, içkili avtomobil idarəetmə, insanı yaralama, kimisə döymə, təhdid edərək zorla birindən nəyisə alma, silah gəzdirmə, dalaşma, dövlət əmlakına zərərvurma, məktəbdənqaçma kimi ümumi olaraq qəbul edilmiş qaydalara və hakimiyyətə tabe olmamağı əhatə edən, təməlində aqressiyanın da olduğu davranışlar diqqətimizi cəlb edir [19, s. 120].

İkincisi, bu cür uşaqlar və yeniyetmələrin davranışları asanlıqla düzəldilə bilməyən pozuntulardır. Burada valideyn himayəsindən məhrum olmuş uşaqların və "pedaqoji cəhətdən laqeyd uşaqların" anlayışlarını ayırmaq lazımdır [10, s. 169]. "Pedaqoji cəhətdən laqeyd uşaqlar" həmişə çətin deyil və təkrar təhsilə nisbətən asanlıqla uyğunlaşa bilirlər.

Üçüncüsü, valideyn himayəsindən məhrum olmuş uşaqlara tərbiyə və diqqət baxımından xüsusi olaraq fərdi yanaşmaq lazımdır [16, s. 31].

Sadaladığımız bütün bu davranışları ümumiləşdirsək, valideyn himayəsindən məhrum uşaqları: sosial-psixoloji baxımdan – hiperaktiv, deviant davranışlı, asosial uşaq, riskli davranışlara meyilli, sosial cəhətdən təhlükəli vəziyyətdə olan şəxslər kimi, hüquqi baxımdan – bir sıra hallarda kriminal, hüquq pozuntusu, cinayət törədən uşaqlar adlandırsaq da, onları ümumi halda "çətin tərbiyə olunan uşaqlar" kimi də qeyd edə bilərik.

Müşahidələr və tədqiqatlar göstərir ki, çox təhlükəli cinayətkarların əksəriyyəti cinayətə erkən yaşlarında (18 yaşa çatmamış) qoşulmuş şəxslərdir. Onların yarıdan çoxu məhz valideyn himayəsindən məhrum olmuş uşaqlardır. Belə uşaqlar cinayətə daha çox meyillidirlər. Sosial-psixoloji mahiyyətinə görə, uşaqlarla böyüklərin cinayəti arasında xeyli fərq vardır. Bu fərq birinci növbədə cinayətin motivinə aiddir. Yeniyetmələrin cinayət işlətməsinin iki başlıca səbəbi vardır:

- birincisi, yeniyetmənin şəxsi xüsusiyyətlərindən, yəni psixoloji xüsusiyyətlərindən irəli gələn səbəblər;
- ikincisi, xarici mühitin mənfi təsiri – sosial səbəbləri.

Qanunu pozan, valideyn himayəsindən məhrum olmuş uşaqların sosiallaşması ilə bağlı çətinliklərdə aşağıdakı ümumi cəhətlər nəzərə çarpır:

1. Bu uşaqların, xüsusən yeniyetmələrin həm ümumi və həm də idrak maraqları aşağı səviyyədədir.

2. Onların şəxsiyyətinin təşəkkülünə, həyat ideyalarının formalaşmasına təcrübəli, yaşlı cinayətkarların, deviant davranışlı digər şəxslərin böyük təsiri özünü göstərir.

3. Valideyn himayəsindən məhrum olmuş uşaqların və yeniyetmələrin şəxsi xüsusiyyətləri sırasında a)tənbəllik, b)iradəsizlik, c)məsuliyyətsizlik, ç)konformizm – başqalarının təsirinə düşmək, d)kobudluq, nəzakətsizlik, e)aqressivlik və s. kimi mənfi xüsusiyyətlər üstünlük təşkil edir [5, s. 443-444].

Psixi inkişafın zəruri mərhələlərindən keçən hər bir uşaq müəyyən yaş dövrlərində istər-istəməz "çətin davranışlı" olur. Bu inkişafın yeniyetməlik mərhələsini valideyn himayəsindən məhrum uşaqlar normal ailələrdə böyüyən həmyaşıdları ilə müqayisədə daha ağır keçirirlər. Müvafiq kateqoriyaya aid edilən 10 yaşdan aşağı uşaqlarda deviant davranışlar (ərköyünlük, aqressivlik, dalaşqanlıq, kobudluq və s.) olsa da, bu, daha çox yaş dövrünə aid edilən xüsusiyyətlərdir. Belə ki, uşaq valideynlərini itirməsinə baxmayaraq, cəmiyyətdə xüsusi diqqət və qayğı ilə əhatə edilirsə, düzgün tərbiyə olunursa, həmin uşaq "keçid yaş mərhələsi" adlanan yeniyetməlik dövründə sosial mühitə daha asan uyğunlaşır, kəskin adaptasiya və inteqrasiya problemləri ilə qarşılaşmır. Diqqəti çəkən cəhət odur ki, valideyn himayəsindən məhrum olmuş uşaqlar çox vaxt özlərini məktəbə, kollektivə qarşı qoyurlar. Xüsusi himayədən, diqqət və qayğıdan kənarda qaldıqda onların maraqları qeyri-sağlam, məqsədləri cəmiyyət üçün təhlükəli olur. Bu halda həmin uşaqların rəftarında cəmiyyətə zidd davranış formalarının meydana çıxması qaçılmazdır. Burada yeniyetməni əhatə edən mühitin təsiri, rolu da əhəmiyyətli dərəcədə böyükdür. Çünki onun şəxsiyyətinin fərqli xüsusiyyətləri fərdi-psixoloji xarakter daşımaqla yanaşı, sosial mühitlə əhəmiyyətli dərəcədə bağlıdır.

Ümumilikdə, valideyn himayəsindən məhrum olan uşaqların və yeniyetmələrin sosial davranışında deviantlığın kəskin xarakter aldığını söyləmək mümkündür. Onları müvafiq əlamətlərə görə 4 qrupa ayırmaq olar:

1. Birinci qrupa valideyn qayğısından məhrum uşaqların və yeniyetmələrin təxminən 30-35%-i aiddir. Bu qrupa aid edilənlərin sosiallaşma çətinlikləri və normadan kənar davranışları bir növ təsadüfi xarakter daşıyır. Çünki onların deviantlığı şəxsiyyətləri və həyat tərzləri ilə əlaqədar deyildir. Əksər hallarda ətrafdakıların onları anlaya bilməmələri, uşaqlara qarşı yönələn hədsiz və yersiz tələblər onların davranışında ziddiyyətlərə,

mürəkkəbliyə və qeyri-müəyyənliyə yol açır. Daha döğrusu, belə uşaqların deviant davranışları onların şəxsiyyətinin məzmun və istiqamətindən doğmur, ictimai təhlükəli xarakter daşımır, müəyyən müddətdə tədricən aradan qaldırılır. Əksər hallarda belə davranış sosiallaşmanın erkən dövrlərində kiçik şəxsiyyət böhranı kimi meydana gəlir və təsadüfi səciyyə daşıyır [16, s. 117].

2. Valideyn himayəsindən məhrum olmuş, deviant davranışlı şəxslərin ikinci spesifik qrupuna belə uşaqların və yeniyetmələrin 25-30%-i aid edilir. Bu qrupa aid olan uşaqların sosiallaşma, cəmiyyətə uyğunlaşma və adaptasiya ilə bağlı ciddi problemləri mövcuddur. Onların şəxsiyyəti özünün dinamikliyi, qeyri-ardıcıllığı və qeyri-sabitliyi ilə səciyyələnir. Belə uşaqlar müvafiq şərait yarandıqda əksər qaydaları və sosial normaları pozmağa meyilli olurlar [1, s. 286].

3. Üçüncü qrupa valideyn himayəsindən məhrum olmuş uşaqların təxminən 30-40%-i aid edilir. Bu qrupdan olan uşaqların normadan kənar – kəskin deviant davranışı onların şəxsiyyətinin ümumi mənfi istiqaməti ilə sıx surətdə əlaqədardır, daha doğrusu, onun nəticəsidir. Burada kənar mənfi təsirlərin də rolu olduqca böyükdür [1, s.287].

4. Dördüncü qrupa valideyn himayəsindən məhrum olmuş uşaqların 10-15%-i aid edilə bilər. Bu qrupa aid edilənlərin sosial davranışı əsasən ictimai cəhətdən təhlükəli sayılır. Çünki onlarda sosial qaydaları pozmaq adi norma hesab edilir. Belə uşaqlarda cinayətkar yönəliş (qanunları, ictimai qaydaları bilərəkdən pozmaq istəyi) formalaşmışdır. Onlarda davamlı antisosial davranış tərzi və münasibətlər yaranmışdır. Heç də təsadüfi deyildir ki, belə uşaqlar və yeniyetmələr ictimai təhlükəli fəaliyyət göstərmək, cinayət törətmək üçün bəhanə və əlverişli şərait axtarırlar [1, s. 288].

**Nəticə**

Qeyd olunan məqamları ümumiləşdirdikdə aydın olur ki, valideynlərini itirmiş, eləcə də ata-ana himayəsindən tam və ya qismən məhrum olmuş uşaqlarda (fikrimizcə, natamam ailələrdə valideynlərdən birinin himayəsindən kənarda qalma da xüsusi hal kimi diqqətdən yayınmamalıdır) bir sıra spesifik və xarakterik problemlər qarşıya çıxır. Belə uşaqların mühüm qismində özgüvənlik və sosial məsuliyyət hissi əhəmiyyətli dərəcədə aşağıdır. Ümumilikdə, burada müqayisəli təhlil və elmi faktların qruplaşdırılması, sistemləşdirilməsi yolu ilə əldə olunan nəticələr aşağıdakı vacib məqamları əhatə edir:

1.Ailənin dəstəyindən məhrum olma, ata-ananın yoxluğu uşaqların şəxsiyyətinə, sosial həyatına çox mənfi təsir göstərir, onların ilkin sosiallaşması, ahəngdar sosial və mənəvi inkişafının təmin edilməsi baxımından, ciddi problemlər, maneələr yaradır. Bu, ailə mühitinin, qan qohumluğundan irəli gələn emosional-psixoloji bağlılığın, valideyn-övlad münasibətlərinin uşağın tərbiyəsində əvəzolunmaz rolunu bir daha təsdiqləyir.

2.Bu uşaqlar tam, normal ailələrdə böyüyən həmyaşıdları kimi, müəyyən yaş dövrlərində istər-istəməz "çətin davranışlı" olurlar. Lakin onlar valideynlərinin dəstəyinin olmaması səbəbindən belə böhran vəziyyətlərini daha ağır keçirirlər, qeyri-müəyyənlik vəziyyətindən çətinliklə çıxırlar. Bunun qarşısını almaq üçün xüsusi sosial-profilaktik tədbirlər kompleksi işləyib hazırlamaq və həmin tədbirlər kompleksini vaxtaşırı, şəraitə uyğun olaraq təkmilləşdirmək zərurəti qarşıya çıxır.

3.Valideyn himayəsini itirmiş uşaqların diqqətdən, qayğıdan kənarda qalması onların cəmiyyətə apatiya, laqeyd münasibət bəsləməsinə, yeniyetməlik dövründə ictimai təhlükəli davranışına gətirib çıxara bilər. Bunun qarşısını almaq üçün onlara qarşı böyük həssaslığın nümayiş etdirilməsi, onların dövlət və cəmiyyət səviyyəsində müdafiəsinin, himayəsinin genişləndirilməsi vacibdir.

## ƏDƏBİYYAT


1. Bayramov Ə., Əliyev B.  Hüquq psixologiyası. Bakı: "Təhsil" nəşriyyatı, 2012, 648 s.
2. Hüseyn Ş. M. Yeniyetmələrin deviant davranışlarının aradan qaldırılmasında milli-mənəvi dəyərlərin rolu, psixol. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı, 6107.01, AMEA Fəlsəfə və Hüquq İnstitutu, B., 2015, 24 s.
3. Xəlilov H. Uşaq və yeniyetmələrin inkişafının sosial-psixoloji məsələləri. Bakı: Qafqaz Universiteti nəşri, 2012, 236 s.
4. Qədirov Ə. Yaş psixologiyası. Bakı: Maarif, 2002, 387 s.
5. Seyidov S.İ., Həmzəyev M.Ə., Mustafayev T.Ə. Psixologiya. Bakı: Maarif, 2007, 626 s.
6. Леонтьев А.Н. Проблемы развития психики. М.: Издательство МГУ, 1972, 584 с.
7. Лиханов А.И. Дети без родителей. М.: Просвещение, 2010, 324 с.
8. Лубовский В.И. Психологические проблемы диагностики аномального развития детей. М.: Владос, 2010, 349 с.
9. Мудрик А.В. Социальная педагогика: учебник для студ. высш. учеб. заведений. М.: Академия, 2009, 345 с.
10. Нейропсихологическая диагностика и коррекция школьной неуспеваемости // Психодиагностика и коррекция детей с нарушениями и отклонениями развития. СПб.: Питер, 2002, 219 с.
11. Нечаева А.М. Охрана детей-сирот в России [История и современность]. М.: Дом, 2012, 234 с.
12. Овчарова Р.В. Практическая психология образования. М.: Академия, 2010, 567 с.
13. Олиференко Л.Я. Социально-педагогическая поддержка детей группы риска. М.: Академия, 2004, 267 с.
14. Проблемы насилия над детьми и пути их преодоления. СПб.: Питер, 2008, 240 с.
15. Психология и педагогика: Учеб. пос. для вузов. М.: Владос, 2004, 328 с.
16. Психология семейных отношений с основами семейного консультирования. М.: Сфера, 2002, 254 с.
17. Эльконин Д.Б. К проблеме периодизации психического развития в детском возрасте // Хрестоматия по возрастной и педагогической психологии. М., 1981, 311 с.
18. Baily J.A., Hill K.G., Olsterle S., Hawkins J.D. Perenting Practes and Problem Behavior Acrass Qenerations: Manitoring, Harsh Discipline and Drug Use in the İntergenerational Transsmission of Extemalizing Behavior. Developmental Psychology. 2009, s. 12-14.
19. Monahan K.C., Steinberg L and Caiffman, E. Affilationn with Antisoc.Adulthood. Developmental Psychology 2009,  p. 1520
20. Azərbaycanda ana və uşaqların sosial müdafiəsi: sistemin imkanları və əhatə dairəsi. RAİ İnkişaf Qrupu. Bakı, 2018 (https://bakuresearchinstitute.org/az/the-social-protection-of-mothers-and-children-in-azerbaijan-the-systems-capability-and-scope/)
21. Bir uşağın sosiallaşması üçün 3 mühüm şərt. Bakı, 2014 (http://ideologiya.az/2014/04/%C9%99fruz-bir-usagin-sosiallasmasi-ucun-uc-on%C9%99mli-s%C9%99rt/)
22. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 22 iyun 1999-cu il (http://www.e-qanun.az/framework/3859)
23. Dövlət Statistika Komitəsinin elektron portalı. 2010-2020 (https://www.stat.gov.az)


***Резюме***


***Натаван НАДЖАФОВА***


***Проблема социализации детей, лишенных родительской опеки***


Стабильная семья - основное условие здорового общества. Основная функция каждой здоровой семьи – защищать и воспитывать своих детей, чтобы они могли должным образом адаптироваться к обществу и стать гармоничными личностями. Характер ребенка формируется на основе взаимоотношений отца и матери. Родительская опека гарантирует положительное направление

развития поведения ребенка.

Позитивная социализация детей, лишенных родительской опеки, зависит, прежде всего, от организации надлежащего социального контроля над их поведением и установками. Под социальным контролем здесь понимается система воздействия общества и социальной группы на поведение ребенка. Основная цель этой системы воздействия - не допустить негативного, асоциального поведения ребенка, направить его поведение и установки в соответствии с существующими в обществе моральными нормами. Проблема социализации детей, лишенных родительской опеки сегодня является весьма актуальным с точки зрения поддержки и опеки уязвимых групп в обществе. Неучастие родителей в процессе воспитания, формировании их, как личности, приводит к отклонениям в поведении, отрицательно влияет на социализацию и адаптацию детей к обществу. Как и их сверстники, выросшие в нормальных семьях, этим детям в определенном возрасте становится «трудно вести себя». Однако из-за отсутствия поддержки со стороны родителей они находятся в более сложной ситуации, им трудно преодолеть неопределенность.

Для предотвращения этого необходимо разработать комплекс специальных социальных и профилактических мероприятий и периодически необходимо, в зависимости от обстоятельств, совершенствовать эти меры.

В статье социализация характеризуется как процесс взаимодействия индивида и общества в целом, системно и концептуально отражена проблема социализации детей, лишенных родительской опеки.

Принимая во внимание социальную значимость проблемы, особое внимание, заботу и чуткость следует уделять воспитанию таких детей на уровне государства и общества, нужно принять во внимание комплексный характер проблемы, всесторонне исследовать социально-экономические, нравственно-психологические особенности отдельных факторов, должны быть реализованы направления деятельности.

***Ключевые слова:*** *социализация, дети, опека родителей, воспитание, личность*

***Summary***

**Natavan Najafova**

***The Problem of Socialization of Children Deprived of Parental Care***

A stable family is the main condition for a healthy society. The main function of every healthy family is to protect and educate their children so that they can properly adapt to society and become harmonious individuals. Parental care guarantees a positive direction for the development of the child's behavior.

The positive socialization of children deprived of parental care depends, first of all, on the organization of proper social control over their behavior and attitudes. Social control here is understood as the system of influence of society and social group on the behavior of the child. The main purpose of this system of influence is to prevent negative, asocial behavior of the child, to direct his behavior and attitudes in accordance with the moral norms existing in society.

The problem of socialization of children deprived of parental care today is very relevant from the point of view of support and care of vulnerable groups in society. The lack of participation of parents in the process of upbringing, their formation as a person, leads to deviations in behavior, negatively affects the socialization and adaptation of children to society. Like their peers who grew up in normal families, these children at a certain age become "difficult to behave." However, due to the lack of support from their parents, they are in a more difficult situation, it is difficult for them to overcome uncertainty.

To prevent this, it is necessary to develop a set of special social and preventive measures, and it is periodically necessary, depending on the circumstances, to improve these measures, it is necessary to take into account the complex nature of the problem, to comprehensively investigate the socio-economic, moral-psychological characteristics of individual factors, directions of activity should be implemented.

***Key words:*** *socialization, children, parental care, upbringing, personality*

Şöbə redaktoru f.ü.f.d. Rəhimov Mütəllim Qara oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 316.3**

## BÖYÜK QAYIDIŞIN İDARƏ EDİLMƏSİNİN SOSİOLOJİ ASPEKTLƏRİ

**Nərgiz NƏSİROVA**[*]

*Məqalə redaksiyaya daxil olmuşdur: 6 oktyabr 2020; çapa qəbul edilmişdir: 13 noyabr 2020; online-da çap edilmişdir: 31 mart 2021.*

*Received: 6th of October, 2020; accepted: 13th of November, 2020; published online:15th of March, 2021.*

***Açar sözlər**: Böyük Qayıdış, bəyanat, proqram, məcburi köçkün, xüsusi idarəetmə, sosioloji təhlil*

### Giriş

Bəşər tarixində müəyyən qrupların siyasi ambisiyalarına, məkrli planlarına xidmət edən, nəticə etibarilə insanların həyatını mürəkkəbləşdirən, onların daimi yaşayış yerlərini məcburən tərk etməsinə, sonsuz məhrumiyyətlərə düçar olmalarına, çoxsaylı insan təlafatına, yaşayış məskənlərinin qısa müddətdə yerlə yeksan olunmasına səbəb olan müharibələr çox olub və onun acı nəticələrini dadmayan xalq, millət yoxdur. Təəssüflər ki, tarixin dərslərindən düzgün nəticə çıxarmağı bacarmayan və yaxud bunu qəsdən istəməyən qüvvələr indi də mövcuddur. Dünyanın yeni sivilizasiya mərhələsinə qədəm qoyduğu, robotlaşma, nanotexnologiyaların tətbiqi dövrü hesab edilən XXI əsrdə də, bir çox ölkələr bu inkişafın tələblərini və yaxın gələcəyi görmədikləri üçün həm özləri, həm də region dövlətləri və nəhayət, dünya üçün süni problemlər yaradırlar. Bu cür dövlətlər ibtidai icma dövrünə aid olan siyasətdən – qonşu dövlətlərin maddi və mənəvi sərvətlərinin yağmalanması, talanması, coğrafi sərhədlərin genişləndirilməsi kimi boş xəyallardan, məkrli planlardan əl çəkə bilmirlər.

Hegemon, supergüc dövlətlər isə yer üzü üçün təhlükəli olan belə cəhdlərin qarşısını almaqdan ötrü nəinki səy göstərmirlər, əksinə, özlərinin regionda söz sahibi olduğunu nümayiş etdirmək, münaqişə tərəflərini özündən asılı vəziyyətə salmaq, öz maraqlarına uyğun şərtlərini diqtə etmək məqsədi ilə tərəfkeşlik, himayədarlıq siyasəti yürüdərək münaqişələri daha da alovlandırmağa rəvac verirlər.

Lakin hər başlanğıcın bir sonluğu olduğu kimi, uzun-qısa sürməsinə baxmayaraq, müharibələr də əvvəl-axır sona yetir. Dağıdıcılıq prosesi əvvəlki həyatın bərpası prosesi ilə əvəz olunur. Bir sözlə, bütün texniki, iqtisadi tədbirlər bir məcraya – insanların həyat şəraitinin yaxşılaşdırılması kimi sosial istiqamətə yönəldilir. Hər şey insanlar üçün, hər şey insanların yaşayışının müasir tələblər səviyyəsində təmin olunması naminə!

### Böyük qayıdış ideyasının obyektiv əsasları

44 gün sürən Vətən müharibəsi ölkəmizin şanlı qələbəsi ilə nəticələndi, 30 illik işğala son qoyuldu və Azərbaycanın ərazi bütövlüyü təmin edildi. İndi ölkəmizin qarşısında işğaldan azad edilmiş 20 faiz torpaqlarımızda normal, təhlükəsiz həyatın bərpası və keçmiş məcburi köçkünlərin öz yurdlarına ləyaqətlə qayıdışının təmin edilməsi kimi olduqca çətin, lakin hamı üçün müqəddəs olan bir vəzifə durur. Bu, təkcə dövlətin deyil, hamının, hər bir vətəndaşın Vətən qarşısında ən ali, vacib borcudur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əldə olunmuş tarixi

[*] doktorant, Sumqayıt Dövlət Universiteti
*e-mail:* nargiz917@gmail.com

səfərdən sonra dəfələrlə qeyd etdiyi kimi, bütün məsələlər planauyğun, ardıcıl şəkildə icra edilməlidir. Azərbaycan Prezidenti 2021-ci il yanvarın 6-da keçirilmiş müşavirədə demişdir: “Bu insanları yenə də rayon yerlərinə qaytarmaq üçün xüsusi proqram olmalıdır”. [1]

Artıq atılan ilkin addımlar onu deməyə əsas verir ki, keçmiş məcburi köçkünlərin sistemli, ardıcıl, vahid mərkəzdən elmi əsaslarla idarə olunmaqla geriyə dönüşünün təmin edilməsi xüsusi dövlət proqramı – **Böyük Qayıdış Proqramı** ilə həyata keçiriləcəkdir.

Əlbəttə, böyük tarixi hadisə olan Böyük Qayıdış Proqramında nəzərdə tutulacaq bütün məsələlərin mərkəzində insan amili – keçmiş məcburi köçkünlər durur. Çünki hər şey həmin ərazilərdə insanların rahat, təhlükəsiz, məmnunluq şəraitində yaşaması naminə, onların rifah halının təmin edilməsi məqsədi ilə həyata keçiriləcəkdir.

Bir çox ölkələrin geriyə qayıdışla bağlı təcrübəsi göstərir ki, ərazilərin bərpası və əhalinin normal yaşayışının təmin edilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi tələb olunur:

- əhalinin öz doğma yurdlarına qayıdış prosesinə hazırlanması;
- işğaldan azad olunan ərazilərin insan həyatı üçün təhlükəli hesab edilən bütün vasitələrdən təmizlənməsi, təhlükəsiz həyat şəraitinin yaradılması;
- ərazilərdə sosial-texniki infrastrukturun və yaşayış məntəqələrinin bərpası və insanların yaşayışı üçün normal şəraitin yaradılması;
- beynəlxalq və milli qanunvericiliyin tələbləri nəzərə alınmaqla, insanların ləyaqətlə geriyə qayıdış hüququnun təmin edilməsi;
- öz doğma yurdlarına qayıdan şəxslərin, xüsusən gənclərin məşğulluğunun təmin edilməsi;
- Proqramın həyata keçirilməsində şəffaflığın təmin edilməsi, bu işə beynəlxalq maliyyə qurumları və təşkilatların cəlb edilməsi və görülən işlər barədə ictimaiyyətin mütəmadi olaraq məlumatlandırılması.

Proqramın məqsədyönlü, işlək olmasını və səmərəli icrasını təmin etmək üçün onun hazırlanmasında bir çox vacib aspektlərin də nəzərə alınması məqsədəuyğundur. Belə ki, sahələr üzrə görüləcək işlərə uyğun olaraq aidiyyəti dövlət orqanları ilə yanaşı, keçmiş məcburi köçkünlərin istək və arzularının nəzərə alınması, müvafiq beynəlxalq maliyyə qurumları və təşkilatların, xüsusən BMT-nin Qaçqınların Ali Komissarlığının, həmçinin vətəndaş cəmiyyəti institutlarının rəy və təkliflərinin öyrənilməsi vacib hesab edilir. Nəzərə almaq lazımdır ki, Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin 2020-ci il noyabrın 10-da imzaladıqları Bəyanatda əhalinin köçürülmə məsələsinin BMT-nin Qaçqınların Ali Komissarlığı tərəfindən icrası nəzərdə tutulmuşdur [2].

**Beynəlxalq və milli qanunvericilikdə məcburi köçkünlərin öz yurdlarına qayıdışının hüquqi əsasları** konkret müddəalarla təsbit edilmişdir. Bunlar aşağıdakılardır:

- BMT Baş Məclisi tərəfindən 1948-ci il 10 dekabr tarixdə qəbul edilmiş “İnsan Hüquqları Haqqında Ümumi Bəyannamə”də, “Müharibə zamanı mülki əhalinin qorunması haqqında” Cenevrə Konvensiyasında, “İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında” Avropa Konvensiyasında, BMT Baş Məclisi tərəfindən 1966-cı il 16 dekabr tarixdə qəbul edilmiş Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktda məcburi köçkünlərin öz doğma yurdlarına qayıdış məsələsi onların ayrılmaz hüququ kimi nəzərdən keçirilir. Həmçinin münaqişə ilə bağlı qəbul edilmiş məlum qərarlarda, xüsusilə BMT Təhlükəsizlik Şurası və Baş Assambleyası, Avropa Şurasının Parlament Assambleyası və Avropa Parlamentinin qətnamələrində əvvəlki yaşayış yerlərinə qayıdışın məcburi köçkünlərin əsas insan hüquqlarından biri olduğu xüsusi vurğulanır; [3]
- “Müharibə zamanı mülki əhalinin qorunması haqqında” Cenevrə Konvensiyasının 147-ci maddəsinə və “Beynəlxalq silahlı münaqişənin qurbanlarının müdafiəsi”nə dair I Əlavə Protokolun 85.4 (a) maddəsinə əsasən mülki əhalinin öz yaşadıqları ərazilərdən

məcburi köçürülməsi beynəlxalq humanitar hüququn ciddi pozuntusu hesab olunur; [4]

- Ermənistanın beynəlxalq məsuliyyət yaradan, beynəlxalq hüquqazidd əməlləri insan hüquqlarının kütləvi şəkildə pozulmasına gətirib çıxarmışdır. Həmin nəticələr sözügedən əməllərin dayandırılmasını, bir daha təkrarlanmayacağına dair təminat və zəmanəti və dəymiş ziyana görə restitusiya və kompensasiyanı nəzərdə tutur;

- Beynəlxalq hüquqa, xüsusilə "Quruda müharibənin qayda və qanunlarına dair" Haaqa Qaydalarına və "Müharibə zamanı mülki əhalinin qorunması haqqında" Cenevrə Konvensiyasına əsasən işğalçı dövlət işğal edilmiş ərazidəki xüsusi mülkiyyətin qorunmasına cavabdehdir. Sözügedən qayda bu əmlakın həm fiziki toxunulmazlığına, həm də mülkiyyət hüququna aiddir. Tətbiq edilən beynəlxalq hüquqi sənədlərə işğal olunmuş ərazilərdə əməl olunmasına görə məsuliyyəti işğalçı dövlət daşıyır;

- 1950-ci il tarixli "İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyası qanuni əsaslarla hər hansı dövlətin ərazisində olan hər kəsin həmin ərazidə sərbəst hərəkət etmək və özünə yaşayış yeri seçmək hüququnu nəzərdə tutur. Həmin Konvensiyaya əsasən heç kəs vətəndaşı olduğu dövlətin ərazisinə daxil olmaq hüququndan məhrum edilə bilməz. Hər bir fiziki və hüquqi şəxs öz mülkiyyətindən maneəsiz istifadə hüququna malikdir və bu mülkiyyətdən məhrum edilə bilməz; [5]

- "İnsan Hüquqları Haqqında Ümumi Bəyannamə"nin 13 (2) maddəsinə uyğun olaraq hər bir insan öz ölkəsinə qayıtmaq hüququna malikdir. BMT Baş Məclisi tərəfindən 1966-cı il 16 dekabr tarixdə qəbul edilmiş "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın 12 (4) maddəsinə əsasən heç kim öz ölkəsinə getmək hüququndan özbaşınalıqla məhrum edilə bilməz;

- 1998-ci il 11 fevral tarixdə qəbul edilmiş BMT-nin "Ölkə daxilində köçürülmüş şəxslərin məsələləri üzrə Rəhbər Prinsipləri"nin 5-ci maddəsində aşağıdakılar qeyd edilmişdir:

"Səlahiyyətli orqanlar:

- ölkə daxilində köçürülmüş şəxslərin könüllü, təhlükəsiz şəraitdə və ləyaqətlə öz evlərinə və ya daimi yaşayış yerlərinə geri qayıtmalarına və ya könüllü olaraq ölkənin hər hansı başqa bir hissəsində məskunlaşmasına imkan verən şəraitin yaradılmasına, habelə bunun üçün vəsaitlərin təmin edilməsinə görə ilkin öhdəlik və məsuliyyət daşıyır;

- ölkə daxilində köçürülmüş şəxslərin geriyə qayıtması, başqa yerdə məskunlaşması, reinteqrasiyasının planlaşdırılması və həyata keçirilməsində onların hərtərəfli iştirakını təmin etmək üçün xüsusi səy göstərməlidirlər".

- "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının 1999-cu il 21 may tarixli Qanununun 6-cı maddəsində də məcburi köçkünlərin əvvəlki yaşayış yerlərinə qayıtmaq hüququ təsbit edilmişdir. [6]

**Böyük Qayıdışın icrasının təmin edilməsi məqsədi ilə Azərbaycanda yaradılan yeni idarəetmə mexanizminə və həyata keçirilən ilkin tədbirlərə** nəzər salaq:

- Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2020-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası Baş nazirinin və Rusiya Federasiyası Prezidentinin 2020-ci il noyabrın 10-da imzaladıqları Bəyanatda nəzərdə tutulmuş müddəaların icrasından irəli gələn, habelə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə **Əlaqələndirmə Qərargahı** və Qərargahın nəzdində katiblik və kommunikasiya funksiyasının yerinə yetirilməsi və zəruri analitik-təşkilati dəstək göstərilməsi məqsədilə **İdarələrarası Mərkəz** yaradılmışdır; [7]

- işğal olunmuş ərazilərdə erməni təcavüzkarları tərəfindən 900 yaşayış məntəqəsi, 150 min yaşayış evi və mənzil, 6 minədək sənaye, kənd təsərrüfatı və digər müəssisələr,

7 min ictimai bina, 693 məktəb, 855 uşaq bağçası, 798 səhiyyə obyekti, 927 kitabxana, 44 məbəd, 9 məscid, 473 tarixi abidə, 160 körpü və digər infrastruktur obyektləri dağıdılıb. Müharibə və işğal nəticəsində, o cümlədən Vətən müharibəsi dövründə Azərbaycan iqtisadiyyatına və mülki əhaliyə dəyən zərərin hesablanması məqsədi ilə 17 işçi qrupu yaradılmışdır. Beynəlxalq ekspertlər də cəlb edilməklə bu sahədə tam dəqiqləşmələr başa çatdıqdan sonra beynəlxalq hüququn tələblərinə uyğun olaraq təzminatla bağlı müvafiq iddia qaldırılacaqdır; [8]

- ərazilərdə müasir şəraitə uyğun kommunikasiyaların, sosial infrastrukturun yaradılması, bərpa və yenidənqurma işlərinə beynəlxalq təşkilatların, şirkətlərin, maliyyə qurumlarının cəlb olunması, bərpa və yenidənqurma işlərində məcburi köçkünlərin iştirakının təmin edilməsi, əhalinin yeni şəraitdə fəaliyyətə hazırlanması, tələb olunan peşələrə yiyələnmə prosesinə və peşə vərdişlərinin bərpasına köməklik göstərilməsi, geriyə qayıdacaq əhalinin (hər iki tərəf) birgəyaşayışa hazırlanması, qarşılıqlı inamın təmin olunması, sərəncamda da deyildiyi kimi işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 4 yanvar 2021-ci il tarixli Fərmanı ilə **"Qarabağ Dirçəliş Fondu"** yaradılmış, onun Nizamnaməsi və Müşahidə Şurası təsdiq edilmişdir; [9]

- Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərinin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər ərazilərin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi, həmçinin onların müvəqqəti saxlanılması, daşınması, zərərsizləşdirilməsi sahəsində fəaliyyət göstərən, habelə bu sahədə digər zəruri işlərin təşkilini, fəaliyyətin planlaşdırılmasını, əlaqələndirilməsini və idarə edilməsini həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 2021-ci il tarixli Sərəncamı ilə **Minatəmizləmə Agentliyi** yaradılmışdır; [10]

- Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2021-ci il tarixli Fərmanı ilə işğaldan azad edilmiş ərazilərin dirçəlişi istiqamətində quruculuq, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, bu hədəfə nail olunmasında dövlət orqanlarının (qurumlarının) və digər təşkilatların əlaqələndirilmiş fəaliyyətinin gücləndirilməsi, habelə idarəetmədə çevikliyin və səmərəliliyin artırılması məqsədilə **Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri** təsis edilmişdir. Artıq Şuşa şəhərində Prezident tərəfindən təyin edilmiş nümayəndə fəaliyyət göstərir [11].

Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı təsdiq edilmiş **"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də** qarşıya qoyulmuş 5 Milli Prioritet sırasına işğaldan azad olunmuş ərazilərə böyük qayıdış da daxil edilmişdir [12]. Bu prioritetin uğurla reallaşdırılması üçün aşağıdakı iki məqsədə nail olunmalıdır:

- dayanıqlı məskunlaşma;
- iqtisadi fəaliyyətə reinteqrasiya.

**Geriyə qayıdışda əhalinin istək və arzularının öyrənilməsi və nəzərə alınması** xüsusi əhəmiyyət kəsb edir. 2021-ci il yanvarın 6-da keçirilmiş 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev qeyd etmişdir ki, köçkünlər arasında sorğular keçirilməlidir, onların niyyəti öyrənilməlidir. Həm evlərlə təmin olunmuş köçkünlər, həm də bu günə qədər yataqxanalarda, yaxud da uşaq bağçalarında ağır vəziyyətdə yaşayan köçkünlər arasında sorğular keçirilməlidir ki, biz real vəziyyəti bilək. Özümüz-özümüzü aldatmamalıyıq, real vəziyyəti bilməliyik. Xahiş edirəm köçkünlərdən, onlara sual veriləndə səmimi cavab versinlər – öz dədə-baba torpaqlarına getmək fikirləri var, yoxsa yox. Bizə bildirsinlər, biz də bilək və buna görə

öz bərpa işlərimizi həyata keçirməliyik. Mən tam əminəm ki, keçmiş köçkünlərin mütləq əksəriyyəti böyük həvəslə öz doğma torpaqlarına qayıdacaqlar. Buna nail olmaq üçün dövlət əlindən gələni əsirgəməyəcək. Ancaq, eyni zamanda, bizdə rəsmi məlumat olmalıdır. Ona görə bu sorğunun keçirilməsi hesab edirəm ki, bir çox suallara cavab verəcək.

Bu mühüm sosial tədbirin həyata keçirilməsində, şübhəsiz, Prezidentin 2019-cu il 8 fevral tarixli Sərəncamı ilə yaradılmış və Milli Məclisin üzvü Zahid Orucun rəhbərlik etdiyi **Sosial Tədqiqatlar Mərkəzinin** rolu və iştirakı olduqca vacibdir. 700 min insanı əhatə edəcək bu tədbirin həyata keçirilməsində aidiyyəti dövlət orqanları ilə yanaşı, qeyri-hökumət təşkilatlarının da yaxından iştirakı məqsədəmüvafiq hesab edilir [13].

Sosial sorğu və təhlillər mərhələli şəkildə də həyata keçirilə bilər. Məsələn, ilkin olaraq geriyə qayıdacaq ailələrin sayı və ailələrin tərkibi müəyyən edilməlidir ki, yaşayış evləri buna uyğun olaraq inşa edilsin. Özü də yaşayış məskənlərinin müasir tələblərə uyğun olaraq "ağıllı şəhər" və "ağıllı kənd" formatında yaradılması nəzərdə tutulur. Dövlət başçımızın qeyd etdiyi kimi, orada müasir prinsiplərə əsaslanan komfortlu yaşayış mühiti yaradılmalıdır.

Sonrakı mərhələdə əhalinin peşə, sənət təcrübələrinə və yerli mühitə uyğun iqtisadi imkanların yaradılması, məşğulluğun təmin olunması məsələlərinə yenə də rəy sorğuları əsasında aydınlıq gətirilə və bu istiqamətdə tədbirlər həyata keçirilə bilər. Nisbətən yaşlı nəslin nümayəndələri əvvəllər, əsasən, kənd təsərrüfatı və heyvandarlıqla bağlı sahələrdə çalışıblar. Ötən 30 ildə, şübhəsiz, onlar peşə təcrübələrinə uyğun sahələrdə çalışmadıqları üçün peşə vərdişlərinin bərpası proqramlarına da ehtiyac olacaq. Yaxud müasir ixtisaslara sahib olan gənc nəslin yeni şəraitdə fəaliyyətinə də uyğun mühit yaradılmalıdır. Bütün bu və ya digər məsələrə müvafiq sosial tədqiqatlar və rəy sorğuları yolu ilə aydınlıq gətirmək mümkündür və bərpa zonalarında yeni istehsal-emal müəssisələrinin yaradılmasında bunları mütləq nəzərə almaq lazımdır.

**Əhalinin yeni şəraitə tez və səmərəli adaptasiyası** da mühüm məsələdir. Əks halda əhali nicat yolunu yenə də şəhərlərə üz tutmaqda görəcəklər. Bu da dövlətin külli miqdarda böyük maddi vəsait sərf edəcəyi bərpa və yenidənqurma işlərinin səmərəsinin aşağı düşməsinə səbəb olacaq. Belə fors-major halların meydana çıxmaması üçün əhalinin rahat mənzillərlə, kommunal xidmətlərlə, sosial infrastrukturla, məşğulluğun təminatı ilə yanaşı, müəyyən sosial müdafiə tədbirlərinin həyata keçirilməsi, imtiyazların, vergi və güzəştlərin tətbiqi, xüsusən azad sahibkarlara, özəl sektorda çalışanlara əlverişli fəaliyyət mühitinin yaradılması da olduqca vacibdir.

Vacib hesab olunan məsələlərdən biri də bərpa, geriyə qayıdışda **şəffaflığın təmin olunması, ictimai nəzarət mexanizminin tətbiqi**dir. Bu da həm ölkə əhalisi, xüsusən geriyə qayıdan insanlar arasında və beynəlxalq ictimaiyyətdə düzgün fikir formalaşdırılmasına, Azərbaycanın imicinin daha da yüksəldilməsinə səbəb olacaqdır.

**İşğaldan azad edilən ərazilərin bərpası üzrə Azərbaycanın kifayət qədər müsbət təcrübəsi** var. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin 12 iyul 1996-cı il tarixli Fərmanına uyğun olaraq ölkəmizdə Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentlik yaradılmışdı, ərazilərin minalardan və partlamamış silah-sursatdan təmizlənməsi işlərini ANAMA həyata keçirirdi. 1994-cü ildə uğurlu Horadiz əməliyyatından sonra Füzuli rayonunun 22 yaşayış məntəqəsi işğaldan azad edildi və dağıdılmış evlər, sosial infrastruktur yenidən bərpa edildi. 2016-cı ilin aprelində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpasına əlverişli şərait yarandı, həmin kənd 2 ayın ərzində müasir səviyyədə yenidən quruldu və əhali öz torpağına qayıtdı. Bu da Böyük Qayıdışın başlanğıc nöqtəsi oldu [14].

Vətən müharibəsi başa çatan kimi azad olunmuş ərazilərdə müxtəlif layihələrin icrasına başlanılıb. Dövlət başçısının göstərişlərinə uyğun olaraq, Tərtər rayonunun Suqovuşan və Talış kəndlərinə gedən 29 kilometrlik avtomobil yolu çəkilir, Füzulidə yeni

müasir hava limanının tikintisi, işğaldan azad olunan ərazilərdə texniki infrastruktur layihələri həyata keçirilir, ərazilərin minalardan təmizlənməsi ilə bağlı müvafiq tədbirlər görülür. 2021-ci ilin dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərdə ilkin tədbirlərin görülməsi məqsədilə 2,2 milyard manat vəsait nəzərdə tutulmuşdur.

**Nəticə**

Ermənistan silahlı qüvvələri tərəfindən 30 il ərzində işğal altında saxlanılmış, dar-madağın edilmiş Azərbaycanın 20 faiz torpaqlarının 44 gün davam edən Vətən müharibəsində azad edilməsi bu ərazilərin bərpası və yenidən qurulması zərurətini meydana çıxarmışdır. Kifayət qədər genişəhatəli, böyükmiqyaslı işlərin səmərəli həyata keçirilməsi üçün konkret nəticələrə hesablanan təşkilatı-texniki layihələrin icrası tələb olunur. Bunun üçün aidiyyəti dövlət orqanları ilə birlikdə beynəlxalq təşkilatlar da cəlb edilməklə, xüsusi Böyük Qayıdış Proqramının hazırlanması, həmçinin bərpa və yenidənqurma işlərinin vahid mərkəzdən idarə edilməsi vacib hesab edilir. Öz yurduna ləyaqətlə, böyük həvəslə qayıdacaq əhali üçün normal yaşayışın təmin edilməsinə, onların həyat səviyyəsinin yaxşılaşdırılmasına istiqamətlənmiş və sosial zərurət, sosial sifariş olan geriyə qayıdışın bütün sosial aspektlər nəzərə alınmaqla həyata keçirilməsi, şübhəsiz, uğurlu, arzu edilən nəticələrə gətirib çıxaracaqdır. İşğaldan azad edilmiş Qarabağ bölgəsi tezliklə respublikamızın ən inkişaf etmiş regionuna, ölkə iqtisadiyyatının vacib sahəsinə çevriləcəkdir. Bu da dünya üçün nümunə ola biləcək daha bir Azərbaycan modelinin yaranması ilə nəticələnəcək.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirə (https://president.az/articles/49933)
2. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı // (https://president.az/articles/45923)
3. BMT-nin sənədləri (https://www.un.org/en/sections/general/documents/)
4. Cenevrə konvensiyası (https://en.wikipedia.org/wiki/Geneva_Conventions)
5. Avropa Konvesiyası (https://www.echr.coe.int/documents/convention_eng.pdf)
6. Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında (http://www.e-qanun.az/framework/4757)
7. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (https://president.az/articles/47738/print)
8. Qasımlı V. Qarabağın böyük iqtisadi potensialı var // (www.iqtisadiislahat.org)
9. Dirçəliş fondu (https://ibar.az/az/dirchelish-fondu)
10. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (https://president.az/articles/50204)
11. Işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (https://president.az/articles/50281)
12. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər (https://president.az/articles/50474)
13. Sosial Tədqiqatlar Mərkəzi (https://stm.az/)
14. Cocuq-Mərcanlıda əməliyyatlar (http://anama.gov.az/operations-in-cocuq-mercanli)

***Резюме***

***Наргиз Насирова***

***Социологические аспекты управления «Большим возвращением»***

В статье рассматриваются технические, экономические и социальные меры, которые необходимо принять на территориях, оккупированных, разрушенных, ограбленных в результате 30-летней военной агрессии Армении против Азербайджана, и освобожденных нашей Армией в Отечественной войне 2020 года. Отражены социологические аспекты централизованного управления достойного возвращения на родные земли около 700 тысяч наших соотечественников, вынужденных жить в тяжелых условиях в разных регионах страны. В статье также приводится подробная информация о новом механизме управления, созданном в регионе с целью систематического проведения восстановления и реконструкции освобожденных территорий. Отмечается, что с этой целью Указом и Распоряжениями Президента Азербайджанской Республики созданы Межведомственный центр, «Фонд возрождения Карабаха», специальные представительства Президента Азербайджанской Республики на местах и Агентство по разминированию. Поскольку основная цель всех работ по реабилитации и реконструкции на освобожденных территориях - обеспечение нормального, безопасного проживания и деятельности репатриантов, все работы должны проводиться в соответствии с желаниями и потребностями населения. Для этого Центром социальных исследований проводятся соответствующие исследования. Также затронута важность проведения совместно с вузами специальных опросов общественного мнения вокруг указанной проблемы. В статье также отражены правовые основы репатриации в международном и национальном праве, так как есть необходимость восстановления прав на возвращение на территорию населения, которое было вынуждено покинуть свое постоянное место жительства 30 лет назад в результате военной агрессии Армении.

В статье также уделено широкое место вопросам создания нормальных условий для населения, которое должно вернуться в свои места постоянного проживания, обеспечения свободного выхода в социальную инфраструктуру, организация новых рабочих мест, соответствующих существующим требованиям, внедрения льгот и привилегий для населения.

Подчеркнута целесообразность подготовки Программы «Большое возвращение», в которой отразятся все намеченные проекты и вовлечение в это дело международных организаций наряду с соответствующими государственными органами.

***Ключевые слова**: Большое Возвращение, заявление, программа, вынужденные переселенцы, менеджмент, социологический анализ*

***Summary***

***Nargız Nasirova***

***Sociological aspects of great return management***

The article examines the technical, economic and social measures that need to be taken in the territories occupied, destroyed, robbed as a result of the 30-year military aggression of Armenia against Azerbaijan, and liberated by our Army in the 2020 Patriotic War. It reflects the sociological aspects of the centralized management of a decent return to their native lands for about 700 thousand of our compatriots forced to live in difficult conditions in different regions of the country. The article also provides detailed information about the new management mechanism created in the region with the aim of systematically carrying out the restoration and reconstruction of the liberated territories. It is noted that for this purpose, an Interdepartmental Center, the "Karabakh Revival Fund", special representations of the President of the Republic of Azerbaijan in the field and the Agency for Mine Action have been established. Since the main goal of all work on rehabilitation and reconstruction in the liberated territories is to ensure normal, safe living and activities of repatriates, all work should be carried out in accordance with the wishes and needs of the population. To this end, the Center for Social Research conducts relevant research. The importance of conducting, together with universities, special public opinion polls around this problem is also touched upon. The article also reflects the legal basis for repatriation in international and national law, since there is a need to restore the rights to return to the territory of the population, which was forced to leave their permanent place of residence 30 years ago as a result of the military aggression of Armenia.

Also the article is about the issues like, the creation of normal life situations to the peoplle who will return to their perpetual lands, to provide comfortible social infrastructure, organization of new business places, apllication of priviliges and benefits. It is noted that all the activities will be done in the cooperation between international organizations and relevant governmental agencies.

***Key words:*** *Great Return, declaration, program, IDP, management, sociological analysis*

Redaksiya heyətinin üzvü f.e.d., prof. Rüstəmov İzzət Əşrəf oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 316.42**

# "ÖZÜNÜREALLAŞDIRMA" ANLAYIŞININ MAHİYYƏTİ VƏ MƏZMUNU

**Rəna QAFAROVA***

*Məqalə redaksiyaya daxil olmuşdur: 9 sentyabr 2020; çapa qəbul edilmişdir: 30 sentyabr 2020; online-da çap edilmişdir: 31 mart 2021.*

*Received: 9th of September, 2020; accepted: 30th of September, 2020; published online: 15th of March, 2021.*

***Açar sözlər:*** *özünüreallaşdırma, gənclər, şəxsiyyət, tədqiqat*

## Giriş

Sosial-fəlsəfi fikir tarixində özünüreallaşdırma ideyası cəmiyyət, insanlar üçün hər zaman aktual olan məsələlərdən sayılır. Bu mənada, sosial mühitdə, onları əhatə edən digər insanlar arasında öz yerini tapmaq – özünütəsdiq və ya özünüreallaşdırma cəmiyyətin daha fəal, aparıcı zümrəsi sayılan yeni nəsil, xüsusən, gənclər üçün çox önəmlidir. Problemin sosioloji təhlili ilə bağlı sosiologiya tarixində müxtəlif yanaşmalara, konseptual fikirlərə rast gəlinir. Bununla yanaşı, qeyd etmək vacibdir ki, yeniyetmələrin və gənclərin sosial-demoqrafik qrup kimi, elmi cəhətdən fərqləndirilməsi, sosioloji, eləcə də sosial-psixoloji kontekstdə sistemli öyrənilməsi son 100 illik dövrü əhatə edir.

Müvafiq fəlsəfi, sosioloji, psixoloji ədəbiyyatda gənclərin özünü reallaşdırması və ya özünügerçəkləşdirmə probleminə mövcud yanaşma tərzləri fərqli əsaslara görə qruplaşdırılır. Bir sıra mühüm mənbələrdə özünüreallaşdırmanın sosioloji məzmunu və mahiyyəti əsas metodoloji konsepsiyalar fonunda – sosial-tarixi yanaşma əsasında təhlil olunur. Prinsip etibarı ilə, özünüreallaşdırmaya birtərəfli yanaşma onun ayr-ayrı inteqrativ sistemlərdə əlaqə və asılılıqlarının müəyyənedilməsində çətinlik yaradır. Ümumilikdə, sosioloji nəzəriyyələrdə gənclərin özünü reallaşdırması probleminə fenomenoloji yanaşma üstünlük təşkil edir. Bu özünüreallaşdırmanı fərdi sferadan çıxarır və sosial mühitin fəal elementinə, gərəkli fenomeninə çevirir.

Hər bir tədqiqatın konseptual əsaslarını, tədqiqat istiqamətlərini müəyyənləşdirərkən, ilk növbədə, onun ümumi elmi prinsiplərini və metodologiyasını yaratmaq lazım gəlir. Bu baxımdan, özünüreallaşdırma anlayışının sosioloji (eləcə də fəlsəfi, psixoloji) məzmununu dəqiqləşdirəcək yanaşma tərzlərini sistemləşdirmədən onun məzmun və mahiyyətinin araşdırılması çətindir.

### 1. Özünüreallaşdırma probleminin sosial tədqiqi.

Mövcud tədqiqatların [2; 5; 3; 12] təhlili göstərir ki, istər respublikamızda, istərsə də xarici ölkələrdə «özünüreallaşdırma» fenomeninə tez-tez müraciət edilir. Başqa sözlə, bu problem sosial elmlər çərçivəsində kifayət qədər aktualdır və bir sıra mövzularda ayrıca tədqiqat obyektinə çevrilir. Digər tərəfdən, sosioloji tədqiqatlarda özünüreallaşdırma problemi yalnız son illər konseptual şəkildə araşdırılsa da, sosial-fəlsəfi əsərlərdə bu problemin tədqiqinin çoxəsrlik tarixi vardır. Özünüreallaşdırma elmi anlayış kimi, sosiologiya, pedaqogika, psixologiya üzrə bir çox monoqrafiya, məqalə və tezislərdə nəzərdən keçirilib araşdırılmışdır. Lakin onun hamı tərəfindən qəbul edilmiş bitkin tərifi verilməmiş, yaxud da həmin anlayış müxtəlif mənalarda işlədilmişdir.

---

* dissertant, Bakı Dövlət Universiteti
*e-mail: renakafarova71@mail.ru*

Belə vəziyyət metodoloji baxımdan özünüreallaşdırmanin konturlarının müəyyənləşdirilməsində bir sıra suallar ortaya çıxarır. Məsələn, sual edilə bilər ki, özünüreallaşdırma özünüifadədən və özünüdərketmədən nə ilə fərqlənir? Gənclərin özünüreallaşdırması digər yaş qrupları səviyyəsində baş verən özünügerçəkləşdirmədən nə ilə fərqlənir? Digər tərəfdən, gənclərin özünügerçəkləşdirməsini şərtləndirən obyektiv və subyektiv amillər nədən ibarətdir? Bununla yanaşı, məntiqi sual yaranır ki, özünüreallaşdırma ilə özünütəsdiq arasında nə kimi asılılıq, əlaqə mövcuddur.

Sadalanan suallara cavab vermək üçün hər şeydən əvvəl özünüreallaşdırmanın mahiyyətini araşdırmaq, müvafiq anlayışın məzmununu ifadə etmək məqsədəuyğun sayıla bilər. 1902-ci ildə Londonda nəşr olunmuş fəlsəfə və psixologiya üzrə lügətdə özünüreallaşdırma ((self-realization) çox vaxt ingilis dilli mənbələrdən özünügerçəkləşdirmə kimi tərcümə olunur və işlədilir) anlayışına aşağıdakı kimi tərif verilir: "Özünüreallaşdırma – «Mən»in inkişaf imkanlarının həyata keçirilməsidir". Daha sonra orada qeyd olunur ki, inkişafın son nəticəsi özünüreallaşdırma və ya özünühəyatakeçirmə doktrinasına uyğun gəlir [19, s. 8]. Bu tərif psixoloji məzmun baxımından qismən özünü doğrultsa da, özünüreallaşdırmanın sosial mahiyyətini əhatə etmir. Buna baxmayaraq, həmin tərif qeyd olunan lügətin 1957-ci ildəki yeni nəşrində də olduğu kimi təkrar olunur. Yalnız son dövrlərdə çap olunmuş Oksford lügətində özünüreallaşdırma anlayışı əvvəlkindən bir qədər fərqli məzmunda verilmişdir. Həmin lüğətdə göstərilir ki, «özünüreallaşdırma – insanın öz səylərini, «Mən»in inkişaf imkanlarını gerçəkləşdirməsidir. İnsanın öz səylərinin, «Mən»in inkişafı imkanlarının üzə çıxarılması prosesi özünüreallaşdırma (yaxud inkişaf) adlandırıla bilər [20, s. 921].

Keçən əsrin ortalarında nəşr edilmiş sosioloji və psixoanalitik lügətlərdə özünüreallaşdırma anlayışı daha sistemli və aydın sərhədlərə malik fenomen kimi təsvir edilir: «Özünüreallaşdırma – şəxsiyyətin bütün xüsusiyyətlərinin balanslaşdırılmış, harmonik şəkildə açılması, üzə çıxması və genetik baxımından mövcud olan şəxsiyyət imkanlarının inkişafı prosesidir» [19, s. 488]. Bununla belə problemin təsvirini özündə əks etdirən ayrı-ayı mənbələrin [13; 14] təhlili göstərir ki, xarici ölkələrin fəlsəfi lügətlərində «özünühəyatakeçirmə» (self-fulfillment) termini özünüreallaşdırma ilə eyniləşdirilir və onlar fərqli anlayış kimi tədqiq edilmir. «Özünühəyatakeçirmə» (self-fulfillment) daha çox özünüreallaşdırmanin baş tutmuş son nəticəsi, şəxsiyyətin imkanlarının tam gerçəkləşdirməsini özündə ehtiva edən bir proses kimi şərh olunur.

Özünüreallaşdırmanin anlayışının məzmununa yanaşmalar müxtəlif olsa da, onları ümumiləşdirən ortaq məxrəc özünüreallaşdırmanın şəxsiyyətin mümkün potensial imkanlarının üzə çıxarılması və şəxsiyyət keyfiyyətlərinin inkişafı prosesi kimi təqdim olunmasıdır. Ümümiyyətlə, sosial-fəlsəfi, psixoloji tədqiqatlarda olduğu kimi, sosioloji tədqiqatlarda da «özünüreallaşdırma» anlayışına daha yaxın anlayış «özünüaktuallaşdırma» və «özünühəyatakeçirmə» anlayışları hesab olunur.

Özünüaktuallaşdırma anlayışının izahı zamanı, bir qayda olaraq, A.Maslounun əsərlərindən istinad edilir. Onun araşdırmaları bu sahədə aparılmış sosial-psixoloji tədqiqatların metodoloji əsası sayılır. Problemin tədqiqinə geniş – ümumi metodoloji aspektdən yanaşsaq, görərik ki, özünüreallaşdırma ideyasının təşəkkülü fəlsəfi əsərlərdə olduqca qədim tarixə malikdir. Belə ki, hələ Hindistanda yaranan «Upanişad» fəlsəfəsində (b.e.ə.VIII əsrdən V əsrə qədər) və Çində formalaşan «daosizm»də (b.e.ə. VI-I əsrlər) özünüreallaşdırma ali dəyər kimi izah olunur. Burada qeyd edilir ki, həyatda özünü təsdiqləyən, özünü reallaşdırmağı bacaran kəslər yüksək, ali şəxsi keyfiyyətlərə malikdirlər, bəşəriyyətə yol göstərirlər, humanist (insani) dəyərlərin fövqündə dayanırlar.

Qədim Çin filosofu Konfutsinin sosial-fəlsəfi konsepsiyasında özünüreallaşdırma ilə bağlı maraqlı tövsiyələr diqqəti çəkir. Onun fikrincə, insan dar düşüncədən, məhdudiyyətlərdən azad olmaq üçün öncə "Mən"ini ("Eqo"sunu) "yox etməyi bacarmalıdır.

Konfutsiyə görə, bu, insanı özünütəsdiqə və kamilliyə aparan başlıca yoldur. Çin mütəfəkkirinin konsepsiyasında "Mən"ə və ya "Eqo"ya qalib gəlmək üçün üsullar irəli sürülür və şəxsiyyətin yenidən qurulması ön plana keçir. Burada «özünə üstün gəlmə – əsl özünə gedən yoldur, özünü gerçəkləşdirmədir – prinsipi əldə rəhbər tutulur. Avropada özünüreallaşdırma haqqında formalaşan təlimlərin kökü Aristotelə və qismən də Platona məxsusluğu müxtəlif tədqiqatçılar tərəfindən irəli sürülmüşdür. Bu təlimlərin mahiyyəti özünüreallaşdırma fenomeninin nəzəri təhlilindən, fərdi özünühəyatakeçirmənin yollarının və vasitələrinin hazırlanmasına yönəlmiş praktiki tövsiyələrindən ibarətdir» [11, s.3-4].

Özünüreallaşdırma ideyası qədim etik fikir tarixindən müasir sosial etikanın formalaşmasına qədər uzun bir yol keçmişdir. Özünüreallaşdırma fenomeninin təsvirinə ilk dəfə antik yunan filosofu Aristotelin əsərlərində rast gəlinir. Onun üçün xeyir – insani, yaxud rasional ruhun aktuallaşmasıdır. Aristotelə görə, özünüreallaşdırma əxlaqi və etik məziyyət olub kamilliyin mühüm göstəricilərindən biridir. Bu ideyalara sonrakı dövrlərdə də rast gəlinsə də, əslində bu mövzuda meydana çıxan oxşar məzmunlu mühakimələr Aristotelin fikrinin davamı və onun yeni strukturlara transflormasiyası kimi nəzərdən keçirilə bilər. Azərbaycanın sosial-fəlsəfi fikir tarixində özünüreallaşdırma ideyası müxtəlif aspektlərdən təhlil edilmiş, onun fərdi şəkildə təzahürünün məqamları diqqət mərkəzinə gətirilmişdir.

Ədəbi-bədii irsimizin təkrarolunmaz nümunələrindən sayılan «Kitabi-Dədə Qorqud» dastanlarında, şifahi xalq ədəbiyyatında, Azərbaycanın şair və yazıçılarının bədii yaradıcılığında özünüreallaşdırma, özünütəsdiqetmə, özünüdərketmə və mənəvi kamillik ideyaları öz əksini tapmış, insanın özünüreallaşdırmasinin faydalı cəhətləri göstərilmişdir. Dahi Azərbaycan şairi Nizami Gəncəvinin əsərlərində özünüreallaşdırmanin tərkib elementlərindən olan özünüdərketmə və mənəvi kamilliyin müxtəlif mərhələləri təsvir olunmuş, ona yetişməyin yolları göstərilmişdir. Şairin şeirlərində özünüqiymətləndirmə, özünüdərketmə və özünüreallaşdırma kimi fenomenlər insan şəxsiyyətinin başlıca meyarı, onun inkişafının əsas göstəricisi kimi təqdim edilir. Dahi Nizami insanın nail ola biləcəyi, zəhmətlə, halallıqla yiyələndiyi hər bir faydalı peşəni yüksək dəyərləndirir, yaxşı peşələrin layiqli qiymətini verir. Şair vurğulayır ki, insanın kamil bir palançı olması yarımçıq papaqçılıqdan müqayisəolunmaz dərəcədə yaxşıdır. Burada şair peşəkar özünüreallaşdırmanin aşağı və yuxarı həddinin olmadığını göstərir. İnsan öz sənəti, peşəsi və insanlığı ilə özünügerçəkləşdirə, qarşısına qoyduğu müsbət hədəflərə çata bilər. Özünüreallaşdırmanin elementi olan özünüdərketməni təsvir edən şair özünüdərketmənin olduqca mürəkkəb və paradoksal sosial təzahür kimi qiymətləndirir [8, 26-27]. Özündən xəbərdar olmadan özünüdərk edə bilməzsən və ya özünütəsdiq edə bilməzsən. Bu mümkünsüzdür. Özünütəhlil etmək, öz qüsurlarını dərk etmək, özünə inanmaq bu çətinliyin və mümkünsüzlüyün aradan qaldırılmasının şərtidir. Özünü tanımaq - özünü yaşatmaq və özünüreallaşdırmaqdır.

Qeyd edək ki, özünüreallaşdırma probleminin sosial-tarixi aspektlərinin sosioloji təhlili hazırda kifayət qədər aktualdır. Bu mənada məsələyə gənclərin fərdi özünütəsdiqi motivindən yanaşma reallıqda heç də hər zaman özünü doğrultmur. Məhz bu səbəbdən diqqəti müvafiq məsələyə ümumi-sistemli yanaşmalar üzərində cəmləşdirmək məqsədəuyğundur. Özünüreallaşdırma haqqında qədim dövrdə və orta əsrlərdə mövcud olan ideyaları sistemləşdirməyə çalışan rus tədqiqatçısı L.B.Ryabova [14, s.9] insanın özünüreallaşdırmasinin fəlsəfi aspektlərini iki mədəniyyətin müqayisəli təhlili əsasında aparır. Müəllif Qərbdə və Şərqdə özünüreallaşdırmanın başa düşülməsində əsaslı fərqlərin mövcud olması qənaətinə gəlir. O yazır: "Qərb adamı xarici aləmə fəal bir şəkildə nüfuz edir, onu istədiyi şəkildə mənimsəyir. O, özünü formalaşdırdığı bu aləmdə xadim və islahatçıdır, hər şeyi, ətraf aləmi dəyişdirir, yenidən formalaşdırır. Qərb adamı bununla məhz özünü təsdiqləyir. Şərq isə tamam fərqli davranışa malikdir, başqa cür hərəkət edir. Varlığın

yüksək, ali dəyərlərinə yönəlmə və xüsusi məna axtarışı onun birbaşa hədəfidir. Özünədalma, özünəqapanma, eyforiya sanki onun üçün vəziyyətdən yeganə çıxış yoludur. Şərq insanı «mütləqlik» (absolyut) axtarır". Öz şüurunun dərinliklərinə qapılmaq Şərq adamı üçün səciyyəvi, xarakterik xüsusiyyətdir. O, sanki öz daxili aləminə qapılaraq, zahiri, hissi, real aləmin xaricində yerləşən ideala yönəlir, real aləmi qeyri-həqiqi olan kimi nəzərdən keçirir [14, s. 12].

Qeyd edək ki, L.B.Ryabovanın özünüreallaşdırma ilə bağlı fikirləri maraqlı olduğu qədər mübahisəli – polemika, diskussiya xarakterlidir. Bu mənada, onun söylədikləri ilə birmənalı şəkildə razılaşmaq çətindir. Nəzərə almaq lazımdır ki, Şərq adamı Qərb adamından yalnız özünüreallaşdırması və ya "mütləqiyyət axtarışı" ilə fərqlənmir. Digər tərəfdən, bu fərqlər həm də Qərb və Şərq insanın özünüreallaşdırmasinin müxtəlif əsasları ilə bağlı deyil, daha çox özünüreallaşdırma prosesində sosiomədəni dəyərlərin oynadığı müxtəlif rollarla da əlaqədardır. Üçüncüsü, üstün olaraq qəbul edilən dəyərlər əsasən bu və ya digər etnosun, xalqın mental keyfiyyətləri və xüsusiyyətləri ilə şərtlənir. Nümunə üçün qeyd edək ki, hər bir amerikalı özünün vətəndaş hüquqlarını, şəxsi azadlığını və demokratiyanı daha yüksək dəyərləndirir. Asiya və Afrika xalqları üçün bunlar o qədər də mühüm dəyərlər deyil, onlar diktatorların xeyrinə bu dəyərlərdən imtina edə bilərlər. Bununla belə, müxtəlif sosial-fəlsəfi ideyaları məhz Qərb Şərqdən götürərək inkişaf etdirmişdir. Baş verənləri özünüreallaşdırma sferasında sosial-mədəni inteqrasiya kimi də dəyərləndirmək mümkündür. Digər tərəfdən, Qərb modernizminin bir çox hallar Şərqin mədəni dəyərləri üzərində qurulması faktı diqqətdən yayına bilməz.

Ümumiyyətlə, Qərbin özünügerçəkləşdirmə modelinə, xüsusən, xristian ideologiyasına əsaslanan bir çox alimlərin fikirlərində Şərqə, onun mənəvi dəyərlərinə qarşı bir qısqanclıq müşahidə olunur. Hər vəhclə Şərqin, xüsusi ilə də müsəlman Şərqinin elmi-dini dünyagörüşünün, naliyyətlərinin azaldılmasına bir yönüm, cəhd hiss olunmaqdadır. Müvafiq sosioloji əsərlərə tarixi retrospektivdə yanaşma göstərir ki, özünüreallaşdırmanın Qərb tiplərindən fərqli olaraq, Şərq tiplərində belə bir iddia üstünlük təşkil edir ki, «Mən» mövcud deyil, o əsas deyil.

Belə ki, daosizmdə fərdi «Mən»in mövcudluğu – mədəniyyətsizlik əlaməti hesab olunur. Daosizmə görə, identiklik mənbəyi daodur. İnsanın mahiyyəti Dao ilə, kainatın mövcudluq qanunauyğunluqlarının son ifadəsi ilə eyniləşdirilir. Qərb insanının fərdi modelində isə «Mən»in əksi onun fərdiyyəti ilə eyniləşdirilir. Bir sıra tədqiqatçılar [11; 12; 13] o cümlədən, A.K.İsayev də şəxsiyyətin özünüreallaşdırmasının mədəni-tarixi tiplərinin təsvirinə diqqət yetirərkən bu məsələləri önə çəkmişlər. Müəllifin təsvir etdiyi bu tiplərdə şəxsiyyətin özünüreallaşdırmasi haqqında təsəvvürlərin inkişafı tendensiyasının ilkin şərtləri göstərilmiş, Qərb və Şərq insanında özünüreallaşdırmanin formalaşma istiqamətləri təhlil olunmuşdur.

«Şəxsiyyət-cəmiyyət» probleminin hələ meydana çıxmadığı, hadisələrin qavranılmasının kosmopolitikliyi ilə bağlı olan sinkretik mənzərənin mövcud olduğu antik dövr üçün şəxsiyyət haqqında «cismani» təsəvvürlər səciyyəvi xarakter daşımışdır. Lakin həmin dövrdə fərdin özünüreallaşdırması ictimai olaraq təqdir edilən nümunəyə nə qədər uyğun gəlməsi ideyası əsas götürülürdü. Belə bir insanın həyatı ətrafdakıların onu bəyənməsindən, yaxud məzəmmət etməsindən («həya mədəniyyəti») asılı idi. Yəni özünüreallaşdırma gerçəkləşdirmə ilə, xarici amillərdən asılılıqla əvəz olunurdu. Cəmiyyətin inkişaf tendensiyası və yeni dəyərlərin meydana çıxması ilə tədricən «cismani can»dan əxlaqi mənəvi şəxsiyyətə keçid baş verir.

### 2. Özünüreallaşdırma probleminin fəlsəfi-sosioloji mənbələri

İnsanın «daxili» aləminin öyrənilməsi ilə mənəvi dəyərlərin rolu təsdiqlənir, «günah mədəniyyəti», «vicdan mədəniyyəti» meydana çıxır. Özünüreallaşdırmanın məzmunu

fərdi ifadəlilik xüsusiyyətləri qazanır, fərdiyyətin göstəricisinə çevrilir. Orta əsrlərin ilk dövrlərində müsəlman Şərqində və xüsusi ilə də özünüreallaşdırmanin müxtəlif təyinatlı istiqamətləri meydana çıxmışdır ki, bu zaman qərbdə bu ideyalar hələ sistemli xarakter daşımırdı.

Bu baxımdan, Azərbaycanda və Türkiyədə mövcud olmuş sufizm cərəyanı insanın özünüreallaşdırmasində mühüm rol oynayan psixoloji və fəlsəfi ideyalar ortaya qoymuşdur. Bu elmi-dini təriqətin yaradıcılarından olan Cəmallədin Ruminin təsəvvüf fəlsəfəsi isə demək olar ki, bu sahədə inqilab etmişdir. Mövlananın məsnəvilərində özünüreallaşdırma son məqsədə nail olma, tanrıya qovuşma, haqqa çatma kimi təqdim olunur. O, Haqqa yetişmənin yolunu ilahi eşqdə görür. Məhz ilahi eşq vasitəsilə insan Tanrıya yetişir, özünügerçəkləşdirir. Təsadüfi deyil ki, şərq fəlsəfəsində öz əksini tapmış «eqo» nun itirilməsi məsələsi burada öz əksini tapmır. Burada yalnız «eqo» bütövləşir və tamın bir hissəsinə çevrilir. Bu cərəyanın üzvləri xüsusi rəqslər hesabına öz imkanlarını üzə çıxarır, ekstaz vəziyyətinə düşürdülər.

A.Maslou bu barədə qeyd edir ki, adi şəraitdə stimulyatorsuz ekstaz vəziyyətinə düşmək olmaz [10, s. 11]. Ancaq sufilər bunu bacarırdılar. Mövlanə yazır ki, insan o vaxt əsl insan olur ki, öz mənliyindən xilas olur, dünyadan heç nə ummur, Tanrıya sığınır. Mövlana deyir ki, biz özümüzdən keçib Tanrıya üz tuturuq. Çünki O, bizə bizdən yaxındır. «Tanrı şah damarından yaxındır insana. Halbuki sən ox olan düşüncəni uzağa atırsan. Tanrı sənin özündədir. Onu uzaqda axtarma» [8, s. 34]. İnsan həyatı boyu çoxlu biliklər qazanır, çox şeylərin, hadisələrin səbəbini öyrənir. Mövlanə deyir ki, bu çox azdır, hətta əhəmiyyətsizdir. Maddi dünyaya aludə olub boş vaxt itirməkdir. «Belə hesab edək ki, sən hər şeyin tərifini və törəməsini bilirsən. Nə olsun ki? Özünün əsl tərifini bil. Bu, əvəzolunmaz şeydir. Özünün mənasını biləndən sonra sən özündən qaç ki, müəyyən edilməsi mümkün olmayan Tək varlığa çata biləsən [10]. Göründüyü kimi, Mövlanə Cəmaləddin Ruminin özünün tərifini bilmək dedikdə özünütanımanı və özünüreallaşdırmanı nəzərdə tutur. Təsəvvüf fəlsəfəsinin davamçılarından olan Yunus İmrə də özünüreallaşdırmanı insanın kamilliyinin son məqsədi sayır və bunu tanrıya olan məhəbbət sayəsində çatmağın mümkün olduğunu qeyd edir. Elm özünü bilməkdir – deyən Yunus İmrə özünüdərketmə elmi, öz yoxluğunun bilmə və ya öz zahiri varlığını həqiqətdə Allah varlığı içində olduğunu, fəqət maddi mahiyyətdəki butun Haqq vücudunun xəlq edən qüvvənin şəxsən insana əmanət edilmiş olduğunu bilməkdir – deyir [10, s. 72]. Ümumiyyətlə, təsəvvüf fəlsəfəsində qeyd olunan ideyalar olduqca sistemli və yüksək poetik dillə, böyük ilhamla təsvir olunur. Olduqca maraqlı sosial-fəlsəfi və sosioloji ideyalarla zəngin olan təsəvvüf fəlsəfəsində özünüreallaşdırma ideyası aparıcı istiqamətə malikdir. Lakin bu ayrıca və müstəqil bir tədqiqatın predmetidir. Həmçinin təsəvvüf fəlsəfəsi Azərbaycan tədqiqatçısı, professor Y.Rüstəmovun [10] monoqrafik tədqiqatlarında hərtərəfli və sistemli təhlil olunduğundan, biz burada onu geniş aspektdə təhlil etməyə lüzum görmürük. Özünüdərketmə və özünüreallaşdırma dahi Azərbaycan şairi İmadəddin Nəsiminin də şeirlərində öz əksini tapmışdır. Nəsimi şerindəki aşiq haqqı özündə tapan və duyan bir insandır. Haqqı özündə tapmaq isə həqiqəti, gerçəkliyi duymaq deməkdir. Ən böyük həqiqət də öz varlığında ali bir qüvvənin əbədi və əzəli keyfiyyətlərini duymaqdır. Şair hesab edirdi ki, nəfsi öldürmək kamil insana məxsus ən böyük bir mənəvi qəhrəmanlıqdır. Şair öz şerlərində insan səadətini, onun könül sərbəstliyini və iradə azadlığını ön plana çəkir. Şairə görə özünə qalib gəlmək, öz nəfsini özünə tabe etmək, insanın son məqsədi və özünüreallaşdırmasidir. Nəsimiyə görə, insan zəkası, insan ağlı zaman və məkan məfhumu tanımır. Nəsimi insanın məkansız kövhər olduğuna və varlığa sığmadığına işarə vurur. Nəsimiyə görə, özünüreallaşdırmaq – sufilərdə olduğu kimi, Haqqa tapınmaq və ona qovuşmaqdır. Amma insan özünüdərketməklə, öz özgürlüyünü tanımaqla gerçəkliyi özündə tapır. Özünüreallaşdırma problemi yeni dövrün fəlsəfi-

sosioloji fikrində, xüsusi ilə də idealizm təmsilçilərinin (İ.Kant, F.Hegel və b.) əsərlərində etik tələb səciyyəsi qazanır. XX əsrin əvvəllərindən başlayaraq, fəlsəfi etikada özünüreallaşdırmanın etikası cərəyanı ortaya çıxdı. Bu yanaşmanın C.Roys, C.Makkenzi, J.Bastid, F.Adler kimi baniləri göstərirdilər ki, fərdin əxlaqi fəaliyyətinin yeganə məqsədi öz daxili mənini gerçəkləşdirərkən heç bir qərarlaşmış əxlaq normasına, prinsipinə tabe olmamalıdır. Onun əxlaqının yeganə meyarı ancaq öz məqsədinə, həyat istiqamətinə doğru heç şeydən çəkinmədən irəliləməkdən ibarətdir.

Görəsən, təsvir olunmuş həyat istiqamətləri, ömür meylləri nədən ibarətdir? Bu tədqiqatçıların fikrincə, müvafiq istiqamət və meyllər həyat idealına çatmaqla yekunlaşır. Azərbaycan tədqiqatçısı, professor Z.Göyüşov özünüreallaşdırmani hərtərəfli şəkildə təhlil edərək göstərir ki, özünürealizə (özünüreallaşdırma) problemi insan fəaliyyətinin çox geniş bir sahəsini – onun bütün fiziki və mənəvi qüvvələrinin, bütün zəkat potensialının tam ahəngdar realizə olunması əhatə edir [6, s. 117]. Burada müəllif vurğulayır ki, istiqamət seçilərkən başlıca şərt ondan ibarət olmalıdır ki, ömrü bu istiqamətə səmtləşdirilən insan öz qüvvə və bacarığını, öz istedad və qabiliyyətini daha dolğun, daha hərtərəfli realizə edə bilsin, bu istiqamət insanı bir şəxsiyyət kimi tərəqqiyə, yüksəlişə və inkişafa doğru aparsın [6, s. 118]. Müəllif burada özünüreallaşdırma ilə bağlı mülahizələrini ciddi şəkildə arqumentləşdirir və bu səbəbdən, öz yanaşmasında haqlı görünur. Bu cəhətdən, Z.Göyüşovun fikirləri ilə razılaşmamaq mümkün deyildir. Çünki özünüreallaşdırma müasir insan üçün ən vacib məsələlərdən biridir və buna biganə yanaşmaq, ömrü taleyin axarına buraxmaq doğru olmazdı. Əks halda neqativ və ya mənfi təmayüllü özünüreallaşdırma baş verməsi qaçılmazdır.

Müasir dövrdə özünüreallaşdırma probleminin sosial aspektləri daha çox diqqəti çəkir. Bu, sosial-fəlsəfi tədqiqatlarda geniş təhlil olunsa da, məsələnin sosioloji tərəfləri sanki bir qədər kölgədə qalır. istiqamətində problemin ayrı-ayrı aspektləri tədqiqat obyektinə çevrilmişdir. Bu tədqiqatlarda özünüreallaşdırma haqqında təsəvvürlərin inkişaf istiqamətlərinin müəyyən edilməsinə də cəhd göstərilmişdir. XX əsrin 50-ci illərində özünüreallaşdırma probleminin tədqiqində xüsusi rolu olan iki istiqaməti – essensialist və ekzistensialist istiqaməti qeyd etməmək olmaz. Bu istiqamətlər insan, onun mövcudluğu və azadlığı haqqında antoqonist konsepsiyalara əsaslanır.

Özünüreallaşdırmanin essensialist konsepsiyasının müddəalarına Aristotel və onun ardıcıllarının görüşləri daxildir. Onlar hesab edirdilər ki, "özünüreallaşdırmaya insanın təbiətinin əsasını təşkil edən cəhətlər, xüsusiyyətlər və qabiliyyətlər daxildir. Son nəticədə özünüreallaşdırma obyektiv olaraq şəxsiyyətin varlığından əvvəl gələn və ideal bir fenomen kimi real şəkildə fərdə qarşı duran, müvafiq şərait və situasiyalarda nail olunan və gerçəkləşdirilən, insanın təbiətinin təməlinin, əsasının gerçəkləşdirməsi prosesi kimi başa düşülür. Ancaq bu zaman fərdin əsas təbiətini təşkil edən bu və ya digər insani keyfiyyətlərin seçiminin müstəqil meyarlarının müəyyən edilməsi problemi meydana çıxır. Bu cür şərh insanın yalnız müsbət, əxlaq baxımından qəbul edilən qabiliyyətlərini və tələbatlarının özünüreallaşdırmayə daxil edilməsini tələb edir. Şübhəsiz, özünüreallaşdırmadə mənfi keyfiyyətlər də yer ala bilir və o, insanın ali tələbatlarını nəzərə almır … Onlar sosial şəraitin sadə şəkildə yenidən qurulması ilə təmin oluna bilməzlər…" [13, s. 8].

Beləliklə, essensialist yanaşma, insan varlığından şəxsiyyət ölçüsünü çıxdaş edir və şəxsiyyətin öz həyatına, öz fəaliyyətinə müəlliflik hüququnu inkar edir, onu fəaliyyətin obyektinə çevirir. Birincisi, ona görə ki, insan öz taleyinin hakimidir. İkincisi, hər bir insan özünü gerçəkləşdirən şəxsiyyətdir. Şəxssiz özünütəsdiqin zaman və məkan ölçüləri hələ ki, bəlli deyildir (Essensialistlərə görə, bu, yalnız Tanrıya məxsusdur).

Bu konsepsiyanın əksi müəyyən mənada subyektivliyi – insana münasibətdə obyektiv baxışa müxalifliyi ifadə edir. Burada əsas görmə fokusu insan problemlərinin

ontoloji izahına yönəlir. Belə ki, mövcudluq yanaşması və ya eksiztensializm fəlsəfənin əsas paradiqmaları sırasındadır. Ekzistensializmin əsas ideya xətti insanın təbiəti deyil, mövcüdluğunun üsulu və ya özüdür. Bəllidir ki, belə qarşılaşdırma və müqayisə hələ antik fəlsəfədə meydana çıxmışdı. Antik dövrdə Sokrat və stoiklər hesab edirdilər ki, insan təbiətini fiziki əşyaların təbiətinin öyrənilməsi üsulları ilə deyil, başqa yolla öyrənmək lazımdır. Hazırda özünüreallaşdırma probleminə belə sosial-fəlsəfi yanaşma subyektiv olaraq istiqamətlənmiş, müasir fəlsəfi nəzəriyyə olan ekzisitensializmə əsaslanır. Həmin nəzəriyyənin aparıcı nümayəndələrindən biri – Pol Sartr hesab edir ki, insanın subyektivliyi əvvəldən onun şəxsi varlığını müəyyənləşdirən hər hansı bir təbiətdən məhrumluğunu təxmin edir. O özünün yaratdığı layihədir və o, özünü həyata keçirdiyi qədər mövcuddur. Yəni insan hər hansı bir müəyyən olunmuş qaydada mövcud deyil. Lakin layihələrin ətrafında təşkil olunan dünyada yaşayır. Həmin konsepsiyanın əsas cəhəti insanın söykənə biləcəyi hər hansı bir obyektiv dəyərlərin və normaların inkarıdır [7, s. 10-11]. P.Sartra görə, fərd anlayışı cəmiyyətdən kənar olduğundan və mütləq muxtariyyətə və azadlığı malik olduğundan onun özünün mövcudluğu faktı nəticəsində özünüreallaşdırma qaçılmaz olur. Beləliklə, ekzistensialist yanaşmaya görə, insan özünü və öz inkişafını özü müəyyənləşdirir.

Şəxsiyyətin özünüreallaşdırması problemi olduqca mürəkkəb məzmuna və müxtəlif elmi mənalara malik olduğundan bir çox mütəfəkkirlər, o cümlədən A.Fomenko, T.Adorno, C.Braun və başqaları şəxsiyyətin özünüreallaşdırmasını təkcə elmlərarası problem deyil, həm də paradiqmalararası problem adlandırırlar. İrəli sürülmüş fikir onunla əsaslandırılır ki, indiki dövrdə şəxsiyyətin özünüreallaşdırması haqqında təsəvvürlərin humanitar elmlər tərəfindən qəbul ediləcək vahid paradiqması mövcud deyil. Eləcə də bu problem həmçinin marginal xarakteri ilə də başqalarından fərqlənir. Çünki müxtəlif elmlərin problem-axtarış sahəsinə daxil olan mövzuları əhatə edir. Bütün bunlar şəxsiyyətin özünüreallaşdırması probleminin vahid prizmadan nəzərdən keçirilməsini çətinləşdirir və onun müxtəlif elmlər səviyyəsində öyrənilməsinə zərurət yaradır. Şübhəsiz, özünüreallaşdırma probleminin tədqiqinin əsasında, şəxsiyyətin özünüreallaşdırması və onun təkamülü haqqında təsəvvürlərin öyrənilməsi də önəm daşıyır. Başqa sözlə, şəxsiyyətin özünüreallaşdırması haqqında təsəvvürlərin inkişafının tədqiqi elə şəxsiyyətin təşəkkül istiqamətlərinin öyrənilməsi deməkdir.

Özünüreallaşdırma anlayışı sosial elmlərdə mərkəzi anlayış kimi 1970-ci illərin sonu,1980-ci illərin əvvəlində daha geniş spektrdə öyrənilməyə başlanmışdı. Bu dövrdə sosiologiya üzrə bir sıra tədqiqat işlərində özünüreallaşdırma sosial tədqiqat predmetinə çevrilir, kateqorial aparatının işlənilməsinə başlanılır və onun köməyi ilə özünüreallaşdırmaya sosioloji problem statusu verilir. Aparılmış tədqiqatların [12; 16; 17] təhlili göstərir ki, sosioloji aspektdə özünüreallaşdırma haqqında təsəvvürlər İ.Q.Çevtayevanın [17] və L.A.Sırevanın əsərlərində [15] yeni biliyin istehsalı və şəxsiyyətin özünüinkişafı «vasitələr-qabiliyyətlər-bilik» sxemi üzrə birlikdə əlaqələndirilir. Bu yönümdə problemə aydınlıq gətirməyə çalışan İ.Vedin özünüreallaşdırmada şəxsiyyətin yaradıcı potensialının onun öz imkanları sayəsində gerçəkləşdirməsi ideyasını ortaya qoyur. O, yaradıcılığı və özünüyaradıcılığı tədqiq edərək özünüreallaşdırmadə mövcud olan bir sıra prinsipləri ortaya qoyur: 1) istəyirəm və edə bilərəm; 2) istəmirəm və edə bilmərəm; 3) istəyirəm, lakin edə bilmirəm; 4) edə bilərəm, lakin istəmirəm [13, s. 24]. İ.A.İdinov [11] özünüreallaşdırma fenomenini özünüinkişafla müqayisə edir. O, göstərir ki, özünüinkişaf özünəməxsus bir özünütoplamaq, özündə enerjini, bacarıq və qabiliyyətləri yığmaqdır. Özünüreallaşdırma isə öz «Mən»ini nümayiş etdirmək üçün daxili imkanların üzə çıxarılmasıdır. Bu yanaşmada özünüreallaşdırmaya şəxsiyyət strukturlarının təzahürünün əsas vasitəsi kimi baxılır. Bununla belə, müəllif özünüreallaşdırmanın əsas mərhələlərini ayırd edir (aktuallaşma mərhələsi; gərginlik mərhələsi; ziddiyyətlərin aradan qaldırılması mərhələsi) və onların hər birinin səciyyəvi cəhətlərini göstərir [11, s.14].

Maraqlıdır ki, keçmiş sovet respublikalarında özünüreallaşdırma fenomeni ilə bağlı sosioloji tədqiqat işlərinə çox az rast gəlinir. Demək olar ki, əvvəllər sovet ictimai sistemində özünüreallaşdırma probleminin öyrənilməsinə məhəl qoyulmurdu. Şəxsiyyətin özünüreallaşdırmasının məcburi, qanunlaşdırılmış formaları mövcud idi.Onların əsasında bütün mənəvi-əxlaqi dünyagörüşü məsələlərinə cavab verən ideallar və dəyərlər sistemi yaradılmışdı. Özünüreallaşdırmanin belə qanuniləşdirilmiş, sərt forması həyatda öz yerini tapma prosesində həyəcandan fərdi azad edir və xəyali müdafiənin təmin olunmasını həyata keçirirdi. Sovetlərin dağılması və müstəqil dövlətlərin yaranması, eləcə də, cəmiyyətdə baş verən dəyişikliklər, ictimai təsisatlaşmada dinamik yeniləşmələr tamamilə yeni, fərqli sosial tələbatların ortaya çıxmasına səbəb oldu. İnsanlar müstəqil, fərdi şəkildə ölçülüb-biçilmiş qərarlar qəbul etməli oldular. Bütün bunlar əsl özünüreallaşdırma üçün əlverişli şərait yaratdı ki, onun əsas əlaməti alternativlik və seçim imkanının olması və onun təzahürüdür.

Bununla yanaşı, postsovet ölkələrində özünüreallaşdırmanin strukturunda müxtəlif elementlərin ayırd edilməsi bir sıra sosioloji tədqiqatların obyekti olmuşdur. Belə ki, Q.K.Çernyavskaya sosial fəlsəfə üzrə doktorluq dissertasiyasında özünüreallaşdırmanın strukturunda «özünüdərketmə – özünüdüşünmə – özünü model – özünü təkmilləşdirmə – özünü tənzimlənmə» həlqəsini ayırır. O, özünüreallaşdırmanı özünütəsdiqin və özünüinkarın vəhdəti kimi şərh edərək, şəxsiyyətin özünüreallaşdırması problemini fərdin mənəvi prinsipləri nöqteyi-nəzərindən öyrənir [16].

Müasir dövrdə metodoloji aspektdə özünüaktuallaşdırma və özünüreallaşdırma nəzəriyyəsi L.İ.Antropov, L.Q.Brelevoy, İ.A.Vitin, M.L.Kulik, K.C.Muxumetçanov və başqalarının işlərində daha geniş planda öyrənilmiş yeni istiqamətlər ortaya qoyulmuşdur. Bu tədqiqatlarda özünüaktuallaşdırma fasiləsiz, ictimai və şəxsi perspektivlərin şəxsiyyət tərəfindən dərk edilməsi, alternativləri görmək bacarığı, öz seçiminin məsuliyyətinin dərk olunması, fərdi fəaliyyət tərzinin olması prosesi kimi nəzərdən keçirilir [16, s. 22-23]. Fikrimizcə, özünüreallaşdırma – “Mən”in inkişaf imkanlarının şəxsi səylər, iradi cəhdlər, ətraf gerçəkliklə harmoniyada bütövlükdə isə dünya ilə birgə yaradıcılıq, birgə fəaliyyət vasitəsilə həyata keçirilməsi prosesidir. Bu proses şəxsiyyətin inkişaf prosesindən, onun özünüdərketməsindən, onu əhatə edən cəmiyyətdən, sosial mühitdən kənarda götürülə bilməz. Belə metodoloji yanaşma özünüreallaşdırmanı fərdi sferadan çıxarır və sosial mühitin fəal elementinə, gərəkli fenomeninə çevirir (sosial tədqiqatlarda bu prinsip əsas götürülür), sosial fəallığını artırır və fərdi azadlığına əlverişli şərait, zəmin formalaşdırır. Əsl özünüreallaşdırma da məhz bu şərtlər daxilində baş verir.

Bu mənada, xüsusi sosial statuslarına və spesifik psixoloji xüsusiyyətlərinə görə, gənclərin bir qisminin çətinliklərdən müstəqil keçmək imkanlarının məhdudlaşması istisna deyil. Məhdud şəraitdə gənclər onlara verilən tapşırıqları həll edə bilməyərək, ictimailəşmənin və ya kütləviləşmə fenomeninin qurbanı ola bilərlər [14, s. 61]. Gənclərin ictimailəşməsi prosesində bu kateqoriyaya xas olan bir sıra problemlər meydana çıxır: özünüdərketmənin səviyyəsi, sosial məsuliyyət hissinin adekvatlığı, sosial-iqtisadi hədəflər və gözləmələrin alınmaması, məşğulluğun olmaması, alkoqolizm və narkotik aslılığı, cinayətkar davranış və s. Sosial-statistik araşdırmalara görə, gənclərin sosial-iqtisadi cəhətdən özünüreallaşdırması istiqaəmətində yaranan obyektiv çətinliklər Məşğulluğun olmaması (işsizlik) problemi iş təcrübəsinin olmaması səbəbindən gənclərə əmək bazarında tələbatın az olması ilə əlaqədardır.

**Nəticə**

Gənclərin iş təcrübəsinin az olması və ya olmaması onlara əmək bazarında olan tələbatı azaldır. 15-19 yaş arası gənclərin 11,9%-i, 48,4%-i 20-24 yaş arasında, 22,3%-i 25-29 yaş arasında iş təcrübəsi yoxdur [5, s. 39-41]. Bundan əlavə, məzunların ixtisasları işəgötürənlərin tələblərinə cavab vermir, lazımi bacarıqlar yoxdur. Son statistik məlumat-

lara görə, işsizlərin 72%-i məşğulluq xidmətlərinə müraciət etmədən özləri üçün iş axtarır [14, s. 28]. Bu şəraitdə gənclər arasında məşğulluq sahəsində sosiologiya xüsusi aktuallıq kəsb edir. Əmək bazarının tələblərini nəzərə alan sosiologiya üzrə mütəxəssis məşğulluq mərkəzləri, işə qəbul agentlikləri ilə əlaqə qurmaq, gəncləri davamlı təhsil və yenidən hazırlıq proqramlarına cəlb etməklə məşğulluğu təşviq edə bilər. Gənclərin məşğulluğunun asanlaşdırılmasında sosial mütəxəssislərin, tədqiqatçıların köməyi çox vacibdir (məsələn, sorğu, tədqiqat yolu ilə hansı sahələrdə gənc işçilərə, mütəxəssislərə tələbatın daha yüksək olduğunun öyrənilməsi), çünki işsizlik asosial həyat tərzi və gənclər arasında narkomaniya, alkoqolizm, fahişəlik və cinayət kimi fenomenlərə yol aça bilər. Alkoqolizm və gənclərin anesteziyası müasir cəmiyyətin ən aktual problemlərindən biridir. Psixoaktiv maddələrin istifadəsinin əsas səbəbi insanın mənəvi yoxsulluğu, adekvat dəyər-semantik göstərişlərin olmaması, ictimai faydalı fəaliyyət və istirahət sahəsində əlverişli təcrübənin olmamasıdır. Bu, gənclərin mühüm qisminə həyatda öz yerini tutmasında, özünü düzgün ifadə etməsində müəyyən obyektiv çətinliklər yaradır. Gənclər digər insanlarla təmas ehtiyacını və cəmiyyətin əhəmiyyətli sahələrində özünü tanıya bilməməsi səbəbindən alkoqol və narkotik maddələrə qarışırlar. Buna görə də, dövlət gənclər siyasətinin prioritet istiqamətləri bunlardır:

- gənclərin sosial təcrübəyə yiyələnməsi, onların potensial inkişaf imkanları barədə maarifləndirilməsi;
- gənclərin yaradıcı fəaliyyətinin inkişafı;
- gənclərin çətin həyat şəraitinin yüngülləşdirilməsiylə onları cəmiyyətə inteqrasiyası etmək və s. [20, s. 2].

Gənclərin sosial-iqtisadi probllemlərinin öyrənilməsi ilə bağlı sosioloji tədqiqatlar vəziyyəti obyektiv dəyərləndirməklə, cəmiyyətdəki sosial qeyri-sabitliyin aradan qaldırılmasının effektiv mexanizmini işləyib hazırlamağa əlveriş zəmin yaradır. Burada aparılan sistemli araşdırmalar müxtəlif səbəblərdən gənclərə hərtərəfli yardım və dəstək göstərilməməsi ilə yaranan riskləri minimuma endirməyə qadirdir.

Gənclərin sosial cəhət özünü reallaşdırmasında sosial mütəxəssislərin təsiri, rolu da getdikcə artmaqdadır. Bu mənada, sosial sahənin mütəxəssisi zərurət olduqda köməyə ehtiyacı olan gənc (tibbi, psixoloji, hüquqi, məsləhətçi) ilə tələb olunan yardım növünün (həkim, sosioloq, psixoloq, hüquqşünas, məsləhətçi, sosial işçi və s.) təmin edə bilən mütəxəssis arasında bir vasitəçi funksiyasını yerinə yetirməlidir.

## ƏDƏBİYYAT

1. Cabbarov R.V. Psixologiyada özünügerçəkləşdirmə probleminin tədqiqi istiqamətləri // Psixologiya jurnalı, 2007, №3, s. 116-130.
2. Cabbarov R.V. Şəxsiyyətin özünügerçəkləşdirməsində özünüdərkin rolu // Psixologiya jurnalı, 2007, №1, s. 3-14.
3. Eraydın S. Tasavvuf ve Tarikatlar. İstanbul: M.Ü. İlahiyat Fakültesi Vakfı Yayınları, 2004, 518 s.
4. Əliyev B.H. Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi. Bakı: Təhsil, 2008, 134 s.
5. Əliyev B.H. Şəxsiyyət probleminə yeni baxış / Elm XXI əsrin astanasında elmi-praktik konfransının materialları. Bakı: Renessans, 1998.
6. Göyüşov Z.B. Daxilə pəncərə. Bakı: Azərnəşr, 1978, 198 s.
7. İsmayılov F.K. Müasir Qərb fəlsəfəsi. Bakı: Azərnəşr, 1991, 308 s.
8. Mevlana Celaleddin Rumi. Mesnev-i Şerif. Çevirmen: Amil Çeliboğlu, Süleyman Nahifi. İstanbul: Timas Yayinları, 2007, 800 s
9. Nizami Gəncəvi. Yeddi gözəl. Bakı: Yazıçı, 1982, 401 s.
10. Rüstəmov Y. Mövlanə Cəlaləddinin sufilik fəlsəfəsi. Bakı: Nurlar, 2006, 240 s.
11. Идинов И.А.Самореализация личности в непроизводственной сфере общества. Автореф. канд. дис. философ. н., Фрунзе, 1990, 25 с.
12. Исаев А.К. Самореализация личности как проблема социальной философии. Авто-

реф.канд.дис. философ. н., М., 1990, 28 с.
13. Коростылева Л.А. Психология самореализация личности. М.: Наука, 2005, 215 с.
14. Рябова Л.В. Проблемы самореализации человека. Ростов-на-Дону: Свет, 1995, 198 с.
15. Цырева Л.А. Самореализация личности как предмет философского исследования. Автореф. канд.дис. философ. н., М., 1992, 24 с.
16. Чернявская Г.К. Самопознание и самореализация личности. Методологические проблемы. Автореф. канд. дис. философ. н., СпБ., 1994, 25 с.
17. Чевтаев И..Г. Самореализация личности в развитие знания. Автореф.канд.дис. философ. н. философ. н., Свердловск, 1989, 24 с.
18. Чирнов В.И. Самодетреминация и внутренняя мотивация поведения человека // Вопросы психологии, 1996, №3, с. 135-144.
19. A Comprehensive Dictionary of Psychological and Psychoanalytical Terms a Gwide to Usage. New York, London, Toronto, 1958, 488 p.
20. The Oxford English Dictiionary, Second Edition. Prepared by J.A.Simpson and S.C.Wein. Vol. XIV. Oxford, 1989, 921 p.

***Резюме***

***Рена Кафарова***

***Сущность и содержание понятия «самореализация»***

Статья посвящена социологической сущности и содержанию проблемы самореализации молодежи. В истории социально-философской мысли идея самореализации всегда была одним из важнейших вопросов для общества и людей. В этом смысле найти свое место в социальной среде, среди других людей вокруг себя – самоутверждение или самореализация очень важны для нового поколения, особенно для молодежи, которая считается наиболее активной, ведущей частью общества. В истории социологии существуют различные подходы и концептуальные взгляды на социологический анализ проблемы.

В ряде важных источников социологическое содержание и сущность самореализации анализируются на фоне основных методологических концепций, то есть на основе социально-исторического подхода. В принципе односторонний подход к самореализации затрудняет определение ее связей и отношений в отдельных интегративных системах. В целом в социологических теориях преобладает феноменологический подход к проблеме самореализации молодежи. Это выводит самореализацию из индивидуальной сферы и превращает ее в активный элемент социальной среды, в необходимое явление.

Такая ситуация вызывает ряд вопросов при определении контуров самореализации с методологической точки зрения. Например, можно задать вопрос, в чем разница между самореализацией и самопознанием? Чем самореализация молодежи отличается от самореализации на уровне других возрастных групп? С другой стороны, каковы объективные и субъективные факторы, определяющие самореализацию молодых людей? В то же время возникает логичный вопрос, какая связь существует между самореализацией и самоутверждением.

Интересно, что в бывших советских республиках социологические исследования феномена самореализации проводились очень редко. Исследованиям проблемы самореализации в советской социальной системе почти не уделялось внимания. Существовали обязательные, узаконенные формы самореализации личности. На их основе была создана система идеалов и ценностей, отвечающая всем вопросам нравственного мировоззрения. Такая узаконенная, жесткая форма самореализации освобождает человека от беспокойства в процессе поиска своего места в жизни и обеспечивает воображаемую защиту.

***Ключевые слова**: самореализация, молодежь, личность, исследования*

***Resume***

***Rana Gafarova***

***The Essence and Content of the Concept of "Self-Realization"***

The article examines the problem of youth self-realization in the sociological aspect. In the history of socio-philosophical opinions, self-realization is expressed in the form of a group and a historical and sociological approach, based on self-realization in sociological content and analyzed against the

background of a methodological concept. It was noted that the approach of unilateral self-realization, its communication in systems of different integratives, as well as the definition of dependence, is created with great difficulty.

In some valuable sources, the sociological context and essence of self-realization is analyzed against the background of the main methodological concepts, referring to the socio-historical approach. By principle, a one-sided approach to self-realization creates difficulties in determining its connections and interdependencies in different integrative systems. On the other hand, sociological theories are dominated by a phenomenological approach to the problem of youth self-realization. Such a definition excludes self-realization from the individual sphere and turns it into an active element and an important phenomenon of the social environment.

In the methodological aspect, this situation raises useful questions on defining the boundaries of the problem of self-realization. For example, it is quite logical to ask what the process of self-realization differs from self-expression and from self-knowledge. Here there is such an urgent question: how can youth distinguish the process of self-realization from the tendency of self-actualization of other age groups? What objective and subective factors have the greatest impact on youth self-realization? And also, here there are some important questions about interdependence, about the interaction of the processes of self-realization and self-approval.

Interestingly, in the former Soviet republics it is very rare to meet sociological studies devoted to the phenomenon of self-realization. Initially, the problem of self-realization did not matter for Soviet sociology, Soviet scientists almost did not pay attention to this topic. In Soviet society, there were forced, standard forms of self-realization of the individual. Based on these forms, a system of ideals and values was created that answers all questions of a spiritual and ethical worldview. Such a standard rigid form of self-realization frees the individual from disorders in determining his place in life.

***Keywords:*** *self-realization, youth, personality, research*

Baş redaktor f.e.d., prof. Hüseynli Nazim Ziyad oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT-316**

# SOSİAL SAHİBKARLIQ, KOMMERSİYA VƏ QEYRİ-KOMMERSİYA FƏALİYYƏTİNİN QARŞILIQLI MÜNASİBƏTİ

**Rəşad MURADOV***

*Məqalə redaksiyaya daxil olmuşdur: 5 oktyabr 2020; çapa qəbul edilmişdir: 15 noyabr 2020; online-da çap edilmişdir: 31 mart 2021.*

*Received: 5th of October, 2020; accepted: 15th of November, 2020; published online:15th of March, 2021.*

***Açar sözlər:*** *Sosial sahibkarlıq, kommersiya təşkilatları, qeyri-kommersiya təşkilatları, dövlət sektoru, xeyriyyəçilik fəaliyyəti*

## Giriş

Sosial sahibkarlıq fəaliyyəti elmi nöqteyi-nəzərdən mübahisəli bir konsepsiya kimi çıxış edir. Ən ümumi formada sosial sahibkarlıq cəmiyyətdə toplanıb qalmış təcili sosial problemləri həll edən, biznes və xeyriyyəçiliyin kəsişməsində yerləşən sahibkarlıq fəaliyyətinin bir növü kimi başa düşülür. Eyni zamanda, bu fəaliyyət növü bir kommersiya fəaliyyətidir: bu fəaliyyətdən əldə olunan mənfəətə yenidən investisiya qoyularaq müəssisənin problemlərinin və kəskin sosial məsələlərin həllinə yönəldilir. Kəskin sosial problemlərin həllinə yönəlmiş bu növ sahibkarlıq fəaliyyətinin inkişafı üçün real imkanlar və şərait yaradılmasının zəruriliyi tamamilə aydındır. Bu cür işlər Azərbaycan Respublikasında qanunvericilik səviyyəsində aparılmalıdır: sosial sahibkarlıq subyektlərini, o cümlədən kommersiya və qeyri-kommersiya təşkilatlarını, fərdi sahibkarları qeydiyyatdan keçirmək, tələbləri müəyyənləşdirmək üçün ayrıca bir sahibkarlıq haqqında qanun hazırlanmalı və bu cür fəaliyyət üçün məhdudiyyətlər, sahibkarların etibar edə biləcəyi vergi güzəştləri tətbiq edilməlidir.

## Sosial sahibkarlıq zərurətdən doğan bir fəaliyyət növü kimi

Elmi ədəbiyyatda sosial sahibkarlıq iqtisadiyyat, sahibkarlıq, sosial dəyişikliklər, sosial məsuliyyət, təşəbbüs xeyriyyəçiliyinin kəsişməsində olan bir konsepsiya kimi qəbul edilir. Bir qayda olaraq, mövcud iqtisadi problemi adi iqtisadi fəaliyyət metodları ilə aradan qaldırmaq mümkün deyil. Burada əsasən sosial yönümlə xarakterizə olunan və bu hallarda hədəflə – gəlir və ya qazancla müqayisədə böyük əhəmiyyətə malikdir qeyri-standart fəaliyyət tələb olunur.

Hər hansı bir dövlətin, o cümlədən Azərbaycanın sosial siyasəti innovativ bir iqtisadiyyatın formalaşması üçün əsasdır. Bu tezis bir çox innovasiya sahələrində malların, işlərin, xidmətlərin satın alınmasına, o cümlədən ölkənin müdafiəsi ilə əlaqəli dövlət və bələdiyyə ehtiyaclarını təmin etmək üçün sosial yönümlü qeyri-kommersiya təşkilatlarını və kiçik müəssisələri cəlb etməyə yönəlmiş tədbirlər sistemi ilə dəstəklənir ki, bunlar da təhlükəsizlik və bununla bağlı digər proqramlara qatılan digər təşkilatlarla müqayisədə bu qurumlara əhəmiyyətli üstünlüklər verməyi nəzərdə tutur. Dövlət və bələdiyyə ehtiyacları üçün satınalma sahəsində mövcud müsbət təcrübəni inkar etmədən qeyd edə bilərik ki, dövlət yönümlü müqavilələrin icrasına sosial yönümlü qeyri-kommersiya

* doktorant, Bakı Dövlət Universiteti; AR Əmək və Əhalinin Sosial müdafiəsi nazirliyi tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi)
*e-mail: reshadmuradov2@gmail.com*

təşkilatlarının və kiçik müəssisələrin cəlb edilməsi münasibətlərin xüsusiyyətlərini müəyyənləşdirir (səmərəliliyinin qiymətləndirilməsində əldə edilmiş nəticə, müqavilə şərtlərinin şəffaflığı, dövlət müqavilələrinin bağlanması və icrası prosesində iştirak edən şəxslərin fəaliyyətinin izlənilməsinin müstəqilliyi və obyektivliyi və s.) ki, bu da xüsusi hüquqi tənzimləməyə ehtiyac yaradır. Sosial sahibkarlıq "informasiya cəmiyyətinin ideologiyasına uyğun" bir fenomen olaraq qəbul edilir və bu da son onilliklərdəki sürətli inkişafın və bu mövzunun tədqiqat üçün cəlbediciliyinin səbəbidir. [2, 44]

Müasir dünyada sosial-iqtisadi həyatda baş verən keyfiyyət dəyişiklikləri getdikcə dərinləşən sosial problemlərə, məsələn, cəmiyyətin qütbləşməsinə və sosial təbəqələşmənin güclənməsinə, demoqrafik problemlərin kəskinləşməsinə və s. diqqəti daha da artırır. Buradan da bir sıra tədqiqatçılar biznes fəaliyyətinin əldə olunan qazanca görə deyil, onun cəmiyyət üçün xeyirli olub-olmaması nöqteyi-nəzərindən qiymətləndirilməsinin düzgün olduğunu hesab edirlər. [3, 39] Belə bir fikir söyləmək olar ki, sosial sahibkarlıq cəmiyyətdə toplanıb qalmış həlli çətin olan bu kimi problemlərə cavab kimi çıxış edir, çünki məhz onların həlli yolunda sahibkarlar insanlar üçün zəruri olan əmtəə və xidmətləri istehsal etmək və onların həyat səviyyəsini qaldırmaq imkanı qazanmış olurlar.

Ümumiyyətlə, sosial sahibkarlıq fəaliyyətinin təşkili bir neçə sektorun kəsişməsində – kommersiya, qeyri-kommersiya və dövlət – özünə yer alır. Onların hər birinin xüsusiyyətini müəyyənləşdirmədən sosial sahibkarlıq anlayışını anlamaq çətindir.

Qeyri-kommersiya təşkilatları və ya QHT-lər təbii və ya humanitar fəlakətlər, təcili tibbi yardım üçün zəruri vəsaitlərin toplanılması, könüllülük layihələrinin həyata keçirildiyi vaxt əvəzsiz hesab olunurlar. Bu fəaliyyətdə təbii ki, dövlət maraqlıdır və deməli, onlara qrantlar ayrılması, onlarla bağlı qanunvericilik məsələlərinin sahmana salınması dövlətin prioritet məsələləri sırasında olacaqdır. Eyni zamanda QKT-lər də dövləti etibarlı biznes-tərəfdaşı kimi görərək, onunla təsirli strateji qarşılıqlı əlaqə qurmaqda maraqlıdırlar. Lakin qeyri-kommersiya sektorundan kommersiya sektoruna keçidi yalnız o təşkilatlar həyata keçirə bilirlər ki, onlar öz sosial missiyalarını yerinə yetirərkən bazara uyğun qiymətlərlə innovativ əmtəə və xidmətlər təklif edə, bazar rəqabətinə hazırlıq nümayiş etdirə bilir və bununla yanaşı öz sosial vəzifələrindən də imtina etmirlər. Qeyd edək ki, qeyri-kommersiya təşkilatlarının maliyyə mənbələrini qrantlar, internet vasitəsilə xeyriyyəçilik aksiyaları, investisiya proqramları (program-related investments) və sosial yönümlü kiçik sahibkarlıq fəaliyyəti təşkil edir.

Sosial sahibkarlıq kommersiya və qeyri-kommersiya sektorlarının qovşağında yerləşən müəyyən bir təşkilat forması kimi qiymətləndirilə bilər. QKT kommersiya fəaliyyəti ilə məşğul olduğu zaman onun vasitəsilə sosial problemləri həll edirsə, onda bu cür fəaliyyəti sosial sahibkarlıq kimi qiymətləndirmək mümkündür. Ümumiyyətlə isə sosial sahibkarlıq elə sahibkarlığın özü kimi risklə bağlıdır və onun qarşısına qoyduğu alicənab məqsədlər heç də onun maliyyə möhkəmliyinə dəlalət etmir. Sosial müəssisənin gəlir mənbəyini qrantlar, fondlardan əldə olunan güzəştli kreditlər, dövlət tərəfindən alınan maliyyə, əmlak və informasiya dəstəyi, vergi güzəştləri, ianələr və s. təşkil edir. [8]

Qərb ölkələrində sosial sahibkarlıq haqqında ilk dəfə 1960-cı illərin sonu – 1970-ci illərin sonlarında geniş bəhs olunmağa başlandı. Fəal şəkildə isə bu termin sosial sahibkarlıq üzrə mütəxəssis R.Kanter və "Aşok" təşkilatının banisi B.Dreyton tərəfindən işlənməyə başladı. [2, 39] Məhz onlar istər özəl, istərsə də dövlət sektorlarında həllini tapa bilməyən problemlər üzərində diqqəti cəmləşdirməyə başladılar. Beləliklə, "üçüncü sektorun", vətəndaş cəmiyyəti təşkilatlarının və yerli cəmiyyətlərin əhəmiyyəti xeyli artdı. Hal-hazırda da dünyanın aparıcı ekspertləri bu fikirdədilər ki, sosial sahibkarlığın populyarlıq qazanmasının əsas səbəbi cəmiyyətin müxtəlif sferalarında novator və qeyri-standart yanaşmanı tələb edən, həlli çətin olan situasiyaların toplanıb qalmasıdır. Bunlara etnik azlıqlar arasında işsizliyin artmasını, əsas istehsalın bağlanması ilə bağlı fəhlə

qəsəbələrinin "məhv olması"nı, əlillərin sosial təcrid olunması və s. aid edə bilərik. [2, 40]

**Sosial sahibkarlığın əsas əlamətləri**

Sosial sahibkarlığın bir sıra əlamətlərinə nəzər salaq. Bunlardan birincisi sosial missiyanın kommersiya məqsədləri üzərində üstünlük təşkil etməsidir. Bu, həmin təşkilatın fəaliyyətinin sosial problemlərin həllinə yönəldiyini göstərir. İkincisi, sabit kommersiya təsirinin olmasıdır. Belə ki, QKT-lər müəyyən məbləğə kitab satışı həyata keçirə, seminar və konfranslar təşkil edə bilərlər. Lakin bu heç də onların öz xərclərini çıxarması demək deyildir. Bu da onları sosial sahibkarlıqdan fərqləndirir. Biz kommersiya effekti dedikdə öz xərcini çıxartma və rəqabətliliyi nəzərdə tuturuq. Sosial sahibkarlığın daha bir əlaməti onun novatorluğundadır ki, bunun vasitəsilə həmin fəaliyyət ənənəvi kommersiya və qeyri-kommersiya təşkilatlarının öhdəsindən gələ bilmədiyi sosial problemləri həll edir. Nəhayət, sosial sahibkarlığın xüsusiyyətlərinə biz onun əsaslandığı dəyərlər sistemini də əlavə edə bilərdik. Məsələ burasındadır ki, sosial müəssisə həmişə müəyyən bir sosial mühit və sosial qrupa əsaslanır ki, bura da ya müəssisənin problemlərini həll etməyə çalışdığı insanlar, ya da ki əhalinin “problemli” qrupları ilə işləyən və onların problemlərini yaxşı bilən peşəkarlar aid edilir. [9]

Sosial sahibkarlığın digər bir xüsusiyyəti onun özündə ənənəvi sahibkarlıqla xeyriyyəçilik keyfiyyətlərini birləşdirməsidir. Belə ki, o, xeyriyyəçilikdən sosial yönümü, biznesdən isə sahibkarlıq prinsiplərini özündə əxz edir ki, bu da həmin fəaliyyət növünə sosial problemlərin həllinə keyfiyyətcə yeni yanaşmanı nümayiş etdirməyə imkan verir.

Bəzən qeyri-kommersiya təşkilatlarına rəhbərlik edən sahibkarlar təşkilati strukturun məhdudiyyətliliklərindən ciddi zərər görürlər. Əslində sosial layihə yalnız xeyriyyəçilikdən gələn vəsaitlər hesabına fəaliyyət göstərə bilmir, sahibkarların özləri isə gəlir götürmək məsələsində hüquqi qeyri-müəyyənlikdən əziyyət çəkirlər. Bura vergi imtiyazlarını, kommersiya layihələri tərəfindən irəli sürülən haqsız rəqabət ifadələrini də əlavə edə bilərik. Qeyri-kommersiya və eləcə də onunla bağlı kommersiya layihələrinin idarə olunması ikiqat fayda gətirə bilər. Kommersiya hissəsi təkcə əlavə gəlir mənbəyi deyil, həm də kompaniyanın missiyasını inkişaf etdirən qlobal dəyərlərlə bağlı müxtəlif fəaliyyət növlərində çıxış edə bilər. Həm də qeyd etmək lazımdır ki, kommersiya strukturlarına kredit kapitalının verilməsi proseduru əhəmiyyətli dərəcədə asandır.

**Sosial sahibkarlıq dəyərlərə söykənən biznes fəaliyyəti kimi**

Yuxarıda səsləndirdiyimiz fikirləri, yəni sosial sahibkarlığın hibrid bir fəaliyyət növü olduğunu əsaslandırmaq üçün ABŞ-ın Nyu-York ştatının Yonkers şəhərində fəaliyyət göstərən “Greyston Bakery” çörək zavodunun işini nəzərdən keçirək. Həmin strukturun əsası keçmiş kosmik sənaye mühəndisi buddist rahib Bernard Qlassman tərəfindən 1982-ci ildə qoyulmuşdur. Onun özünün və rəhbərlik etdiyi meditasiya qrupunun ilkin məqsədi gündəlik çörək pulu qazanmaq idi. Lakin tədricən çörək sexi cəmiyyətdə “arzuolunmaz şəxslər” (narkomanlar, əyyaşlar, məhkumlar) adlanan insanları iş yerləri ilə təmin edən bir müəssisəyə. Tezliklə həmin şəxsləri həm də yaşayış yeri, sosial xidmətlər və tibbi yardımla təmin etməyin lazım olduğu məlum oldu. Buradan isə qeyri-kommersiya fondunun açılması ideyası ortaya çıxdı və sonradan o, “Greyston Foundation” adını aldı. Fond xeyriyyə haqlarının paylanmasını idarə etmək, ianələr və qrantlar qəbul etmək və digər qeyri-kommersiya təşkilatları ilə əlaqələr yaratmaq hüququna malikdir. Zavod nəinki normal həyata inteqrasiya etməyin başqa yolları olmayan insanların işinin mahiyyətini mahiyyətini başa düşməyə kömək edir, o həmçinin fondun gəlir mənbəyi və missiyasının əsası kimi çıxış edir. “Greyston Bakery” Nyu-Yorkdakı bir çox tanınmış restoranlara öz məhsullarını təqdim edir. 1988-ci ildən isə o, məşhur “Ben & Jerry” don-

durması üçün nəzərdə tutulmuş peçenyelər, eyni zamanda özünün peçenyeləri olan "Do-Goodies" istehsal edir. Kompaniyanın dövriyyəsi 5 milyard ABŞ dollarını ötür və o, 65 yerli əhalini yüksək əmək haqqı və uyğun işlə təmin edir. Gətirdiyimiz misal həm də dəyərlərə söykənən biznesə aid bir misaldır. [7]

Ümumiyyətlə, sosial müəssisəni düzgün müəyyənləşdirmək üçün müəyyən bir öl-kədə və müəyyən bir zamanda hansı hədəflərin sosial olduğunu başa düşmək vacibdir. Müəssisənin "sosiallığı" onun cəmiyyətin ən yoxsul, sosial cəhətdən kasıb insanları dəstəkləyən bir struktur olub-olmaması ilə müəyyən edilir. Bu baxımdan, qarşısına əhalinin yoxsul təbəqələrinə onlar üçün faydalı olan müəyyən prinsiplər üzrə xidmətlər satma vəzifəsi qoyan "Grameen Bank" və məşhur sosial sahibkar M.Yunusu misal göstərə bilərik. Həmin bank digər sahələri sürətlə inkişaf etdirdi. Onun təşəbbüslərindən biri də 1,25 dollarlıq mobil telefonlar satışı ilə məşğul olan "Grameen Telecom"u yaratması oldu. Bu cihazlarda heç bir oyun oynamaq mümkün deyil və onlar yalnız zənglər üçün nəzərdə tutulub. M.Yunus isə ayrıca, xüsusən yeməli qablaşdırmada yoqurt istehsal edən "Grameen-Danone" ortaq bir şirkət yaratdı. Sual budur ki, yoqurt istehlak edən bir şəxs onun qabını atmır, yəni məhsul tamamilə tullantısızdır. Ən başlıcası isə bütün bunlar müvafiq məhsulun təşviq olunduğu əhalinin yoxsul təbəqələrinin seqmentində edilir. Bu Grameen şirkətinin sosial missiyasıdır. [10]

**Sosial sahibkarlıq qeyri-kommersiya, kommersiya və dövlət sektorlarının kəsişməsində yerləşən bir fəaliyyət növü kimi**

Daha sonra qeyd edək ki, ümumilikdə QKT-lər mənfəət güdməyən, sosial təsirə və ictimai missiyanın həyata keçirilməsinə yönələn bir fəaliyyət növüdür. Qeyri-kommersiya təşkilatları öz fəaliyyət sferası sərhədlərini aşmamalıdırlar: onların təsiri məhdud, yəni yerli auditoriyanın məqsədləri, fəaliyyət sferaları isə malik olduqları resurslarla məhdudlaşmalıdır. Bu təşkilatlar missiyaları başa çatdıqdan və ya resursları tükəndikdən sonra fəaliyyətlərini dayandırırlar. Başqa sözlə, onlar bir tərəfdən genişmiqyaslı fəaliyyət göstərə bilmir, digər tərəfdən isə gördükləri iş o qədər də cəzbedici olmadığından geniş kütləni öz tərəflərinə cəlb edə bilmirlər. Lakin bütün bunlara rəğmən sosial sahibkarlıq tam başqa müstəvidə fəaliyyət göstərir: o, sosial məsuliyyət dərəcəsini artırır və ədalət hisslərini gücləndirir. B.Draytonun sözləri ilə desək, sosial sahibkarlar "insana təkcə balıq vermək və ya onu necə tutmaqla qənaətlənmirlər. Onlar həm də bütövlükdə balıq sənayesində inqilabi vəziyyət yaratmayana qədər sakitləşmirlər". [1, 128]

Sosial sahibkarlıq spesifik keyfiyyətlərinə görə QKT-lərə çox yaxın olmasına baxmayaraq fəaliyyətində öz maliyyə bazasına söykənməlidir, yəni burada sosial rifah başlıca məqsəd olsa da, iqtisadi gəlirin əldə olunması onun maliyyə sərbəstliyi və dayanıqlı təşəbbüsü üçün həyati əhəmiyyət daşıyır. Onun fəaliyyətinin əsas sütunlarından biri də qazanc əldə olunmasıdır ki, bu onu QKT-lərdən əsaslı dərəcədə fərqləndirir. Bütün bunlardan belə bir nəticə çıxarmaq olar: əgər QKT-lərin maliyyə vəsaitlərinin əsas hissəsini xeyriyyəçilik və qrantlar deyil, əmtəə və xidmətlərin satışı təşkil edirsə, onda bu elə sosial müəssisədir.

Sosial sahibkarlıq özündə ənənəvi sahibkarlığı və xeyriyyəçiliyi birləşdirməklə cəmiyyətdə xüsusi bir yer tutur. O özündə xeyriyyəçilikdən fəaliyyətinin sosial yönümlülüyünü, biznesdən isə sahibkarlıq prinsiplərini birləşdirir. Bu da ona sosial məsələlərin həllinə keyfiyyətcə yeni yanaşma nümayiş etdirməyə imkan verir. [3, 43]

Bəs, onda qeyri-kommersiya təşkilatı, xeyriyyəçilik və sosial sahibkarlıq arasında hər hansı bir sərhəd qoymaq mümkündürmü? Birincisi, xeyriyyəçilik investisiya kapitalının (eləcə də sosial kapitalın) artmasına yönəlməmişdir və o, şüurlu şəkildə əldə olunan təmiz xərclərdən ibarətdir. Bir sıra mütəxəssislərin fikrincə, xeyriyyəçilik sahibkarlıq fəaliyyəti ilə deyil, istehlak davranışı ilə müqayisə olunmalıdır. Belə ki, bir şəxsin digə-

rinə ianə şəklində verdiyi vəsait müəyyən dərəcədə hansısa emosiyaları, məsələn, mərhəmət hisslərinin məmnuniyyəti, yaxşı bir işə görə qürur duyulması və s. satın almış olur. Lakin bu fikirlə həm razılaşmaq, həm də razılaşmamaq olar. Razılaşmadığımız halda biz xeyriyyəçiliyin müdafiəsinə qalxaraq onun faydasını qəbul etmiş oluruq. Razılaşdığımız halda isə xeyriyyəçiliyin amalını, onun humanist məqsədlərini şübhə altına alırıq. Amma istənilən halda xeyriyyəçilik sahibkarlıqla tərs mütənasiblik təşkil edir. Qeyri-kommersiya təşkilatlarına gəldikdə isə onlar arasında təbii ki, sosial müəssisələr də vardır.

Məsələni daha yaxşı başa düşmək üçün, gəlin, M.S.Volkova tərəfindən təqdim olunmuş sosial müəssisənin xarakterik cəhətlərini nəzərdən keçirək. Bura sosial müəssisənin müəyyən dərəcədə institutlaşması; dövlət idarəetmə orqanlarından təcrid olması; gəlirlərin üzvlər, təsisatçılar və ya rəhbərlik arasında bölüşdürülməməsi; özünüidarəetmə və könüllülük, habelə gəlir götürməyə maraq; bazarda fəaliyyət göstərərkən rəqabətliliyi təmin etmək, riskə getməyi bacarmaq, innovasiyalara ehtiyac, təşəbbüskarlıq və sərbəstlik daxildir. [3, 43]

QKT-lər dövlətlə onu özünün biznes-tərəfdaşı kimi görərək, ən effektiv qarşılıqlı əlaqə strategiyası yaratmaq qabiliyyətinə malikdirlər. Belə ki, Böyük Britaniyanın Ticarət və sənaye nazirliyi sosial sahibkarlığa “gəlirin biznesin və ya yerli icmanın sonrakı inkişafına yenidən yatırılmasına, biznes ortaqlarının və ya müəssisənin sahibkarının gəlirlərinin artırılmasına yönəlməmiş sosial məqsədli işgüzarlıq” kimi tərif verir. Buradan belə nəticə çıxarmaq olar ki, sosial müəssisə – sosial məqsədlər və ictimai rifahı təmin etmək üçün yaradılmış kommersiya təşkilatıdır və onun üçün maliyyə nizam-intizamı, innovativ fəaliyyət və özəl bazar şirkətinin qərarlılığı səciyyəvidir. [4, 123] Göründüyü kimi, sosial sahibkarlığın təbiətini iki amil təşkil edir: kommersiya məqsədləri və sosial missiya. Kim Alter bu fenomeni “ikili nəticə” adlandırır və sosial sahibkarlığın aşağıdakı xüsusiyyətlərini göstərir: biznes alətlərini və yanaşmalarını sosial məqsədlərə çatmaq üçün istifadə etmək; sosial və iqtisadi dəyər yaratmaq; sosial proqramları maliyyələşdirmək üçün kommersiya fəaliyyəti əsasında gəlir əldə etmək; bazara uyğun fəaliyyət göstərmək və sosial missiya ilə şərtlənmək; maliyyə fəaliyyətinin sosial effektinin nəticələrini ölçmə; maliyyə sərbəstliyi (gəlirin bölüşdürülməsi üzərində məhdudiyyətlərin olmaması); müəssisənin strategiyasının sosial missiyanı həyata keçirməyə istiqamətlənməsi. [5, 319] Kommersiya prosesinin vəzifələrini təhlil edərək belə nəticəyə gəlmək olar ki, sosial sahibkarlıq kommersiya fəaliyyəti əlamətlərinə malikdir. Nəhayət, qeyd edək ki, kommersiya təşkilatlarının maliyyə mənbələrini məhsul satışı və aktivlər təşkil edir.

Ənənəvi biznes və sosial sahibkarlığı bir-biri ilə müqayisə edərək belə bir fikir söyləmək olar: əgər birincisində satış həcminin artırılması, insanları daha nə isə almağa həvəsləndirmək, sistemlilik və fəaliyyətin davamlılığı, istehlakçı ilə uzunmüddətli əlaqələrə cəhd əsas yer tutursa, ikincisində əsas yeri əhatəlilik, miqyas, fəaliyyətə həvəsləndirmə, özünütəşkil, biznes-modeldən istifadə, yerli əhali ilə uzunmüddətli əlaqələr vacib şərt olaraq qəbul edilir.

Sosial sahibkarlıq aşağı gəlirlilik ilə xarakterizə olunur. Əgər sahibkarlar iqtisadiyyatda dəyişiklik agentləridirsə, sosial sahibkarlar sosial sektorda bu qisimdə çıxış edirlər. Qeyri-dövlət sektorunun sosial sahəyə cəlb edilməsi, xidmətlərin keyfiyyətini dövlət (bələdiyyə) qurumları tərəfindən təmin olunan səviyyədə saxlayaraq cəmiyyətin ehtiyaclarını daha çevik, operativ nəzərə almağa imkan verir.

Sahibkarlıq, klassik anlamda əmlakın istifadəsindən, malların satışından, işin yerinə yetirilməsindən və ya xidmət göstərilməsindən sabit pul mənfəəti əldə edən bir fəaliyyətdir. Beləliklə, əgər "adi" sahibkarlığın məqsədi maliyyə kapitalında və ya digər maddi sərvətlərdə ifadə olunan maliyyə gəlirini dəqiq bir şəkildə əldə etməkdən ibarətdirsə, sosial sahibkarlıqda bu, digər kapital növlərindən əldə olunan gəlirə yönəlmişdir.

Sosial sahibkarlığa başqa bir yanaşma dövlət-özəl sektor əməkdaşlığında ifadə olu-

nur. Bu halda sosial sahibkarlıq yerli icmaların fəaliyyətində dövlətin oynadığı rolu ifa edərək vacib sosial problemlərin həlli üçün katalizator rolunda çıxış edir. Bu yanaşmada dövlət-özəl tərəfdaşlığının tərifi dövlət satınalmaları, dövlət əmlakının icarəsi, özəlləşdirmə və bizneslə dövlət arasında müqavilə xarakterli digər qarşılıqlı fəaliyyət formalarını əhatə edir. Dövlət-özəl sektor əməkdaşlığını sosial sahibkarlıq kimi uzunmüddətli qarşılıqlı əməkdaşlıq fərqləndirir. Burada sosial sahibkarlıq dövlət-özəl sektor əməkdaşlığında olduğu kimi infrastrukturun intensiv inkişafını təmin edir, innovasiyaların effektivliyini müəyyənləşdirir, əhaliyə göstərilən müxtəlif xidmətlərin keyfiyyətinin artmasına şərait yaradır. Bununla yanaşı, dövlət institutları ilə müqayisədə biznes daha çox mobilliyi, qərarların qəbul edilməsinə daha az vaxt sərf etməsi, yeniliyə daha çox meyl göstərməsi, rəqabətliliyi artırmaq üçün texniki və texnoloji səmərəliliyə daha çox meylliliyi ilə seçilir. Dövlət isə sabit normativ hüquqi baza yaratmaq, təşkilati tədbirlər keçirməklə (məsələn, vətəndaş cəmiyyətilə qarşılıqlı münasibətlər çərçivəsində və eləcə də maliyyə-iqtisadi vəsaitlərdən (məsələn, subsidiyalardan istifadə etməklə), öz növbəsində layihələrin daha müvəffəqiyyətlə yerinə yetirilməsini təmin edə bilər. Qeyd edək ki, Azərbaycanda dövlət-özəl sektor əməkdaşlığı hələlik sosial siyasətin alətinə çevrilməsə də bir çox ölkələrdə sosial müəssisələr dövlət təşkilatları ilə artıq çoxdan bəri birgə işləyirlər.

Bəs, buradan hansı nəticələri çıxarmaq olar? Biz belə qənaətə gələ bilərik ki, sosial sahibkarlıq aydın bir biznes-model çərçivəsində fəaliyyət göstərərək konkret sosial məsələləri həll edir. Başqa sözlə, sosial müəssisələr bazar mühitində fəaliyyət göstərərək, sosial hədəfə çatmaq üçün müəyyən bir bazar yerini tutmağa çalışırlar. Eyni zamanda qeyd edək ki, sosial sahibkarlığın nəzərdən keçirdiyimiz hər bir təşkilati forması bir sıra çatışmazlıqlardan da azad deyildir. Belə ki, qeyri-kommersiya təşkilatları üçün bu, biznes planı üzrə təcrübənin, marketinq strategiyasının işləmələrinin kifayət etməyən təcrübəsidirsə, kiçik biznes üçün bu, sosial problemlərin lazımınca konkretləşdirilməməsi və hazırlanmamasıdır. [3, 51] Amerikalı tədqiqatçı Canel Kerlinin qeyd etdiyi kimi, bu fenomenin mahiyyəti sosial problemlərin həlli üçün bazar metodlarından istifadənin təmin olunmasıdır.

### Post-sovet məkanında sosial sahibkarlığın hazırki vəziyyəti

Daha sonra, sosial sahibkarlıq "gəlir" anlayışına yeni yanaşma nümayiş etdirir və burada gəlir sosial kapitalın ictimai əlaqələrin, ictimai dəstəyin artması kimi başa düşülür. Deməli, sosial müəssisələrdə əsas diqqət sosial xeyirə yönəlir, maliyyə faydaları isə təşkilatın həyat qabiliyyətini qorumaq üçün zəruri şərt kimi qəbul edilir. Başqa cür desək, kommersiya təşəbbüsü qeyri-kommersiya fəaliyyət formasını alır. Buna misal olaraq, həkim Viktoriya Hale tərəfindən 2000-ci ildə əsası qoyulmuş "Bir Dünya Sağlamlıq İnstitutunu" (The Institute for One World Health (IOWH)) göstərə bilərik. Bu müəssisə dünyada ilk qeyri-kommersiya əczaçılıq kompaniyasıdır və cəmiyyətdə laqeyd yanaşılan xəstəliklərin müalicəsi üçün dərman istehsalı ilə məşğul olur. İnstitut, inkişaf etməkdə olan ölkələrə dərman tədarük edən rəqabətsiz görünən bir sənaye haqqında ənənəvi təsəvvürləri dərmanın hazırlanmasından tədarükünə qədər olan bütün gəlir zəncirini yenidən qurmaqla tam dəyişdirdi. Qeyri-kommersiya təşkilat forması instituta öz fəaliyyətini qurmaq üçün zəruri kapital toplamağa imkan verdi.

Sosial sahibkarlıq layihələrində sahibkarlıq mexanizmlərindən istifadə cəmiyyətin mümkün qədər daha çox üzvlərinin kollektiv prosesə qoşulmasına, daha yaxşı həyat şəraitinin yaradılmasına və dəyişikliklərin sürətləndirilməsinə xidmət edir. Sosial müəssisələr adətən adi işçinin pul kapitalından daha üstün tutulduğu kiçik və orta həcmli təşkilat kimi fəaliyyət göstərərək davamlı iqtisadi inkişafa nail olmağa imkan yaradırlar. Sosial müəssisələrə rəqabət qanunları zidd deyildir və bu vaxt onlar bazar qanunlarına tabe

olaraq əmtəə və xidmətlər istehsalına cəlb olunurlar. Sosial sahibkarlar öz yenilikçi fikirlərini həyata keçirməklə həm də yeni bazarlar, yeni müəssisələr, texnologiyalar, institusional formalar, iş yerləri və yüksək məhsuldarlıq yaradaraq sosial rifahı artırırlar. Sosial sahibkarlıq fəaliyyətinin institusional cəhəti onun sosial sistemin infrastrukturuna uzunmüddətli bir müsbət nəticə gətirməli olduğu üçün xüsusilə vacibdir. [3, 46] Başqa sözlə, sosial sahibkarlıq ictimai institutların inkişafının yeni mərhələsini təmin edir və sektorlararası qarşılıqlı əlaqələrin möhkəmlənməsinə xidmət edir.

Bütün deyilənləri nəzərə alaraq, sosial sahibkarlığı yeni sosial qayda yaradan və öz fəaliyyətini təsərrüfat davranışının kommersiya modelinə uyğunlaşdıran uzunmüddətli qeyri-kommersiya təşəbbüsü kimi qiymətləndirmək olar. Eyni zamanda, sosial müəssisə, sosial sistemə sıx inteqrasiya yolu ilə sosial dəstək və infrastruktur inkişaf mexanizmi təşkil edən sabit, özünü inkişaf etdirən bir biznes struktur kimi səciyyələndirilə bilər. Sosial sahibkarlıq özünü inkişaf etdirən bir mexanizm olaraq xüsusi bir biznes "ekosistemi"nin yaradılmasına kömək edir və ölkənin insan kapitalının inkişafına maddi töhfə verir.

Dediklərimizdən belə nəticə çıxarmaq olar ki, sosial sahibkarlıq aktual sosial problemləri həll edən, biznes və xeyriyyəçiliyin qovşağında yerləşən sahibkarlıq fəaliyyəti kimi səciyyələndirilə bilər. Eyni zamanda bu fəaliyyət növü həm də kommersiya fəaliyyətidir, çünki onun əldə etdiyi gəlir yenidən sərmayə olaraq istehsalata yatırılır, müəssisənin payçıları arasında bölüşdürülmür və kəskin sosial məsələlərin həllinə yönəldilir.

Burada post-sovet məkanında sosial sahibkarlığın hazırki vəziyyətinə dair bəzi fikirlərimizi də bildirmək istərdik. Belə ki, Rusiya Federasiyasında sosial sahibkarlıq və sosial müəssisələr haqqında qanun 26 iyul 2019-cu ildə qəbul olunmuşdur. Daha doğrusu, mövcud olan "Kiçik və orta sahibkarlığın inkişafı" ilə bağlı qanuna əlavə və dəyişikliklər edilib. Bu dəyişikliklərə əsasən, sosial problemlərin həllinə yönəlik ictimai faydalı işlərlə məşğul olan kiçik və orta sahibkarlar sosial müəssisə statusunu almaq üçün öz namizədliyini irəli sürə biləcəklər. Bu əlavələrə görə, hüquqi şəxsin və ya sahibkarın sosial müəssisə olduğu kiçik və orta sahibkarlıq subyektinin reyestrinə ilk məlumatın daxil edilməsi 10 aprel 2020-ci ilə qədər həllini tapmışdır. [8]

Gürcüstanda bu sahənin inkişafı istiqamətində işlər 2009-cu ildən başlayaraq geniş vüsət almışdır. Sosial sahibkarlıqla bağlı qanun qəbul edilməsə də, ölkədə 15 noyabr tarixi "Sosial Sahibkarlıq Günü" kimi qəbul edilib və Avropa İttifaqı bu sahənin inkişafına böyük maliyyə dəstəyi göstərir. Bu sahənin hərtərəfli inkişafına əhəmiyyətli dəstək verən təşkilat isə Avropa Fondudur (Europe Foundation). Hal-hazırda həm Gürcüstanda və həm də, Ukraynada sosial sahibkarlığın müxtəlif formalarının hüquqi bazasının yaradılması istiqamətində aktiv iş aparılır. [8]

Azərbaycana gəldikdə isə burada sosial sahibkarlığın inkişaf etdirilməsi məsələsi ilə bağlı ayrıca bir qanunun işlənib hazırlanması vacibdir ki, bu da sosial müəssisənin fəaliyyətini nizamlamağa, bu sahədə mövcud olan normaların vahid normativ-hüquqi aktlarda sistemləşdirilməsinə imkan verərdi. [9]

Hazırda ölkəmizdə sosial sahibkarlığın bir sıra elementlərindən istifadə olunur ki, bura yoxsulluğun aradan qaldırılması üçün dövlət tərəfindən həyata keçirilən müxtəlif proqramları; əlillərin çalışdığı müəssisələri; əlillər üçün inklyuziv təhsilin təşkilini; xeyriyyəçi mağazaları; imkanlı fərdi şəxslərin ianələrini; yetimlərə, çoxuşaqlı analara və məhbusluqdan qayıdan insanlara iş tapan Mərkəzləri; məişət zorakılığından əzab çəkən qadınların reabilitasiyası ilə məşğul olan Mərkəzləri; müasir təhsil qabiliyyəti öyrədən təhsil Mərkəzlərini; fondların, aktiv QHT-lərin, iri şirkətlərin innovativ yanaşmalarını və s. aid etmək olardı. [8]

Hazırda Azərbaycanda sosial sahibkarlığın inkişafı üçün həyata keçirilməsi vacib olan məsələlərə aşağıdakıları aid edə bilərik: sosial müəssisə anlayışını və iş şəraitini mü-

əyyən edən müvafiq qanunvericilik bazasının yaradılması; nəzəri və normativ bazanın formalaşdırılması və gücləndirilməsi; sosial sahibkarlığın stimullaşdırılmasına dövlət səviyyəsində real dəstəyin verilməsi; şəxsi investorları sosial sahibkarlığa meyilləndirmək üçün subsidiyaların ayrılması; sosial sahibkarlığa dövlət tərəfindən sistemli şəkildə dəstək üçün münbit şərait yaradılması; bu sahə üzrə xarici təcrübələrin hərtərəfli araşdırılması, eləcə də, beynəlxalq səviyyədə qəbul edilən və bizim ölkə üçün münasib olanının təbliğ və təşviq edilməsi; sosial sahibkarlıqla bağlı dövlət və sahibkarlar arasında qarşılıqlı əməkdaşlığın genişləndirilməsi; institusional dəstəyin artırılması; aktiv Fondlar, QHT-lər və iri şirkətlər tərəfindən sosial sahibkarlığın əhəmiyyətli dərəcədə inkişafı üçün innovativ yanaşmaların genişləndirməsi; QHT-lər tərəfindən cəmiyyətin sosial ehtiyaca olan mövqeyinin araşdırılması; bu sahə üzrə məlumatlılıq səviyyəsinin, eləcə də, sosial sahibkarlığın formalaşmasına dəstəyin artırılması; qarşılıqlı məlumatların stimullaşdırılması; kiçik və orta sahibkarlara məlumat, məsləhət, mentor, hüquqi, loqistik və təşkilati dəstəyin artırılması; həvəsləndirici və kütləvi tədbirlərin keçirilməsi və nəhayət, sosial-iqtisadi dəyişikliklərə innovativ yanaşmanın tətbiq edilməsi və s. [8]

**Nəticə**

Beləliklə, sosial sahibkarlıq kommersiya (özəl), qeyri-kommersiya və dövlət sektorlarının kəsişməsində yerləşən hibrid bir fəaliyyət növü kimi qiymətləndirilə bilər. Sosial sahibkarlığın digər bir xüsusiyyəti isə özündə xeyriyyəçilik keyfiyyətlərini birləşdirməsidir.

Müasir iqtisadiyyatdakı çətinliklər və meyllər nəzərə alınmaqla sosial sahibkarlığın inkişafı dövlətdən, qeyri-kommersiya sektorundan və bütövlükdə cəmiyyətdən daha çox diqqət tələb edən fəaliyyətlərin prioritet qrupuna aiddir.

## ƏDƏBİYYAT

1. Баталина М. Обзор опыта и концепции социального предпринимательства с учетом возможностей его применения в современной России / М. Баталина, А. Московская, Л. Тарадина. Москва : ГУ ВШЭ, 2008. 83 с.
2. Бурцева А. Социально ориентированные некоммерческие организации – гражданско-правовое регулирование статуса и деятельности. Приложение к ежемесячному юридическому научно-практическому журналу. «Хозяйство и право»ю. № 2, февраль, 2014. 48 с.
3. Волкова М. С. Понятие социального предпринимательства и его критерии / социально-экономические явления и процессы. Т. 10, № 9, 2015. с. 39-48.
4. Московская А. Социальное предпринимательство в России и мире: практика и исследования. М.: Изд. дом Высшей школы экономики, 2011. 288 с.
5. Alter K. Social enterprise typology. Virtue Ventures LLC, 2007. September 20, 2004 (updated April 13, 2006). 106 p.
6. http://www.akbarssozidanie.ru/family/news_detail.php?ID=2325&section=261
7. https://econ.wikireading.ru/75660
8. http://uluchay.org/az/rayonlarda-sosial-sahibkarligin-inkisafina-dair-icmal/
9. http://www.akbarssozidanie.ru/family/news_detail.php?ID=2325&section=261
10. https://www.hse.ru/news/science/5886380.html

***Резюме***

**_Рашад Мурадов_**

***Взаимосвязь социального предпринимательства, коммерческой и не коммерческой деятельности***

В статье отмечается, что под социальным предпринимательством понимается вид предпринимательской деятельности, находящийся на стыке бизнеса и благотворительности, который решает актуальные социальные проблемы, накопленные в обществе. Социальное предпринимательство занимает особое место в обществе, сочетая в себе традиционное предпринимательство и благотворительность. Он сочетает в себе также социальную направленность своей деятельности с благотворительностью, а принципы предпринимательства – с бизнесом. Это позволяет ему продемонстрировать качественно новый подход к решению социальных проблем.

Социальное предпринимательство играет роль государства в деятельности местных сообществ и выступает катализатором решения важных социальных проблем. Государственно-частное партнерство характеризуется долгосрочным взаимным сотрудничеством как социальное предпринимательство. Здесь социальное предпринимательство, как и в государственно-частном партнерстве, обеспечивает интенсивное развитие инфраструктуры, определяет эффективность инноваций, создает условия для повышения качества различных услуг, предоставляемых населению. В то же время, по сравнению с государственными учреждениями, бизнес характеризуется большей мобильностью, меньшим временем для принятия решений, большей склонностью к инновациям и большей склонностью к технической и технологической эффективности для повышения конкурентоспособности. Государство, в свою очередь, может обеспечить более успешную реализацию проектов за счет создания стабильной нормативной базы и организационных мер.

Законы о конкуренции не противоречат социальным предприятиям, и они участвуют в производстве товаров и услуг в соответствии с законами рынка. Реализуя свои инновационные идеи, социальные предприниматели также повышают социальное благосостояние за счет создания новых рынков, новых предприятий, технологий, институциональных форм, рабочих мест и высокой производительности. Социальное предпринимательство представляет собой новый этап в развитии государственных институтов и служит укреплению межотраслевых отношений.

Социальное предпринимательство можно рассматривать как долгосрочную некоммерческую инициативу, которая создает новый социальный порядок и адаптирует свою деятельность к коммерческой модели экономического поведения.

Важно разработать отдельный закон о развитии социального предпринимательства в Азербайджане, который позволил бы регулировать деятельность социальных предприятий, систематизировать существующие нормы в этой сфере в единых нормативных правовых актах.

***Ключевые слова***: *социальное предпринимательство, коммерческие организации, некоммерческие организации, государственный сектор, благотворительная деятельность*

**_Summary_**

**_Rashad Muradov_**

***The Relationship Between Social Entrepreneurship, Commercial and Non-Commercial Activities***

The article notes that social entrepreneurship is understood as a type of entrepreneurial activity located at the intersection of business and charity, which solves urgent social problems accumulated in society. Social entrepreneurship has a special place in society, combining traditional entrepreneurship and charity. He also combines the social orientation of his activities with charity, and the principles of entrepreneurship with business. This allows him to demonstrate a qualitatively new approach to solving social problems.

Social entrepreneurship plays the role of the state in the activities of local communities and acts as a catalyst for solving important social problems. Public-private partnership is characterized by long-term mutual cooperation as social entrepreneurship. Here, social entrepreneurship, as in public-private partnerships, ensures the intensive development of infrastructure, determines the effectiveness of innovations, and creates conditions for improving the quality of various services provided to the population. At the same time, compared to government agencies, businesses are characterized by greater mobility, less decision-making time, a greater propensity to innovate, and a greater propensity for technical and technological efficiency to increase competitiveness. The state, in turn, can ensure more successful project imple-

mentation by creating a stable regulatory framework and organizational measures.

Competition laws do not conflict with social enterprises and they participate in the production of goods and services in accordance with the laws of the market. By implementing their innovative ideas, social entrepreneurs also enhance social welfare through the creation of new markets, new enterprises, technologies, institutional forms, jobs and high productivity. Social entrepreneurship represents a new stage in the development of state institutions and serves to strengthen intersectoral relations.

Social entrepreneurship can be seen as a long-term non-profit initiative that creates a new social order and adapts its activities to a commercial model of economic behavior.

It is important to develop a separate law on the development of social entrepreneurship in Azerbaijan, which would allow regulating the activities of social enterprises, systematizing existing norms in this area in unified regulatory legal acts.

***Key words***: *social entrepreneurship, commercial organizations, non-profit organizations, public sector, charitable activities.*

Şöbə redaktoru f.ü.f.d. Rəhimov Mütəllim Qara oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

TARİX VƏ SİYASİ ELMLƏR

UOT 94

# XIX ƏSRİN ƏVVƏLİNDƏ İRƏVAN XANLIĞININ SİYASİ VƏZİYYƏTİNƏ DAİR
*(Türkiyə tarixşünaslığı əsasında)*

**Vidadi UMUDLU**[*]

*Məqalə redaksiyaya daxil olmuşdur: 12 may 2020; çapa qəbul edilmişdir: 8 iyun 2020; online-da çap edilmişdir: 31 mart 2021.*
*Received: 12th of May, 2020; accepted: 8th of June, 2020; published online:15th of March, 2021.*

***Açar sözlər:*** *türk tarixçilər, İrəvan xanlığı, çar Rusiyası, mühasirə, Abbas Mirzə, Məhəmməd xan, Osmanlı dövləti*

## Giriş

Azərbaycanın qərbində – İran, Gürcüstan və Osmanlı İmperiyası ilə sərhəddə yerləşən İrəvan xanlığı çox əlverişli coğrafi mövqeyə malik idi. XIX əsrin əvvəllərində xanlıq Azərbaycanla Osmanlı arasındakı əlaqələrdə əsas keçid məntəqəsi hesab olunurdu. Xanlığın iqtisadi və strateji əhəmiyyəti işğalçı Rusiyanın diqqətini cəlb etmiş və xanlıq rus qoşunlarının əsas hərbi hədəfinə çevrilmişdi. Qacarlar və Osmanlı dövlətinin bölgədəki mənafelərini də nəzərə alsaq, İrəvan xanlığının siyasi vəziyyətinin heç də ürəkaçan olmadığı aydın olar.

Türk tarixçiləri Osmanlı dövləti ilə həmsərhəd olan xanlığın mövcud vəziyyəti və tutduğu mövqe ilə bağlı bir sıra tədqiqatlar aparmışlar. İrəvan xanlığının tarixinin öyrənilməsi və tarixşünaslığımızın zənginləşməsi baxımından bu araşdırmalar mühüm əhəmiyyət kəsb edir. Tədqiq olunan dövrdə Azərbaycan xanlıqlarının o cümlədən, İrəvan xanlığın siyasi vəziyyəti, xanlıqdakı bəzi ermənilərin separatçılıq fəaliyyətləri türk tarixçilərindən H.Oktay, A.Arslan, E.Kürkçüoğlu, M.Aydın və digərlərinin əsərlərində öz əksini tapmışdır.

Türk tarixçiləri Rusiyanın bir-birini ardınca həyata keçirdiyi İrəvan yürüşlərini qarətçi və dağıdıcı olduğunu qeyd etmiş, həmçinin bu yürüşlərin Osmanlı dövləti üçün də bir təhdid hesab etmişlər. Bu baxımdan 1804-cü il yürüşü də istisnalıq təşkil etmir. Bu hücumlar nəticəsində hər iki tərəfdən xeyli insan tələf oldu və xəsarət aldı. Müharibə İrəvan xanlığının iqtisadiyyatına da ağır zərbə vurmuş oldu.

Rusiya hücumları zamanı baş verən digər bir məqam xanlıqda yaşayan erməni əhalisinin ruslara qarşı isti davranmaları və ərazisində yaşadıqları dövlətə xəyanət etmələri oldu. Ümumiyyətlə "erməni məsələsi" ilə bağlı Türkiyə tarixşünaslığında çoxsaylı araşdırmalar aparılmış, bir çox arxiv sənədləri kitab şəklində çap olunmuşdur. Üçmüəzzin (Üç kilsə) kilsəsi və orada çalışan erməni din xadimlərinin tutduğu mövqe ilə bağlı da xeyli əsərlər nəşr edilmişdir. Rusiyanın bu kilsəni öz mənafeyi üçün işləməyə sürükləməsi erməni əhalisi arasında separatçılıq hərəkatının güclənməsinə təkan vermişdir.

## İrəvan xanlığının siyasi vəziyyəti türk tarixçilərinin əsərlərində

Məlumdur ki, XIX əsrin əvvəllərində İrəvan xanlığını siyasi vəziyyəti çox mürək-

[*] tarix üzrə fəlsəfə doktoru, dosent, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
*e-mail: v.umudlu@yahoo.co.uk*

kəb idi. Müstəqil siyasət yürüdən İrəvan hakimlərinin ara-sıra gürcü çarları, Qacarlar dövləti ilə olan problemləri, eləcədə Osmanlının sərhəd bölgələri ilə olan ixtilaflar xanlığın vəziyyətinə mənfi təsir edirdi. İşğal ərəfəsində xanlıq qonşu dövlətlərlə əlaqələrini sahmana salaraq hərbi qüdrətinin artırılmasına çalışırdı. Bu hadisələrdən bəhs edən türk tarixçisi H.Oktay qeyd edir ki, xanlıqlar arasında fəal siyasət yürütməklə seçilən İrəvan xanlığı daha çox diqqəti cəlb etməkdə idi. Bölgədəki cərəyan edən hadisələrə biganə qalmayan İrəvan xanlığı Osmanlı və Qaçar xanədanı ilə yaxın münasibət quraraq yaxınlaşmaqda olan rus işğalının qarşısını almaq üçün lazımı tədbirlər görməkdə idi (10, s. 379-392). Osmanlı və Qacarlar dövləti ilə dostluq əlaqələrinin mövcudluğu, İrəvan xanlığının təhlükəsizliyinin təmini üçün mühüm əhəmiyyət kəsb etməkdə idi. Şahzadə Abbas Mirzə ilə münasibətlərin heç də yaxşı olmadığı və bölgədə Rusiyanın işğalçılıq siyasətinə başladığı bir dövrdə, xanlığın daha çevik xarici siyasət yürütməsinə ehtiyac duyulurdu. Qaçarlar xanədanı ilə münasibətləri qaydaya salmağa çalışan Məhəmməd xan, Osmanlı sarayı ilə də əlaqələrini davam etdirməkdə çox maraqlı idi (11, s. 73).

Arxiv sənədlərində Abbas Mirzənin hədiyyə və bir sıra şərtlərlə İrəvan xanlığına gəldiyi, lakin İrəvan xanının onun gətirdiyi hədiyyə və şərtləri qəbul etmədiyini görüncə, Süleyman sərdarla birgə İrəvan qalasını mühasirəyə aldıqları və İrəvan xanı Məhəmməd xanın Osmanlı dövlətinə sığındığı haqqında məlumatlar yer almaqdadır (7, sən. 6686). Sənədlər Abbas Mirzə və sərdar Süleyman xanın İrəvan qalasını bir ay mühasirədə saxladıqlarını təsdiq edir (7, sən. 6679). 1800-cü ilin sentyabrında şahın təlimatı ilə Abbas Mirzə Süleyman sərdarla birgə İrəvan qalasını mühasirəyə aldı, Məhəmməd xan Osmanlıya çəkilməli oldu (12, I c., s. 185).

İrəvan qalası və ətraf bölgələrin ələ keçirilməsi ilə ermənilərin də öz niyyətləri mövcud idi. A.Arslan “Kutsal Ermeni Papalığı. Eçmiyadzin Kilisesi’nde Stratejik Savaşlar” adlı əsərində qeyd edir ki, hələ 1799-cu ildə Sankt-Peterburqda İrəvanın gələcəyi ilə bağlı müzakirələr keçirildi. Həmin müzakirələrdə erməni din xadimləri bu fikrə gəldilər: “Ermənistan bir neçə əsrdir ki, öz çarlarından və müstəqil idarə etmədən məhrum edilmişlər. Bir çox yerlər türklər və iranlılar tərəfindən idarə olunmaqdadır. Sadəcə kiçik bir qismi olan Qarabağ müstəqil idarə olunmaqdadır. Əgər yaxşı bir rəhbər olsa bu işlər çox asan olacaq. Ermənistan dirçələr və qısa müddət ərzində ermənilərlə doldurular... İrəvan və digər şəhərlər ələ keçiriləcəkdir. Bu məqsədlə iki il ərzində İrəvanı fəth edən erməni rəisin 2-3 min nəfər əsgərə ehtiyacı olacaqdır” (1, s. 105-106).

İrəvan qalasından bəhs edən E.Kürkçüoğlu qeyd edir ki, Rəvan (İrəvan) qalası, sənət tarixi baxımından türk dünyasının önəmli mərkəzlərindən biridir. Rəvan qalasında 60 bürc mövcuddur. XVII əsrin nadir memarlıq incisi olan Göy məscid bölgəni gəzən səyahətçiləri heyran edirdi. Qalada 7 məscid, kişi və qadın hamamları, gürcü, Culfa, Serdar, Tağlı, Sulu, Susuz, Hacı Əli adlı karvansaraların olması İrəvanın çox önəmli mərkəzlərdən biri olmasını göstərir (9, s. 1-13).

Getdikcə yeni ərazilər zəbt edərək daha da güclənən Rusiya imperiyası isə tədricən İrəvan xanlığına yaxınlaşmaqda idi. Davam edən bu vəziyyət İrəvan xanlığına çox mürəkkəb bir vəziyyət vəd edirdi. XVIII yüzilliyin sonları ilə XIX yüzilliyin əvvəllərində Qafqazı işğal etməyə başlayan Rusiyanın başlıca hədəfi Rəvan xanlığını ələ keçirmək olmuşdur. Qafqazı ələ keçirməyi mütləq bir zərurət olaraq qiymətləndirən ruslar işğallarını asanlaşdıracaq hər cür yola əl atmışlar (12, I c., s. 17). Məlumdur ki, I Aleksandrın 12 sentyabr 1801-ci il fərmanı İrəvan xanlığının Rusiya himayəsi altına alınmasını nəzərdə tuturdu. M.Aydın yazır ki, XIX əsrin əvvəllərində Qafqazdakı nüfuzlarını artırmağa çalışan rusların siyasi fəaliyyətləri Rəvan xanlığına da öz təsirini göstərdi (4, s. 26-29). Məlumdur ki, 1801-ci ildə Şərqi Gürcüstanla birlikdə İrəvan xanlığına məxsus Pəmbək və Şorayel sultanlıqlarının işğalı artıq xanlığın nəhəng imperiya ilə üz-üzə gəlməsini daha da yaxınlaşdırdı.

Tarixçi M.Aydın "Üç Büyük Gücün Çatışma Alanı Kafkaslar" adlı kitabında yazır ki, Rusiya, Osmanlı İmperiyası və İranın Qacarlar sülaləsi arasında küncə sıxılan Cənubi Qafqaz güc mübarizələrinin mərkəzinə çevrilərkən, bu üç dövlətlə müqayisədə kifayət qədər zəif olan xanlıqların meydana çıxması bölgədəki hökmranlıq uğrunda mübarizəni daha da körükləyirdi (3, s. 3). Ümumilikdə araşdırılan dövrdə Cənubi Qafqazın siyasi vəziyyəti ilə aparılan təhlillər burada qonşu Osmanlı dövləti, Qacarlar və Rusiya imperiyasının əsas rəqib olduqları aşkardır. Z.Türkmən yazır ki, XIX əsrin əvvəllərindən bəri Qafqaz Rusiyanın Osmanlı İmperiyası və İranla cənub sərhədini təşkil etməsi baxımından əhəmiyyətli olmuşdur. Xüsusilə bu əsrin əvvəllərindən etibarən Rusiya Qafqaz xanlıqları ilə əlaqələrini artırmağa başladı. Çar Rusiyası bu bölgədə siyasətini həyata keçirərkən əvvəlcə İranı, daha sonra Osmanlı imperiyasını rəqib olaraq gördü və siyasətini bu dövlətlərin vəziyyətinə görə təyin etdi (14, s. 9-24). Həmin dövrdə Rusiya, Azərbaycanda uğur qazanmaq üçün Osmanlı və İran kimi iki güclü rəqibdən birini müttəfiq seçərək digərini təsirsiz hala gətirmək siyasəti yeridirdi. Digər tərəfdən Osmanlı dövlətinin Qafqaz və Azərbaycan işlərinə qarışmayaraq bölgədən çəkilmək məcburiyyətində qalması və İranın daxili ixtilaflarla məşğul olması yeni müstəqillik qazanan Azərbaycan xanlıqlarının güclü Rusiya imperiyası tərəfindən işğalına səbəb oldu (12, I c., s. 39).

Tarixçi N.Aygünün fikrincə, 1801-ci ildə Gürcüstanın Rusiya əyalətlərindən birinə çevrilməsi Azərbaycan və Şərqi Anadolu bölgələrinin birbaşa işğalına səbəb olmuşdur (5, s. 98-116). Rusiya, xalqının əksəriyyətinin xristian olmasından istifadə edərək Gürcüstanı ələ keçirdi, Anadolu və İran üzərinə ediləcək hücumlarda buradan baza olaraq istifadə etməyi planlaşdırırdı. Belə ki, Gürcüstanın ilhaqı ilə (1801) Rusiya sərhədləri türk və İran torpaqlarına çatmış oldu (8, s. 273-313). Xanlıqların məğlubiyyətinin bir başqa səbəbi də, onların ruslara və İrandakı Qacar xanədanına qarşı apardıqları mübarizə nəticəsində iqtisadi və siyasi baxımdan güclü sarsıntı keçirməsi idi (13, s. 39). A.Arslan yazır ki, 1801-ci ildə Tiflis xanlığını özünə birləşdirən Rusiya, bir tərəfdən, Şimali Azərbaycan ərazisindəki xanlıqları ələ keçirməyə başlayır, digər tərəfdən, Anadoluya qapı açmaq üçün Rəvan, Tiflis, Ərzurum, Qars, Van, Təbriz və ətrafındakı bölgələrdən heç birində üstünlük təşkil etməyən ermənilərdən bir vasitə istifadə edəcəyini qərarlaşdırır (1, s. 27). Məlumdur ki, İrəvan yürüşündən əvvəl rus çarı erməniləri öz tərəflərinə cəlb etmək haqqında göstəriş vermişdi (6, İ c., sən. 548).

XIX əsrin əvvəllərindən etibarən Azərbaycan torpaqları tamamilə rusların əlinə keçməyə başladı. Azərbaycan türkləri bir tərəfdən bu rus istilasına qarşı mübarizə aparkən, digər tərəfdən də ermənilərin xain hücumları ilə üz-üzə gəldilər (12, s. 57).

Ermənilərin bu dövrdə rusların əlində bir alətə çevrildiyi artıq açıq-aydın görünməkdə idi. Bu hadisələrdən bəhs edən tarixçi A.Arslan yazır ki, Tiflisi ilhaq edən Rusiyanın həm Şimali Azərbaycanda, həm də Anadoluda işğalçılıq siyasətinin əsas vasitələrindən biri ermənilər olmuşdur. Ruslar, Azərbaycanın Rəvan xanlığı və İranla apardığı müharibələr zamanı Eçmiyazin monastırından bir baza olaraq istifadə edirdilər. Eçmiyazin ruslara müharibə üçün hazırlıq mərkəzi, həm də ehtiyac duyulduğunda sığınacaq yeri kimi xidmət edirdi (16). Beləliklə, bir çox problemlə üzləşən Məhəmməd xan bir neçə hücumu eyni vaxtda dəf etmək məcburiyyətində qaldı. İrəvan xanının bu dövrdə göstərdiyi hünər və bacarıq işğalı dəf etməyə, xanlığın müstəqilliyini qorumağa imkan verdi.

**1804-cü ildə İrəvan xanlığına yürüşlər türk tarixçilərinin əsərlərində**

Çar-Balakən və Gəncə xanlığını silah gücünə qanlı döyüşlərdən və çoxsaylı itkilər hesabına sonra işğal edən Rusiyanın nəinki öz hərbi planlarından geri çəkilməsi real görünmür, hətta öz hərbi hissələrini İrəvana yeritmək üçün cəmləşdirməyə başlamışdı. "Osmanlı Devleti ile Azerbaycan Türk Hanlıkları Arasındaki Münasebetlere Dair Arşiv Belgeleri" adlı kitabda Rusiyanın İrəvan xanlığına gəldiyi hədə-qorxular haqqında belə

deyilir: "Nadir şahın ölümü ilə Rəvanda müstəqil bir Türk xanlığı quruldu. İranda Qacarlar dövründə müstəqil və ya yarı müstəqil yaşamağa davam edən xanlıq, XVIII əsrin sonundan etibarən ruslar tərəfindən təhdid edilməkdə idi (12, s. 39-40).

Bu vəziyyət İrəvan xanlığını təhlükəsizliklə bağlı təcili tədbirlər görməyə vadar edirdi. Bu məqsədlə 1803-cü ilin iyununda İrəvan xanı öz elçiləri olan Hüseyn xan və Əli xanı lazımı göstərişlərlə İstanbula göndərdi. Osmanlı hökuməti tərəfindən yaxşı qarşılanan elçilərə hətta Osmanlı sarayı tərəfindən 500 quruş yol xərci də verilmişdi (11, s. 73). Onu da qeyd edək ki, hələ 1787-ci ildə Gürcüstan valisi İrakli İrəvan qalasının zəbt etmək fikrinə düşən zaman (12, s. 91) və 1795-ci ilə Ağa Məhəmməd xanın hücumuna qarşı İrəvan xanı Məhəmməd xan öz elçisi Zeynalabidin bəyi Osmanlı sarayına göndərərək padşahdan yardım istəmişdi (12, s. 155).

Məlum olduğu kimi, 1804-ci il İrəvan xanlığı üçün çox ağır keçmişdi. Həm Rusiya, həm də Qacar qoşunları xanlığa hücum etmiş, çoxlu dağıntılar törədilmiş, xeyli insan tələf olmuşdu. Lakin bütün bunlara baxmayaraq, xanlıq hər iki hücuma tab gətirmiş, xanlığın müstəqilliyini qoruya bilmişdi.

Qafqazdakı Rusiya qoşunlarının baş komandanı general Sisyanov İrəvan xanı Məhəmməd xana məktub göndərərək ondan tabe olmasını tələb etdi. Car-Balakən və Gəncə xanlığında baş verən qanlı qırğınların İrəvan xanını qorxudacağını düşünən Sisyanov xanlığı döyüşsüz əldə edəcəyinə ümid edirdi. Hətta xana təslim şərtləri də göndərilmişdi. Bu şərtlərə əsasən Danil Üçmüəzzin katalikosu olaraq tanınacaq, xanlıq Rusiyaya tabe olaraq vergi ödəyəcək, İrəvan qalasında rus qarnizonu yerləşdiriləcəkdi (6, II c., sən. 1224). Təslim olmaq fikrindən uzaq olan Məhəmməd xan Sisyanovun bütün təkliflərini rədd etdi. Bu hadisə rusların İrəvan yürüşünə başlamasına bir bəhanə oldu. Qeyd edək ki, ruslar bu bəhanəni əvvəlcədən hazırlamışdılar. Yəni Davidin deyil, Danilin katalikos olmayacağını bilən çar hakim dairələri tərəfindən İrəvan xanlığına hücum üçün belə bir plan tərtib edilmişdi.

Danilin katalikosluğu ilə bağlı onu deyək ki, Üçmüəzzin, Sis və Axdamar katalikosluğu ilə Osmanlı İmperiyasının münasibətləri İstanbul erməni patriarxlığı vasitəsi ilə həyata keçirilirdi (2, s. 19-37). Grigoryanlarla təmas qurmağa başlayan Rusiya ilk hədəf olaraq Ecmiazin katolikosluğunu seçmiş və Ecmiazindəki din adamları da buna isti münasibət göstərməkdə idilər (9, s. 1-13). Rusiya bir tərəfdən Ecmiazin katolikosları vasitəsi ilə erməniləri təhrik edərkən, digər tərəfdən də dinin müstəqilliyini təmin edəcəkləri və xristianları müsəlmanların zülmündən qurtaracaqları haqqında vədlər verməklə təbliğat aparırdılar (16).

1804-ci ilin iyununda rus ordu birlikləri general Sisiyanovun komandanlığında İrəvana yürüşə başladı. Həmin dövrdə Abbas Mirzənin rəhbərliyi ilə Qacar qoşunlarının da İrəvan xanlığına hücumu gözlənilməkdə idi. Bu vəziyyət xanlığın vəziyyətini xeyli ağırlaşdırırdı. Belə ki, Ərzurum valisi Mahmud Təyyar paşanın 1804-cü il 22 iyun tarixində sədarətə göndərdiyi məktubda şahzadənin İrəvan xanı Məhəmməd xan üzərinə hücum edəcəyi bildirilirdi. Həmçinin Ərzurum paşası bu hücum baş verdiyi təqdirdə necə hərəkət ediləcəyini müəyyən etmək istəyirdi. Məlumatın vacibliyini nəzərə alan sədrəzəm bunu padşahın da diqqətinə çatdırmağı lazım bilmişdi (13, s. 93-94).

Gümrü və Üçmüəzzinin ələ keçirilməsindən sonra ruslar İrəvan qalasını mühasirəyə aldılar. Həmin il iyulun 4-də Mahmud Təyyar paşanın Osmanlı sarayına göndərdiyi məktubda, şahın Gəncəyə qoşun göndərməsindən, özünün rusiyalıları məhv etmək üçün Azərbaycan torpaqlarına girməsindən, İran şahzadəsinin İrəvan xanı Məhəmməd xanla Xoy xanı Cəfərqulu xanı ortadan götürmək tapşırığı almasından bəhs olunurdu (13, s. 96-100). İran şahzadəsi Abbas Mirzənin İrəvan və ətrafını zəbt etmək istəyinə cavab olaraq, ruslar onlara sədaqətini bildirən Məhəmməd xana göstərdikləri kömək nəticəsində İranlıların məğlub olmuş, bir çox əşirət və obalar Osmanlı dövlətinə sığınmışdı (7, sən. 6702).

Onu da qeyd edək ki, bu dövrdə Rusiya ilə İrəvan xanlığı arasında ciddi yaxınlığın olmasından söhbət gedə bilməz. Əslində bu sənəddə deyildiyi kimi, Məhəmməd xanın hər-hansı bir sədaqətindən deyil, diplomatik uğurundan bəhs olunmalıdır. Çünki baş verən hadisələr bunu bir daha sübut etdi.

Köçlə bağlı məsələyə aydınlıq gətirmək üçün qeyd edək ki, İran şahzadəsinin İrəvan xanı Məhəmməd xan üzərinə hücumu zamanı Dövləti Aliyyə tərəfinə keçən kürd və aşirətlərin geri qaytarılması üçün öz elçisi Niftəli xanı bu ölkəyə göndərmişdi. Şahzadə tərəfindən ruslara qarşı göndərilən əsgərlərin məğlubiyyətə uğradılmaları nəticəsində Osmanlı torpaqlarına girən aşirətlərin ruslar tərəfindən də istənmələri səbəbindən müharibə sona çatana qədər onların geri qaytarılmamalarının uyğun olacağı qənaətinə varılmışdır (13, s. 197-198).

Qacarlar nəslindən olan Məhəmməd xanın uğurlu gedişləri Rusiya qoşunlarının Qafqazdakı baş komandanı general Sisyanovdan həm hərbi, həm də diplomatik sahədə üstünlüyünü sübut edirdi. Sisyanovun geridə qalmış bir xalqın nümayəndəsi kimi baxdığı bir adam onu çıxılmaz vəziyyətdə qoymuş, qalanın təslim edilməsi ilə bağlı yazılan çoxsaylı məktublar heç bir nəticə verməmişdi. Mühasirənin lüzumsuz olduğunu artıq hər iki tərəf anlayırdı və nəticəsiz qalacağı bəlli idi. 1804-cü il avqustun axırında çağırılan hərbi şura sentyabrın 2-də mühasirənin götürülməsini və qoşunların geri çəkilməsini qərara aldı (15, s. 55-76). Beləliklə, çar ordularının İrəvan xanlığına ilk yürüşü uğursuz başa çatdı.

Göründüyü kimi, vəziyyətin heç də ürəkaçan olmasına baxmayaraq, İrəvan hakimi diplomatik və hərbi səylərlə yürüşləri dəf edərək, xanlığın müstəqilliyini qoruya bildi. Bildi. İki ay davam edən mühasirə bir nəticə vermədikdə, xeyli itki verən Rusiya ordusu geri çəkilməyə məcbur oldu. Rusiyanın çarəsiz qalaraq geri çəkilməsi İrəvan xanlığının çox mühüm qələbəsi sayəsində mümkün olmuşdu.

**Nəticə**

Göründüyü kimi, XIX əsrin əvvəlində baş verən hərbi-siyasi hadisələrin İrəvan xanlığının siyasi vəziyyətinə ciddi təsir etməsi və xeyli çətinə salması şübhəsizdir. Türk tarixçiləri, əvvəlcə Gürcüstan hakimlərinin, sonra isə Rusiya və Qacar xanədanının xanlığı tabe etmə cəhdlərini vəziyyəti çətinləşdirən əsas amillərdən olduğu qənaətindədirlər. İrəvan xanlarının kömək üçün müraciət etdiyi Osmanlı dövləti isə zəifləmə dövrünü keçirdiyindən baş verən hadisələrə lazımi qarşılıq verə bilməmişdir. Digər tərəfdən Şərqi Gürcüstanı ilhaq edən Rusiya, Qacarlar dövlətini də neytrallaşdıra bilmişdir. Nəticədə İrəvan xanlığı çar Rusiyasının işğalçı yürüşünə məruz qalmışdır.

Digər tərəfdən şah qoşunlarının da tez-tez xanlığa hücum edərək onu asılı hala salmaq istəyi də əsas problemlərdən hesab olunmalıdır. Yürüşlər zamanı şəhər və qalalar xeyli dağıntıya məruz qalmış, əhali məşğul olduqları daimi işləri tərk edərək qalalara sığınmağa məcbur olmuşlar. 1804-cü ildə əvvəlcə şah qoşunları, sonra isə Rusiya qoşunları tərəfindən İrəvan qalası mühasirəyə alınmış, xanlığın ərazisinə ciddi zərbələr vurulmuşdur. Rusiya vasitəsi ilə şah qoşunlarını xanlıqdan uzaqlaşdıran İrəvan xanı, iki ay davam edən müqavimətdən sonra rus qoşunlarını mühasirəni aradan qaldırmağa vadar etmişdir. Məhəmməd xanın həyata keçirdiyi müdafiə tədbirləri nəticəsində xanlığın müstəqilliyi qorunmuş, ağır itki verən rus qoşunları xanlığı tərk edərək geri çəkilməyə məcbur olmuşdur. Erməni əhalisini rusları sevinclə qarşılamağa və onlara hər cür köməklik göstərməyə təhrik edən bəzi erməni keşişlərinin pozuculuq fəaliyyəti də bir fayda verməmişdir.

Göründüyü kimi, bütün tədbirlərə baxmayaraq Rusiya İrəvan xanlığını özünə tabe edə bilmədi. Bu qələbə kiçik bir xanlığın həmin dövrdə Cənubi Qafqazda 50 minə yaxın qoşunu olan çar Rusiyası üzərində möhtəşəm qələbəsi idi. Çoxlu itki ilə Tiflisə qayıdan Rusiya bu biabırçı məğlubiyyətin üstündən sükutla keçməyi üstün tutdu.

## ƏDƏBİYYAT

1. Arslan. A. Kutsal Ermeni Papalığı. Eçmiyadzin Kilisesi'nde Stratejik Savaşlar, İstanbul: Truva Yayınları, 2005, 167 s.
2. Arslan A. Rusların Güney Kafkasya'da Yayılmalarında Ermeni Eçmiyazin Katogigosluğu' nun Rolü // Kafkas Araştırmaları, Cild II, İstanbul, 1996, s. 19-37.
3. Aydın, M. Üc Büyük Gücün Çatışma Alanı Kafkaslar. İstanbul: Gökkubbe, 2005. 266 s.
4. Aydın M. Revan // TDV İslâm Ansiklopedisi, Cilt 35.İstanbul, 2008, s. 26-29.
5. Aygün N. Kafkasyada Rus-Osmanlı Mücadelesi ve Kars dolaylarında Sınır İhaleleri // 1826, Cumhuriyet Tarihi Araştırmaları Dergisi (CTAD), Yıl 3, Sayı 6 (Güz, 2007), s. 98-116.
6. Акты, собранные Кавказской Археографической комиссией: [в 12-ти т.]. Тифлис, 1866-1904.
7. Başbakanlıq Osmanlı Arşivleri (BOA), Hatti-Humayun (HAT) fondu
8. İpek N.. Kafkaslar'daki Nüfûs Hareketleri // Türkiyat Mecmuası F. 18, İstanbul: 1997, s. 273-313.
9. Kürkçüoğlu E. Revan'dan Erivan'a Bir Şehrin Kimliği // YENİ TÜRKİYE 60/2014, s.1-13
10. Oktay H. Kafkaslarda Rus Yayılması Karşısında Osmanlı-Kaçar Faktörünün Harekete Geçirilme Teşebbüsü (Ağustos-Eylül 1811) // VAKANÜVİS-Uluslararası Tarih Araştırmaları Dergisi/ Yıl 2017, sayı 2. Kafkasya Özel Sayısı, s. 379-392.
11. Osmanli Devleti ile Kafkasya, Türkistan ve Kırım Hanlıkları Arasındakı Münasebetlere Dair Arşiv Belgeleri (1687-1908). Ankara: Osmanlı Arşivi Yayınları, 1992, 240 s.
12. Osmanlı Devleti ile Azerbaycan Türk Hanlıkları Arasındakı Münasibetlere Dair Arşiv Belgeleri (Karabağ-Şuşa, Nahçıvan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy) 1578-1914, I kitab Ankara: Osmanlı Arşivi Yayınları, 1992, 427 s.
13. Osmanli Devleti Ile Azerbaycan Türk Hanliklari Arasindaki Münasebetlere Dair Arşiv Belgeleri Karabağ-Şuşa, Nahçıvan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy II (1575-1918) / Ankara: Osmanlı Arşivi Yayınları, 1993, 279 s.
14. Türkmen Z. XIX Yüzyil Başlarinda Rusya'nin Güney Kafkasya Politikasi (1800'lerin Başından 1828 Türkmençay Antlaşmasina Kadar) // Sosyal Bilimler Dergisi, 2004, s. 9-24.
15. Umudoğlu V. Kuzey Azerbaycanın çar Rusyası tarafindan 118orks118 ve sömürgeçilige karşı mücadele (1801-1826) // Türk Dünyası Araşdırmaları sayı, 124, İstanbul, 2000, s. 55-76
16. https://turksandarmenians.marmara.edu.tr/tr/ermeniler-ve-ecmiyazin-katogigoslugu/

***Summary***

***Vidadi Umudlu***

***On the Political Situation of the Iravan Khanate in the Beginning of the XIX Century (Based on the Historiography of Turkey)***

The Iravan Khanate, which gained independence after the death of Nadir Shah, occupies a special place among the Azerbaijani khanates 118orks118 its advantageous geographical position, as well as its successful foreign policy. The presented article reflects the problem of studying the political situation of the Iravan Khanate in the early 19th century in Turkish historiography. During the investigation of the political situation, the campaigns of the Shah and the Russians against the Khanate were also reflected. The political situation of the Iravan Khanate during the period under study was very complicated and chaotic. A number of Turkish historians to one degree or another touched upon this topic, trying to objectively describe the history of the khanate. The article analyzes and describes the 118orks of Turkish historians such as H.Oktay, A.Arslan, E.Kyurkchoglu, N.Aygun, M.Aydin and other historians. The article also uses archival materials and books prepared on the basis of archival materials.

The occupation policy of Tsarist Russia in the South Caucasus at the beginning of the 19th century and the seizure of lands belonging to the Iravan Khanate together with Eastern Georgia led to a state of war and weakened the Khanate politically and economically. In addition, the incessant campaigns of Prince Abbas Mirza put the khanate in a difficult situation. The prevention of campaigns against the khanate in 1804 occupies an important place in the history of the Iravan khanate. Trying to analyze current political

events, Turkish historians praised the measures taken by Muhammad Khan to protect the khanate.

The article also reflects the study of Turkish authors on the separatist activities of some Armenian clergy in the khanate. An example of this is the reflection in the writings of Turkish historians of the behavior of the Armenian population, in which, at the instigation of the Echmiadzin Church, Russian troops were greeted with joy and became guides. Much research has been carried out on the activities of the Armenian Church in Echmiadzin, as well as on the subordination of this church to the interests of Russia, and the results were used in the article as needed.

***Key words:*** *Turkish historians, Iravan khanate, tsarist Russia, siege, Abbas Mirza, Muhammad khan, Ottoman state*

***Резюме***

***Видади Умудлу***

***О политическом положении Ираванского ханства в начале XIX века (на основе историографии Турции)***

Получившее независимость после смерти Надир-шаха Иреванское ханство, занимает особое место среди азербайджанских ханств благодаря выгодному своему географическому положению, а также проводимой успешной внешней политике. Представленная статья отражает проблему изучения политической ситуации Иреванского ханства в начале 19 века в турецкой историографии. В ходе расследования политической ситуации также были отражены походы шаха и русских на ханство. Политическое положение Иреванского ханства в исследуемый период было очень сложным и хаотичным Ряд турецких историков в той или иной степени затронули эту тему, пытаясь объективно описать историю ханства. В статье анализируются и описываются труды турецких историков, как Х.Октай, А.Арслан, Э.Кюркчоглу, Н.Айгюн, М.Айдына и других историков. В статье также использованы архивные материалы и книги подготовленный на основе архивных материалов.

Оккупационная политика царской России на Южном Кавказе в начале XIX века и захвата земель, принадлежащих ханству Иреванского вместе с Восточной Грузией, привели к состоянию войны и ослабил ханство политическим и экономическим плане. Кроме того, непрекращающиеся походы князя Аббаса Мирзы поставил ханство в тяжелом положении. Предотвращение походов на ханство в 1804 году занимает важное место в истории Иреванского ханства. Пытаясь проанализировать текущие политические события, турецкие историки высоко оценили меры, принятые Мухаммад-ханом для защиты ханства.

В статье также отражено исследование турецких авторов о сепаратистской деятельности некоторых армянских духовных лиц в ханстве. Примером этого является отражение в трудах турецких историков поведения армянского населения, в которых по наущению Эчмиадзинской церкви русские войска были встречены радостью и стали проводниками. О деятельности Армянской церкви в Эчмиадзине, а также о подчинении этой церкви интересам России было проведено много исследований, и результаты были использованы в статье по мере необходимости.

***Ключевые слова:*** *Турецкие историки, Иреванское ханство, царская Россия, осада, Аббас Мирза, Мухаммад хан, Османское государство*

Redaksiya heyətinin üzvü t.e.d., prof. İsgəndərov Anar Camal oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 327. 82:008; 327 (5)**

# C.NAYIN "YUMŞAQ GÜC" KONSEPSİYASININ TƏNQİDİ TƏHLİLİ

**Məhəmməd ƏKBƏROV***

*Məqalə redaksiyaya daxil olmuşdur: 24 iyun 2020; çapa qəbul edilmişdir: 16 iyul 2020; online-da çap edilmişdir:31 mart 2021.*

*Received: 24th of June, 2020; accepted:16th of July, 2020; published online: 15th of March, 2021.*

***Açar sözlər:** "yumuşaq güc", "sərt güc", "ağıllı güc", liberal realizm, resurs-yönümlü yanaşma, kontekst-yönümlü yanaşma*

## Giriş

Realizm klassiklərinin haqlı olaraq qeyd etdiyi kimi, "güc" anlayışı beynəlxalq münasibətlərin təhlilində əsas anlayışlardan biridir [29]. Lakin hazırda güc və gücün qarşılıqlı fəaliyyəti kateqoriyalarında beynəlxalq münasibətlərin inkişafının səbəb və xarakterinin izahının inandırıcı alternativi yoxdur [2, s. 4-22]. Elə bu səbəbdən də, bu anlayışın dərk edilməsi, istər beynəlxalq münasibətlərin öyrənilməsinə ümumi nəzəri-metodoloji yanaşmaların təkmilləşdirilməsi baxımından, istərsə də bu və ya digər siyasi məqsədlərə nail olmaq üçün müxtəlif güc alətlərindən istifadəsi üzrə konkret tövsiyələrin hazırlanması cəhətdən inkar edilməz aktuallığa malikdir.

Bu müşahidənin əyani sübutu kimi ilk dəfə 1990-cı ildə amerikalı siyasətçi və beynəlxalq münasibətlər alimi Cozef S.Nay tərəfindən formalaşdırılan "yumşaq güc" konsepsiyası göstərilir [30; 32]. Yeni "yumşaq güc" terminini təklif edən C.Nay nəinki "güc" anlayışının "yumşaq" və "sərt" keyfiyyətlər üzrə bölünməsi məsələsini ortaya qoymuş, o həm də bu anlayış ətrafında diskussiyaları yenidən aktuallaşdırmışdır. Yeni termin, bir çox alimlər tərəfindən nisbətən skeptisizmlə qarşılanmasına baxmayaraq, tez bir zamanda həm akademik dairələrdə [22, s. 18-22], həm də siyasətçilər arasında, o cümlədən Rusiyada, geniş şöhrət qazanmışdır Lakin tez yaddaqalan və gözəçarpan ifadə bu termin üçün bir sıra çətinliklər yaratdı: bu ifadə terminin məşhurlaşmasında xüsusi rol oynadı [12, s. 25], amma eyni zamanda, onun ətrafında gedən müzakirələri elmdən çox uzaq olan müstəviyə keçirirdi [9, s. 31-33; 8, s. 14-21]. Elə C.Nayun özü də əsərlərində [33] "yumşaq gücün" bir neçə tərifini vermiş və bu məqam tənqidçilərin nəzərindən yayınmamışdır.

## C.Nayun əsərlərində "yumşaq güc" problematikası

Elmi dairələr arasında məlum terminə münasibətdə hökm sürən qeyri-müəyyənlik belə deməyə əsas verir ki, beynəlxalq-siyasətşunas alimlər arasında hələdə "yumşaq gücün" nə demək olması, onun hansı imkanlara malik olması, onun "sərt gücdən" prinsipial fərqliliklərinin nədən ibarət olması üzrə dəqiq anlayış yoxdur. Məsələn, müasir elmdə "yumşaq gücün" ən müxtəlif təriflərinə (əksər hallarda hətta bir müəllifin eyni işi çərçivəsində) rast gəlmək olar: xarici siyasətin resursudur [6, s. 27; 9]; qeyri-maddi ehtiyatların istifadəsinə əsaslanan hakimiyyətin növüdür [7]; dövlətin xarici və daxili amillərinin məcmusudur [6, s. 29]; hərəkətliliyi həvəsləndirən və hərəkətə təşviq edən təəssüratdır; ölkələrin siyasi və sosial-mədəni qarşılıqlı fəaliyyəti prosesində meydana gələn fenomen-

* fəlsəfə üzrə fəlsəfə doktoru, Bakı Ağır Cinayətlər Məhkəməsi
*e-mail: court.akberov@gmail.com*

dir [5, s. 18, 23-24]. Bəzi tədqiqatlarda "yumşaq güc" termini "Milli (ölkə) brendi", "Milli nüfuz", "Milli imic" anlayışlarının sinonimi kimi işlədilir [9, s. 29; 4, s. 210].

Təriflərin, şərhlərin və oxunuşların bu dərəcədə müxtəlifliyi, bəzi tədqiqatçılar tərəfindən ümumiyyətlə "yumşaq gücü", sözün ciddi mənasında, elmi konsepsiya olaraq adlandırması hüququna malik olmasından imtina etmələrinə gətirib çıxardı [10, s. 173].

Beynəlxalq münasibətlər nəzəriyyəsində "güc" anlayışının müəyyənləşdirilməsinə yönəlmiş yanaşmaları iki böyük istiqamətə ayırmaq olar [27, s. 691–698]. Xronoloji olaraq demək olar ki, beynəlxalq münasibətlər elminin müstəqil elmi sahəsi kimi formalaşması ilə eyni vaxtda meydana çıxan ilk istiqaməti "resurs-yönümlü" istiqamət kimi xarakterizə etmək olar. Bu yanaşma çərçivəsində, bu və ya digər dövlətin gücü əsasən asan ölçülə bilən maddi amillərin məcmusudur: ərazinin sahəsi, əhalinin və ordunun sayı, iqtisadi potensialı, təbii ehtiyatları və s. Gücü şərh edən bu yanaşma realizm (və daha sonra – neorealizm) məktəbinin nümayəndələrinin [29; 34; 36] əsərlərində öz əksini tapmışdır. Elə bu yanaşma, realistlərin bütün nəzəri ideyalarının təməl prinsiplərindən biri olan qüvvələr balansı konsepsiyasının əsasını təşkil edir.

Əgər güc – ölçülən resursların məcmusudursa, deməli, konkret dövlətin gücünün müəyyən bir ümumi cəmini hesablamaq və müvafiq olaraq, ölkələri belə inteqral göstəricilərə görə sıralamaq olar. Elə bu ilkin şərtlərdən məntiqi olaraq belə bir nəticəyə gəlmək olar ki, onların əsaslandığı resurslara uyğun olaraq, güc növlərinin tipologiyasını müəyyən etmək və onları sistemləşdirmək olar [1, s. 69-80]. Lakin beynəlxalq münasibətlər nəzəriyyəsi nöqteyi-nəzərindən bu yanaşmanın əsas fərqləndirici cəhəti, hər bir dövlətin başqa ölkələrlə qarşılıqlı əlaqələrindən asılı olmadan müəyyən bir gücə malik olması ideyasıdır, başqa sözlə desək, güc – milli dövlətin, misal üçün, dəqiq sərhədlər və ya suveren hökumət kimi mütləq atributudur (sadəcə, bəzi ölkələrdə güc daha çoxdur, bəzilərində isə daha azdır).

Güc anlayışının müəyyənləşdirilməsinə xidmət edən ikinci yanaşmanı "kontekst-yönümlü" adlandırmaq olar. Bu yanaşmaya görə, güc – aktorlar arasında yaranan xüsusi bir münasibətlər növüdür [16, s. 273-297]. Bir vaxtlar R.Dal belə münasibətlərin klassik təsvirini təklif etmişdir: güc – "sosial subyektlər arasında çoxsaylı əlaqələrdir, bu zaman R subyektinin fəaliyyəti C subyektinin davranışından asılı olur" [20, s. 407].

Söhbət ondan gedir ki, güc beynəlxalq aləmdə fəaliyyət göstərən aktorun ayrılmaz atributu deyil, o yalnız konkret qarşılıqlı fəaliyyət prosesində yaranır və yalnız onu səciyyələndirir. Belə ki, kontekst-yönümlü yanaşma baxımından "X dövləti gücə malikdir" ifadəsi heç bir məna kəsb etmir. O yalnız X dövlətinin gücə malik olduğu kontekst dəqiq şəkildə müəyyən edildiyi halda məna kəsb edir. Kontekstin aydınlaşdırılması kim kimin üzərində, harada, nə vaxt, nə dərəcə gücə malikdir sualına cavab verilməsini nəzərdə tutur [31; 25].

Qeyd olunan son iki xüsusiyyət üzərində xüsusi olaraq dayanmaq istərdik, çünki onların təhlili, gücün resurs-oriyentasiyalı şərhinə qarşı iddiaların mahiyyətini daha qabarıq şəkildə açmağa imkan verir.

Bu yanaşmanın tənqidçiləri qeyd edirlər ki, böyük maddi resurslara sahib olmaq, özlüyündə aktorun böyük gücə malik olduğuna şahidlik etmir. [31, s. 37-39; 16, s. 273–297]. Kontekstdən asılı olaraq, eyni resursdan istifadə, həm müəyyən məqsədlərə nail olmağa köməklik edə bilər, həm də tam əks nəticələrə səbəb ola bilər. Məsələn, dövlətin tam komplektləşdirilmiş və yaxşı hazırlanmış müntəzəm qoşunlarının olması, ona, partizan taktikasından istifadə edən düşmənlə mübarizədə uğur qazanmasına heç də zəmanət vermir, bunu bariz şəkildə Vyetnamdakı müharibənin təcrübəsi göstərdi. Eyni zamanda, uzun və çətin müdafiə olunan quru sərhədlərinin mövcudluğu, böyük əraziyə malik olan dövlətin potensial üstünlüyünü xeyli aşağı sala bilər, əgər bu dövlət aqressiv qonşularla əhatə olunubsa.

Qərb ədəbiyyatında bu problemi – arzu olunan nəticələrə nail olmaq üçün güc resurslarının transformasiyası – tez-tez kart oyunları ilə müqayisə edilərək təsvir edirlər: kartların eyni kombinasiyası poker oyununda uduşlu ola bilər, lakin bric oyununda eyni kombinasiya, ən yaxşı halda, faydasız ola bilər [16, p. 273–297]. Başqa sözlə, öz kartlarını bilmək mütləq lazımdır, lakin bununla yanaşı, sizin hansı oyunu oynadığınızı da anlamaq eyni dərəcədə vacibdir.

Qeyd etmək lazımdır ki, burada söhbət heç də bu və ya digər aktorun siyasətinin formalaşdırılmasında resursların əhəmiyyətinin inkar edilməsindən və ya azaldılmasından getmir. O da şübhə doğurmur ki, aktorun resursları nə qədər çox və müxtəlif növlərə malik olarsa, onların uğurlu siyasi hərəkətlərə transformasiya edilməsi imkanları da bir o qədər çox olur. Gücün transformasiyası konsepsiyasının epistemoloji əhəmiyyəti başqadır: o, "güc resursu" anlayışını bilavasitə "güc" anlayışından ayırır, yaxud C.Nayın yazdığı kimi, "Gücün resursları – sadəcə olaraq qüvvələr arasında qarşılıqlı münasibətlərin əsasını təşkil edən maddi və qeyri – maddi xammal materialları və mexanizmləridir " [31, p. 39]. Maddi və qeyri-maddi resurslar gücün özünü deyil, yalnız potensialını formalaşdırır. Beynəlxalq münasibətlərdə güc o zaman yaranır ki, potensial konkret siyasi hədəflərə çatmaq üçün konkret siyasi addımlara çevrilməyə başlayır.

Kontekst-yönümlü yanaşma çərçivəsində gücün transformasiyası probleminin qoyuluşu ilə sıx bağlı olaraq, gücün (və ya gücün simalarının) realizə edilmə formaları haqqında da diskussiya başlanılmışdı. Bu diskussiya üzərində daha geniş və təfərrüatlı dayanmaq məqsədəuyğundur, çünki məhz o, C.Nayın "yumşaq güc" konsepsiyasının yaradılmasına səbəb olmuşdur.

Gücün birinci simasının təsviri R.Dalın "güc" termininin yuxarıda təqdim olunan şərhində öz əksini tapmışdır. Gücün birinci siması və ya birinci realizə edilmə forması obyektə təsir göstərmək məqsədilə ona qarşı tətbiq edilən birbaşa, açıq təzyiq, məcbur etmə deməkdir. Bu, beynəlxalq arenadakı aktorlar arasında güc əməkdaşlığının daha nəzərə çarpan və aydın formasıdır. Məhz bu forma ənənəvi olaraq beynəlxalq münasibətləri tədqiq edənlərin daha çox diqqət mərkəzində olmuşdur, bu isə təəccüblü deyil, çünki açıq hərbi-siyasi qarşıdurma həqiqətən də beynəlxalq əməkdaşlığın ən geniş yayılmış formalarından biri olub və bu gün də belədir. Lakin gücün realizə edilmə formaları ərafında aparılan diskussiyaların sonrakı inkişafı göstərdi ki, ən geniş yayılmış formalardan biri olmaq yeganə forma olmaq anlamına gəlmir.

Gücün ikinci sifətinə gəldikdə isə, 1960-cı illərin əvvəllərində politoloqlar P.Baxrax və M. Barats aşağıdakı fakta diqqət yetirmişlər: gücün transformasiyası, yalnız birbaşa məcburiyyət formasını almır, o həm də müxtəlif beynəlxalq təşkilatlarda gündəliyin formalaşması yolu ilə həyata keçirilə bilər [13, p. 632-642; 14, p. 947-952]. Söhbət əsasən, iri aktorların kollektiv beynəlxalq orqanlarda qərarların hazırlanması mexanizmlərini müəyyən etmək və ya onların iş gündəliyini elə müəyyən etmə qabiliyyətindən gedir ki, belə vəziyyətlə razılaşmayan digər aktorlar könüllü və ya qeyri-ixtiyari, şüurlu və ya qeyri-şüurlu surətdə belə oyun qaydalarını qəbul etməyə məcbur olurlar.

Müəyyən mənada gücün ikinci sifəti, birincinin tam və mütləq əksidir: o obyektə qarşı qətiyyən loyal mövqedə dayanmayıb, lakin gücün birinci siması obyektə aktiv hərəkət şəklində təsir etməkdirsə, o zaman ikinci sifət – heç nə etməmə yolu ilə oxşar nəticəyə gətirib çıxarır [27, p. 691-698; 17; 18, p. 175-205].

Bu fikrin məntiqi inkişafı – beynəlxalq gücün qarşılıqlı təsirinin daha dolğun mənzərəsinin başa düşülməsi üçün etməməyin rolunu nəzərə almaq sosioloq S.Lyuks tərəfindən 1970-ci illərdə formalaşdırılan gücün üçüncü sifəti konsepsiyasının əsasını təşkil edib [26]. Bu konsepsiyanın mahiyyəti ondan ibarətdir ki, gücün transformasiyası yalnız birbaşa məcbur etmə və ya fəaliyyət proqramının müəyyən edilməsi formasını deyil, həm də digər aktorun "reallığın qəbul edilməsi kodları sisteminin" dəyişdirilməsi formasını ala

bilər [3, s. 7]. Burada söhbət subyektin obyektə özünün sosial-mədəni dəyər və normalarını qəbul etdirmək, onun ilkin seçimlərini formalaşdırmaq qabiliyyətindən gedir, [31, p. 44-45; 3, c. 7-17; 7; 28, p. 583-612]. Əgər subyekt obyektə hadisələrə öz baxışını, qlobal gündəliyi təşkil edən problemlərə öz münasibətini qəbul etdirə bilirsə (başqa sözlə, obyekti subyekt kimi düşünməyə məcbur edə bilir), onda obyektə açıq təzyiq göstərmək və məcbur etmək və ya institusional maneələr yolu ilə obyektin iradəsinin məhdudlaşdırılmasına ehtiyac öz-özlüyündə aradan qalxacaq.

Dünya siyasətində gücün tətbiqi probleminə bu baxış öz təbiətinə görə konstruktivdir [24, p.753-775; 37, p.396-407], XX-XXI əsrlərin qovuşuğunda başlayan, beynəlxalq münasibətlərin qlobal transformasiyası şəraitində olduqca perspektivli görünür. Bunun ən nəzərə çarpan xüsusiyyəti informasiya inqilabıdır – kommunikasiya texnologiyalarının və praktikalarının rolunun kəskin artması və buna müvafiq olaraq, aktorlar arasında güc münasibətlərində informasiya (C.Matterin deyiminə görə “verbal” [28, p. 586] mübarizəsinin tətbiq imkanlarının genişlənməsidir. Bundan başqa, həm müasir tədqiqatçıların fikrincə, həm də C.Nayın özünün etirafına görə məhz gücün üçüncü sifəti konsepsiyası onun "yumşaq güc" konsepsiyasının ilk anlayışları ilə yaxın və həmahəngdir: "Yumşaq güc – zorakılığa və rüşvətə müraciət etmədən, başqalarının təsəvvürlərini formalaşdırmaq və ya dəyişdirmək qabiliyyətidir" [33, p. 5].

C.Nayın “yumşaq gücünü” gücün üç sifəti konsepsiyasından kənarda təhlil etmək qeyri-mümkündür. C.Nay öz tədqiqatına, beynəlxalq münasibətlərdə gücün mahiyyətini və təbiətini müəyyənləşdirən əsas yanaşmaları ətraflı təhlil edən, kifayət qədər böyük nəzəri bölmə ilə başlayır. Burada o xüsusi olaraq, resursların uğurlu siyasi fəaliyyətlərə transformasiyası probleminin vacibliyini vurğulayır və ilk baxışdan kontekst-yönümlü yanaşmanın tərəfdarları ilə həmrəy olur: "Nəticədə bir çox analitiklər “milli güc elementi” olan yanaşmanı (yəni bu məqalədə istifadə olunan terminlərdəki resurs-təmayüllü) aldadıcı və imkanlarına görə davranış [kontekst-yönümlü] yanaşma və ya XX əsrin ikinci yarısında üstünlük təşkil etməyə başlamış müxtəlif növ münasibətlərin qurulması qarşısında zəif göründüyünə görə qəbul etmir. Düzünü desək, skeptiklər haqlı çıxdılar" [31, p. 38-39].

Lakin C.Nay növbəti abzasında kifayət qədər mübahisəli tezis irəli sürür. O yazır: "Bizim gündəlik istifadə etdiyimiz terminlərdən bir çoxu, "hərbi güc" və "iqtisadi güc" kimi terminlər, həm resursları, həm də davranış amillərini birləşdirən hibridlərdir. Nə qədər ki, söhbət bu mövzudan gedir, biz davranış və ya resurs amillərinə əsaslanmış gücün müəyyənləşdirilməsini aydınlaşdırmalı, onlar arasında olan qeyri-kamil münasibətlər barədə aydın təsəvvürə malik olmalıyıq. Məsələn, Çin və ya Hindistanın artmaqda olan gücündən danışarkən, bir qayda olaraq, bu ölkələrin böyük əhalisini, artan iqtisadi və hərbi resurslarını nəzərdə tuturlar. Lakin məsələ ondan ibarətdir ki, həmin resurslar adı altında nəzərdə tutulan imkanlar həqiqətən arzu olunan nəticələrə çevrilə bilər?" [31, p. 39].

Bu tezisin mübahisəli tərəfi bundan ibarətdir: əgər C.Nay, "hərbi güc" və "iqtisadi güc" terminlərinin kontekst-yönümlü yanaşma çərçivəsində hibridlər olduğunu nəzərdə tutursa, o zaman tam aydın olmur ki, "resurslar" və "davranış amilləri"ni qarşı-qarşıya qoymaq nəyə gərəkdir: resursların dəqiq uçotu kontekstin müəyyənləşdirilməsi prosesinin bir hissəsi və müvafiq olaraq "davranış yönlü" analizinin ayrılmaz elementidir. Lakin C.Nay başqa bir şey haqqında söbət açır: o, bu terminləri gücün təyin edilməsi üçün iki yanaşmanın – kontekst-yönümlü və resurs-yönümlü yanaşmanın hibridləri kimi nəzərdən keçirir.

Bu fikir – C.Nayın bütün əsərlərinin, o cümlədən onun "yumşaq güc" konsepsiyasının başa düşülməsi üçün əsasdır, ona görə də onu xüsusilə ətraflı şəkildə təhlil etmək lazımdır. C.Nayın fikrincə, kontekst-yönümlü və resurs-yönümlü yanaşmaların tərəfdarları, əslində, beynəlxalq münasibətlərdə gücün eyni təzahüründən danışırlar, sadəcə onu müx-

təlif üsullarla təsvir edirlər. Birinciləri, gücün davranış yönlü (subyekt və obyekt arasındakı əlaqələrin xüsusiyyətləri) aspektlərinə, ikinciləri isə resurs aspektlərinə vurğu edirlər. Əslində isə güc, eləcə də onun ayrı-ayrı növləri (iqtisadi, hərbi), tam dolğunluğu ilə bütün bu tərkib hissələrə malikdir.

Bu ideyadan irəli gedərək, C.Nay öz qarşısına son dərəcə iddialı bir vəzifə qoyur: elə bir güc nəzəriyyəsini yaratmaq ki, bu hər iki yanaşmanın tərəfdarları arasında (faktiki olaraq, beynəlxalq münasibətlər nəzəriyyəsini bütöv olaraq götürsək, realistlər və liberallar arasında) çoxillik mübahisənin öhdəsindən gələ bilsin və bu elmi istiqamətlərdən ən yaxşı ideyaları özünə sintez etsin. C.Nayın fikrincə, bu nəzəriyyə, liberal realizm nəzəriyyəsi olmalıdır [31, p. 374]. "Hakimiyyətin gələcəyi" işində məhz həmin ideyanı inkişaf etdirir və əsaslandırır və elə bu qlobal vəzifələr kontekstində Nayın "yumşaq güc" konsepsiyasını nəzərdən keçirmək lazımdır. Bundan əlavə, sonuncu fikir onun bu spesifik metodoloji məqsədini ən qabarıq şəkildə təsvir edir.

C.Nayın gücün realizə edilmə formaları ("sifətlər") barədə diskussiya üçün xarakterik olan interpretasiyası onun resurs-yönümlü və kontekst-yönümlü yanaşmaları sintez edilmək cəhdinə bariz nümunə ola bilər [31, p. 40-52]. C.Nay öz əsərində bunları ətraflı təsvir edir və belə bir ədalətli nəticəyə gəlir ki, realistlərin ənənəvi olaraq diqqət yetirdikləri qücün birinci sifəti xüsusilə müasir dövrdə beynəlxalq münasibətlərin həqiqi mənada başa düşülməsi və izah edilməsi üçün kifayət deyil [31, p. 49, 52-54]. Daha sonra o, öz fikrini inkişaf etdirir və qeyd edir ki, subyektin açıq məcburetmə yoluyla obyekti öz davranışını dəyişməyə məcbur etmə qabiliyyətini nəzərdə tutan gücün birinci sifəti "sərt gücün" əsasını təşkil edir, bu zaman daha incə və mürəkkəb təsir üsullarına istiqamətlənən ikinci və üçüncü sifətlər isə "yumşaq gücü" təşkil edir. A.Uolfersin [38] araşdırmasına istinad edən C.Nay belə bir mülahizə irəli sürür ki, beynəlxalq vəziyyətin təhlili aktorların qarşılarına qoyduqları məqsədlərin müxtəlif-planlı xarakterini nəzərə almalıdır və bundan sonra o məqsədlərin iki tipini ayırır: spesifik (əldə etmək məqsədləri) və struktur (yaşayış mühiti məqsədləri) [31, p. 49-50]. Birinciyə qiymətli resurslara çıxışın əldə edilməsini və ya əlverişli ticarət razılaşmasının imzalanmasını, ikinciyə isə – azad ticarət, insan hüquqlarının qorunması və ya kütləvi qırğın silahlarının yayılmaması prinsiplərinin irəliləməsinin təmin edilməsini aid etmək olar.

Faktiki olaraq C.Nay kontekst-yönümlü yanaşma çərçivəsində "yumşaq güc" və "sərt güc" anlayışlarının formalaşdırılmasına hədəfin növü, ona nail olmanın vasitələri və yolları arasında sistemli əlaqəsini quran bir konsepsiya kimi yanaşır. Demokratiyanın və insan hüquqlarının irəliləməsinin təmin edilməsi işində, hərbi və iqtisadi məcburetmə vasitələrindən istifadə etməklə (birinci sifət, "sərt güc") birbaşa təzyiq etmə öz bəhrəsini verə bilər, lakin bunun üçün ikinci və üçüncü sifətlərin ("yumşaq güc") metodlarından istifadə etmək daha səmərəlidir. Lakin C.Nay öz düşüncələrinə tamamilə fərqli bir istiqamət verir. O özünün resurs-yönümlü və kontekst-yönümlü yanaşmaların birləşdirilməsini nəzərdə tutan ümummetodoloji vektoruna əsaslanaraq, güc sifətlərini aktorlar arasında qarşılıqlı güc əlaqəsinin həyata keçirilməsinin müxtəlif üsulları kimi deyil (gücün məyyən edilməsinin kontekst-yönümlü paradiqması), elə bu gücün davranış aspektləri, xarakteristikaları və parametrləri (resurs-yönümlü paradiqma) kimi şərh edir. Başqa sözlə, C.Nayın fikrinə görə, beynəlxalq münasibətlərdə ümumilikdə bir hadisə kimi gücə və onun hər bir növünə kontekstdən asılı olmayaraq, ilk əvvəldən güc davranışının bütün üç aspekti xasdır. Deməli, birinci sifəti "sərt güclə", ikinci və üçüncü sifətləri isə "yumuşaq güclə" əlaqələndirmək olmaz. C.Nay yazır: "Həm "sərt gücə", həm də "yumuşaq gücə" güc davranışının bütün üç siması və ya aspeki xasdır [31, p.162-163]. Belə olan halda bu problem ortaya şıxır – bu qüvvələri bir-birindən necə ayırd etmək olar?

C.Nay aşağıdakı formulu təklif edir: "Mən məcburiyyəti, mükafatı və onların üzərində qurulmuş bəzi fəaliyyət proqramlarını sərt güc adlandırıram; obyekt tərəfindən le-

gitim olaraq qəbul edilən fəaliyyət froqramının hazırlanması, müsbət cəlbedicilik və inandırıcılıq mənim yumşaq gücə daxil etdiyim davranış spektrinin hissələridir. Sərt güc – təkandır, yumşaq güc isə – bir cazb etmədir" [31, p. 20].

C.Nayın bu formulunu əyanilik üçün cədvəl şəklində təqdim etmək olar. C.Nay tərəfindən təqdim edilən "sərt" və "yumşaq gücün" üç siması:

| Gücün sifəti | "Sərt güc" | "Yumşaq güc" |
|---|---|---|
| I. Obyektin davranışını dəyişdirmək üçün subyekt açıq şəkildə təzyiqdən istifadə edir. | Obyektin davranışını dəyişdirmək üçün subyekt açıq şəkildə məcbur etməni/ mükafatlandırmanı istifadə edir. | Obyektin davranışını dəyişdirmək üçün subyekt açıq şəkildə cəlb etmədən/ inandırmadan istifadə edir. |
| II. Obyektin davranışını dəyişdirmək üçün subyekt fəaliyyət proqramını formalaşdırır. | Subyekt məcbur etmə/ mükafatlandırma vasitəsilə fəaliyyət proqramını müəyyənləşdirir. Obyekt tabe olmağa məcbur olur. | Subyekt məcbur cəlb etmə/ inandırma vasitəsilə fəaliyyət proqramını müəyyənləşdirir. Obyekt bu proqramı qanuna uyğun olaraq qəbul edir. |
| III. Subyekt obyektin ilkin istəklərini formalaşdırır. | Subyekt obyektin ilkin istəklərinin formalaşdırılması üçün məcbur etməni/ mükafatlandırmanı istifadə edir. | Subyekt obyektin ilkin istəklərinin formalaşdırılması üçün cəlb etmədən/ inandırmadan istifadə edir. |

Beləliklə, "yumşaq güc" və "sərt güc" anlamı altında C.Nay güc davranışının spesifik tiplərini dərk edir. O, "yumşaq gücün" tam izahını belə verir: bu, arzuolunan nəticələrə nail olmaq məqsədi ilə, fəaliyyət proqramının formalaşmasında əməkdaşlıq etmə, inandırma və müsbət cəlbedici təsir göstərmə yolu ilə digər iştirakçılara təsir edə bilmə bacarığıdır" [31, p. 20-21].

Bu, ilk baxışdan səlis və ziddiyyətli görünməyən sxemin əslində bir sıra ciddi çatışmazlıqları var. Onların bəzilərini C.Nay özü düzəltməyə çalışır, bəzilərini isə sadəcə olaraq görmür. Birincilərə bu yanaşmada "sərt gücü" ilə "yumşaq gücdən" ayıran çox incə bir xətti aid etmək olar. C.Nayın özü etiraf edir ki, məcbur etmə/cəlb etmə xarakterinə malik davranışların subyektiv qiymətləndirilməsindən başqa, "sərt güc" və "yumşaq güc" anlamlarını biri-birindən ayırmaq üçün digər meyarlar yoxdur [31, p. 57].

"Sərt güc" maddi resurslara, "yumşaq güc" isə qeyri–maddi resurslara arxalanır deyimi düz deyil [31, p. 57]. Misal üçün, əsgərin döyüş ruhu kimi qeyri-maddi resurs, gücün birinci sifəti üçün məsələn, döyüş gəmiləri və təyyarələri kimi maddi resursdan heç də daha az əhəmiyyət kəsb etmir. "Sərt gücün" və "yumşaq gücün" hansısa özünəməxsus resurslarının olduğunu da demək olmaz. Daha sonra C.Nay dəfələrlə etiraf edir ki, "sərt güc" anlamı ilə assosiasiya olunan resurslar (ordu bölmələri, hərbi gəmilər, investisiyalar və s.), "yumşaq gücün" həyata keçirilməsi üçün də əsas ola bilər [31, p. 57, 63, 87, 103, 154-156]. Bu faktın etirafından sonra məntiqə görə təsdiq edilməlidir ki, "sərt güc resursları" və ya "yumşaq güc resursları" mövcud deyil, lakin C.Nay mütəmadi olaraq bu terminləri istifadə edir [31, p.59, 261, 294].

Onun "sərt güc" və "yumşaq güc" arasındakı çəkdiyi sərhədin qeyri-müəyyənliyi o zaman daha da dərinləşir ki, fəaliyyət subyektinin və onun obyektinin məcbur etmə və ya cəlb etmə kimi davranışlarının qiymətləndirilməsi bir-birinə diametral şəkildə əks ola bilər: subyektin "yumşaq" davranışın təzahürü hesab etdiyi hərəkət obyektin gözünə "sərt" davranış kimi görünə bilər. Artıq klassik nümunə səviyyəsinə çatmış qərb mədəni dəyərlərinin ənənəvi şərq cəmiyyətlərinə nüfuz etməsi və onların buna reaksiyası bu tezisi üçün ən yaxşı açıqlama hesab oluna bilər. Nəticə olraq, gücün Nayın meyarlarına uyğun

olaraq "sərt" və "yumşaq" qismində təsnif edilməsi son dərəcə subyektiv, nisbi, relativist (nisbi) xarakter daşıyır ki, bu da, beynəlxalq münasibətlərdə gücdən istifadənin istənilən sistemli nəzəriyyəsinin işlənməsini mümkünsüz edir.

Konsepsiyasının bu çatışmazlığını pərdələmək üçün, C.Nay "güc" sözünü ehtiva etdirən əlavə bir termin irəli sürür, bu isə onun tədqiqatının onsuz da əndazəyə sığmayan metodologiyasını daha da çətinləşdirir. Söhbət C.Nayın aşağıdakı kimi tərif etdiyi "ağıllı gücdən" gedir, o bunu: "Məcbur etmə və mükafatlandırma kimi "sərt gücün" – inandırma və cəlb etmə kimi "yumşaq güc" ilə birləşdirilməsi" kimi müəyyən edir [31, p.XIII]. Rus alim M.V.Xarkeviçin dəqiq qeyd etdiyi kimi, "ağıllı güc" özünü "analitik qeyri-differensial anlayış" kimi təqdim edir [12, c. 22], burada "sərt" və "yumşaq" güc formaları birləşərək ayrılmaz və bölünməz bütövlük təşkil edir. Müvafiq olaraq onların arasında dəqiq sərhədlərin müəyyənləşdirilməsi problemi də aradan qaldırılır, çünki yalnız hər iki gücün birləşməsi, resursların uğurlu fəaliyyət planına transformasiyasına zəmanət yaradır, "ağıllı" strategiyanın əsasını təşkil edir (31, p. 338-340).

"Ağıllı güc" termini, ümumi desək, C.Nayın çox uğurlu ixtirası olmuşdur: o sadəcə "yumşaq güc" konsepsiyasının bəzi çatışmazlıqlarını ört-basdır etməyə imkan vermədi, həm də öz müəllifinə bəzi siyasi dividendlər gətirdi. B.Obamanın administrasiyası bu termindən ikiəlli yapışaraq, onu demokratların yeni xarici siyasi prinsiplərinin təcəssümü kimi zirvəyə qaldırmışlar [31, p. 340-341; 12, c. 27; 11, c. 17-18]. Açıq şəkildə desək, "ağıllı güc" ifadəsi elmi termin qismində tətbiqindən fərqli olaraq, özünün siyasi və təbliğat şüarı qismində ikinci rolunda daha rasional təsir bağışlayır.

Bununla yanaşı, C.Nayın konsepsiyasının çatışmazlıqları sadəcə "sərt güclə" "yumşaq gücün" fərqləndirilməsi problemi ilə məhdudlaşmır. Xüsusilə C.Nayın subyektin bilavasitə inandırma vasitəsilə obyektin davranışını dəyişdirə bilmə qabiliyyətini xarakterizə edən "yumşaq gücün" birinci simasının mövcudluğuna dair mülahizəsi çoxlu suallar doğurur. Söhbət hədə-qorxu gəlmədən, mükafat vəd etmədən yalnız rasional arqumentlərə əsaslanaraq lazımi nəticəyə hipotetik nail olmaq imkanından gedir.

C.Nay onu beynəlxalq reallıqların təhlilinə tətbiq etməyə cəhd etdiyi zaman, daha dəqiq – beynəlxalq münasibətlərdə "yumşaq gücün" birinci simasının cəlb edilməsinin konkret nümunələrini tapmağa çalışması zamanı bu ideyanın zəifliyi özünü büruzə verməyə başlayır. Təkcə onu demək kifayətdir ki, o öz tezisini təsvir etmək üçün ümumiyyətlə, beynəlxalq əlaqələrlə heç-bir əlaqəsi olmayan nümunə seçir: məktəb direktorunun siqaret çəkmə vərdişindən çəkindirmək istədiyi məktəbli qızın nümunəsi [31, p. 163-164].

**Nəticə**

Bütövlükdə C.Nayın monoqrafiyasında daha münasib olan nümunələr tapmaq olar [31, p. 12-13, 167-168], lakin onlar da ciddi suallar doğurur. Belə ki, 2009-cu ildə L'Akuildə "Böyük səkkizliyin" görüşündə "Prezident Obamanın dəlillərinin inandırıcılıq gücü" beynəlxalq yardımın həcminin artmasına gətirib çıxardı" [31, p. 168] tezisi mübahisəli olaraq görünür. Məsələ bu artımın real olub-olmaması ilə deyil, onun B.Obamanın arqumentlərinin gözəlliyi və cəlbedici olması, yaxud bu arqumenti irəli sürən şəxsin ABŞ-ın prezidenti olması faktı ilə izah edilə bilməsiylə bağlıdır.

C.Nayın hər üç sifətin "yumşaq gücə" xas olması tezisi kifayət qədər əsaslandırılmış və inandırıcı görünmür, eyni fikri onun "yumşaq güclə" "sərt gücü" fərqləndirmək formulu haqqında da söyləmək olar. Eyni zamanda bu formul əsasında güc davranışının xüsusi tipi müəyyən edilən "yumşaq güc" C.Nayın "yumşaq güc" konsepsiyasının o qədər də mühüm olmayan hissəsidir. Nəzərdən keçirdiyimiz məhz bu anlayış C.Nayın monoqrafiyasının nəzəri bölməsinin tacı hesab olunsa da, sonrakı fəsillərdə "yumşaq gücün" tamamilə başqa şərhi ön plana çıxır. Müəllif onun dəqiq definisiyasını vermədiyinə görə əsəri qavramaq və anlamaq çətinlik yaradır.

Araşdırmanın sonunda bir nəticəyə gəlmək olar ki, C.Nayın bir nəzəriyyə çərçivəsində beynəlxalq münasibətlərdə gücün tərifinə resurs-yönlü və kontekst-yönlü yanaşmaları sintez etmə cəhdini uğurlu hesab etmək olar. “Yumşaq güclə” əlaqəli bu sintez, ilk baxışdan, onun iki fərqli tərifinin formalaşdırılmasında öz əksini tapıb: onlardan birincisi (“yumuşaq güc” – davranış növü kimi) kontekst-yönümlü paradiqmaya daha çox istiqamətlənir, ikinci isə (“yumşaq güc” güc növü kimi) müəllifin mülahizələrində daha mühüm yer tutan – resurs-yönümlüdür. Lakin daha diqqətlə nəzərdən keçirərkən məlum olur ki, C.Nayın “yumşaq güc” konsepsiyasında iki yanaşmanın heç bir sintezi yoxdur və “yumşaq gücün” hər iki tərifi əslində, resurs-yönümlü paradiqma çərçivəsindədir. Hətta C.Nayın açıq şəkildə kontekst-yönümlü yanaşmadan götürdüyü fikirləri və tədqiqat metodları (məsələn, gücün sifətləri ideyası) resurs-yönümlü paradiqma ruhunda şərh edir. Əslində bu, tamamilə qanunauyğundur.

İkinci yanaşmaya əsasən güc subyektlə obyekt arasında qarşılıqlı münasibətlər prosesində meydana çıxır və həmin münasibətlərdən kənarda mövcud deyil (güc anlayış kimi). Gücün tərifinə bu yanaşmalar əvvəldən təbiətinə görə bir-birini istisna edir. Beləliklə, C.Nayın bir aksioma kimi təqdim etdiyi məsələ əslində beynəlxalq münasibətlərdə güc nəzəriyyəsinin əsas problemi hesab edilir. “Hərbi güc”, “iqtisadi güc” və “yumşaq güc” ifadələri prinsipcə həm birinci, həm də ikinci yanaşmaya əsaslana bilməz. Bu səbəbdən C.Nayın bu iki istiqaməti "barışdırmaq" istəyi istər-istəməz onlardan birinin – resurs yönümlü mövqeyin tərəfini tutması ilə nəticələnir.

## ƏDƏBİYYAT


1. Давыдов Ю.П. Понятие «жесткой» и «мягкой» силы в теории между-народных отношений // Международные процессы. 2004, № 4, с. 69-80.
2. Дунаев А.Л. Понятия «система» и «порядок» в историографии международных отношений: трудности интерпретации // Вестник Московского университета. Серия 25. Международные отношения и мировая политика. 2013, № 2, с. 4-22.
3. Троицкий М.А. Сила и влияние в американо-российских отношениях: семиотический анализ. М.: НОФМО, 2006. 72 с.
4. Королев В.А., Владимирова А.В., Трунина А.А. Страновой брендинг и его отражение в глобальных рейтингах «мягкой силы» // Вестник международных организаций: образование, наука, новая экономика. М.: Изд. Дом. НИУ ВШЭ. 2014, том 9, № 2, с. 209-228.
5. Леонова О.Г. «Мягкая сила»: инструменты и коэффициенты влия-ния//Обозреватель – Observer, 2014, № 3, с. 18-28.
6. Леонова О.Г. Мягкая сила – ресурс внешней политики государства // Обозреватель Observer. 2013, № 4, с. 27-40.
7. Панова Е.П. Сила привлекательности: использование «мягкой власти» в мировой политике // Вестник МГИМО-университета, 2010, № 4, с. 91-97.
8. Паршин П.Б. Два понимания «мягкой силы»: предпосылки, корреляты и следствия // Вестник МГИМО-Университета, 2014, № 2 (35), с. 14-21.
9. Паршин П.Б. Проблематика «мягкой силы» во внешней политике России. М.: МГИМО-Университет, 2013. 37 с.
10. Русакова О.Ф. Концепт «мягкой» силы (soft power) в современной политической философии // Научный ежегодник Института философии и права Уральского отделения РАН, 2010, Вып. 10, с. 173-192.
11. Филимонов Г. «Мягкая сила» культурной дипломатии США. М.: РУДН, 2011. 212 с.
12. Харкевич М.В. «Мягкая сила»: политическое использование научной концепции // Вестник МГИМО, 2014, 2 (35), с. 22-29.
13. Bachrach P., Baratz M.S. Decisions and nondecisions: An analytical framework // The American Political Science Review. 1963. Vol. 57, pp. 632-642.

14. Bachrach P., Baratz M.S. Two faces of power // The American Political Science Review. 1962. Vol. 56. pp. 947-952.
15. Baldwin D.A. Paradoxes of power. New York: Basil Blackwell, 1989. 223 p.
16. Baldwin D.A. Power and international relations//Handbook of International Relations / Ed. by W. Carlsnaes, T. Risse, B. Simmons. London, 2013. pp. 273-297.
17. Chayes A., Chayes A.H. The new sovereignty: compliance with international regulatory agreements. Cambridge, Massachusetts: Harvard University Press, 1995. 417 p.
18. Chayes A., Chayes A.H. On compliance//International Organization. 1993. Vol. 47. No. 2. pp. 175–205.
19. Dahl R.A. Modern political analysis. Prentice-Hall, 1963. 118 p.
20. Dahl R.A. Power // International Encyclopedia of Social Science. New York: Free Press, 1968. pp. 405-415.
21. Dahl R.A. Who governs? Democracy and power in an American city. New Haven: Yale University Press, 1961. XII, 355 p.
22. Ferguson N. Think again: power // New York: Foreign Policy. 2003. No. 134. pp. 18-22.
23. Keohane R.O., Nye J.S. Power and interdependence: World Politics in transition. Boston: Little, Brown, 1977. 268 p.
24. Kratochwil F., Ruggie J.G. International organization: a state of the art on an art of the state//International Organization. Vol. 40. 1987. №.3. p. 753-775.
25. Lasswell H.D., Kaplan A. Power and society: a framework for political inquiry. New Haven: Yale University Press, 1950. XXIV, 295 p.
26. Lukes S. Power: a radical view. London: Macmillan, 1974. 64 p.
27. Mattern J.B. The concept of power and the (un)discipline of Interna-tional Relations // The Oxford handbook of International Relations. New York: Oxford University Press, 2008, pp. 691-698.
28. Mattern J.B. Why ‘Soft Power’ isn't so soft: representational force and the sociolinguistic construction of attraction in World Politics // Millennium – Journal of International Studies. 2005. №. 33, pp. 583-612.
29. Morgenthau H.J. Politics among nations: the struggle for power and peace. New York: Knopf, 1967. 615 p.
30. Nye J. Bound to lead: The changing nature of American Power. New York: Basic Books, 1990. 370 p.
31. Nye J.S. The future of power. New York: Public Affairs, 2011. 320 p.
32. Nye J. Soft power//Foreign Policy. 1990. № 80. pp. 153-171.
33. Ney J. Soft power: means to success in World Politics. New York: Public Affairs Group, 2004. 192 p.
34. Sprout H., Sprout M. Foundations of national power: readings on World Politics and American security. Princeton: Princeton University Press, 1945. 751 p.
35. Stoessinger J.G. The might of nations: World Politics in our time. New York: Random House, 1965. 460 p.
36. Waltz K. Theory of International Politics. London: Addison-Wesley Publ., 1979, 79 p.
37. Wendt A. Anarchy is what states make of it: the social construction of power politics // International Relations. 1992. Vol. 46. №. 2, pp. 396-407.
38. Wolfers A. Discord and collaboration: essays on International politics. Baltimore: John Hopkins University Press, 1962. 283 p.


***Summary***

***Muhammad Akbarov***

***Critical Analysis of J. Nay's "Soft Power" Concept***

The article criticizes the famous American political scientist Joseph Nye's concept of "soft power". This article describes a detailed study of a complex and contradictory concept. The article attempts to consider the concept of the essence and nature of power in international relations in the context of a broader discussion, resulting in two larger approaches to the definition of power – resource-oriented and context-oriented. In his works, J.Nay tried to synthesize these approaches within the framework of a single theory of liberal realism. As a result of such attempts, two incompatible definitions of his "soft power" were formed: as a specific type of force behavior and as an independent type of force. However, upon closer examination, it becomes clear that both of these definitions, like all theories of liberal realism, form the basis of a resource-oriented approach. It is established that J.Nye in his works tried to synthesize resource-oriented and context-oriented approaches within the framework of a unified theory of liberal realism. However, the leading side here is the resource direction. The idea of soft power is becoming more widespread in world politics. The effectiveness of the work carried out in this direction shows that the practical side of this direction is very useful.

***Keywords:*** *"soft power", "hard power", "smart power", liberal realism, resource-oriented approach, context-oriented approach.*

***Резюме***

***Мухаммед Акберов***

***Критический анализ концепции "мягкой силы" Дж. Ная***

В статье анализируется концепция «мягкой силы» известного американского политолога Джозефа Ная. Детально описывается сложность и противоречивость данной концепции. В статье предпринята попытка рассмотреть данную концепцию о сущности и природе власти в международных отношениях в контексте более широкой дискуссии, в результате чего были предложены два более широких подхода к определению власти – ресурсо-ориентированный и контекстно-ориентированный. В своих работах Дж. Най пытался синтезировать эти подходы в рамках единой теории либерального реализма. В результате таких попыток сформировались два несовместимых определения его «мягкой силы»: как особый тип силового поведения и как самостоятельный вид силы. Однако при ближайшем рассмотрении становится ясно, что оба этих определения, как и все теории либерального реализма, составляют основу ресурсо-ориентированного подхода. Установлено, что Дж. Най в своих работах пытался синтезировать ресурсно-ориентированный и контекстно-ориентированный подходы в рамках единой теории либерального реализма. Однако лидирующей стороной здесь является ресурсное направление. Идея мягкой силы получает все большее распространение в мировой политике. Эффективность работы, проводимой в этом направлении, показывает, что практическая сторона этого направления очень полезна.

***Ключевые слова:*** *«мягкая сила», «жесткая сила», «умная сила», либеральный реализм, ресурсо-ориентированный подход, контекстно-ориентированный подход.*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 94**

# AZƏRBAYCAN MÜHACİRLƏRİNİN ARAŞDIRMALARINDA İRAN TÜRKLƏRİ VƏ GÜNEY AZƏRBAYCAN MƏSƏLƏSİ

**Asim CƏNNƏTOV** *

*Məqalə redaksiyaya daxil olmuşdur: 12 may 2020; çapa qəbul edilmişdir: 8 iyun 2020; online-da çap edilmişdir: 31 mart 2021.*

*Received: 12th of May, 2020; accepted: 8th of June, 2020; published online:15th of March, 2021.*

***Açar sözlər:** İran türkləri, Güney Azərbaycan, Azərbaycan mühacirləri, Məhəmməd Sadiq Aran, Əhməd Cəfəroğlu*

## Giriş

Türkiyə ictimai fikir tarixində quzeyli-güneyli Azərbaycan məsələsinin yenidən gündəmə gətirilməsində və daha dərindən araşdırılmasında Azərbaycan mühacirlərinin əməyini xüsusi qiymətləndirmək lazımdır. Mühüm bir məsələni qeyd etmək lazımdır ki, Türkiyə ictimai-fikir tarixində Güney Azərbaycan termini ilk dəfə olaraq Azərbaycan mühacirlərindən olmuş Murtuza Nizaməddin Təbrizli tərəfindən elmi ədəbiyyata daxil edilmişdir (6, s. 8-9). Ümumiyyətlə, Azərbaycan mühacirləri heç zaman Azərbaycanı unutmamış və araşdırmalarında milli məsələləri Türkiyə ictimaiyyətində yenidən gündəmə gətirmişlər. Azərbaycan Xalq Cümhuriyyəti qurucuları, Türk millətçiləri və Azərbaycan kökənli milli aydınlar araşdırmalarında İran, Azərbaycan, İran türkləri, Azərbaycan türkləri, Azərbaycanın Türk Birliyində yeri, İran İnqilabı, Güney Azərbaycan, onun coğrafi yerləşməsi, əhalinin etnik kökü və başqa bu kimi mövzuları yazmaqla Güney Azərbaycan məsələsinin Türkiyənin ictimai fikir tarixində hər zaman yaşamasına xidmət etmişlər. Bunun nəticəsində gələcək araşdırıcılar məhz bu ziyalılara istinad edərək İran türkləri və Güney Azərbaycan məsələsini yenidən işləmişlər. Türkiyə ictimai fikir tarixində məsələni gündəmə yenidən gətirmiş azərbaycanlı mühacirlər arasında Məhəmməd Sadiq Aran və Əhməd Cəfəroğlu da mühüm yer tutur. Hər iki tədqiqatçı Güney Azərbaycan məsələsini İran türkləri çərçivəsində işləmişdir.

## M.S.Aranın araşdırmasında İran türkləri və Güney Azərbaycan məsələsi

Azərbaycanda Çar Rusiyasının işğalına qarşı başlamış milli hərəkatda fəal iştirak etmiş, Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu illərdə Azərbaycanda gedən siyasi prosesləri yaxından izləmiş və Türkiyəyə mühacirət etmiş önəmli şəxsiyyətlərimizdən biri Məhəmməd Sadiq Aran olmuşdur. O, Azərbaycanın Sovet Rusiyası tərəfindən 27 aprel 1920-ci ildə işğal edilməsindən sonra mübarizəsinə davam etmiş, İranda, Türkiyədə və Finlandiyada mühacirət həyatı yaşamış, sonradan isə təkrar Türkiyəyə dönərək fəaliyyətinin böyük bir hissəsini orada davam etdirmişdir. Əsərlərini yazarkən Mehmet Sadık, M.Sisyanlı, Cəfər Sadık və Sənan Azər imzalarından da istifadə etmişdir (5, s. 15). Mövzu ilə bağlı olaraq M.S.Aranın ən qiymətli əsəri isə Sənan Azər imzası ilə yazdığı “İran türkləri” hesab edilir.

İki hissədən ibarət olan bu əsər Türkiyə ictimai fikir tarixində İran türkləri və Güney Azərbaycan məsələsinin formalaşmasında qaynaq rolunu oynayır. Əsərin birinci hissəsi İran türkləri, İranın ümumi əhalisi, İranda türk əhalisi, bölgənin tarixi, coğrafiyası, İran

* AMEA akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu
*e-mail: aze.asim93@gmail.com*

inqilablarında fəal iştirak etmiş Azərbaycan türkü olan qəhrəmanlara və tarixi şəxsiyyətlərə həsr olunmuşdur. Müəllif əsərin ikinci hissəsində İranda yazıb yaratmış Hacı Mehdi Şükuhi, A.Şair, Əbülqasım Nəbati Qaracadağı, Məhəmməd Bağır Xalxali, Məhəmmədəli Saib Təbrizi, Şah İsmayıl Xətai və başqa bu kimi görkəmli Azərbaycan (türk) şairlərdən bəhs etmişdir.

M.S.Aran İran türkləri əsərini İrandakı 5 milyon türkə ithaf etmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu Rəsulzadənin eyniadlı məqaləsindən fərqli olaraq bu əsərdə olduqca mühüm məsələlər yer almışdır. 1942-ci ildə İstanbulda yayınlanmış əsərin başlanğıcında müəllif İran türklərini belə təsvir edir: *"Talesiz bir insan zümrəsi olaraq İran sərhədləri içində yaşamağa məhkum olan biz İran türkləri, əsrlərdən bəri İran varlığını qoruduq. Qanımızı İran istiqlalı üçün axıtdıq. Hətta öz irqdaşlarımız olan Anadolu türkləri ilə İran uğrunda savaşdıq. Malımızı İran davası üçün sərf etdik. İrandakı bir ovuc fars milləti bizi daima istismar etdi. Hər işini, hər ağırlığını bizim belimizə yüklədi. Fəqət bu qədər iztirablara qatlanan bizlər, bu qədər fədakarlıq edən biz İran türkləri heç bir insani hüquqa sahib olmadıq. Daima gözü qapalı bir kölə vəziyyətində farslığın əsiri olduq. Onları öydük, özümüzü unutduq"* (2, s. 3). Doğrudan da, min il boyunca İranı idarə etmiş Azərbaycan türkləri 1925-ci ildə pəhləvilərin hakimiyyətə gəlməsi ilə, demək olar ki, bütün hüquqlarından məhrum edildilər. Bu sözləri ürək yanğısı ilə dilə gətirən M.S.Aran da əsərin girişində oxucuların diqqətini bu məsələyə çəkmiş, İraqa, Türkiyəyə və başqa ölkələrə mühacirət etmiş 37 min İran türkləri adından bütün Təbriz və İran türklərinə müraciət ünvanlayaraq İran türklərinə öz milli-mədəni hüquqlarını qorumasını və bu məsələdə Şimali Azərbaycan türklərindən örnək götürməsini tövsiyə edir (2, s. 3-4).

M.S.Aran da Azərbaycan Xalq Cümhuriyyəti qurucularından olan Ə.Ağaoğlu kimi əsərdə İranda türklərin min illik hakimiyyətinə diqqəti çəkmişdir. Tarixdən bizə məlumdur ki, İrana türk axını Türküstandan davamlı şəkildə olmuş və İran min il boyunca türk sülalələri tərəfindən idarə edilmişdir. Türk sülalələrinin İrana axınından sonra Güney Azərbaycanın İranda qurulmuş əksər dövlətlərin mərkəzi olduğu şübhəsizdir. Prof. Edvard Braun və Dr. Rza Şefaka istinad edən M.S.Aran qeyd edir ki, ərəb istilasından İranı qurtaran və Hindistana qədər uzanan geniş bir ərazidə fars dilini yayan da elə türk sultanları olmuşdur (2, s. 5). Doğrudan da, İranda səltənət qurmuş əksər türk hökmdarları mənəvi hakimiyyətlərini qurmaqda zəiflik göstərmişlər. İran taxtına çıxan türk sülalələri heç vaxt farslara qarşı ayrı-seçkilik etməmişlər. Türk hökmdarlarının hakimiyyəti zamanında fars dilinin ən yüksək zirvəyə çatdığı "Şahnamə"nin ərsəyə gətirilməsi və fars şairlərinin ölməz əsərlər yaratması buna bariz örnəkdir.

Əsərdə Qacar səltənətinin devrilməsi ilə İranda minillik türk hakimiyyətinin başa çatması və Pəhləvilərin hakimiyyətə gələrək türklərə qarşı paniranizm siyasətini ən kəskin şəkildə həyata keçirməsi öz əksini tapmışdır. "Siz türk deyilsiniz, sizi monqollar gələrək türkləşdirdi, sarı dərili türklər İranı yıxdılar, Türk milləti qaba bir millətdir" propoqandaları da anti-türk siyasətinin tərkib hissəsi idi. Bununla türk uşaqlarını öz tarixi keçmişindən ayırmağa çalışırdılar (2, s. 5-6). Əsərdə pəhləvilərin həyata keçirdiyi kimlik siyasəti, İran türklərinin farslaşdırılması kəskin tənqid edilmiş və Samanilər sülaləsi ilə başlayıb Qacarlar sülaləsi ilə bitən minillik türk hakimiyyəti zamanında İranda mədəniyyətin yüksək səviyyədə inkişaf etdiyi vurğulanmışdır. Günümüzə gəlib çatmış tarixi abidələr və fars dilində o zaman yazılmış qiymətli əsərlər türklərin farslara qarşı ədalətli davranmasını göstərirdi. Lakin İrandakı türk hökmdarlarının öz dillərinə biganə yanaşması nəticəsində bəzi türk ailələri öz türk kimliklərini tamamilə unutmuşdular.

Əsərdə İran əhalisinin ümumi sayı, İranda yaşayan türklərin bu saya nisbətdə necə yer tutması, yer adları və onların kökü haqqında verilən məlumatlar da mühüm yer tutur. Hər zaman olduğu kimi əsərin yazıldığı illərdə İranda türklüyün mərkəzi Azərbaycan olmuşdur. Belə ki, İran daxilində Azərbaycanın ümumi ərazisi müəllifin araşdırmasında

250 km$^2$ olaraq göstərilmişdir (2, s. 12). İranda yaşayan Azərbaycan türkləri təkcə tarixi Azərbaycan şəhərlərində deyil, eləcə də İranın əksər yaşayış məntəqələrində məskunlaşmışlar. M.S.Aran əhalinin siyahıyaalınmasının bütün İranı əhatə etməməsi faktını nəzərə alaraq ümumi İran əhalisinin sayını təxminən 10 milyon və İrandakı türklərin sayını isə 5 milyon civarında müəyyən etmişdir (2, s. 11-12). Müəllifin irəli sürdüyü iddia İran əhalisinin yarısı deməkdir və İranın bir türk yurdu olmasını da göstərir.

Bir yerin hansı etnikə mənsub olmasını göstərən faktlardan biri də insanların ona verdiyi addır. İranın Azərbaycan türkləri ilə məskunlaşdığı yerlərin çoxuna verilən adlar da türkcə olmuşdur. Qacarlar devrildikdən sonra isə Azərbaycan xalqının türkcə adlandırdığı bir çox yer-yurd, dağ, çay, meşə və s. adları pəhləvilər tərəfindən zorla dəyişdirilərək farslaşdırılmışdır. Ümumiyyətlə, pəhləvilərin İranda türklərə, xüsusilə azərbaycanlılara qarşı idarəçilikdə, orduda, təhsildə, mətbuatda, mədəniyyətdə və iqtisadiyyatda tətbiq etdiyi zülm siyasəti bu əsərdə geniş şəkildə işıqlandırılmışdır.

M.S.Aran pəhləvilərin azərbaycanlılara və bütün İran türklərinə qarşı həyata keçirdiyi bu siyasəti açıb göstərərək ortaya maraqlı bir sual qoyur və cavabını tarixi dəlillər əsasında göstərir: *"Azərbaycan İrandırmı? Bu suala tarix xeyir cavabını verməkdədir. Türklərlə məskun olan Azərbaycan ölkəsi qəti dəlillərlə isbat olunduğuna görə əsla Fars dövlətinin bir parçası olmamış, müstəqil bir Atropaten dövləti olmuşdur."* (2, s. 20). Tarixi qaynaqlarda Güney Azərbaycanın Atropatena və sonralar isə Azərbaycan adı ilə xatırlandığı bizə məlumdur.

Əsərin İranda türk şairlərindən bəhs edən bölümündə türkcə yazıb yaratmış şairlərin həyat və yaradıcılığına mühüm yer verilmişdir. Müəllif, dünya tarixini yazan görkəmli alimlərin tarixlə bağlı araşdırmalarına istinad edərək yazır ki, qədim Atropatena ölkəsinin *(yəni, Güney Azərbaycanın)* əhalisi türkdür və İranda türk dilinin heç bir zaman rəsmi dövlət dili olmamasına baxmayaraq, insanlar öz dillərini yaşatmışlar (2, s. 20). Aşıq yaradıcılığının yalnız İran türkləri arasında yayılması, İranda yaşayan türklər arasında şifahi xalq ədəbiyyatının türk dilində geniş yayılması, şairlər tərəfindən türk dilində böyük əsərlər yaradılması, bu əsərlərin və dilin günümüzədək gəlib çatması müəllifin yazdıqlarını isbat edir. İranda türk şairlərin bir qismi həm ikili dildə, bir qismi isə yalnız fars dilində yazmışlar. Ancaq, onların fars dilində yazması fars olmaqlarını ifadə etmir. Azərbaycanın dünyaya bəxş etdiyi ən qüdrətli qələm və söz sahibi olan Şeyx Nizami də farsca yazıb yaratmış, lakin yazılarında türklüyü tərənnüm etmişdir. Bu məsələ isə M.Ə.Rəsulzadənin Nizaminin yaradıcılığına həsr etdiyi ayrıca bir araşdırmada öz əksini tapmışdır. M.S.Aran bənzər örnəklər göstərmiş və fars dilində 400 səhifəlik bir Divan yazmış Hacı Mehdi Şükuhinin hz. Adəmin türkcədən başqa bir dil bilmədiyini yazmışdır (2, s. 30, 32). Bununla o, türklüyün tarixinin İranda və Güney Azərbaycanda çox əski zamanlara dayandığını göstərməyə çalışmışdır.

Əsərdə Azərbaycan ədəbiyyatı tarixində hökmdar şair olan Şah İsmayıl Xətayi haqqında da maraqlı fikirlər öz əksini tapmışdır. Tarixdən bizə məlumdur ki, Şah İsmayıl əsərlərini Xətayi ləqəbi ilə yazmışdır. M.S.Aran oxucuların diqqətini Türkiyənin Hatay bölgəsinə çəkərək qeyd edir ki, Hatay/Hitay/Kıtay Təbriz və Ərdəbildə yaşayan bir türk boyunun adıdır və Şah İsmayıl da öz ulularının xatirəsini yaşadaraq Xətayi adını götürmüşdür (2, s. 39-40). Müəllif,Türkiyə ilə Fransa arasında 1930-cu illərdə Hatay bölgəsi üzərində yaranmış münaqişə zamanı bir fransız qəzeti redaktorunun Antakyadakı türklərə verdiyi sualı işıqlandırmışdır: *"siz hataylılar əski yurdunuz olan İrandakı Azərbaycan ölkəsinə, Təbriz bölgəsinə dönmək istəməzmisiniz"* (2, s. 39). Bu iddia Türkiyədə yaşayan hataylıların əslində Azərbaycan kökənli olduğunu göstərir.

Belə ki, əsərdə daha çox Təbriz ədəbi mühitinin yetirdiyi şairlərə geniş yer verilmişdir. Müəllif İranda türk məfkurəsini öz əsərlərində yaşatmış və Anadolu türklərinin varlığından belə xəbərsiz olduğu Rəmzi, Zikri, Şakir, Əsrar, İrşad, Çələbi bəy, Naci, Razi,

Zahid, Məzlum, Şəmsi, Məst Təbrizi, Münzib Təbrizi və başqa bu kimi bir çox türk şairlərindən örnəklər gətirmişdir. M.S.Aran mühüm bir məsələni də qeyd edir ki, Azərbaycan ədəbiyyatının inkişafında xidmətləri olmuş bu şairlərin əsərləri şahənşah Pəhləvinin əmri ilə məhv edilmişdir (2, s. 44). Əslində pəhləvilərin bu addımı Güney Azərbaycana qarşı həyata keçirilmiş mənəvi bir terror idi.

M.S.Aran Azərbaycan Xalq Cümhuriyyəti qurucularından fərqli olaraq, İran türkləri əsərində ilk dəfə olaraq Pəhləvi rejimi tərəfindən İranda və Güney Azərbaycanda türklərə qarşı həyata keçirilmiş milli zülm siyasətini geniş şəkildə araşdırmış və Türkiyə ictimaiyyətinin diqqətini məhz bu məsələyə yönləndirmişdir.

**Əhməd Cəfəroğlunun araşdırmasında İran türkləri və Güney Azərbaycan məsələsi**

Azərbaycanın ən qədim və zəngin mədəniyyət mərkəzlərindən biri olan Gəncə şəhərində dünyaya göz açmış Əhməd Cəfəroğlu Türkiyə ictimai fikir tarixində İran türkləri və Güney Azərbaycan məsələsinin gündəmə gəlməsində böyük rol oynamışdır. Türkiyədə türkologiyanın qurucularından və bütün Türk dünyasında türkologiyanın ən parlaq simalarından hesab edilən Ə.Cəfəroğlu 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin Sovet Rusiyası tərəfindən işğalından sonra Türkiyəyə köç edərək İstanbul Universitetində fəaliyyətə başlamış və elmi araşdırmalarında hər zaman türk xalqlarını diqqət mərkəzində saxlamışdır.

Prof. Əhməd Cəfəroğlu həyatı boyunca çoxsaylı əsərlər yazmış və Azərbaycan məsələsini Türkiyə ictimai fikrində gündəmə gətirməyə çalışmışdır. Müəllifin 1940-cı ildə İstanbulda çap olunmuş "Azərbaycan" əsəri Azərbaycanın dövlətçilik tarixi və ədəbiyyatına həsr olunmuşdur. Həcmi 48 səhifə olan bu əsər daha çox Quzey Azərbaycandan bəhs edir. Güney Azərbaycan və orada yaşayan türk boyları haqqında məlumatlar isə 1966-cı ildə "Türk Kültürü" dərgisində işıq üzü görmüş "İran Türkləri" məqaləsində verilmişdir. Bu məqalə eyni zamanda 1983-cü ildə Ankarada yayınlanmış "Türk qövmləri" kitabında da yer almışdır. Əsər müəllifin İstanbul Universiteti Ədəbiyyat fakültəsinin türk dili və ədəbiyyatı bölümündə çalışdığı illərdə türk qövmləri dərsindən tələbələrə verdiyi mühazirələrin toplusudur. Belə ki, əsərin üçüncü bölümü Qafqaz və İran türkləri başlığı altında yayınlanmışdır. Buna baxmayaraq, Azərbaycan türklərindən bəhs edən bölümdə Quzey və Güney Azərbaycan anlayışları da yer almışdır.

Müəllif "Azərbaycan türkləri" başlığı altında Azərbaycanın zəngin tarixi, mədəniyyəti və ədəbiyyatından ağız dolusu yazmışdır. Azərbaycanın dövlətçilik ənənələri, rus-İran savaşlarından sonra Azərbaycan torpaqlarının quzey və güney olmaqla iki hissəyə bölünməsi, Azərbaycanda maarifçilik və türkçülük hərəkatları, Azərbaycan Xalq Cümhuriyyəti, Şah İsmayıl Səfəvinin Azərbaycan türkcəsini İranda dövlət və ədəbiyyat dili səviyyəsinə yüksəltməsində oynadığı rol xüsusi olaraq göstərilmişdir (3, s. 61). Əsərdə diqqəti cəlb edən mühüm məqamlarından biri də orta çağ Azərbaycan şair və sənətkarlarının Türkiyənin mədəni həyatına təsirinin qeyd olunmasıdır. Bu məsələləri işıqlandıran prof. Ə.Cəfəroğlu tərəqqi və demokratiyanın mühiti olan Azərbaycanın eyni zamanda türkçülüyün də qaynağı olduğunu vurğulamışdır (3, s. 62). Bu faktlar Azərbaycanın türk dünyasında ideoloji bir mərkəz olduğunu göstərir.

Ə.Cəfəroğlu Güney Azərbaycan türklərini və İranın fərqli vilayətlərində məskunlaşmış İran türklərini "İran türkləri" başlığı altında işıqlandırmışdır. Bu bölümdə ümumi olaraq İranda məskunlaşmış türk qövmləri, onların yayılma arealı və yaşayış tərzi, etnik kökü və sayları barədə yetərli sayda bilgilər verilmişdir. Əsərdə İranda yaşayan türklər arasında Güney Azərbaycan, Qaşqay, Əfşar, Qacar, Şahsevən, Qaradağlı, Qarapapaqlı, Xəmsə, Xorasan, Kərayi, Bayat, Türkmən və başqa bu kimi türk qövmlərinin adlarını çəkmişdir.

Müəllif İran türkləri bölümündə ilk olaraq Güney Azərbaycandan bəhs etmişdir. Ərəb qaynaqlarında Azərbaycan sərhədləri quzeydə Dərbənddən başlayıb güneydə Hə-

mədanı da içinə almaqla şərqdə Xəzər dənizi və qərbdə Osmanlı sərhədləri arasında geniş bir ərazini əhatə edirdi. Əsərdə həmçinin pəhləvilər tərəfindən həyata keçirilmiş inzibati bölgü ilə Güney Azərbaycanın sərhədlərinin kiçildiyi də qeyd olunmuşdur. Prof. Ə.Cəfəroğlu bu məsələlərə aydınlıq gətirdikdən sonra Güney Azərbaycan əhalisinin Təbriz, Urmiya, Ərdəbil, Marağa, Xoy, Səlmas, Soyuqbulaq, Maku, Xalxal, Astara, Mərənd və Culfa kimi şəhərlərdə məskunlaşdığını və Avropa qaynaqlarına istinadən saylarının 4 milyondan çox olduğunu qeyd etmişdir (4, s. 125). Təbii ki, bu rəqəm təxmini olaraq müəyyən edilmişdir. Gerçəkdə bu rəqəm daha yüksək ola bilər.

İranda Azərbaycan türklərindən sonra sayca çoxluq təşkil edən yarım-köçəri həyat tərzi yaşayan qaşqaylardır. Günümüzdə Fars əyalətində yaşayan qaşqay türkləri İsfahandan başlayaraq Fars körfəzinə qədər uzanan geniş bir ərazidə məskunlaşmışlar. Həyat tərzini və adət-ənənələrini indiyə kimi qoruyub saxlamış qaşqaylar özünəməxsusluğu ilə seçilirlər. Bu məsələlər müəllifin əsərində də öz əksini tapmışdır. Ə.Cəfəroğlu son araşdırmalara istinad edərək, qaşqay türklərinin 55 boya ayrıldığını, İrana ilk dəfə olaraq Çingiz xan ordusunun tərkibində gəlib yerləşdiyini və Azərbaycan türkcəsində danışdıqlarını vurğulamışdır (4, s. 126). Eyni zamanda qaşqayların adı, kökü və sayı haqqında birmənalı fikrin olmadığı da qeyd edilmişdir. Əsərdə son olaraq qaşqay türklərinin sayının təxminən 400.000-500.000 civarında olduğu göstərilmişdir (3, s. 127).

İran türkləri arasında əfşarlar da sayca çoxluq təşkil edirlər. Döyüşkənliyi ilə seçilən əfşarlar İranın siyasi və hərbi tarixində çox önəmli rol oynamışlar. Sayca qacarlardan çox olan və qaşqaylardan heç də geri qalmayan bu döyüşkən tayfa dağınıq halda İranın, demək olar ki, hər yerində yaşamaqdadır. Bunun da bəlli səbəbləri vardır. Müəllif əfşar boylarının moğol istilası dövründə İrana köç etdiyini və bir qisminin də Şah İsmayıl Səfəvi tərəfindən imperiyanın ucqar sərhədlərinin qorunması üçün Xorasan əyalətinə yerləşdirildiyini qeyd etmişdir (4, s. 127). Əfşar boyunun ən görkəmli nümayəndəsi Nadir şah olmuşdur. O, Səfəvi sülaləsinin zəifləməsindən məharətlə yararlanaraq, 1736-cı ildə Azərbaycanın Muğan düzündə təşkil edilmiş qurultayda özünü şah elan edir və bununla da əfşarların şahlıq dövrü başlayır. Lakin bu səltənət çox qısa davam edir. Əfşarlar haqqında ümumi olan bu məlumat Ə.Cəfəroğlunun araşdırmasında öz əksini tapmışdır.

Sözsüz ki, İranın tarixi, siyasi və mədəni həyatında aparıcı rol oynamış türk qövmləri arasında qacarlar da olduqca mühüm yer tutur. Müəllif, İran tarixçisi Səid Nəsifiyə istinad edərək qacarların Türküstandan indiki Suriya sərhədinə gəlib yerləşdiyini, XIV-XV əsrlərdə İrana köç etdiyini, lakin Teymurun basqısı altında bir qisminin yenidən Türküstana, bir qisminin isə Quzey Azərbaycana gəlib yerləşdiyini qeyd etmişdir (4, s. 128). Quzey Azərbaycana köç edənlər Qarabağ və Gəncədə məskunlaşmışdır. Təsadüfi deyildir ki, Nadir şah Əfşarın ölümündən sonra Gəncə xanlığını Qacar nəsli idarə etmişdir. Ümumilikdə qacarlar Səfəvilər zamanından dövlətin siyasi həyatında fəal iştirak etməyə başlamışlar (1, s. 53). Sayca çox az olmalarına baxmayaraq, 1794-cü ildə İran taxtına sahib olmuş və İran şahlığında minillik türk hakimiyyətinin sonuncusu olmuşlar. Ə.Cəfəroğlu İranda qacarların ümumi sayının 25.000-30.000 olduğunu müəyyən etmiş və eyni zamanda Pəhləvi dönəmində məmur təbəqəsi arasında yenə də özünü göstərdiyini qeyd etmişdir (4, s. 129). Günümüzdə də Qacar soyadını daşıyan əsilzadə ailələr vardır.

İranda türklər arasında Azərbaycan türkləri, qaşqaylar, əfşarlar və qacarlardan sonrakı yeri isə şahsevənlər, qaradağlılar, qarapapaqlılar, Xəmsə türkləri, kəngərlilər, Xorasan türkləri, türkmənlər və başqaları tutur. Əsərdə bu türk boyları haqqında da ümumi fikirlər öz əksini tapmışdır. Adı keçən türk boyları arasında Türkmənistanla sərhəddə yaşayan türkmənlər sayca çoxluq təşkil edir. Şahsevənlərin ortaya çıxması isə Şah İsmayılın dövrünə təsadüf edir. Belə ki, Səfəvi ordusunda şahsevənlərdən ibarət ayrıca bir bölüyün olması haqqında fikirlər də vardır. Ə.Cəfəroğlu şahsevənlərin Güney Azərbaycanın Muğan, Savalan, Qaradağ, Talış, Savə, Zəncan bölgələrində yaşadığını və köçəri həyat

tərzi keçirdiyini qeyd etmişdir (4, s. 129). Şahsevənlər günümüzdə Gəncə şəhərində də yaşayırlar. Yuxarıda adları çəkilmiş İran türkləri arasında Xəmsə türkləri də çox önəmli yer tutur. Müəllif, ümumi sayı 100.000 olan Xəmsə türklərinin iki ərəb və üç türk qəbiləsinin birləşməsi nəticəsində ortaya çıxdığını vurğulamışdır (4, s. 131). İstər Azərbaycan, istərsə Fars Xəmsəsində yaşayan türklərdən eynalılar, baharlılar və nəfərlər tamamilə türkdürlər. Buna baxmayaraq, Xəmsədə yer alan ərəb kökənli qəbilələr də tədricən türkləşmişlər.

Prof. Ə.Cəfəroğlunun əsərini diqqətlə izlədikdə görürük ki, onun İran türkləri haqqında yazılmış bu əsəri Türkiyə ictimai fikir tarixində ən sanballı araşdırmalardan biridir. Bu əsər ümumilikdə türk xalqlarına həsr olunsa da, oxuculara İranda yaşayan müxtəlif türk qövmləri haqqında geniş məlumat vermişdir. Bu baxımdan əsərin elmi dəyəri böyükdür.

**Nəticə**

Türk istiqlalçılarından bəhs edərkən Azərbaycan kökənli araşdırıcıların da fəaliyyətini yüksək dəyərləndirmək gərəkdir. Məhz onların fəaliyyətində İran türkləri və Güney Azərbaycan məsələsi daha geniş araşdırılmışdır. İran, onun ümumi coğrafiyası, İranda yaşayan türk xalqları, İran tarixində baş vermiş inqilablar, türklərin, xüsusilə də Güney Azərbaycanın bu inqilablarda həlledici rolu və başqa bu kimi məsələlər bu istiqlalçıların araşdırmalarında əksini tapmışdır. Azərbaycan kökənli araşdırıcılardan Hüseyn Bayqara və prof. Əhməd Cəfəroğlu Türkiyə ictimai fikrində Quzey və Güney Azərbaycan anlayışlarından istifadə etməklə çox önəmli bir ilkə imza atmışlar. Bütün bu fəaliyyətlər Türkiyə ictimai fikrində İran türkləri və Güney Azərbaycan məsələsinin gündəmə gəlməsinə vəsilə olmuşdur.

**ƏDƏBİYYAT**


1. Ağaoğlu A. İran ve İnkılabı. Ankara: Zerbamat Basımevi, 1941, 120 s.
2. Azer S. İran Türkleri. İstanbul: Cümhuriyet Matbaası, 1942, 44 s.
3. Caferoğlu A. Türk Kavimleri. Ankara: Türk Kültürünü Araştırma Enstitüsü Yayınları, 1983, 96 s.
4. Caferoğlu A. İran Türkleri. Türk Kültürü, 1966, Sayı: 50, Yıl: V, Aralık, s. 125-133.
5. Şimşir S. Mehmet Sadık Aran Yaşamı ve Mücadelesi. İstanbul: Bilgeoguz, 2012, 126 s.
6. Tebrizli M.N. Bugünkü Azerbaycan Davası. Esas ve Sebepleri. İstanbul: Gün Basımevi, 1946, 80 s.


***Резюме***

***Асим Джаннатов***

***Вопрос иранских тюрков и Южного Азербайджана в исследовательных работах азербайджанских мигрантов***

Вопрос об иранских тюрках и Южном Азербайджане всегда занимал важное место в области тюркологии и ирановедения и по сей день занимает столь важное место. Следует отметить, что поднятие этого вопроса в турецком обществе было связано с именами основателей Азербайджанской Демократической Республики. Именно Мохаммад Амин Расулзаде первым поднял этот вопрос в Османской Турции в 1911 году в своей статье «Иранские тюрки», опубликованной в журнале "Turk Yurdu". Конечно, турецкие националисты тоже способствовали этому. Однако азербайджанские иммигранты, которые были вынуждены эмигрировать в Турцию после советской оккупации Азербайджана, всегда держали этот вопрос в центре внимания и смогли сформировать серьезное мнение в турецком обществе. Мы знаем из истории, что со свержением Гаджаров в Иране в 1925 году тысячелетнее тюрское правление закончилось, и к власти пришли пехлевиты. Пехлеви, помимо ус-

тановления персидской государственности в национальном смысле, проводили политику расизма против других неперсидских этнических групп. Больше всего пострадали азербайджанские тюрки. Принимая во внимание все это, азербайджанские эмигранты в своих научных исследованиях постоянно затрагивали проблему иранских тюрок и Южного Азербайджана, чтобы привлечь внимание Турции к этой проблеме. Даже в то время, когда между Ираном и Турцией существовали тесные дружественные отношения, азербайджанские эмигранты упорно трудились, чтобы вывести проблему "север-юг Азербайджана" на повестку дня в турецком обществе. Среди тех, кто вновь поднял вопрос об иранских тюрках и Южном Азербайджане и способствовал формированию турецкого общественного мнения, можно упомянуть имена азербайджанских эмигрантов Мохаммед Садыг Ара, Муртуза Низамеддин Тебризли и Ахмед Джафароглу. М.Н.Табризли, один из упомянутых исследователей, впервые в турецком общественном мнении внес в научную литературу проблему Южного Азербайджана.

***Ключевые слова:*** *иранские тюрки, Южный Азербайджан, азербайджанские эмигранты, Мохаммад Садыг Аран, Ахмад Джафароглу*

***Summary***

***Asim Jannatov***

***The issue of Iranian Turks and South Azerbaijan in the research of Azerbaijani migrants***

The issue of Iranian Turks and South Azerbaijan always holds an important place in the history of science in the field of Turkology and Iranian studies up to the present time. It is noteworthy that the introduction of the issue in the history of Turkish public opinion was identified with the names of the founders of the Azerbaijan Democratic Republic. Muhammad Amin Rasulzadeh first raised this issue in Ottoman Turkey in 1911 with his article “Iranian Turks” published in the journal of “Turk Yurdu”. Actually, Turkish nationalists also contributed to this issue. However, Azerbaijani migrants, who were compelled to emigrate to Turkey after the Soviet occupation of Azerbaijan, always kept this issue in the spotlight and have been able to form a serious issue in Turkish public opinion. It is clear from history that with the overthrow of the Gajars in Iran in 1925, the millennial Turkish rule ended and the Pahlavis came to power. The Pahlavis, in addition to establishing Persian statehood in the national sense, formed a policy of racism against other non-Persian ethnic groups. So, the Azerbaijani Turks suffered the most. Taking all this into account, the Azerbaijani migrants constantly touched upon the issue of Iranian Turks and South Azerbaijan in their scientific researches in order to draw Turkey's attention to this issue. Even at a time of friendly relations between Turkey and Iran, Azerbaijani migrants worked hard to bring the issue of north-south Azerbaijan back on the agenda in the history of public opinion. Among those who revived the issue of Iranian Turks and South Azerbaijan in the history of Turkish public opinion are the names of Azerbaijani migrants, Mohammad Sadig Aran, Murtuza Nizameddin Tabrizli and Ahmad Jafaroglu. M.N.Tabrizli, one of the mentioned researchers, brought the issue of South Azerbaijan to the scientific literature for the first time in the Turkish public opinion.

***Keywords:*** *Iranian Turks, South Azerbaijan, Azerbaijani migrants, Muhammad Sadig Aran, Ahmad Jafaroglu*

Redaksiya heyətinin üzvü t.e.d., prof. İsgəndərov Anar Camal oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 32**

# YERLİ ÖZÜNÜİDARƏETMƏNİN FORMALAŞMA MODELLƏRİ. DÜNYA TƏCRÜBƏSİ

**Aysel ALLAHVERDİYEVA** *

*Məqalə redaksiyaya daxil olmuşdur: 16 sentyabr 2020; çapa qəbul edilmişdir: 30 sentyabr 2020; online-da çap edilmişdir: 31 mart 2021.*

*Received: 16th of September, 2020; accepted: 30th of September, 2020; published online: 15th of March, 2021.*

***Açar sözlər:*** *yerli hakimiyyət, bələdiyyə sistemi, yerli özünüidarəetmə modelləri, dövlət, dünya təcrübəsi*

## Giriş

Yerli özünüidarəetmənin formalaşması bir qayda olaraq təbii-iqlim şəraiti, sosial-iqtisadi inkişaf səviyyəsi, geosiyasi, siyasi, kadr potensialı və digər amillərlə şərtlənir. Onların tədqiqi təkcə elmi-nəzəri deyil, eyni zamanda yerli özünüidarəetmə modellərinin formalaşdırılması zərurətini özündə əks etdirən siyasi maraq kəsb edir. Belə ki, yerli özünüidarəetmə modellərinin elmi-nəzəri və siyasi xarakteri bir tərəfdən yerli özünüidarəetməni qanunvericilikdə təsbit olunmuş hüquqi qurum, ayrı-ayrı bələdiyyələrin fəaliyyətini realizə edən siyasi və hüquqi hadisə kimi müəyyən edir, digər tərəfdən isə yerli özünüidarəetmə modellərinin sistemli təhlilini, ümumi və konkret hadisələrin vəhdətini nəzərdə tutur.

Dünya ölkələrində yerli özünüidarəetmənin müxtəlif modellərinin fəaliyyətinə dair geniş təcrübə toplanmışdır. Bu modellər yerli özünüidarəetmə orqanlarının formalaşdırılması, yerli özünüidarəetmə subyektləri, yerli özünüidarəetmə orqanlarının dövlət hakimiyyəti orqanları ilə qarşılıqlı əlaqə və münasibətləri və digər xüsusiyyətlərinə görə fərqlənirlər.

Xarici ölkələrin təcrübəsi üçün yerli hakimiyyət və yerli özünüidarəetmə orqanlarının təşkili formalarının böyük müxtəlifliyi səciyyəvidir. Digər müxtəliflik isə bu formaların praktik olaraq real həyatda təzahür etməsidir.

Ayrı-ayrı ölkələrdə yerli özünüidarəetmənin müxtəlif modellərinin mövcudluğu tarixi dövlətçilik xüsusiyyətləri ilə bağlıdır. (2, s. 28) Yerli özünüidarəetmənin seçilmiş modeli dövlət, bölgə və yerli icmanın maraqlarına uyğun təşkil olmalıdır. (5, s. 333)

Yerli hakimiyyət və yerli özünüidarəetmənin hər hansı modeli qurularkən, müəyyən amillər, milli-psixoloji xüsusiyyətlər, insan hüquqlarının müdafiəsi səviyyəsi, tarixi ənənələr, inzibati-ərazi bölgüsünün xüsusiyyətləri və s. nəzərə alınmalıdır. (1, s. 39)

Müasir elmi ədəbiyyatda yerli özünüidarəetmə sistemlərinin (modellərinin) təhlili zamanı bir sıra yanaşmaların öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Analitik yanaşma dövlət idarəetməsi, yerli özünüidarəetmənin ona təsiri, onlar arasındakı qarşılıqlı əlaqə, subyekt-obyekt asılılığı qismində nəzərdən keçirilir. İnstitusional yanaşma sistemi təşkil edən qurumların inkişafı, onların struktur təhlilini və qismən hüquqi təhlilini nəzərdə tutur. Funksional yanaşma isə sistemin fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi, yerli özünüidarəetmənin xüsusiyyətləri, müəyyən metod və vasitələrin realizə olunmasını ehtiva edir.

---

* doktorant, Bakı Dövlət Universiteti
*e-mail: allahverdiyeva_aysel88@mail.ru*

Yerli özünüidarəetmə modellərinin öyrənilməsində vacib istiqamət onların təsnifatıdır. (4, s. 57) Müasir dünya birliyində yerli özünüidarəetmə orqanları üzərində nəzarətdən və maliyyə resurslarının idarə olunmasından asılı olaraq, hakimiyyət mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş ola bilər. Mərkəzləşdirilmiş hakimiyyət dövlət hakimiyyətinin ümumi inkişaf istiqamətini müəyyən etməklə yanaşı, həmçinin yerli hakimiyyət orqanlarının fəaliyyətini də idarə edir. Qeyri-mərkəzləşdirilmiş hakimiyyət əksinə, yerli və mərkəzi hakimiyyətin funksiyalarını məhdudlaşdırır.

Bu yanaşmaya əsasən, yerli özünüidarəetmənin üç modeli ayırd edilir. 1.İngilis-sakson modeli; 2. Avropa Kontinental modeli; 3. İberiya modeli; Müxtəlif yanaşmaların olmasına baxmayaraq yerli özünüidarəetmənin Avropada formalaşmış və dünya ölkələrinin təcrübəsində öz əksini tapmış modelləri mövcuddur.

Yerli özünüidarəetmənin təşkilinin klassik modelləri olaraq, iki əsas sistem anqlo-sakson və fransız kontinental modelləri qəbul olunur.

**1.Yerli özünüidarəetmənin təşkilinin klassik modelləri. anqlo-sakson modeli**

Elmi ədəbiyyatda məhz anqlo-sakson sistemi ilk bələdiyyə sistemi hesab olunur. Anqlo-sakson modeli Böyük Britaniya, ABŞ, Yeni Zellandiya, İrlandiya, Hindistan, Avstraliya, Kanada kimi ölkələrdə tətbiq edilməkdədir. Yerli özünüidarəetmənin anqlo-sakson modeli həmçinin "Britaniya-ABŞ" modeli də adlandırılır. Bu model yerli özünüidarəetmənin azad icma, iqtisadi və qismən hüquqi nəzəriyyələrini özündə birləşdirən sosial nəzəriyyə üzərində qurulmuşdur. (7, s. 83)

Bu model yerli özünüidarəetmənin qeyri-mərkəzləşdirilmiş xüsusiyyətlərini özündə ehtiva edir. Nisbətən zəif bürokratik quruluşa sahib olan ölkələrdə inkişaf etmiş və yerli özünüidarəetmənin yüksək səviyyədə müstəqilliyi ilə səciyyələnir.

Anqlo-sakson bələdiyyə sisteminin əsas xüsusiyyətləri aşağıdakılardır:

- Yerli özünüidarəetmə orqanları dövlət hakimiyyətinə birbaşa tabe deyildir;
- Yerli özünüidarəetməyə dövlət hakimiyyəti ilə əlaqədə müstəqil institut kimi baxılır, bələdiyyələr onlara həvalə edilmiş səlahiyyətləri icra edən muxtar ərazi qurumları olaraq tanınır;
- Yerli özünüidarəetmənin subyektləri dövlət tərəfindən qanun çərçivəsində qapalı təyin olunur, yerli hakimiyyət bu və ya digər yerli əhəmiyyətli məsələləri müstəqil həll etmək qabiliyyətinə malikdir;
- Maliyyə təminatı yerli büdcə hesabına formalaşır;
- Yerli hakimiyyət orqanlarına dövlət nəzarəti məhkəmə orqanları tərəfindən həyata keçirilir. (8, s. 26)

Yerli özünüidarəetmə və dövlət hakimiyyəti funksiyalarının yerli səviyyədə birgə tətbiqi mümkün deyildir, lakin xüsusi dövlət idarələri də yaradılmır. Digər səciyyəvi cəhəti isə istənilən inzibati-ərazi vahidində mərkəzdən təyin olunan nümayəndənin olmamasıdır. Belə ki, yalnız seçilmiş ümumi səlahiyyətli orqanlar şuralar, vətəndaşlar və şuralar tərəfindən seçilən icraçı orqanlar bələdiyyə sədrləri və şuralar tərəfindən yaradılan komissiyalar mövcuddur.

Bundan əlavə, yerli əhali tərəfindən seçilən bələdiyyə şuralarından başqa bir sıra ölkələrdə məmurlar da seçilir. Məsələn ABŞ-ın İllinoys ştatının hər bir qraflığında yerli özünüidarə fəaliyyətini həyata keçirtmək üçün xəzinədar, katib və şərif seçilir. Ümumi səlahiyyətli kollegial orqanlar yaradılmır. Böyük Britaniyada icraedici funksiya komissiyalar, ABŞ-ın bir sıra şəhərlərində isə bələdiyyə sədrləri və müqavilə bağlanılmış menecerlər tərəfindən yerinə yetirilir. Böyük Britaniyada yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə nəzarəti Ətraf Mühitin Mühafizəsi üzrə Nazirlik həyata keçirir.

Anqlo-sakson modelində mərkəzi hökumət və bələdiyyələr arasında olan münasibətlər "İnter vires" (yəni öz səlahiyyətləri daxilində fəaliyyət) prinsipi ilə müəyyən edilir.

Bu prinsipə görə bələdiyyələr ancaq qanunda göstərilmiş qaydada hərəkət edə bilərlər. Əks halda yerli hakimiyyət orqanlarının aktları həddini aşma “Ultra vires” sayılır və məhkəmə yolu ilə baxılaraq qüvvədən düşmüş hesab olunur. (1, s. 41)

Yerli özünüidarəetmə orqanlarının geniş muxtariyyətə malik olması, birbaşa tabeçiliyin, daxili məsələlərin həllində mərkəzdən asılılığın olmaması, yerli icmaların bərabərliyi və digər xüsusiyyətlər yerli özünüidarəetmənin demokratik təşkilinin anqlo-sakson modelinin bir sıra Avropa ölkələrində bələdiyyə sisteminin formalaşmasında başlıca rola malik olduğunu göstərir.

**2. Yerli özünüidarəetmənin təşkilinin roman-german və ya fransız kontinental modeli**

Digər əsas model, əsasən, kontinental Avropa dövlətlərində Fransa, İspaniya, İtaliya, Belçikada geniş tətbiq olunur. Yerli özünüidarəetmənin fransız modeli kimi tanınan bu model həmçinin Latın Amerikası ölkələri, Yaxın Şərq və fransızdilli bir sıra Afrika dövlətlərində də bələdiyyə sisteminin əsasını təşkil edir.

Yerli özünüidarəetmənin klassik modelləri hesab olunan anqlo-sakson və fransız modeli arasındakı əsas fərq yerli özünüidarəetmə orqanları ilə dövlət hakimiyyəti orqanları arasındakı qarşılıqlı əlaqə və münasibətlərdə təzahür edir. Yerli özünüidarəetmənin fransız modeli üçün mərkəzi dövlət hakimiyyətinin yerli özünüidarəetmə orqanları üzərində birbaşa nəzarəti səciyyəvidir. Mərkəzi hakimiyyət tərəfindən müəyyən edilən nümayəndə ilə yanaşı, həmçinin əhali tərəfindən inzibati ərazi vahidi üzrə yerli özünüidarə fəaliyyətini yerinə yetirən şura da seçilir.

Kontinental Avropa modeli yerli özünüidarəetmənin dövlət nəzəriyyəsinə əsaslanır. Bu tip əsasən mərkəzləşmiş dövlət idarəçiliyinin həmişə böyük əhəmiyyət daşıdığı unitar dövlətlərdə formalaşmışdır. Bu modeli digərlərindən fərqləndirən əsas göstəricilər aşağıdakılardan ibarətdir:

- Yerli özünüidarəetmə ilə yuxarıdan rəhbərlik arasında tarazlıq seçki və təyinatlılıq üzərində qurulur; Təcrübədə yeni orqanların yaradılmasında təzahür edir. Yerli özünüidarəetmə orqanları dövlətin iyerarxiya sisteminə daxil olur.
- Yerli özünüidarəetmənin səlahiyyətlərinin rəsmi siyahısı qanunvericiliyə əsasən açıqdır; Lakin iqtisadi qurumların maraqlarına bələdiyyənin həddindən artıq müdaxiləsinin və vergi ödəyicilərinin vəsaitlərindən səmərəsiz istifadənin qarşısının alınması üçün səlahiyyətlərin məhdudlaşdırılması mümkündür.
- Bələdiyyə xidmətlərinin standartlaşdırılması, vətəndaşların həyat və yaşayış şəraitinin təmin edilməsi yerli icmaya öz ehtiyaclarını müstəqil şəkildə müəyyənləşdirməyə imkan verir;
- Maliyyə bərabərliyi bələdiyyələrin maliyyə muxtariyyətini ciddi şəkildə məhdudlaşdırır;
- Yerli özünüidarəetmənin muxtariyyəti bələdiyyələrin səlahiyyətlərinə aid bəzi məsələlərin həlli ilə bağlı razılığa gəlmələri, həmçinin yerlərdə bələdiyyə orqanlarının səlahiyyətlərinə nəzarət edən xüsusi dövlət qurumlarının və dövlət məmurlarının fəaliyyəti çərçivəsində məhdudlaşdırılır. (8, s. 27)

Yerli özünüidarəetmənin qeyd olunan modelinin təhlili Fransa təcrübəsində daha aydın ifadə olunur. Müasir dövrdə Fransada inzibati-ərazi quruluşu üç pillədən ibarətdir: departament, dairə kommuna və ən yüksək pilləni təşkil edən region. Region həm yerli özünüidarəetmə, həm də dövlət hakimiyyətinə aiddir. Regionda nəzarət funksiyasını mərkəz tərəfindən təyin edilən regional prefekt yerinə yetirir. Bundan əlavə, əhali tərəfindən seçilən şura və şura tərəfindən seçilən icra başçısı da fəaliyyət göstərir. Departamentdə inzibati əraziyə prefekt nəzarət edir, həmçinin əhali tərəfindən seçilmiş şura vardır. Dairədə isə inzibati əraziyə mərkəzdən təyin olunan sub-prefekt nəzarət edir.

Kommunada isə nəzarət funksiyasını əhali tərəfindən seçilən şura və şura tərəfindən seçilən mer icra edir, mərkəz tərəfindən nəzarətçi təyin edilmir.

1982-ci ildə Fransada "Yerli kollektivlərin hüquq və azadlıqları haqqında" qanun qəbul edildikdən sonra yerli özünüidarəetmə sisteminin əsas prinsipləri müəyyən edildi.

- Yerli özünüidarəetmənin əsas inzibati-ərazi vahidi kimi kommuna qəbul edilir, yerli əhali tərəfindən 6 il müddətinə şura seçilir;
- 18 yaşına çatmış hər bir Fransa vətəndaşının seçki hüququ təsbit olunur;
- Bələdiyyə şurasının səlahiyyətlərinə bələdiyyə sədrinin səlahiyyətinə aid olan məsələlər istisna olmaqla, bütün yerli əhəmiyyətli məsələlərin həlli daxil edilir;
- Bələdiyyə şurası ilk iclasda kommuna rəhbərini seçir. (2, s. 27)

Qeyd etmək lazımdır ki, yerli özünüidarəetmənin demokratik təşkilinin klassik modelləri hesab olunan anqlo-sakson və kontinental modelləri arasında fərqlilik prinsipial xarakter daşımır. Məhz qeyd olunan klassik modellər sonradan bir sıra yeni bələdiyyə sistemlərinin formalaşmasına təkan vermişdir.

### 3. Yerli özünüidarəetmənin təşkilinin "qarışıq" modelləri

Qarışıq modellər həm klassik modellərin bir sıra xüsusiyyətlərinə, həm də özlərinin xüsusi əlamətlərinə malikdir. Almaniya, Avstriya, Yaponiya və Şərqi Avropanın bir sıra ölkələrində yerli özünüidarəetmənin qarışıq modeli tətbiq olunur. İdeoloji olaraq Kontinental-Avropa modelinə əsaslansalar da, bu bələdiyyə sistemlərində yerli muxtariyyətin səviyyəsi yüksəkdir. (8, s. 28) Məsələn, Almaniyada burqomister və landratlar ikili statusa malikdirlər: yerli özünüidarəetmə orqanları və dövlət hakimiyyətinin aşağı icra səviyyəsi. Yerli əhali tərəfindən seçilən Yaponiya prefekturasının qubernatoru isə eyni zamanda yerli idarənin başçısı hesab olunaraq, dövlət hakimiyyətinə aid bir sıra funksiyaları yerinə yetirir. (7, s. 85)

***İkili xarakterli-qarışıq alman modeli***

Almaniyada yerli özünüidarəetmənin təşkili təcrübəsi xüsusi maraq kəsb edir. Alman bələdiyyə sistemi digər yerli özünüidarəetmə sistemləri ilə müqayisədə müstəqil bələdiyyə sistemi kimi tanınır və Avropada ən mükəmməl bələdiyyə sistemi hesab olunur.

Ölkə qanunvericiliyində yerli qurumların bələdiyyə və dövlət sisteminə bölünməsi prinsipi təsbit olunmuşdur. Lakin yerli özünüidarəetmə orqanları ilə dövlət hakimiyyəti orqanları arasında qarşılıqlı əlaqələrin təşkilində ciddi şəkildə müəyyənləşdirilmiş qaydalar mövcud deyildir. Alman modelinin əsas səciyyəvi xüsusiyyəti ondadır ki, federal orqanlar praktik olaraq yerli özünüidarəetmə orqanları ilə qarşılıqlı fəaliyyətdə iştirak etmirlər. Dövlət və bələdiyyə orqanları arasında qarşılıqlı əlaqə federal əyalət və yerli hakimiyyət orqanları arasında münasibət formasında təzahür edir. (9, s. 88)

Almaniyada bələdiyyə sisteminin əsasını yerli icmalar təşkil edir. Almaniyada mövcud olan icmaların statusunu aşağıdakı kimi səciyyələndirmək olar:

- İcmalar malik olduqları ərazidə, bir qayda olaraq özlərinin cavabdehliyi daxilində bütün inzibati funksiyaları, əgər bu funksiyalar digər idarəetmə strukturuna tapşırılmayıbsa, yerinə yetirirlər;
- İcmalar demək olar ki, öz fəaliyyətlərinin bütün sferalarını qanuna zidd olmayan nizamnamə vasitəsilə tənzimləyirlər;
- İcmalar qanuna müvafiq olaraq öz məsuliyyətləri daxilində yerli səviyyədə bütün məsələləri sərbəst həll etmək hüuqguna malikdirlər;

Almaniyada icmaların təşkilati quruluşu aşağıdakılardan təşkil olunmuşdur:

- Magistrat;
- Burqomister;
- Şimali alman tipi;
- Cənubi alman tipi.

***Magistrat***. Yerli özünüidarəetmənin təşkilinin magistrant formasında icra hakimiyyəti vəzifəsi kollegial orqan olan magistratlar tərəfindən yerinə yetirilir. Magistrat üzvləri icmanın nümayəndəli orqanı tərəfindən seçilir. Nümayəndəli orqan isə öz növbəsində magistrat üzvləri sırasından burqomister təyin edir.

***Burqomister.*** Yerli özünüidarəetmənin burqomister forması fransız kommunalarının təşkilati quruluşunu özündə əks etdirir. Burqomister icmanın nümayəndəli orqanının başçısı, eyni zamanda icra orqanın sədri sayılır. Burqomister şura üzvlərindən seçilir. Burqomister və şura bir-birlərinin qərarlarına etiraz etmək hüququna malikdirlər.

***Şimali Alman tipi.*** Yerli özünüidarəetmənin təşkilinin anqlo-sakson sisteminin bir sıra səciyyəvi əlamətlərinə malikdir. Nümayəndəli orqan ona sədrlik edən burqomister və ober-burqomisteri seçir. Bundan əlavə, yerli əhəmiyyətli məsələlərin həlli ilə məşğul olmaq üçün şəhər başçısı seçilir.

***Cənubi Alman tipi.*** Yerli özünüidarəetmənin cənubi Alman tipində nümayəndəli orqan vətəndaşlar tərəfindən ümumi seçki yolu ilə seçilən ober-burqomister tərəfindən idarə olunur. O, yerlərdə cari məsələləri həll etməklə yanaşı, həmçinin icmanın nümayəndəli orqanlarında sədr vəzifəsini də yerinə yetirir.

***Yerli özünüidarəetmənin İberiya modeli.*** Yerli özünüidarəetmə sistemi olaraq İspaniyada formalaşmışdır. Latın Amerikası, Portuqaliya, Argentina, Kolumbiya və digər ispan dilli ölkələrdə geniş yayılmışdır. Qarışıq modelin özünəməxsus əlaməti kimi kifayət qədər daha aşağı ərazi səviyyəsində muxtar yerli özünüidarəetmənin daha yüksək səviyyədə dövlət idarəçiliyi ilə kombinə edilməsini hesab etmək olar. (3, s. 19) Kontinental modeldən fərqli olaraq, yerlərdə nəzarət funksiyasını icra edən nümayəndə təyin edilmir, seçilir.

Yerli özünüidarəetmənin təşkilinin İberiya modeli aşağıdakı xüsusiyyətləri özündə ehtiva edir.

- Yerli özünüidarəetmənin bütün orqanları, həmçinin yerli şura seçki yolu ilə müəyyən edilir;
- Yerli özünüidarəetmə rəhbəri yerli şura, eyni zamanda vətəndaşların özləri tərəfindən seçilə bilər;
- Yerli özünüidarəetmənin seçilmiş rəhbəri həmçinin şuranın sədri kimi fəaliyyət göstərir, eyni zamanda hökumətin inzibati-ərazi vahidi təmsilçisi kimi təsdiqlənir.

Şura, əsasən, yerli inkişaf proqramlarını və yerli büdcəni təsdiq edir. Başlıca idarəetmə funksiyasını seçilmiş vəzifəli şəxs yerinə yetirir. O həm şura tərəfindən qəbul edilmiş qərarları, həm də mərkəzi hakimiyyət tərəfindən həvalə olunmuş səlahiyyətləri icra edir, ictimai qaydanı təmin edir. (3, s. 48)

***Yerli özünüidarəetmənin Şimali Avropa modeli.*** Yerli özünüidarənin təşkilinin bu modeli anqlo-sakson modelinin bir sıra səciyyəvi xüsusiyyətlərini özündə cəmləşdirir. Əsasən federativ dövlət quruluşuna əsaslanan ölkələrdə tətbiq olunur. İslandiya, Norveç, Finlandiya, Danimarka kimi ölkələrdə geniş yayılmışdır. Şimali Avropa modelini anqlo-sakson modelindən fərqləndirən cəhət yerli özünüidarəetmənin hüquqi statusu ilə əlaqədardır.

Yerli özünüidarəetmənin Şimali Avropa modelinin tətbiq olunduğu ölkələr üçün yerli özünüidarəetmənin təşkilinin ikipilləli modeli xarakterikdir. Bələdiyyə sistemi kommuna və qraflıqdan təşkil olunmuşdur. Finlandiyada isə yalnız kommuna fəaliyyət göstərir.

Beləliklə, səlahiyyətlərin formalaşdırılması və bölüşdürülməsi proseduruna əsasən, yerli özünüidarə orqanlarının formalaşmasının iki əsas modeli ayırd edilə bilər: parlament və prezident. Parlament modeli yerli özünüidarəetmə rəhbərinin məhz yerli özünüidarəetmə orqanının öz üzvlərindən seçilməsi ilə xarakterizə olunur. Prezident modelində isə yerli özünüidarəetmə rəhbəri, eləcə də digər vəzifəli şəxslər yerli əhali tərəfindən seçilir. (7, s. 85)

**Nəticə**

Yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin təşkili, onların dövlət hakimiyyəti orqanları ilə qarşılıqlı əlaqəsi ilk növbədə tarixi dövlətçilik ənənələrindən, siyasi rejim, ölkədə hakimiyyətin mərkəzləşmə səviyyəsindən və digər amillərdən asılı olaraq formalaşır.

Demokratik inkişaf istiqamətinə malik olan bütün dövlətlər üçün yerli özünüidarənin təşkilinin qeyd olunan modelləri ilə yaxınlaşma meyli səciyyəvidir. Belə ki, bir tərəfdən, mərkəzləşdirilmiş idarəetmənin gücləndirilməsi, digər tərəfdən isə, yerli özünüidarəetmə orqanlarının muxtariyyətinin təmin edilməsi, yerli məsələlərin həllində onların təsir və rolunun artırılması mühüm əhəmiyyət kəsb edir.

Müasir dövrdə inkişaf etmiş bütün ölkələrdə bələdiyyə sistemi dövlət idarəetmə sisteminin əsası və dövlətin hüquq mexanizminin bir hissəsi olmaqla konstitusiyada təsbit olunmuşdur.

## ƏDƏBİYYAT


1. İbrahimov İ.A. Bələdiyyə idarəçiliyi. Dərslik. Bakı: Təbib, 2018, 384 s.
2. İbrahimov İ.A. Bələdiyyə idarəçiliyinin beynəlxalq təcrübəsi. Bakı: Ziya, 2014, 336 s.
3. Səlimzadə M.İ., Xəlilov Q.R. Yerli özünüidarəetmə: anlayış, təcrübə, əməkdaşlıq hüquqi əsaslar. Bakı, 2010, 132 s.
4. Акмалова А.А. Модели местного самоуправления. М.: Прометей, 2001, 168 с.
5. Акмалова А.А. Особенности местного самоуправления в Российской Федерации. Теория вопроса и опыт правового регулирования. М.: Прометей, 2002, 356 с.
6. Федерации. Теория вопроса и опыт правового регулирования. М.: Прометей, 2002, 356 с.
7. Горный М.Б. Муниципальная политика и местное самоуправление в России. Часть II. Местное самоуправление. Учебное пособие. Санкт-Петербург, 2011, 196 с.
8. Овчинников И.И. Муниципальное право: учебник и практикум для Академического бакалавриата. М., 2017, 362 с.
9. Реброва Н.М. Муниципальное право Российской Федерации: учебное пособие. Новочеркасск: ЮРГТУ, 2011, 254 с.
10. Чуева А.С., Курдюк П.М., Иваненко И.Н. Опыт организации местного самоуправления в зарубежных странах: учебное пособие для магистров. Краснодар, 2013, 94 с.



***Резюме***

***Айсель Аллахвердиева***

***Модели формирования местного самоуправления. Мировой опыт***

В статье анализируются различные модели (системы) демократической организации местного самоуправления. Рассмотрены существующие муниципальные системы в системах управления разных стран, изучены их общие и особенности. Разделение ответственности и полномочий, сформированное в муниципальных системах зарубежных стран, основано на принципе их сравнительного анализа.

Статья посвящена исследованию классических моделей систем местного самоуправления. Рассмотрены муниципальные системы, составляющие основу систем местного самоуправления отдельных стран, их характеристики, взаимодействие и отношения с государственными и другими органами власти. Англосаксонская и Французская Континентальная модели классической муниципальной системы анализируются с учетом специфики административно-территориального устройства, отраженного в муниципальной системе стран, к которым они применяются.

Также отмечен ряд подходов к исследованию систем организации местного самоуправления. Эти подходы включают взаимодействие систем местного самоуправления с государством, их структурный анализ, определение сфер деятельности, правовой анализ и др. занимает ключевое место.

Административно-территориальная структура систем местного самоуправления формируется в зависимости от уровня развития существующего взаимодействия органов местного самоуправления и государственной власти.

В то время как в некоторых муниципальных системах преобладает прямое подчинение, высокий уровень развития национальной автономии типичен для муниципальных систем других стран. В результате в мировой практике различают территориальные образования с разным административным устройством.

В статье также анализируются смешанные системы местного самоуправления, сочетающие в себе ряд общих черт классических муниципальных систем. Смешанные муниципальные системы, а также независимые муниципальные системы рассматриваются во многих странах мира.

Следует отметить, что при характеристике муниципальных систем, играющих важную роль в системе местного самоуправления мира, важно учитывать исторические традиции, особенности административно-территориального деления, национально-психологический и ментальный уровень населения , защита прав и безопасности граждан и другие факторы.

***Ключевые слова:*** *классические модели местного самоуправления, смешанные муниципальные системы, административно-территориальное устройство*

***Summary***

***Aysel Allakhverdiyeva***

***Models of Formation of Local Self-Government. World Experience***

The article analyzes various models (systems) of the democratic organization of local self-government. The existing municipal systems in the management systems of different countries are considered, their generalities and features are studied. The division of responsibility and authority formed in the municipal systems of foreign countries is based on the principle of their comparative analysis.

The article is devoted to the study of classical models of local self-government systems. Municipal systems, which form the basis of local self-government systems of individual countries, their characteristics, interactions and relations with state and other authorities are considered. The administrative-territorial structure of the system of local self-government is formed depending on the level of development of the existing interaction of the bodies of local self-government and state power. While direct subordination is predominant in some municipal systems, the high level of development of national autonomy is typical for municipal systems in other countries. As a result, in world practice territorial structures with different administrative structures are distinguished. The Anglo-Saxon and French Continental models of the classical municipal system are analyzed taking into account the specific features of the administrative-territorial structure reflected in the municipal system of the countries to which they are applied.

A number of approaches to the study of local self-government organization systems are also noted. These approaches include the interaction of local self-government systems with public authorities, their structural analysis, identification of areas of activity, legal analysis, etc. occupies a key place.

The article also analyzes mixed local self-government systems, which combine a number of different and common features of classical municipal systems. Mixed municipal systems applied in the management system in a number of countries of the world, as well as independent municipal systems are considered.

It should be noted that in characterizing the municipal systems that play an important role in the local government system of the world, it is important to take into account historical traditions, features of administrative-territorial division, national-psychological and mental level of the population, protection of citizens' rights and safety and other factors.

***Keywords:*** *classical models of local self-government, mixed municipal systems, administrative-territorial structure*

Redaksiya heyətinin üzvü s.e.ü.f.d. Səyavuş Kamran oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 94**

# MÜASİR ARXEOLOGİYA ELMİNİN İNKİŞAFI İCTİMAİ-İQTİSADİ FORMADA TƏHLİL OBYEKTİNƏ ÇEVRİLMƏKDƏDİR

**Sahib VƏLİYEV** *

*Məqalə redaksiyaya daxil olmuşdur: 18 iyul 2020; çapa qəbul edilmişdir: 3 avqust 2020; online-da çap edilmişdir:31 mart 2021.*

*Received: 18th of July, 2020; accepted: 3rd of August, 2020; published online: 15th of March, 2021.*

***Açar sözlər:*** *mənəviyyat, mədəniyyət, milli-mənəvi dəyərlər, ideologiya, tarix və arxeologiya*

## Giriş

Arxeologiya elminin formalaşması ictimai-iqtisadi formada təhlil obyektinə çevrilsə də gündəmə gətirilməmişdir. Bu dediklərimiz tarixi faktlarda öz əksini tapmasına baxmayaraq, bu günə kimi qaranlıq bir məsələ kimi öz aktuallığını itirmir. Son zamanların arxeoloji tədqiqatlarına və qazıntılarına əsaslanıb söylədiklərimiz fikirləri onların apardıqları qazıntıların nəticəsində də görə bilərik.

Arxeoloji tədqiqat sahələrinin genişləndirilməsi bugünkü günün tələbləri səviyyəsinə cavab verməsə də arxeoloji tədqiqatlara, axtarışlara və aparılan qazıntılara dövlət qayğısı gündəmdədir. Tarixi abidələrin, mədəni dəyərlərin və mənəvi sərvətlərin zənginliyi Azərbaycan ərazisində arxeoloji qazıntılar zamanı əldə olunan tapıntıların əsas meyarını təşkil edir. (1, s. 331-332)

Arxeoloji tədqiqatlar əsasında elmi araşdırmalar bir daha sübut edir ki, Azərbaycan ərazisinin tarixi qədimliyi yuxarıda qeyd etdiyimiz kimi müxtəlif proqramlarda, monoqrafiyalarda, dərsliklərdə və dərs vəsaitlərində kifayət qədər əhatəli verilməsə də arxeoloji qazıntılar zamanı əldə olunan maddi və mədəniyyət nümunələrindən görünür ki, Azərbaycan torpaqları arxeoloji baxımından kifayət qədər təhlil obyektinə çevrilməyib. Bu dediklərimizə əyani sübut olaraq ölkəmizin ərazisində və qədim Azərbaycan torpaqlarının bütün diyarlarında yeni-yeni aşkar olunmuş arxeoloji tədqiqat obyektləri hələ də tariximizin qaranlıq səhifələrini özündə gizlədir. (2, s. 494-495)

## Müasir arxeologiya elminin inkişafı

Müasir dövrdə tarixi keçmişimizə bunun kimi də arxeoloji tədqiqata, axtarışa və arxeoloji qazıntıya olan maraq qanunauyğun olaraq getdikcə daha da artır.

Tarixi keçmişi dəyişmək mümkün olduğunu hər kəs anlasa da bəzən qara qüvvələr vardır ki, onlar tariximizi saxtalaşdırıb öz adlarına çıxırlar. Qədim tarixə malik olan yaşayış yerlərindən tutdun, qazıntılar nəticəsində əldə olunan arxofaktlar da içərisində olmaqla milli musiqimizə və incəsənətimizə kimi. (3, s. 543)

Azərbaycan ərazisinin hansı tərəfindən asılı olmayaraq, o yerlərin tarixini vərəqlədikcə siz o yerlərdə aparılmış arxeoloji və qazıntıların ən qədim tarixi mənbəyinə rast gəlmiş olacaqsınız. Arxeoloqların gərgin əməyi sayəsində əldə edilmiş tapıntının və maddi-mədəniyyət qalıqlarının nümunələri ilə tanış oluruq.

* tarix üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
*e-mail: s.valiyev70@gmail.com*

Aparılan arxeoloji tədqiqatlar nəticəsində tariximiz və elmimiz üçün həqiqətən mühüm əhəmiyyət kəsb edən çox maraqlı tapıntı əldə olunmuşdur. Arxeoloji tədqiqatlar və qazıntılar zamanı əldə edilən bütün eksponatlar haqqında dövrü hesabatlar və tapıntılar jurnallarda və kitablarda nəşr olunmuşdur. (5, s. 374)

Tarixi tapıntılarla zəngin olan Azərbaycan torpaqlarında arxeoloji tədqiqatlar və qazıntılar zamanı əldə olunan maddi mədəniyyət nümunələri və qalıqları onu sübut etməyə çalışır ki, həqiqətən də, bu yerlər mənəvi zənginliyinə görə ən qədim tarixi özündə əks etdirir. Üstündə gəzdiyimiz ana torpağın bizim üçün qoynunda gizlətdiyi tarixin bir parçasını tapıb, qoruyub gələcək nəslə ötürməkdən ötrü qanımız tökülsə də, vətənimizi, onun kimi də mədəniyyətimizi, mənəvi dəyərlərimizi, qalalarımızı, qalaçalarımızı, ulu babalarımızın, əcdadlarımızın qəbirlərini, qədim yaşayış məskənlərini, yeraltı və yerüstü sərvətlərimizi talançılardan və yadelli işğalçılardan bu günə kimi qoruyub saxlamağımız üçün mülahizələrimizi davam etdiririk. Çünki Ümummilli Lider Heydər Əliyevin təbirincə desək, Azərbaycan təkcə müstəqil bir dövlət, zəngin təbii sərvətlərə malik ölkə kimi deyil, zəngin tarixi mədəniyyəti haqqında bildiyimiz qədər, bilmədiklərimiz də vardır ki, hələ onların nə tədqiqatları aparılıb, nə də ki, qazıntıları. Məhz buna görə də bugünkü məqsədimiz tarixi araşdırmalarla, arxeoloji araşdırmalarla, arxeoloji qazıntılarla yetərincə öyrənilməyən tariximizi, bizlərə gizli qalan mədəni irsimizi üzə çıxarmaq, gələcək nəsillərə ötürməkdən ibarətdir. Tariximizin və mədəni irsimizin təbliği olduqca qiymətli olan aparılmış arxeoloji tədqiqatlarda və arxeoloji qazıntılarda özünü əks etdirir. Həmin mənbələrin varlığı bu günə qədər əldə olunan tapıntıların içərisində də özünü sübut edir. (12, s. 164-165; 13, s. 73)

Tariximizin dəyişdirilməsinin mümkün olmadığını dərk edib onu olduğu kimi, mənfi və müsbət tərəfləri, əldə etdiyimiz nailiyyətləri və uğursuzluqları olduğu kimi qəbul etmək lazımdır. Çünki insanlardan ölkənin keçmişi deyil, bugünkü günü və gələcəyi asılıdır. Gələcəkdə düşünülmüş və düzgün istiqamət götürmək, ölkənin inkişafını lazımı səviyyəyə qaldırmaq üçün keçmiş tarixi təcrübəyə nəzər salıb, hadisələri ciddi və obyektiv təhlil etmək, ondan istifadə etmək zərurəti yaranır. Bu baxımdan qədim tarixə malik olan Azərbaycan ərazisində arxeoloji qazıntıların da öz əhəmiyyətini vurğulasaq, yerinə düşmüş olardı. Maddi mədəniyyət nümunələrini özündə birləşdirən məmləkətimizin şərqindən cənubuna, qərbindən şimalına qədər uzanan ərazilərdəki qədimliyi özündə birləşdirən ata-baba yurdumuzun hər qarışının özünəməxsus varlığının qaçılmaz olduğu bu ölkəni tanıyanların hər birinə məlumdur.

Azərbaycan xalqının tarixində yadda qalan məqamların əksəriyyəti demək olar ki, ən qədim tarixi yaşayış məskənləri olub. Qədimliyi ilə dünyada tanınan yaşayış yerlərinin varlığı bu günlərdə də tədqiqat obyektinə çevrilərək yenidən arxeoloqlarımız tərəfindən araşdırılmaqdadır. Qədim tarixə malik olan qədim Azərbaycan ərazilərində aparılmış arxeoloji qazıntılar ona əsas verir ki, dünyada tanınmış ağıllı insanların bir qismi də həmin ərazilərdə yaşamaqları məlum olmuşdur. Dünya siyasətində və beynəlxalq əlaqələrdə mühüm rol oynamış Azərbaycan adlı bir diyarın, bir məkanın yaşayış yerlərindən tapılan tapıntılar dünya əhəmiyyətli olması, bunun kimi də oxşar mədəniyyətlərin olması, yaşayış yerlərindən tapılmış maddi mədəniyyət nümunələrinin qalıqları və oxşarlıqları, həmçinin də yer adları hələ də öz varlığını qoruyub saxlamaqdadır. (7, s. 15-16)

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, qədim yaşayış məskənlərimizin ayrı-ayrı aspektləri bir çox xarici, sovet və müasir arxeoloqlarımız tərəfindən kifayət qədər tədqiq olunmuşdur. Lakin bu tədqiqatçılar bəzi yanlışlığa yol verərək apardıqları tədqiqatları, axtarışları və qazıntıları öz mənafeləri və yaxud bir-birinin bəhsinə uyğun olaraq istədikləri formada tədqiqat obyektinə çevirib tarixin yaddaşında qalmaq üçün öz düşüncələrini həyata keçirməyə nail olmuşlar. Bunlara bənzər hadisələr haqqında istənilən qədər misallar gətirmək olar arxeoloji tədqiqatlar, axtarışlar və qazıntılar aparılan yerlərdən. Hətta

onu da qeyd etmək olar ki, buna bənzər faktları Sovet hakimiyyətinin illərinə düşən zamanın içərisində daha çox görmək olar. (8)

**Azərbaycan ərazisində son onilliklərdə aparılan arxeoloji tədqiqatlar və qazıntılar**

1999-2005-ci illərdən başlayaraq davam etdirilən arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş maddi-mədəniyyət nümunələri bu gün də öz aktuallığını qoruyub saxlanmaqdadır. Hələ də davam etdirilən arxeoloji tədqiqatlar, axtarışlar və qazıntılar öz bəhrəsini verməkdədir. Məsələn, 1983-çü ildən 1990-ci ilə qədər, 1990-ci ildən tədqiqatı, axtarışı və qazıntısı yarımçıq qalıb yenidən, yəni 2005-ci ildən başlayaraq davamı Qəbələ şəhərinin ətrafında, Cəlilabad rayonunun Şatırlı, Şəmkir rayonunun Qaracəmirli kəndlərinin və Quba rayonunun Qudqalçay ərazisindəki davam etdirilən arxeoloji tədqiqatlar, axtarışlar və qazıntılar bu dediklərimizə misaldır.

Adlarını sadaladığımız ərazilərdə arxeoloji qazıntılar zamanı əldə olunan maddi mədəniyyət nümunələri Azərbaycan torpaqlarının zənginliyini və ən qədim tarixi bir məkanın olduğunu bir daha sübut etmişdir. Arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş qədim tarixə malik olan yeraltı yaşayış məskənləri də aşkar edilmişdir. Arxeoloji qazıntılar zamanı əldə olunan tapıntıların oxşarlığı bir-birindən fərqlənərək oradakı mədəniyyət nümunələriylə bərabər yaşayış tərzlərinin və adət-ənənələrinin fərqil olduğu da müəyyən edilmişdir.

Qeyd etmək lazımdır ki, qədim dövr cəmiyyəti insanın maddi tələbatlarının təminatının artması ilə insan əməyinin nəticələrini, o cümlədən istehsal vasitələrini və ya bütöv texniki-fiziki obyektlərinin (yaşayış yerlərinin və yaşayış məskənlərinin) estetik formalaşdırılmasına təşəbbüslər artırdı. Həmçinin yaşayış yerlərinin formaları bir-birindən fərqləndirilirdi. Arxeoloji qazıntılar nəticəsində üzə çıxan yaşayış yerlərinin fərqliliyi oradan tapılan maddi-mədəniyyət qalıqlarının bir-birindən həm fərqlənmələri, həm də eynilik təşkil etmələri ilə seçilirdi. Bu baxımdan da arxeologiya iqtisadi təşkilatda, iqtisadi quruluşda istehsal vasitələrinin yaxşılaşdırılmasında dəyişiklikləri tədqiq edə və bu dəyişiklikləri xronoloji qaydaya sala bilirdi. Elə bu yerdə onu da qeyd edə bilərik ki, bəşəriyyətin real tarixi və onun inkişafı ictimai quruluşun müəyyən edilməsində istehsalat vasitələrinin böyük əhəmiyyətini göstərir. Ona görə də arxeologiya elminin formalaşması qazıntılar zamanı əldə olunan və tapılan maddi-mədəniyyət nümunələrinin tarixi ilə ölçülüb gələcək nəslin yaddaşına ötürülür. Bütün yerli inkişaf prosesini daş dövrünün əsası kimi götürsək də daş dövrünün mərhələlərinin inkişafını da əsas mənbə kimi götürüb təkmilləşməni də qeyd edə bilərik. Burada üzə çıxan bölgülər haqqında da istənilən qədər fikirlər söyləmək olar ki, ticarətin və əmək bölgüsünün daha da inkişaf mərhələləri təkmilləşdirdi. Yüksək ictimai quruluşa cavab verən zaman tunc və dəmir dövrünə bölünürdü. Bunların nəticəsi olaraq köçürülmə, yaşayış formalarının və məskunlaşmalar da fərqli cəhətlərlə özünü göstərirdi. Yaşayış yerlərinin artımında dəyişilkliklərə əsasən insan cəmiyyətinin inkişafını yuxarıdakı söylədiklərimizə görə tədqiq etmək olar. Arxeologiya elminin formalaşması ictimai quruluşda və iqtisadiyyatda əsas dəyişiklikləri aşkar edir. Bütün bu dəyişikliklər tarixi inkişafın elementlərindəndir. (9, s. 96-97; 12, s. 46-47; 13, s. 149)

Onu da qeyd edə bilərik ki, müharibədən sonrakı illərdə qədim Azərbaycan ərazisindəki yaşayış düşərgələrində tipoloji layihələndirmə üçün yeni metodologiya olan ardıcıl metodların aparılması üçün şəraitlər yaradılmışdır. Bu və ya digər silsiləyə daxil olan arxeoloji tədqiqatın, axtarışın və arxeoloji qazıntıların elementlərinin əhəmiyyəti oradan, yəni tədqiqat və qazıntı aparılan yerlərdən tapılan maddi mədəniyyət nümunələrinin və qalıqlarının nə dərəcədə birləşdirilməsi və oxşarlıq əlaqələrinin yaxınlığı onların mərkəzləşdirilmiş istehsal problemlərinin aradan qaldırılmasına kömək etmişdir.

Əldə olunan maddi mədəniyyət nümunələrinin içərisində diqqəti çəkənlərdən biri də qədim tarixə malik olan Respublikamızın ərazisində aparılan qazıntılar zamanı abidələrin, bunun kimi də yaşayış yerlərindən göründüyü kimi əkinçiliyə aid xeyli arxeoloji materialların əldə olmasını da qeyd edə bilərik. Əkinçilik təsərrüfatının əsas arxeoloji göstəriciləri, söz yox ki, başlıca olaraq, qazıntılardan tapılan əkinçilik alətləri, müxtəlif avadanlıq, taxıl və digər mədəni bitki qalıqlarıdır. Doğrudur, əkinçilik alətləri və təsərrüfat avadanlığı qazıntılar zamanı tək-tək çox hallarda sınıq, əzik və paslanmış vəziyyətdə tapılır. Lakin bu tapıntıların ilkin formasını etnoqrafik materiallar əsasında bərpa etmək mümkündür. (6, s. 98-99; 13, s. 301)

Qədim tarixə malik olan Azərbaycan ərazisinin istər cənubundan qərbinə, istərsə də şimalından şərqinə olan qədim yaşayış məskənlərində xarabalığa çevrilmiş ərazilərdə arxeoloji tədqiqat və axtarış məqsədi ilə aparılan kəşfiyyat xarakterli ilkin araşdırmalar haqqında da fikir söyləyə bilərik. Məsələn, bu yerdə Qəbələ, Bərdə, Beyləqan, Gəncə, Tovuz, Şəmkir, Gədəbəy və son zamanlar Quba rayonunun ərazisindəki Qudyalçayın ərazisindən tapılan məzarlığı da dediklərimiz fikirə əlavə edə bilərik.

**Nəticə**

Bu yerdə belə bir qənaətə gələ bilərik ki, ikinci dünya müharibəsindən sonra dövrlərə aid olan tapıntılar və qazıntılar zamanı əldə olunan maddi mədəniyyət qalıqları və nümunələri bir sıra digər oxşarlıq əlaqələrini tərənnüm etdirsə də əhəmiyyətli məqamların qaçılmaz olduğunun şahidi olmuşuq. Elə burada onu da qeyd edək ki, tapılmış tapıntıların qədim tarixə aid olmasını yaxın zamanlarda tapılmış maddi dəyərlərimizlə müqayisə edəndə əldə olunan maddi mədəniyyət qalıqlarının müasir üsulla həll edilməsi yolu ilə texnoloji proseslər arasında açıq müşahidə edilmişdir.

Azərbaycanın qədim tarixində bəşəriyyətin son dərəcə artması ilə müqayisə olan mədəni və iqtisadi inkişafının bir çox mərhələsini müşahidə etmək olar. Buna misal olaraq arxeoloji tapıntılar adlanan birinci mərhələ paleolitdən neolitə keçən dövrə aid olunur, sonra isə ibtidai icma cəmiyyətinin inkişafı zamanı vəhşilikdən quldarlıq quruluşuna keçiddə neolitə aid olunur. Sonrakı mərhələ neolitdən tunc və dəmir keçid dövrünə aid edilir, bu mərhələdə quldarlıq dövründən başlanğıc olan inkişafı isə bütün sinifli cəmiyyətlərdə davam edir. (10, s. 11-12)

Tarixi Azərbaycanın hətta ən geridə qalmış sahələrində belə yaşayan tayfaların yaxın keçmişdə olan mədəni neolit mərhələsi minilliklər ondan əvvəlki həqiqi neolitə cavab vermirdi. Bu da ona görə baş verirdi ki, hər tayfa və hər nəsil, hər bir şəxs bir qədər inkişaf edir və cüzi səviyyədə olsa da, qonşu digər qəbilələrə təsir göstərən daha inkişaf etmiş mədəniyyətlərlə təmasda olur. Yalnız istisna hallarda belə olur ki, inkişafın ən aşağı səviyyəsində olan (yazısı və ənənəvi mədəniyyətini ötürək imkanı olmayan) nəsil və ya qəbilə öz mədəni xüsusiyyətlərini itirirdi. (11, s. 49-50)

Arxeoloji tədqiqatlar və qazıntılar aparılan ərazilərin forması, yerləşdiyi məkan, onun kimi də ərazilərin insan psixologiyasına təsir edən amillər bu mühitdə hökm sürən yaradıcılıq havası gələcək gənc arxeoloqlarımızın formalaşmasına öz təsirini göstərməsinə əminik.

Arxeoloji tədqiqatlara və arxeoloji qazıntılara əsaslanıb onu da qeyd edə bilərik ki, əldə olunan maddi mədəniyyət qalıqlarının formalarına hazır məhsulların sadə şəkildə mənimsənilməsinə rast gəlinsə də insanın tarixi mərhələsinin keçid prosesi izlənir. Burada qeyri-peşəkar şəkildə hazırlanmış ayrı-ayrı arxeoloji mədəniyyətlərin xarakteristikası verilir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının "Mədəniyyət və Turizm qanunvericiliyi toplusu". İki cilddə, I c., Bakı: Avrasiya Press, 2011, 522 s.
2. Azərbaycan tarixi. Yeddi cilddə, II c., Bakı: Elm, 2007. 608 s.
3. Azərbaycan arxeologiyası. Altı cilddə, VI c. , Bakı: Şərq-Qərb, 2008, 632 s.
4. Azərbaycan etnoqrafiyası. I c., Bakı: Şərq-Qərb, 2007, 543 s.
5. Azərbaycan etnoqrafiyası. III c., Bakı: Şərq-Qərb, 2007, 567 s.
6. Əliməmmədov A. İslamaqədərki inamların öyrənilməsində qayaüstü təsvirlərin roluna dair // Milli Azərbaycan Tarixi Muzeyi, Bakı: Ziya, 2013, s. 34-39.
7. Cəfərov Ə.Q. Azərbaycan qədim insan məskənidir. Azərbaycan abidələri. Bakı: Azərnəşr, 1989, 157 s.
8. Cəbiyev Q, Azərbaycan arxeologiyası: uğurlar, problemlər, vəzifələr // Xalq qəzeti, 2018, 5 oktyabr.
9. İsmayılzadə Q., İbrahimli B. Qızılburun nekropolu. Bakı: Elm və təhsil, 2013, 120 s.
10. Kərimov Ə.S. Azərbaycan milli mentaliteti və müasirlik // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. III buraxılış, Bakı: "Mütərcim" TM NPM mətbəəsi. 2006, s. 26-32.
11. Kərimov V.İ. Azərbaycanın qədim məskənləri. Bakı: Şərq-Qərb, 2013. 292 s.
12. Məmmədova G.H, Hacıyeva S.X. Qədim və erkən orta əsrlər dövründə Azərbaycan memarlığı. Bakı: Şərq-Qərb, 2013. 272 s.
13. Nağıyev N.H., Hüseynov F.M. Azərbaycan Respublikasının müasir dövr memarlıq tarixi. V c., Bakı: Şərq-Qərb, 2013. 352 s.

***Резюме***

***Сахиб Велиев***

***Развитие современной археологической науки становится объектом анализа в социально-экономической форме***

Археологические памятники, предметы материальной культуры, историко-архитектурные находки, полученные в ходе археологических исследований и раскопок, дают основание утверждать, что азербайджанский народ имеет богатую историю, в том числе, в области культуры. Развитие идеологии современного азербайджанства сегодня отражается в таких областях науки как археология, история и т.д.

Современные исторические и археологические исследования, также архофакты порою не однозначно объяснются, в результате чего возникают объективные трудности в становлении этой теории. Как правило, в исследовании этого вопроса археология и археологические памятники играют важную роль. В результате изучений археологических памятников древности возрастает интерес к образцам материальной культуры Азербайджана.

Сегодня, в начале XXI века, одной из важных проблем является правильное понимание развития нашей истории.

***Ключевые слова:*** *духовность, культура, национально-нравственные ценности, идеология, история и археология*

***Summary***

***Sahib Veliyev***

***The Development of Modern Archeological Science is Becoming an Object of Analysis in the Socio-Economic Form***

Material evidence, archeological monuments, material cultural treasures, historical-architectural findings obtained during archeological researches and excavations during the independence period give gro-

unds to say that the Azerbaijani people were one of the most advanced nations in the field of culture. The preparation of the ideology of modern Azerbaijanism on a scientific basis is reflected in the fields of science today, such as archeology, history, the development of our independence, spirituality and culture.

In modern times the history and theory of the nature, structure of various scientific groups and some scientists explained by objective difficulties in the development of this theory of the origin of the object in the information warfare arxofaktların as archaeological researches of it, not provoked. The formation and development of the study of history, but also gave evidence for the study of the history of Azerbaijan and archaeological sites in the study of this issue, as a rule, archeology to writing the article came after indispensable. Here, the rich material culture examples of Azerbaijan ancient cultural and archaeological monuments caused the increase in interest and main approach prevails.

Today, at the beginning of the XXI century, archaeological excavations, our culture, our history is one very important to understand the development of thought and purpose as tədqaqatların of the problem.

The findings of the study of the historical role and importance in the development of the society, the characteristics of modern history of our modern culture samples found in archeological excavations, we need to clarify, to determine. XX century Azerbaijani history, archeology and culture and rich period has been particularly effective in this regard.

It is the particular development of the archaeological science of the TWENTIETH century, archaeological excavations and archaeological studies of being remembered as a history of rapid development. During this period, towers, castles, fortresses, tombs of rapid growth, industry, transport vehicles, oral and written sources about finding new ideas, new settlements, community centers, surface and underground residential camps and settlements of excavations and archaeological researches in many countries the samples of material culture, as it is, of qalaçaların of them achieved söylənili of.

***Keywords:*** *spirituality, culture, national-moral values, ideology, history and archeology.*

Redaksiya heyətinin üzvü s.e.ü.f.d.Qasımov Səyavuş Kamran oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 327**

## TÜRKİYƏ CÜMHURİYYƏTİNİN YENİ PREZİDENTLİK SİSTEMİNİN XARİCİ SİYASƏTƏ TƏSİRİ

**Nazim BAYRAMLI** *

*Məqalə redaksiyaya daxil olmuşdur: 16 aprel 2020; çapa qəbul edilmişdir: 7 may 2020; online-da çap edilmişdir:31 mart 2021.*

*Received: 16th of April, 2020; accepted: 7th of May, 2020; published online:15th of March, 2021.*

***Açar sözlər:*** *Türkiyə cümhuriyyəti, prezidentlik sistemi, xarici siyasət, daxili siyasət, idarəetmə sistemi*

### Giriş

XXI əsrin ikinci onilliyinin sonlarında Türkiyə yeni ambisiyalar və çətinliklərlə üzləşdi. İndiki prezident Rəcəb Tayyib Ərdoğan on beş ildir gücünü sistematik olaraq gücləndirərək, ölkəni mövcud iqtisadi, resurs və xarici məhdudiyyətlərin imkan verdiyi dərəcədə idarə edir. Siyasi mübarizənin nəticələrinin heç vaxt sona çatma ehtimalı olmasa da, yaxın illərdə, göründüyü kimi, türk tarixində öz dövrünü formalaşdıracaq R.Ərdoğan gündəmlə hakimiyyətə gələrək, Türkiyənin qlobal lider mövqeyini təmin etmək üçün iqtisadi və texnoloji tərəqqinin lazımlığını hər zaman önə çəkir. Son on ildə Türkiyə prezidentin əlində gücün ardıcıl birləşdirilməsinə və ictimai həyatda düşünülmüş dəyişikliklərə şahid olduq.

Türkiyə xarici siyasəti, Cümhuriyyətin qurulmasından bəri bəzi təməl prinsiplər çərçivəsində formalaşmışdır. Qərbçilik kimi bu əsas prinsiplər zaman-zaman dəyişməyə meylli olsa da, ümumiyyətlə, Türkiyə xarici siyasətindəki əhəmiyyətini qoruyub saxlamışdır. Son illərin, xüsusən AK Partiya dövrünün xarici siyasətindən bəhs edən tədqiqatlar, xarici siyasəti təsir edən bir çox amillərlə Türkiyənin xarici siyasətindəki dəyişikliklərdən bəhs edir. Bu elementləri mədəni diplomatiya, normalar, insan hüquqları, paradiqmalar, enerji, mətbuat, NATO, Avropa, Afrika və İranla əlaqələr kimi sıralaya bilərik.

### Türkiyə Cümhuriyyətində yeni prezidentlik sisteminə keçid

Türkiyə Cümhuriyyətindəki hökumət sistemi ilə bağlı müzakirələr uzun illərdir, xüsusilə böhran dövründə də davam etmişdir. İqtisadi və ya siyasi depressiyanın rejim dəyişikliyi ilə aradan qaldırıla biləcəyinə dair araşdırmalar xüsusilə prezident sisteminə keçid üzərində qurulmuşdur. Mövcud idarəetmə sistemi parlament sistemindən bir qədər kənara çıxsa da, bu rejimin təbiətinə və nisbətən uzun tarixinə görə əsasən parlament sistemi adlandırılır.

İnsanlar tərəfindən birbaşa seçilən və prezidentliyin bütün icra vəzifələrinə və səlahiyyətlərinə sahib olan və xalqın adından çıxış edərək səlahiyyətlərin ayrılmasına əsaslanan idarəetmə sistemi prezidentlik sistemidir. Bu sistemdə icra hakimiyyəti qanunverici orqandan tamamilə ayrılmışdır [7, s. 16].

Ölkədəki əsas siyasi qərarlar xalq və ya onların nümayəndələri tərəfindən verildiyi müddətcə, inzibati səlahiyyətlərin idarəetmə orqanı ilə fərdlər arasında necə bölüşdürülməsi prinsipcə vacib deyil. Bu o deməkdir ki, demokratik rejim fərqli hökumət sistemlərinə

* magistrant, Bakı Avrasiya Universiteti
*e-mail: thebayramov13@gmail.com*

uyğun ola bilər. Beləliklə, hökumət sistemi modellərinin hər birinin demokratiya ilə yanaşı yaşaya biləcəyi deyilə bilər. Demokratik bir sistemdə xalq tərəfindən seçilən nümayəndələri hansı dövlət orqanı və ya orqanlar təşkil etdiyinə baxdıqda fərqli hökumət sistemlərinin olduğunu görərik [1, s. 448].

2017-ci ildə Türkiyə Cümhuriyyətinin konstitusiyasında dəyişiklik edilməsi üçün təkliflər irəli sürüldü. Nəhayət, Türkiyə Cümhuriyyətinin Prezidenti Ərdoğan, 6771 saylı Konstitusiyada dəyişiklik edilməsi haqqında Qanunu 10 Fevral 2017-ci ildə təsdiqlədi. Beləliklə, sözügedən qanun Konstitusiyanın 175-ci maddəsinə (330 ilə 267 səs arasında qəbul edilmiş konstitusiya dəyişiklikləri haqqında qanunlara istinad etmə məcburiyyəti) uyğun olaraq referenduma təqdim edildi. Konstitusiyanın 101-ci maddəsində prezidentliyə namizəd göstərilmə şərtləri dəyişdirildi. Dəyişiklikdən əvvəl, son ümumi seçkilərdə 10%-i keçən iyirmi deputat və ya siyasi partiya prezidentliyə namizəd göstərilə bilər. Bundan əlavə, son seçkilərdə ümumi səsləri10 %-i keçən siyasi partiyalar bir araya gələrək prezidentliyə ortaq namizəd təklif edə bilərlər. Dəyişiklik Qanununda namizədlik şərtləri mövcud olanlarla müqayisədə şaxələndirilmişdir. Buna görə də siyasi partiya qrupları, ən son ümumi seçkilərdə etibarlı səslərin 5%-ni tək başına və ya toplu şəkildə alan siyasi partiyalar və ən az yüz min seçicinin prezidentliyə namizəd göstərmə hüququ olduğu vurğulanmışdır [3, s. 14].

Bundan sonra 2018-ci ildə yenidən Türkiyə Cümhuriyyətinin konstitusiyasında dəyişiklik edilməsi ilə bağlı təkliflər verildi. 2018-ci ilin iyul ayında konstitusiya dəyişiklikləri qüvvəyə mindi. Yeni konstitusiya qaydalarına görə (maddə 104) [5, s. 628]: "Cümhuriyyətin prezidenti icraedici hakimiyyət ilə bağlı məsələlərdə prezident fərmanı verə bilər. Konstitusiyanın ikinci hissəsinin birinci və ikinci hissələrinə daxil olan əsas hüquqlar, şəxsi hüquq və vəzifələr, dördüncü hissəyə daxil olan siyasi hüquq və vəzifələr prezidentin fərmanı ilə tənzimlənə bilməz. Prezidentin fərmanları yalnız Konstitusiyada qanunla tənzimlənən məsələlərdə verilə bilməz. Qanunda açıq şəkildə tənzimlənən məsələlərə dair prezident fərmanları verilə bilməz. Qanunlarda Prezident fərmanı ilə fərqli müddəalar varsa, qanunun müddəaları tətbiq olunur. Türkiyə Böyük Millət Məclisi ilə eyni mövzuda məhkəməsinin qaldırılması üçün, Prezident fərmanları etibarsız olur" [2, s. 2749].

Onu da qeyd etmək olar ki, 2018-ci ilin iyul ayında qüvvəyə minən və konstitusiya sistemini müxtəlif yollarla dəyişdirən düzəlişlər arasında yazılı hüquqi mənbələrə dair dəyişikliklər də mühüm yer tutur.

**Türkiyə Cümhuriyyətinin son illərdə xarici siyasəti**

Türkiyənin beynəlxalq aləmdə mövqeyindəki əsas tendensiyalar bunlardır:
- Ankaranın beynəlxalq aləmdə aktivliyi artmışdır;
- Müxtəlif bölgələrin ölkələri ilə əlaqələrin sürətlə inkişafı;
- Orta Şərqdə regional liderlik mübarizəsi.

Ədalət və İnkişaf Partiyasının rəhbərliyi, Türkiyəni dünyanın aparıcı güclərindən birinə çevirmək üçün iddialı bir hədəf almışdır. Ümumilikdə, ölkənin beynəlxalq mövqeyini gücləndirmək fikri müxalifət partiyaları tərəfindən bölüşülür. Ancaq bu məqsədə çatmaq üçün başqa yollara üstünlük verirlər. Cümhuriyyət Xalq Partiyası AKP-nin xarici siyasətini dəstəkləmir, Qərb müttəfiqləri ilə qarşıdurmalardan və Ərdoğanın Yaxın Şərqdəki çox sərt addımlarından narazıdır. Türk millətçiləri ənənəvi olaraq türk xalqları ilə əlaqələrin inkişafına diqqət yetirir və qonşu dövlətlərlə ərazi və sərhəd mübahisələrində sərt mövqe nümayiş etdirirlər. Bu baxımdan AKP-nin 2018-ci ildə bağladığı ittifaq artıq Ərdoğanın Kipr probleminə və Yunanıstanla münasibətinin sərtləşməsinə gətirib çıxarmışdır. Bəzi mütəxəssislər on illik perspektivdə, müxalifət partiyalarının Ərdoğanın prezidentliyi bitdikdən sonra hakimiyyətə gəlmə qabiliyyəti bu anda açıq olmadığından,

AKP və ya rəhbərlik etdiyi koalisiya hakimiyyətdə qaldığı müddətdə ümumi xarici siyasətdə ciddi dəyişikliklərin baş verməsi ehtimalının az olduğunu iddia edirlər [4, s. 16].

Son on ildə, Türkiyə prezidentinin əlində gücün ardıcıl birləşdirilməsinə və ictimai həyatda düşünülmüş dəyişikliklərə şahid olduq. 2017-ci il konstitusiya islahatı və erkən prezident seçkiləri yeni prezidentlik sistemini formalaşdırdı. Yeni sistemdə prezident, prezidentlik sisteminə uyğun olaraq siyasi sistemin mərkəzi aktoruna çevrildi [5, s. 728]. Bu sistemin əsas xüsusiyyətləri aşağıdakılardır:

- Baş nazir vəzifəsi ləğv edildi (bu və ya digər şəkildə hökumət başçısı vəzifəsi yalnız cümhuriyyət tarixi boyunca deyil, Osmanlı İmperiyası dövründə də mövcud idi). Baş nazir əvəzinə, prezident tərəfindən təyin olunan millət vəkilləri (vitse-prezidentlər) vardır ki, onlar parlament qarşısında deyil, şəxsən prezident qarşısında hesabat verirlər.
- Prezident qanunvericilik təşəbbüsünə malikdir və parlamenti atlayaraq qanun qəbul edə bilər.
- Prezident, Konstitusiya Məhkəməsi üzvlərinin əksəriyyətini (15-dən 12-si), habelə Türkiyə məhkəmə sisteminin nəzarət orqanı olan Hakimlər və Prokurorlar Şurasının sayını özü təyin edir.
- Prezident hər hansı bir səbəbdən parlamenti ləğv edə bilər, eyni zamanda Parlamentin icraedici orqanı üzərində əhəmiyyətli bir təsir qüvvəsi yoxdur (xüsusilə parlamentin nazirlərinin və hökumətin hesabını tələb etmə hüququ ləğv edildi).
- Prezidentin siyasi məsuliyyəti yalnız beş ildən bir keçirilən seçkilərlə məhdudlaşır.

24 İyun 2018-ci il seçkiləri və Türkiyədə yeni prezidentlik sistemi ilə birlikdə yeni güc təyin olundu. Hər ikisi də Türkiyədə yeni dövrdə izləniləcək xarici siyasət baxımından çox əhəmiyyətli bir determinant olacaqdır. Türkiyənin yeni dövrdə xarici siyasətini necə formalaşdıracağı və seçkilərdən sonra hansı dəyişikliklərin köhnəsinə əsaslanacağı ilə maraqlanılması lazım olan mövzulardan biridir [8, s. 196].

Əslində bəzi Qərb müttəfiqlərinin qərəzli münasibət göstərməyə davam etdikləri və prezident Ərdoğanın seçkilərdə qalib gəlməsindən narazılığını ifadə etdikləri görülür. Bununla birlikdə, bu ölkələrdə və ümumilikdə siyasətçilərin əksəriyyətinin yeni dövründə, mümkün məsuliyyətin, Türkiyə ilə əlaqələrin inkişaf etdirilməsində daha rasional olacağını təxmin etmək gücünə sahibdir. İndi prezident sisteminə keçiddə Türkiyədə yeni dövrün xarici siyasətini formalaşdıracaq əsas amilləri belə ümumiləşdirmək olar [9].

- Prezident Rəcəb Tayyib Ərdoğan və AK Partiyanın xarici siyasət yanaşması;
- Yeni idarəetmə sisteminin təsiri;
- Xalq İttifaqının tərəfdaşı olan MHP-nin xarici siyasət yanaşması;
- Qərb ölkələrinin Türkiyə siyasətləri;
- Rusiya, İran, İsrail, Türkiyə və Səudiyyə Ərəbistanı kimi Orta Şərq ölkələri siyasətləri.

Türkiyədə ikinci ildir tətbiq olunan prezidentlik sistemində iqtisadiyyatda ağır itkilər yaşanır. İşsizliyin artması və milli gəlirin azalması narahatlıqları artırır. Xarici investorların Türkiyədəki mövqeyi pisləşir. İqtisadiyyatda sabitlik, böyümə və sərmayə vəd edərək tətbiq olunan Prezident Hökumət Sistemi, son iki ildə gözləntilərdən çox uzaq bir imic yaratdı. İqtisadiyyatdakı mənfi inkişaflar bir-birinin ardınca gəlincə, artıq Türkiyə beynəlxalq aləmdə öz yerini tutur. Keşiş Brunson böhranı, ABŞ-İran gərginliyi, AB ilə münasibətlərin pisləşməsi və nəhayət Covid-19 pandemiyası kimi amillər səbəbindən iqtisadi əlaqələr getdikcə pisləşir, cəmiyyətdə gələcəklə bağlı narahatlıqlar da artır. Hazırkı dövrdə 100 mlrd. dollara çatan özəl sektorun xarici borcu yeni investisiyaların ölkəyə cəlb olunmasının qarşısını alır. Hökumət son iki ildə iqtisadiyyatı inkişaf etdirmək üçün 8 ayrı dəstək paketi ayırsa da, gəlirlərdə azalma müşahidə olunur [10].

Yeni dövrdə Türkiyənin xarici siyasətinin formalaşmasında təsirli olacaq amillərdən biri də Xalq İttifaqının tərəfdaşlarından biri olaraq AK Partiya ilə birlikdə parlament-

də çoxluğu təmin edən MHP-dir. MHP-nin yeni dövrün xarici siyasətindəki 15 iyul çevriliş cəhdindən bəri, Prezident Ərdoğana dəstək olmaq üçün Türkiyəni təhdidlərə qarşı maraq doğuran bir çox mövzuda və eyni zamanda Qərblə əlaqələr və terrorizmlə mübarizədə eyni ardıcıl siyasətdə davam etməsi gözlənilir. Ancaq əvvəlki dövrdən fərqli olaraq, MHP parlamentdəki çoxluğunu itirən AK Partiyanı dəstəkləyərək bir növ koalisiya ortağı halına gəldiyindən bu partiyanın yeni dövrdə daxili və xarici siyasətdə daha çox nüfuz sahibi olmaq istəyə biləcəyini iddia etmək mümkündür. MHP AK Partiya ilə qurduğu ittifaqı pozmaq istəməyəcəyi üçün xarici siyasətdə Prezident Ərdoğanı narahat edəcək tələblər irəli sürməyəcək, ancaq Ərdoğanın türk dünyası ilə münasibətlər, Rusiya və Çin ilə əlaqələrin rasional əsaslarla aparılması tələbləri arasındakı tarazlığı qorumaq bəzən çətin ola bilər [9].

Qərb ölkələrinin Türkiyəyə qarşı siyasətindəki inkişaflar, yeni dövrdə baş verəcək ki, bu da türk xarici siyasətinin əsas parametrlərinə də təsir edəcək. Türkiyənin xarici siyasətində ən əhəmiyyətli yeri olan Qərb ölkələri və Türkiyə anlayışları İstanbul / Ankara ilə Türkiyə arasında əlaqələr qurmağı arzu edirlər.

Son iki yüz ildə Qərb ölkələrində olan Osmanlılar, bu münasibət / Türkiyə bəzən İngiltərə ilə Fransa arasındakı güc baxımından yol açdı, bəzən Türkiyəni də Amerika, Almaniya və İtaliyada gördü və son zamanlarda təsir sahəsi olaraq gördü. Bu ölkələr bəzən Türkiyənin suverenliyinə qarşı müdaxilələr etdilər. Bu dövrdə Qərb ölkələrindən müdaxilə cəhdlərinin artması və hər uğursuzluqdan sonra daha çox sərt olmaları bunun əyani göstəricisidir. 24 iyun seçkiləri, Qərb ölkələri Türkiyədən sonra yeni idarəetmə sistemi ilə irəliləyərkən eyni zamanda yeni bir fərqlilik yoludur.

Qərbdəki demək olar ki, bütün ölkələrin hər iki yanaşmanın tərəfdarlarına sahib olduqlarını nəzərə alaraq, bu mövzuda çoxfikirli olduqlarını bildirmək lazımdır. Bu vəziyyətdə, Qərbi Türkiyədəki yeni müttəfiqlər daxili və qarışıqlıqdakı fikir ayrılıqlarını aradan qaldırmaq üçün bir az vaxt vermək lazım olduğunu nümayiş etdirir.

**Nəticə**

Yeni dövrdə Rusiya, İran, İsrail və Səudiyyə Ərəbistan, bölgədəki ölkələr olaraq yeni əlaqələrə ehtiyac duyurlar, bu əlaqələr və Türkiyədəki siyasəti formalaşdıran əsas həllediciləndən biri olacaqdır. Bu ölkələr başda Ankaradakı Türkiyə ilə terrorizmə daxil olmaqla məsələlərin iş birliyinə necə yanaşılacağı və onlarla olan əlaqələrin istiqamət səviyyəsini təyin edəcək. Bu ölkələr Qətər, yeni dövrdə Fələstinə və müsəlmanlara istiqamətli təcavüzlərini davam etdirərək, Türkiyə ilə problemlərinin davam etməsinə səbəb olacaq.

Bunun əksinə olaraq, Rusiya və İranın son Yaxın Şərqi, Astana, Soçi, Azərbaycanda Dağlıq Qarabağ problemlərinin həlli mövzusunda Türkiyə ilə iş birliyini qurmaq və Türkiyədəki Ankara müddətindəki vədlərinə əməl etmək üçün daha çox qayğı göstərməyə davam etmək üçün bu ölkələrlə daha da yaxınlaşma ilə nəticələnə bilər. Prezident Ərdoğan və AK Partiya hökuməti əhəmiyyətli bir ortaq qiymətləndirməsi olaraq qalacaq, bu ölkələrin həm iqtisadi sahədə təhlükəsizliyə ehtiyacı olduğu müddətdə, Rusiya və İranın daxili işlərə müdaxilə etməməsi və terrorizmə qarşı səmimi əməkdaşlıq şəklində Türkiyə ilə əlaqələrini inkişaf etdirmək istəyini göstərəcəklər. Ancaq bu ölkələrin, xüsusən PKK/YPG terror təşkilatı ilə bağlı ikitərəfli siyasətlərindən imtina etməsi, Ankaranın Moskva və Tehranla münasibətlərinin istiqamətini müəyyənləşdirəcəkdir.

Gördüyümüz kimi, Türkiyənin yeni prezidentlik sisteminə giriş göstərir ki, Türkiyənin xarici siyasətində beş ildir köklü dəyişikliklər yaşanır, prezident Ərdoğanın yeni bir dövr seçimi ilə müqaviləsini yeniləyir və AKP-nin xarici siyasət yanaşması birbaşa əlaqələndirilir. Bundan əlavə, Xalq İttifaqında müttəfiq ortağı olan MHP-nin xarici siyasətə təsiri də qeyd edilməlidir. Nəhayət, qlobal və regional miqyasda Türkiyənin AK

Partiya hökumət həmkarlarına qarşı münasibətlərinin necə formalaşdırılacağı parametrlər arasındadır.

## ƏDƏBİYYAT


1. Doğan K. Türkiye'de Bitmeyen Tartışma: Hükümet Sistemi Üzerine Değerlendirmeler. Gazi Üniversitesi Hukuk Fakültesi Dergisi, C. XX, Y. 2016, Sayı: 1, s. 447-510.
2. Rona A. Temmuz 2018'de yürürlüğe giren anayasa değişiklikleri ile yazılı hukuk kaynaklarımıza getirilen değişiklikler ve cumhurbaşkanlığı kararnamaleri konusunda bazı gözlemler, D.E.Ü. Hukuk Fakültesi Dergisi, Prof. Dr. Durmuş TEZCAN'a Armağan, Özel Sayı, 2019, s. 2743-2756.
3. Vahap C. 16 Nisan 2017 tarihinde kabul edilen Anayasa değişikliklerinin değerlendirilmesi, DÜHFD, Cilt: 22, Sayı: 36, Yıl: 2017, s. 3-30.
4. Modern Turkey: Development Trends and the Meaning for Russia / Vartazarova L, Kobrinskaya I., Utkin S., eds. Moscow, IMEMO, 2019, 54 p.
5. Murat Açıl, 2017 Anayasa Değişiklikleri Çerçevesinde Cumhurbaşkanlığı Kararnameleri // İstanbul Hukuk Mecmuası, 2018, 76 (2), s. 725-756.
6. Türkiye Cumhuriyeti Anayasası, Kanun Numarası: 2709, Kabul Tarihi: 18/10/1982, 2019, 1286 s.
7. Yeni Sisteme Göre Yasama El Kitabı, 2018.
8. Харитонова О.Г. Кризисная эволюция турецкой политической системы // Полития, № 3 (90), 2018, с. 181-205.
9. İnat Kamal, Başkanlık Döneminde Türkiye'nin Dış Politikası (https://kriterdergi.com/dis-politika/baskanlik-doneminde-turkiyenin-dis-politikasi (müraciət tarixi: 19.11.2020)).
10. Yalçın Karatepe Cumhurbaşkanlığı sistemi ekonomide sınıfta kaldı (https://www.dw.com/tr/cumhurba%C5%9Fkanl%C4%B1%C4%9F%C4%B1-h%C3%BCk%C3%BCmet-sistemi-ekonomi-politikalar%C4%B1-krizi-derinle%C5%9Ftirdi/a-54096027 (müraciət tarixi: 19.11.2020)).



***Резюме***

***Назим Байрамлы***

***Влияние новой президентской системы Турецкой Республики на внешнюю политику***

Парламентские и президентские выборы, состоявшиеся в Турции 24 июня 2018 г., ознаменовали конец периода долгосрочных институциональных изменений, которые привели к установлению в стране новой президентской системы. В статье, основанной на анализе динамики конституционных полномочий президентов, выявляются особенности президентских систем, исследующих эволюцию президентской системы Турции.

С момента создания Турецкой Республики были приняты три конституции, произошло четыре военных переворота и сменилось 64 правительства. До конца 2007 года в стране действовала двухступенчатая парламентская система. Фрагментация партийной системы, неэффективность правительств и регулярное военное вмешательство в политику подрывают преимущества парламентской модели. Все конституционные изменения в Турции стали реакцией на кризис, а новые правила реализовывались путем «стратификации», когда они не заменяют предыдущие, а дополняют их. Оставив важные полномочия, данные ей Конституцией 1982 года, президенту, Турция завершила народные выборы, перешла от парламентской системы к президентской. С переходом к президентской системе полномочия президента были еще больше расширены. Новая президентская система влияет на страну во всех отношениях, и это влияние отражается как во внутренней, так и во внешней политике.

После президентских и парламентских выборов, состоявшихся 24 июня 2018 года, система правления в Турции полностью изменилась с серьезными изменениями в конституции. При новой

системе президентская система сильнее парламента указами и постановлениями. В турецкой системе произошли некоторые изменения. Согласно этой системе, президент будет назначать министров и членов кабинета в президентской системе Турции. Согласно новой системе, человек, избранный в парламент, не может быть членом кабинета министров, а количество министров будет определяться президентом. Это один из самых важных шагов в истории Турции на пути к системным изменениям, которые повлияют на политическую, экономическую и даже повседневную жизнь.

***Ключевые слова:*** *Турецкая Республика, президентская система, внешняя политика, внутренняя политика, система управления*

***Summary***

***Nazim Bayramli***

***Influence of the New Presidential System of the Republic of Turkey on Foreign Policy***

The parliamentary and presidential elections held in Turkey on June 24, 2018 marked the end of a period of long-term institutional changes that led to the establishment of a new presidential system in the country. The article, based on an analysis of the dynamics of the constitutional powers of presidents, identifies the features of presidential systems that examine the evolution of the Turkish presidential system.

Since the establishment of the Republic of Turkey, three constitutions have been adopted, four military coups have taken place, and 64 governments have changed. Until the end of 2007, the country had a two-stage parliamentary system. The fragmentation of the party system, the ineffectiveness of governments, and regular military intervention in politics have hampered the advantages of the parliamentary model. All constitutional changes in Turkey have become a reaction to the crisis, and the new rules have been implemented through "stratification" when they do not replace the previous ones, but complete them. Leaving the important powers given to it by the 1982 Constitution to the president, Turkey completed the people's elections, passed from the parliamentary system to the presidential system. With the transition to a presidential system, the powers of the president were further expanded. The new presidential system affects the country in all respects, and this influence is reflected in both domestic and foreign policy.

With the presidential and parliamentary elections held on June 24, 2018, the system of government in Turkey has completely changed with serious changes to the constitution. Under the new system, the presidential system is stronger than the parliament with decrees and decisions. There have been some changes in the Turkish system. According to these systems, the president will appoint ministers and cabinet members in the Turkish presidential system. Under the new system, a person elected to parliament will not be able to be a member of the cabinet and the number of ministers will be determined by the president. Here is one of the most important steps in Turkey's history to move towards systemic changes that will affect political, economic and even everyday life.

***Key words:*** *Republic of Turkey, presidential system, foreign policy, domestic policy, governance system*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 94**

# XX ƏSRİN SONU-XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ AVROPA BİRLİYİNİN GENİŞLƏNMƏ SİYASƏTİNDƏ TÜRKİYƏ

**Nərgiz QULİYEVA** *

*Məqalə redaksiyaya daxil olmuşdur: 12 oktyabr 2020; çapa qəbul edilmişdir: 8 noyabr 2020; online-da çap edilmişdir: 31 mart 2021.*

*Received: 12th of October, 2020; accepted: 8th of November, 2020; published online: 15th of March, 2021.*

***Açar sözlər:*** *Avropa Birliyi, Türkiyə, avrointeqrasiya, Gömrük birliyi, müqavilə*

## Giriş

Avropanın idarəçilik dəyərlərinə yiyələnmiş bir dövlətin qurulması Türkiyə Cümhuriyyətinin quruluşunun başlıca məqsədlərindən biri olmuşdur. XX əsrin 50-ci illərindən sonrakı dövrdə Avropa dövlətləri və ümumilikdə Qərbin böyük gücləri ilə əlaqələrini daha da sıxlaşdıran Türkiyə Cümhuriyyəti üçün Avropa ölkələrinin siyasi, iqtisadi və mədəni birliyinin nişanəsi olan, Avropa dəyərlərinin qorunması və inkişafını təmin edən Avropa Birliyi ilə əlaqələr xüsusilə vacib bir istiqaməti təşkil etmişdir.

Avropa Birliyi-Türkiyə əlaqələri obyektiv və subyektiv səbəblərdən düzxətli inkişaf etməmişdir. Proseslərin təhlili göstərir ki, əlaqələrin düzxətli inkişaf etməməsi və hələlik uğurla nəticələnməməsi xeyli dərəcədə Avropa Birliyinın Türkiyə Cümhuriyyətinə yanaşması ilə bağlı olmuşdur. Doğrudur, burada aşırı milli və dini təəssübkeşlik hissinə qapılmış Türkiyədaxili qüvvələrin də mövqeyini unutmaq olmaz.

Türkiyə Cümhuriyyəti ilə dünyada sözün əsl mənasında fövqəlmilli mahiyyətli təşkilat olan Avropa Birliyi arasında əlaqələrin 1992-2013-cü illər dövrü tarixinin öyrənilməsi ümumi tarix elmi və milli tarixşünaslığımız üçün ciddi elmi, diplomatiya və xarici siyasətimizi üçün isə həm elmi, həm də praktik aktuallıq kəsb edir. İlk növbədə o baxımdan ki, XX əsrin 50-ci illərindən etibarən formalaşmağa başlayan və Avropanın iqtisadi birliyini təmin etməyi qarşıya məqsəd qoymuş bu təşkilat XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərindən etibarən imzalanan sazişlərlə Avropanın təkcə iqtisadi deyil, həm də siyasi, mədəni, hərbi, sosial birliyini təmin edən fövqəlmilli təşkilata çevrilmişdir. Digər tərəfdən bu dövrdə artıq ikiqütblü dünya sisteminin dağılması, SSRİ-nin süqutu həm Avropa Birliyinə daxil olan dövlətlərin öz aralarında, həm Avropa Birliyi ilə dünyanın digər güc mərkəzləri hesab edilən Amerika Birləşmiş Ştatları, Çin və Rusiya arasında, eləcə də XX əsrin 50-ci illərindən etibarən bu qurumla əməkdaşlıq edərək tamhüquqlu üzv statusu qazanmağa çalışan Türkiyə arasında münasibətlərin yeni xarakter qazanmasına səbəb olmuşdur. Bu baxımdan bu dövrün Avropa Birliyi-Türkiyə münasibətləri tarixinin ümumi meyarları çərçivəsində qiymətləndirilməsindən əlavə, ayrıca tədqiq və təhlil olunması zərurətini yaradır.

## Avropa Birliyinın genişlənmə siyasətində Türkiyənin yerinin və rolunun dəqiqləşməsi. Lüksemburq, Kardiff və Vyana sammitləri

1997-ci ilin dekabr ayının 12-13-də keçirilən Lüksemburq Sammitində qəbul edilən qərarlardan aydın olurdu ki, tam hüquqlu üzvlüyə qəbul edilməsi nəzərdə tutulan ölkələr

* doktorant, Bakı Dövlət Universiteti
*e-mail: qnargiz@inbox.ru*

sırasında Macarıstan, Polşa, Çexiya, Estoniya və Sloveniya ilə yanaşı Kipr də var. Türkiyə bu ölkələrin sırasına daxil edilməsə də, Sammitin bəyannaməsinin Türkiyəyə həsr edilmiş 31-36-cı fəsillərində onun da tam üzvlük hüququnun olduğu vurğulanır və digər namizədlərlə eyni meyarlara görə qiymətləndiriləcəyi göstərilirdi. (4, s. 91-93; 18, s. 147)

Lüksemburq Sammitinin Prezidentlər Bəyannaməsinin 35-ci paraqrafında əksini tapan müddəalar isə Türkiyəyə qarşı açıq-aşkar maneə yaratmaq cəhdi idi və Türkiyə tərəfi məhz bunu nəzərə alaraq ertəsi gün Avropa Birliyi ilə müzakirələri dayandırdı. 35-ci paraqrafda əksini tapan məsələlər aşağıdakılardan ibarət idi:

- Avropa Birliyi səviyyəsində insan haqlarının qorunması;
- Azlıqlara hörmət və azlıqların qorunması;
- Yunanıstan ilə Türkiyə arasındakı əlaqələrin təminedici bir nöqtəyə gəlməsi və həllini tapması;
- BMT-nin qərarlarına uyğun olaraq Kipr probleminin həlli üçün Türkiyənin dəstək göstərməsi.

O dövrdəki Türkiyə iqtidarı bu şərtləri Yunanıstanın tələblərinin Avropa Birliyi tərəfindən Türkiyəyə çatdırılması kimi qiymətləndirdi və 14 dekabr 1997-ci ildə rəsmi bəyanatla Avropa Birliyi ilə siyasi dialoqun dondurulduğunu açıqladı. (8, s. 31)

O dövrdə Türkiyənin Baş naziri olan Məsud Yılmaz digər müraciət edən ölkələrə nisbətən Türkiyəyə qarşı ayrı-seçkilik edildiyini bəyan edərək, Avropa Birliyinın bu mövqe və düşüncəsini dəyişmədiyi müddətdə Türkiyə-Avropa Birliyi əlaqələrinin konstruktiv və çoxtərəfli dialoqla inkişaf etdirilməsinin mümkün olmadığını vurğuladı. Türk hökuməti əlaqələrin inkişafının Avropa Birliyinın öhdəliklərini yerinə yetirməsi ilə bağlı olduğunu və Avropa Birliyi ilə siyasi dialoqun "Türk-Yunan münasibətləri, Kipr problemi və insan hüquqları" mövzularında dayandırıldığını açıqladı və Türkiyənin Avropa Konfransında da iştirak etməyəcəyini bildirdi. (14)

1998-ci ilin əvvəllərində Almaniyanın Türkiyənin üzvlüyünə qarşı çıxması nəticəsində Məsud Yılmaz ilə Almaniyanın baş naziri Helmut Kol arasında qızğın mübahisələr getdi. M.Yılmaz Almaniyanın XX əsrin 30-cu illərində Hitlerin yürütdüyü siyasəti davam etdirdiyini, keçmiş Şərqi Avropa ölkələrini Avropa Birliyi və NATO-ya daxil etməklə özü üçün "həyat sahəsi" yaratmaq istədiyini bəyan etdi. O, Avropa Birliyindən Türkiyənin uzaqlaşdırılmasının əsas səbəbkarı kimi Almaniyanı göstərdi. Britaniyanın "Financial Times" qəzeti 6 mart 1996-cı il tarixində çıxan nömrəsində avropalıların Türkiyəyə baxışından bəhs edərkən yazırdı ki, avropalılar Türkiyənin Avropa üçün yaxşı bir qonşu olduğunu, fəqət Avropa Birliyinə tam üzv olmasının lazım olmadığını düşünürlər. (24)

Lüksemburq Sammitindən sonra Türkiyə ilə əlaqələrin korlandığı bir vaxtda Avropa Birliyinə sədrlik dövrü başlayan Böyük Britaniya Türkiyənin 12 mart 1998-ci ildə keçiriləcək Avropa Konfransında iştirak etməsi üçün xeyli cəhdlər göstərdi. Türkiyənin Lüksemburq Sammitinin qərarları ilə əlaqədar olaraq mövqeyini bir daha nəzərdən keçirməsini və konfransda iştirak etməsini istəyən Böyük Britaniya bu məqsədlə Ser Devid Hannayı Xüsusi nümayəndəsi kimi ardıcıl olaraq iki dəfə Ankaraya göndərdi. Türkiyənin Avropa Konfransında iştirak etməyəcəyi Britaniya nümayəndəsinin diqqətinə bir daha çatdırıldı.

1998-ci il martın 3-də Avropa Birliyi Komissiyası tərəfindən hazırlanan "Türkiyə üçün Avropa Strategiyası, Komissiyanın Tətbiqə dair ön Tövsiyyələri" adlı hesabat qəbul edildi. Hesabatda, bu strategiyanın tətbiq olunmasın ilə Türkiyənin Avropa Birliyinın genişlənmə prosesində iştirak edəcəyi ifadə edilirdi. Sənəd rəsmi Ankaranı xeyli dərəcədə razı salmağa hesablanmış bir üslubda yazılmışdı. Əvvəlki bir sıra sənəd və bəyanatlardan fərqli olaraq burada Türkiyədə insan hüquqları sahəsində kəskin fikir yox idi. Türkiyə

üçün Avropa Strategiyası, tərəflər arasında əlaqələrin inkişaf etdirilməsi və Gömrük Birliyinin gücləndirilməsi məqsədini daşıyırdı. Bunlardan başqa insan hüquqları, ətraf mühit, istehlakçı siyasəti və istehlakçıların sağlamlığının qorunması, elmi və texnoloji tədqiqatlar, sənaye və investisiya, ədliyyə və daxili işlər sahələrində əməkdaşlığın qurulması, kənd təsərrüfatı, xidmət, telekommunikasiya sahələrində müzakirələrin aparılması da təkliflər arasında idi. (13, s. 708; 14; 19, s. 148)

Türkiyə isə əməkdaşlığın yenidən bərpa olunması üçün iki şərti olduğunu bəyan etdi:

1) Əməkdaşlığın maliyyə mənbələrinin göstərilməsi və Yunanıstanın vetosu səbəbindən alınması mümkün olmayan yardımların verilməsi.

2) Brüsseldə keçiriləcək Tərəfdaşlıq Şurasının iclasında siyasi məsələlərin müzakirəyə çıxarılması. (1)

Avropa Birliyi Türkiyənin yalnız birinci şərtini qəbul etdi. Buna görə də Türkiyə Cümhuriyyəti 12 mart 1998-ci ildə Avropa Birliyinın tarixi ərzində ilk dəfə Londonda keçirilən Avropa Konfransında iştirak etmədi.

15-16 iyun 1998-ci il tarixlərində keçirilən Kardiff sammitinin Prezidentlər Bəyannaməsinin Avropa Birliyinın genişlənmə siyasətinə həsr olunmuş hissəsində Türkiyəyə də yer verilmişdi. Bundan əlavə məhz bu Sammitdə Avropa Birliyi Komissiyası tərəfindən hazırlanan Türkiyə üçün Avropa Strategiyası da qəbul edildi. Avropa Birliyi Komissiyası, bundan əlavə, Türkiyə üçün inkişaf hesabatının hazırlanması ilə bağlı da qərar verdi. Əgər əvvəlki sənədlərdə Türkiyə üçün "üzvlük haqqında məlumatlı" ölkə kimi bəhs edilirdisə, Kardiff Bəyannaməsində Türkiyə üçün "üzvlüyə namizəd" ifadəsi işlədilmişdi. (16, s. 89-105)

Bəhs etdiyimiz dövrdə Avropa Birliyinın həyatında əsas söz sahiblərindən biri olan Almaniyada Gerhard Şröyderin partiyasının hakimiyyətə gəlməsi Türkiyədə yeni ümidlər yaradırdı. Almaniya getdikcə Türkiyənin namizədliyi ilə bağlı müzakirələri gündəmə gətirməyə çalışırdı.

İyulun 22-də "Türkiyə ilə Avropa Birliyi arasındakı əlaqələrin inkişaf etdirilməsi üçün Strategiya" adlı bir sənəd Türkiyə tərəfindən Komissiyaya təqdim edildi. H.Kabaalioğlu, C.Uysal kimi tədqiqatçıların fikrincə Türkiyənin bu sənədi təqdim etməkdə məqsədi Lüksemburq sammitindən sonra korlanmış siyasi münasibətlərin tərəflər arasında ticarət və iqtisadi əməkdaşlığa da təsir etməsinin qarşısını almaq idi. (26, s. 142)

4 noyabr 1998-ci ildə Komissiyanın 12 namizəd ölkə üçün hazırladığı ilk Müntəzəm Hesabatda Türkiyəyə də yer verilməsi bir növ Türkiyənin namizədliyinin təsdiqlənəcəyini göstərirdi. Komissiyanın bu ilk Müntəzəm Hesabatı "Kopenhagen meyarları" na əsaslanırdı. Hesabatda qeyd edilirdi ki, "demokratiya, hüququn aliliyi, insan hüquqları, azlıqlara hörmət və onların qorunmasını təmin edən idarəçilik mexanizminin sabitliyini təmin etmək" kimi siyasi meyarlara görə Türkiyə hələ başlanğıc mərhələdədir. Hesabatda dövlət orqanlarının fəaliyyətində pozuntular, insan hüquqlarının pozulması, ordu üzərində mülki nəzarətin olmaması, Türkiyənin cənub-şərq bölgəsindəki problemə sivil bir həll yolunun tapılmaması ilə bağlı da qeydlər var idi. Dayanıqlı bazar iqtisadiyyatı sisteminə sahib olma və Avropa Birliyi daxilindəki iqtisadi rəqabət gücünü qiymətləndirən iqtisadi meyarlara aid hissədə Türkiyəni bu sahədə daha çox müvəffəqiyyət qazandığı vurğulanırdı. Bazar iqtisadiyyatının əsas xüsusiyyətlərindən bir çoxuna, dinamik özəl sektora malik olan, azad ticarət qaydalarına sahib olan ölkədə makroiqtisadi sabitlik təmin edilməli və iqtisadi inkişafda regional fərqlər aradan qaldırılmalı idi.

Sənəddə Türkiyənin Gömrük Birliyi qərarında nəzərdə tutulan məsələlərin böyük bir qismini həll etdiyi, Avropa Birliyi qanunlarına uyğunlaşma prosesinin başlandığı vurğulanır, digər sahələrdə isə hələ böyük bir yolun keçilməsi zərurəti qeyd edilirdi.

11-12 dekabr 1998-ci il tarixlərində keçirilən Vyana sammitində Avropa Birliyinın

genişlənmə siyasəti ilə bağlı hissədə Türkiyənin namizədlik məsələsi ilə əlaqədar əlavə bir yenilik olmadı.

1999-cu ilin əvvəllərindən etibarən Türkiyənin Avropa Birliyi ilə əlaqələrin gücləndirilməsi yönündə cəhdləri yenidən artdı. Bu məsələdə 1999-cu ilin 11 yanvarında qurulan 56-cı və 26 mayda qurulan 57-ci hökumətlərin, xüsusən bu hökumətlərdə baş nazir olmuş Bülent Ecevitin əhəmiyyətli rolu oldu. Bu baxımdan Demokratik Sol, Milliyyətçi Hərəkat və Ana Vətən Partiyalarının üzvlərindən təşkil edilmiş 57-ci hökumətin koalisiya protokolu və hökumət proqramında Avropa Birliyi ilə əlaqələrə xüsusi yer verilirdi. Koalisyon hökumətin protokolunda bununla əlaqədar yazılırdı: "Türkiyənin Avropa Birliyinə tam üzvlüyü tarixdən, coğrafiyadan və müqavilələrdən doğulan haqqıdır. Türkiyənin Avropa Birliyinə digər namizədlərlə bərabər hüquq və statusa sahib "tam üzvlük məqsədi"nin həyata keçirilməsinə çalışılacaq, ancaq bununla bərabər milli haqq və maraqlardan da əl çəkilməyəcəkdir. (15, s. 7767, 7875)

Gömrük Birliyi müqaviləsinin həyata keçirilməsində meydana çıxan pozuntuların aradan qaldırılması üçün zəruri təşəbbüslər davam edəcəkdir". (15, s. 7884)

Hökumət proqramında isə bu barədə əlavə olaraq aşağıdakılar qeyd edilmişdi: "Avropadakı inteqrasiya proseslərində öz yerini tutacaq olan Türkiyə bunu həyata keçirərkən, milli haqq və mənfəətlərini hər zaman nəzərə alacaqdır. Bu çərçivədə, Avropa Birliyi ilə əlaqələrimizi sürətləndirə biləcək imkanlar və fürsətlər diqqət mərkəzində saxlanılacaqdır. Türkiyə siyasi və iqtisadi sahədə olduğu kimi təhlükəsizlik və müdafiə məsələlərində də Avropa və Transatlantik strukturlarda bərabərhüquqlu şəkildə yerini tutmaq üçün qətiyyətli bir mövqe ortaya qoyacaqdır. Gömrük Birliyinin praktikada meydana çıxan çatışmazlıqlarını aradan qaldırmaq üçün effektiv təşəbbüslər irəli sürəcəkdir". (15, s. 7901)

Beləliklə, Ecevit hökumətlərinin təşəbbüsləri əlaqələr tarixində yeni bir səhifə açmış oldu. 1999-cu ilin 18-19 fevralında Avropa Birliyi-Türkiyə Parlamentlərarası Komissiyasının İstanbulda növbəti iclası keçirildi. Qeyd etmək lazımdır ki, bu dövrdə əlaqələrdə yaxınlaşma bəzi tədqiqatçılara görə həm də Balkan regionunda baş verən Kosovo böhranı ilə bağlı olmuşdur. Türkiyəli tədqiqatçı Rza Aslan bu barədə yazır: "...Türkiyənin NATO tərəfdən Kosovo böhranında qətiyyətli mövqeyini ortaya qoyması Avropa Birliyini müdafiə sahəsində Türkiyə ilə əməkdaşlıq etməyin vacibliyinə inandırmışdır". (13, s. 709; 6, s. 10)

Avropa Birliyinə sədrliyə başlamış Almaniya ilə əlaqələrini daha da gücləndirən Bülent Ecevit hökuməti Türkiyənin namizədliyinin 1999-cu ildə Kölndə keçiriləcək Sammitdə müzakirəsi üçün Almaniyaya məktub göndərdi. Türkiyənin Almaniya ilə apardığı müzakirələrə və Almaniyanın Türkiyəyə qarşı mövqeyinin müsbət istiqamətdə xeyli dəyişməsinə baxmayaraq, 3-4 iyun 1999-cu ildə keçirilən Köln Sammitində Almaniya tərəfindən hazırlanan və Türkiyənin namizədliyi məsələsinin xeyrinə olan mətn Yunanıstanın mənfi münasibətinə görə qəbul edilmədi. Mətnin məzmunu belə idi: "Avropa Birliyi Şurası Türkiyə hökumətinin "Kopenhagen meyarları"nın yerinə yetirməsi üçün lazım olan bütün iqtisadi və siyasi islahatların sürətləndirilməsi ilə bağlı qətiyyətini məmnuniyyətlə qarşılayır. Avropa Birliyi Şurası xüsusilə Türkiyə hökumətinin demokratik və sosial islahatlara istiqamətli səylərini gücləndirmək və ölkənin cənub-şərqindəki problemlərə konstruktiv bir həll yolu tapmaq istiqamətindəki qətiyyətini də alqışlayır. Avropa Birliyi Şurası beləliklə Türkiyəni Avropa Strategiyasına, əsasən, namizəd olaraq qoşulma mərhələsinə daxil etməyi və digər namizədlərlə təşkil ediləcək iclaslara çağırmağı məqsədəuyğun hesab edir". (14; 9, s. 4)

C.Uysal yazır ki, "Cümhuriyyət" qəzetinin 5 iyun tarixli sayında bununla əlaqədar gedən xəbərdə Türkiyənin namizədliyinin yolunu açacaq olan 61 və 62-ci paraqrafların Yunanıstanın başçılıq etdiyi Lüksemburq və İsveçdən ibarət olan qrup tərəfindən insan hüquqları sahəsində pozuntular bəhanəsi ilə sənəddən çıxarıldığı göstərilirdi. (18, s. 149)

Oktyabrın 13-də Türkiyənin namizədliyi məsələsinin Helsinkidə keçiriləcək konfransda qeydə alınması məsələsi Komissiya tərəfindən irəli sürüldü. Avropa Birliyi Komissiyası tərəfindən hazırlanan və "Kopenhagen meyarları"na uyğun olaraq qiymətləndirmə aparan "İnkişaf hesabatı" açıqlandı. Hesabatda siyasi meyarlara uyğunlaşma istiqamətində əsas maneələr olaraq insan hüquqları və azlıqların qorunması sahəsində çatışmazlıqlar, işgəncələrin hələ də geniş yayılması və ifadə azadlığının səlahiyyətli orqanlar tərəfindən məhdudlaşdırılması göstərilirdi. PKK terror təşkilatının lideri Abdullah Öcalan haqqında ölüm cəzasının çıxarılması Türkiyənin bu meyarla bağlı çatışmazlıqlarına bir nümunə olaraq göstərilirdi. Qeyd edək ki, 1999-ci ildə Keniyada həbs edilərək Türkiyəyə gətirilən Abdullah Öcalana 28 aprel 1999-cu ildə Türkiyə Respublikası Cinayət Məcəlləsinin 125-ci maddəsinə əsasən vətənə xəyanət cinayətinə görə ölüm hökmünün verilməsi tələb olunmuşdu. Terrorçu A.Öcalan 29 iyun 1999-cu ildə "terror təşkilatı qurmaq və idarə etmək" ittihamı ilə edama məhkum edilsə də, məhz Avropa Birliyinın tələblərinə görə ömürlük həbs cəzasına məhkum edilmişdi. (13, s. 709)

İqtisadi meyarlar isə əvvəlki hesabatlarda olduğu kimi, bu hesabatda da Türkiyənin daha üstün olduğu sahələrdən biri idi. (18, s. 150)

**Helsinki Zirvə Toplantısı. Avropa Birliyinın Türkiyə Cümhuriyyəti ilə bağlı qərarları**

10-11 dekabr 1999-cu il tarixlərində Finlandiyanın paytaxtı Helsinkidə Avropa Birliyi dövlət və hökumət başçılarının Zirvə toplantısı keçirildi. Bu sammitdə İtaliyalı siyasətçi R.Prodinin sədri olduğu Avropa Birliyinın Komissiyası Şərqə genişlənməni prioritet məqsəd kimi elan etdi, bir sıra dövlətlərin namizəd statusu alması haqqında proqram təsdiqləndi. Türkiyə Cümhuriyyətinin tam namizədliyi də Helsinki Sammitində təsdiqləndi və Türkiyə-Avropa Birliyi əlaqələrində mahiyyətcə yeni bir dövr başladı. (20, s. 180)

Helsinki Sammitində Avropa Birliyi ölkələrinin Türkiyə ilə bağlı verdiyi qərarda aşağıdakı məsələlər qeyd edilmişdi:

1) Avropa Birliyi Şurası Türkiyədə son dövrlərdə əldə edilmiş irəliləyişləri və Kopenhagen meyarları istiqamətində islahatların aparılmasından məmnun olduğunu ifadə edir.

2) Türkiyə artıq digər namizəd ölkələr kimi qoyulan meyarları yerinə yetirdiyi təqdirdə Avropa Birliyina üzv seçkiləcəkdir.

3) Mövcud Avropa Strategiyası çərçivəsində Türkiyə digər namizəd ölkələr kimi üzvlük üçün siyasi meyarları həyata keçirmək məqsədi ilə Avropa Birliyi ilə siyasi dialoqu davam etdirməlidir.

4) Bu müddət ərzində Avropa Birliyi Komissiyası Kopenhagen meyarları istiqamətində islahatların aparılmasından razılığını ifadə edirdi. (11, s. 396)

Helsinki Zirvə Toplantısında Avropa Birliyi ilə Türkiyə Cümhuriyyəti arasında əlaqələrin inkişafını tənzimləmək məqsədi ilə fəaliyyət göstərən Tərəfdaşlıq Komitəsinə Türkiyə üçün İştirak Tərəfdaşlığı Platformasının hazırlanması tapşırıldı.

Türkiyə üçün hazırlanan İştirak Tərəfdaşlığı Platforması 8 mart 2001-ci ildə Avropa Birliyi Şurası tərəfindən təsdiqləndi. Sənəddə əksini tapmış ilkin olaraq həyata keçirilməsi vacib olan addımları əks etdirən proqram və hərəkət təqvimini əks etdirən Milli Proqram Türkiyə tərəfindən 19 mart 2001-ci il tarixində təsdiqlənərək Avropa Komissiyasına 26 mart 2001-ci il tarixində təhvil verildi.

Platforma çərçivəsində 11 aprel 2000-ci il tarixli qərarla 8 alt komitə formalaşdırıldı. Bu alt-komitələr aşağıdakılardan ibarət idi:

- Kənd təsərrüfatı və balıqçılıq;
- Ticarət, sənaye və Avropa Kömür və Polad Birliyi məhsulları ;
- Daxili bazar və rəqabət;
- İqtisadi və valyuta məsələləri, sərmayə dövriyyəsi və statistika;

- Texnoloji yenilik, təhsil və araşdırma proqramları;
- Nəqliyyat, ətraf mühit, enerji və Trans-Avropa şəbəkələri;
- Regional inkişaf, məşğulluq və sosial siyasət;
- Gömrük, vergi, narkotik və çirkli pulların yuyulmasının qarşısının alınması.

Tərəfdaşlıq Komitəsinin tabeliyində fəaliyyət göstərən və keçirdiyi bütün iclaslardan sonra Tərəfdaşlıq Komitəsinə hesabatlar təqdim edən alt-komitələrin müstəqil qərar qəbul etmə səlahiyyətləri yoxdur. Bu komitələr yalnız müəyyən edilən sahələrdə Tərəfdaşlıq Sazişinin həyata keçirilməsini qiymətləndirir, müəyyən edilmiş istiqamətlərdə meydana çıxan problemləri təhlil edir və atıla biləcək addımlarla bağlı tövsiyələr verir. (32, s. 9)

Avropa Birliyina üzvlüyə qəbul proseduru ilə bağlı qaydalara görə yoxlama müddəti tamamlandıqdan və problemli məqamlar müəyyənləşdirildikdən sonra atılacaq əməli addımlarla bağlı müzakirələrin başlanılması nəzərdə tutulur. Müzakirələrin aparılması zamanı başlıqlar üzrə müzakirə aparılırdı. Lakin biz yenidən Türkiyəyə qarşı bu prosesdə Avropanın müəyyən qədər daha sərt yanaşmasını da qeyd etməliyik. Türkiyəli professor Rıdvan Karluk “Avropa Birliyi Türkiyə əlaqələri: sonu olmayan yol” əsərində bu barədə yazır: “Müzakirələrdə əvvəllər 31 fəsil var idi. Türkiyə və Xorvatiya üçün bu say 35-ə çatdırılmışdı”. Fikrimizcə, müzakirə fəsillərin sayının artırılması, nəticə olaraq isə Türkiyənin daha çox sınağa çəkilməsi Avropa Birliyini “xristian bloku” kimi görənlərin maraqlarına daha çox xidmət edirdi. (13, s. 387)

İştirak Tərəfdaşlığı Platforması Avropa Birliyi tərəfindən 2003, 2005, 2006, 2008-ci illərdə yenidən nəzərdən keçirildi, Milli Proqram isə 2003, 2005, 2008-ci illərdə yeniləndi.

2000-2002-ci illərdə Ecevitin rəhbərlik etdiyi koalisiya hökuməti tərəfindən bir sıra islahat paketləri irəli sürüldü. Bu paketlər edam cəzasının ləğvi, fikir və söz azadlığını məhdudlaşdıran hüquqi maneələrin aradan qaldırılması, qeyri-hökumət təşkilatlarının qurulması və fəaliyyəti, sərbəst toplaşmaq azadlığı ilə bağlı idi. Lakin 2001-ci ildə başlayan iqtisadi böhran səbəbindən növbədənkənar seçkilərə getməyə məcbur olan Ecevit hökumətinin bu islahatları davam etdirməsi mümkün olmadı. (12, s. 174)

3 noyabr 2002-ci ildə keçirilən seçkilər Türkiyə tarixi üçün bir neçə cəhətdən əlamətdar oldu. Belə ki, bu seçkidə Avropa Birliyi tərəfindən də uzun müddət tənqid edilən koalisiya hökumətləri dövrünə son qoyuldu, Ədalət və İnkişaf Partiyası (ƏİP) təkbaşına hakimiyyətə gəldi. Ədalət və İnkişaf Partiyasının sədri Rəcəp Tayyib Ərdoğan siyasət qadağasına görə seçkilərdə iştirak edə bilmədi. Bu səbəbdən hökumətin təşkil edilməsi ƏİP-in Kayseridən seçilmiş millət vəkili Abdullah Gülə həvalə edildi. Beləliklə 18 noyabr 2002-ci il tarixində Türkiyə Cümhuriyyətinin 58-ci hökuməti quruldu. Hakimiyyətə gəldiyi ilk günlərdən etibarən ƏİP Avropa Birliyina tam üzvlüyü strateji hədəf elan etdi və “Kopenhagen meyarları”nı “Ankara meyarları” olaraq gördüyünü bəyan etdi. Bu ƏİP-i özündən əvvəlki siyasi islam düşüncəsinin daşıyıcıları olan siyasi qüvvə, hərəkat və partiyalardan fərqləndirən əsas cəhət oldu. ƏİP hökuməti bu məqsədlə vacib layihələr həyata keçirməyə başladı. Hökumətin proqramında bu barədə deyilirdi: “Türkiyənin Avropa Birliyina tam üzvlüyü hökumətimizin başlıca hədəflərindən biridir. Bu məqsədlə, Türkiyənin namizədliyinin genişləmə müddətində geridönməzliyinin sübuta yetirilməsinə, üzvlük müzakirələrinin başlamasına çalışacağıq. Hökumətimiz Kopenhagen meyarlarını tam olaraq yerinə yetirməkdə qərarlıdır. Türkiyənin, Avropa Birliyi ailəsi içərisində haqqı olan yeri ən qısa zamanda tutmasının hər iki tərəfə qazanc gətirəcəyi, bundan əlavə Avropa qitəsindən kənarda belə sülh, sabitlik və təhlükəsizlik baxımından müsbət nəticələr doğuracağı şəksizdir”. (10, s. 29; 12, s. 174; 15, s. 8014)

Türkiyənin Avropa Birliyi yolunda əsas maneələr sayılan Yunanıstanla münasibətlər və Kipr məsələsində isə 58-ci hökumətin proqramında belə deyilirdi: “Biz qarşılıqlı iqtisadi maraqlara əsaslanaraq Yunanıstan ilə əlaqələri daha da gücləndirməyə davam edə-

cəyik və bu əlaqələrin yaradacağı etimad mühiti daha mürəkkəb siyasi problemlərin həlli üçün əsas yaradacaqdır.

Hökumətimiz Kipr probleminə mütləq bir həllin tapılmasının zəruri olduğunu düşünür. Bu həll prosesində gələcəkdə adadakı türk varlığını təhlükə altında qoyacaq heç bir cəhdə icazə verilməyəcək". (15, s. 8015)

Avropa Birliyina üzvlük yolunda qərarlı olduğunu hər bir fürsətdə təsdiq edən dövrün siyasi iradəsi islahat cəhdlərini də xeyli artırdı və sürətləndirdi. Beləliklə də, müzakirələrin başlanılması üçün ön şərt sayılan siyasi tələblərin yerinə yetirilməsi üçün çoxlu sayda qanunlar Türkiyə Böyük Millət Məclisində qəbul edildi. Əsas insan hüquq və azadlıqlarının çərçivəsini genişləndirən, demokratiya və hüququn üstünlüyünü, fikir, ifadə azadlığı və insan haqlarının qorunmasını qarşıya məqsəd qoyan islahatlar davam etdirildi.

Bu səylər nəticəsində 12-13 dekabr 2002-ci il tarixlərində keçirilən Kopenhagen sammitində Avropa Birliyi Şurası Türkiyəyə üzvlük müzakirələrinə 2004-cü ilin dekabrından etibarən başlanacağını bildirdi. Qısa müddət hakimiyyətdə olan 58-ci hökumət bu prosesi daha da sürətləndirməyə çalışırdı. Hətta üzvlük müzakirələrinin daha erkən - 2003-cü ildə başlanılması üçün baş nazir Abdullah Gül o dövrdə Avropa Birliyinın sədri olan Rasmussenlə ciddi danışıqlar aparır və bunu israrla tələb edirdi. (31)

ƏİP-nin sədri Rəcəb Tayyib Ərdoğanın 2003-cü il martın 9-da keçirilən təkrar seçkilərdə Siirtdən TBMM-nə seçilməsindən sonra Abdullah Gülün rəhbərlik etdiyi 58-ci hökumət istefa verdi. Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə martın 14-də 59-cu hökumət quruldu. 59-cu hökumət qurularkən Türkiyənin Avropa Birliyina üzvlüyü və ABŞ-ın İraqda anti-terror əməliyyatları xarici siyasət gündəmində olan əsas məsələlər idi. R.T.Ərdoğanın rəhbərlik etdiyi partiyanın siyasi düşüncəsinin təməlində əsasən yeni osmanlıçılıq dayansa da, bu siyasi düşüncə daha çox güclü islam dövləti arzusunda olsa da, hətta bu hökumətin siyasi kimliyi tədqiqatçılar və siyasi təhlilçilər tərəfindən "mühafizəkar demokrat" kimi xarakterizə olunsa da hələlik Türkiyənin yetəri qədər güc qazanmadığı və siyasi hakimiyyətin möhkəmlənmədiyi dövrdə Avropa Birliyina inteqrasiya məsələsinə qarşı çıxmır və bu istiqamətdə lazım olan addımları atmağa çalışırdı. Bu siyasi düşüncə bir növ Avropadakı anti-türk qüvvələrinin bütün bəhanələrini kəsməyə, bununla da məsələnin Türkiyənin meyarlara cavab verməsi ilə bağlı olmadığını həm dünya, həm də türk ictimaiyyətinə sübut etməyə çalışırdı. (7, s. 176)

Bu baxımdan 59-cu hökumətin proqramında Avropa Birliyi ilə əlaqələrə aid hissədə deyilirdi: "Türkiyənin Avropa Birliyinə tam üzvlüyü hökumətimizin başlıca hədəflərindəndir. 3 noyabr seçkilərindən uğurla çıxdıqdan sonra Avropa Birliyinə ciddi təsir göstərdik və 2004-cü ilin dekabrında üzvlük müzakirələrinin başlaması üçün tarixin müəyyən edilməsi ƏİP hökuməti dövründə əldə olunmuş nailiyyətdir. Hökumətimiz Kopenhagen meyarlarının tam yerinə yetirilməsinə sadiqdir. Türkiyənin Avropa Birliyi ailəsi içərisində haqqı olan yeri ən qısa zamanda tutması iki tərəfə də qazanc gətirəcək, Avropa qitəsindən kənarda da sülh, sabitlik və təhlükəsizlik baxımından, şübhəsiz ki, müsbət nəticələr doğuracaqdır". (15, s. 8115)

Beləliklə, ƏİP hökumətləri 2002-2004-cü illər ərzində Türkiyə Böyük Millət Məclisində xeyli sayda qanun layihələrinin qəbul edilməsinə nail oldular. Bu illər ərzində xüsusən əsas insan hüquq və azadlıqları başda olmaqla bir sıra sahələri əhatə edən 17 islahat paketi həyata keçirildi.

2003-cü ilin yayında Ədalət və İnkişaf Partiyasının TBMM-ə təqdim etdiyi və Məclisdə qəbul edilən yeddinci Uyğunlaşma Paketi Türkiyədə bir neçə il əvvələ qədər tabu sayılan mövzuları əhatə edirdi. Hətta bu paketdə Türk dilindən əlavə başqa dillərdə təhsil və teleradio yayım məsələləri də var idi. Bu baxımdan paketdə nəzərdə tutulan tədbirlər Kopenhagen meyarlarının kağız üzərində də olsa böyük bir qisminin yerinə yetirilməsi demək idi. (5, s. 68)

15 avqust 2003-cü ildə Türkiyə tərəfindən hazırlanan 2003-2006-cı illər üzrə III Qoşulma ərəfəsində İqtisadi Proqram Avropa Komissiyasına təqdim edildi.

Avropa Birliyi Komissiyası 2003-cü il noyabr ayının 5-də həmin il üçün Türkiyənin İnkişaf hesabatı və Strategiya Sənədini açıqlandı. Bu sayca Türkiyə üçün hazırlanmış altıncı inkişaf hesabatı idi. Bu hesabatda Türkiyənin Avropa standartlarını tətbiq etməsi ilə bağlı bəzi problemlərin olduğu göstərilirdi. “Siyasi meyarlar və gücləndirilmiş siyasi dialoq” adlı bölmədə bəzi hüquqi tənzimləmələr və düzəlişlərlə bağlı tənqidi mövqe ortaya qoyulmuşdu. Lakin əvvəlki 5 inkişaf hesabatına nisbətən 2003-cü il hesabatında sadalanan çatışmazlıqlar daha az idi. Bu isə Türkiyənin Kopenhagen meyarlarına uyğunlaşması istiqamətində vacib bir göstərici kimi dəyərləndirilirdi. Gücləndirilmiş siyasi dialoq məsələsinə gəlincə Avropa Birliyi Kipr probleminin həll edilməməsinin Türkiyənin Avropa Birliyi ilə bağlı gözləntilərinin qarşısında böyük bir maneə olduğu ilə bağlı hesabatda Türkiyəyə xəbərdarlıq edirdi. Bu həm də Türkiyə ilə başlayacaq üzvlük müzakirələrində Yunanıstan və Kipr Respublikasının müsbət qərarı dəstəkləməsi üçün lazım olan addımlara bir işarə idi. (13, s. 500; 28, s. 16)

İqtisadi sahədə qiymətləndirmə zamanı bəzi makroiqtisadi problemlər qeyd edilsə də, həyata keçirilən islahatların bazar iqtisadiyyatının inkişafına xidmət etdiyi və mühüm bir inkişaf qeydə alındığı vurğulanırdı. Avropa Birliyi standartlarına uyğunlaşma isə ən zəif inkişaf qeydə alınan istiqamət kimi göstərilirdi. (13, s. 501)

2003-cü ilin dekabr ayının 12-13-də keçirilən Avropa Birliyinın növbəti Brüssel Sammitində Avropa Birliyi Komissiyasının hesabatı və tövsiyələrinə əsasən 2004-cü ilin dekabrında keçiriləcək zirvə toplantısında Türkiyə ilə bağlı qərarın veriləcəyi bir daha bəyan edildi.

2004-cü ilin yanvarında edam cəzasının ləğvini nəzərdə tutan Avropa İnsan Haqları Konvensiyasının 13-cü protokolu Strasburqda Türkiyə tərəfindən imzalandı. (13, s.718)

Yanvarın 14-də Avropa Birliyinın Komissiyasının rəhbəri Romano Prodi Ankaraya səfər etdi. Romano Prodi Türkiyənin AB üzvlüyü üçün həyata keçirdiyi islahatları təqdir etdiklərini ifadə etdi. O, Demokratiya Partiyasından olan bir zamanlar həbs edilmiş deputatların azad edilməsini və Kipr probleminin həlli üçün səy göstərilməsini istədi. Avropa Birliyində Türkiyənin üzvlüyü ilə əlaqədar vahid bir fikrin olmadığını deyən R.Prodiyə Türkiyənin baş naziri R.T.Ərdoğan, "1999-cu ildə Helsinkidə sizin dövrünüzdə başlayan prosesi, vəzifə səlahiyyətlərinizin tamamlanması ilə birlikdə tamamlamağınızı istəyirik. Dekabrda atılacaq əks addım nəticəsində meydana çıxa biləcək siyasi və strateji nəticələri yaxşı başa düşdüyünüzə ümid edirik. Mənfi cavab, əlaqələri təhlükəli istiqamətə yönəldəcək" dedi. Prodi isə hazırlanacaq Türkiyə hesabatının ədalətli və obyektiv olacağına söz verdi. (3)

Türkiyə Böyük Millət Məclisindəki nitqində isə Prodi o günə qədər Avropa liderlərinin etiraf edə bilmədiyi bir həqiqəti açıq şəkildə dilə gətirdi. O dedi: “Türkiyədəki vəziyyətdən fərqli olaraq, Avropa Birliyində Türkiyənin üzvlüyü ilə bağlı ictimai rəy yekdil deyil. Mənim fikrimcə, Avropa Birliyində və Türkiyədəki siyasi liderlərin bu siyasi reallığı bilməsi və onu düzgün idarə etməsi vacibdir. Bəziləri dini məsələlərdən narahatdırlar. Digərləri Avropa Birliyinə inteqrasiya edəcək ölkənin böyüklüyündən və demoqrafik göstərilcilərindən, Türkiyənin iqtisadi inkişafından və Türkiyənin coğrafi vəziyyətindən narahatdırlar. Bu narahatlıqlara cavab vermək lazımdır”. (27, s. 3)

Prodinin ardınca daha bir Avropalı siyasi lider, Almaniyanın və Avropa Birliyinın gələcək əsas söz sahiblərindən biri olacaq Alman Xristian-Demokrat Birliyi Partiyasının lideri Angela Merkel fevralın 16-da Ankaraya səfər etdi. Bu səfəri zamanı o, Türkiyəyə “imtiyazlı namizədlik” verilməsi fikrini irəli sürdü. (29)

Mart ayının 2-4-ü tarixlərində isə Avropa Parlamentinin sədri Pat Cox Türkiyədə səfərdə oldu. Türkiyəyə rəsmi səfər edən ilk Avropa Parlamenti sədri olan P.Cox Türkiyə

Böyük Millət Məclisinin ümumi iclasında və İstanbulda keçirilən İqtisadi İnkişaf Fondunun təşkil etdiyi "Avropa Birliyinın gələcəyi və Türkiyə" adlı tədbirdə iştirak etdi. Martın 8-də İrlandiyanın xarici işlər naziri Brian Koven, Hollandiyanın xarici işlər naziri Bernard Bot, səlahiyyətli nümayəndə Xavier Solana və Genişlənmə Məsələləri üzrə Komissiyanın üzvü Günter Verheugen Ankarada səfərdə oldu, xarici işlər naziri Abdullah Gül və baş nazir Rəcəb Tayyib Ərdoğanla danışıqlar apardılar. (13, s. 718)

Yüksək səviyyəli avropalı rəsmilərin ardıcıl səfərlərinin əməli fəaliyyətlə tamamlanmaması, R.Prodinin Avropanın Türkiyəyə münasibəti haqqında etiraf xarakterli fikirləri onsuz da siyasi düşüncə olaraq Avropa dəyərlərinə o qədər də heyranlıqla yanaşmayan R.T.Ərdoğan iqtidarını Aİ siyasətinə yenidən baxmağa məvbur edirdi. Mayın 21-də Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın "Wall Street Journal"da nəşr edilən açıqlamasında deyilirdi:"Avropa Birliyi Xristian Klubu olaraq görünmək istəmirsə, bizə müzakirə tarixi verməlidir. Əgər verməsələr, xalqın Qərbə qarşı yanaşması dəyişəcəkdir... və islam dünyası Qərbin onun inancını qəbul etməyən xalqlarla inteqrasiyaya hazır olmadığını söyləyəcəkdir". (30)

Oktyabrın 6-da Türkiyə üçün növbəti inkişaf hesabatı və tövsiyyə sənədi açıqlandı. Bu sənədlərlə birgə Türkiyənin Avropa Birliyinə üzvlüyünü yarada biləcəyi təsirlərlə əlaqədar olaraq 52 səhifəlik "Təsir hesabatı" da yayıldı. İnkişaf hesabatında Türkiyənin Kopenhagen siyasi meyarlarını yerinə yetirdiyi yazılırdı. (19, s. 14)

2004-cü il İnkişaf Hesabatında Türkiyənin 2007-2013-cü illər ərzində Avropa Birliyinın maliyyə büdcəsi planında "müzakirələri davam etdirən namizəd ölkə" qismində qeyd ediləcəyi göstərilmişdi. Başqa sözlə desək, Avropa Birliyi dolayı yolla da olsa Türkiyənin tamhüquqlu üzvlüyünün 2014-cü ildən tez mümkün olmadığına işarə edirdi. Bunun bir səbəbi də anti-türk mövqeli qüvvələri, Türkiyənin Avropa Birliyinə qoşulmasının ciddi xərclərə səbəb olacağı ilə bağlı bəhanələr gətirən qüvvələri sakitləşdirmək idi. Halbuki Avropa Birliyi Komissiyasının büdcəyə cavabdeh olan üzvü Mikaele Şreyer Türkiyənin üzvlüyünün Avropa Birliyinə maliyyə baxımından çətinlik yaratmadığını açıqlayaraq deyirdi: "Türkiyənin Avropa Birliyinə üzv olması Avropa Birliyinə çox da böyük çətinlik yaratmaz. Bu Türkiyə ilə üzvlük müzakirələrin başlanmaması üçün səbəb deyildir". (13, s. 501)

2004-cü il üçün "İnkişaf hesabatı"nda Türkiyəni ciddi şəkildə narahat edən və subyektiv fikirlərə əsaslanan mühüm məqamlardan biri azlıqlarla bağlı hissə idi. Bu hissədə yazılırdı: "2003-2004-cü tədris ilində məktəblərdə dərs vəsaiti kimi istifadə edilən tarix kitabları azlıqları hələ də etibarsız, xain və dövlətə zərər verən ünsürlər kimi göstərir. Lakin rəsmi orqanlar dərsliklərdə ayrı-seçkilik olan hissələri araşdırmağa başlamışdır". (17, s. 40)

"Təsir hesabatı"nda isə Türkiyənin Avropa Birliyinə üzvlüyünün potensial təsirləri ilə əlaqədar olaraq çox maraqlı məsələlər irəli sürülürdü:

- Türkiyənin Avropa Birliyinə üzvlüyü İttifaq daxilində iqtisadi inkişaf səviyyələri arasında fərqi artıracaqdır. Türkiyə bu səbəbdən Avropa Birliyi fondlarından uzun müddət faydalanacaq. Avropa Birliyindəki bəzi bölgələr isə mövcud qaydalar çərçivəsində təmin etdikləri Avropa Birliyi mənbələrini itirəcək.
- Türkiyənin üzvlüyü Avropa Parlamentindəki deputat yerlərinin sayına da öz təsirini göstərəcəkdir. Beləliklə də, Türkiyə əhalisinin sayına görə qərarların qəbulu prosesində güclü təsirə malik olacaq.
- Kənd təsərrüfatı Türkiyədəki ən vacib iqtisadi və sosial sektorlardan biridir. Türkiyə bu istiqamətdə də ciddi kömək almağa çalışacaq.
- Əhalisinin sayının çoxluğu, coğrafi mövqeyi, iqtisadi, təhlükəsizlik və hərbi potensialı baxımından Türkiyənin Avropa Birliyinə üzvlüyü əvvəlki genişlənmələrdən fərqli olacaq. (13, s. 503)

**Nəticə**

Avropa Birliyi və onun genişlənmə siyasətində Türkiyə Cümhuriyyətinin yeri ilə bağlı məsələlərin təhlili göstərir ki, həm soyuq müharibə dövründə, həm də SSRİ-nin dağılmasından sonrakı mərhələdə Avropa Birliyinın Yaxın və Orta Şərq, eləcə də Aralıq dənizi ölkələrinə istiqamətlənmiş siyasətinin uğurla nəticələnməsi xeyli dərəcədə Türkiyənin mövqeyindən asılı olmuş və bu gün də bundan asılıdır. Həm Yaxın və Orta Şərq regionunda ciddi dini, etnik, mədəni və siyasi nüfuza malik olan, həm də Aralıq dənizi regionunda əhəmiyyətli boğazlara nəzarət edən Türkiyə Avropa Birliyinın post-sovet Şərqi Avropası, həm də Qafqaz regionu ölkələri ilə əlaqələri üçün vacib və əhəmiyyətli ölkədir. Türkiyənin tarixi, dini və siyasi baxımdan Yaxın Şərq regionu, iqtisadi və nəqliyyat marşrutlarına nəzarət baxımından Aralıq dənizi və Qara dəniz, həm milli, həm dini, həm iqtisadi-tranzit baxımından isə Qafqaz ölkələri üzərində böyük təsiri vardır. Bu baxımdan XX əsrin 50-ci illərindən başlayaraq formalaşan Avropa Cəmiyyətləri və yaxud Avropa Birlikləri adlanan qurum daim şə rqə doğru genişlənməyə çalışmışdır.

Türkiyənin Avropa Birliyinə daha əvvəl namizəd və üzv olmuş və bu gün hələ də namizədlik statusuna malik olan digər ölkələrlə bərabər hüquq və statusla tam üzvlüyə nail olması sadəcə Türkiyə baxımından deyil, Avropa Birliyinın möhtərəmliyi və etibarlılığı baxımından da böyük əhəmiyyət daşıyır. Bu çərçivədə Avropa Birliyinın üzvü olmaq üçün sadəcə Türkiyənin siyasi iradə göstərməsi yetərli deyildir. Prosesin düzgün bir şəkildə tamamlanması üçün Avropa Birliyinın da eyni siyasi iradəni göstərməsi vacibdir.

Avropa Birliyinın və ya Almaniya, Fransa kimi Avropa Birliyinın liderləri olan dövlətlərin Türkiyə ilə bağlı mövqelərini qətiləşdirə bilmədikləri bir şəraitdə siyasi iradənin nümayiş edirilməsindən danışmaq da çətindir. Avropada eyni zamanda Türkiyənin Avropa Birliyindən sürətlə uzaqlaşdırılmasına və uzaqlaşmasına mane olmaq istəyən qüvvələr də mövcuddur.

## ƏDƏBİYYAT


1. Həmidova, L. Türkiyə və Avropa Birliyi münasibətlərində milli azlıqlar məsələsi // Tarix və onun problemləri, 2009. № 4, s. 240-244.
2. Vaqif qızı, L. Avropa Birliyinın Şərqə inteqrasiya siyasətinə dair (XX əsrin 90-cı illəri) // Tarix və onun problemləri, 2009. № 4, s. 152-156.
3. Ab'ye Çok Yakınsınız // Milliyyet Gazetesi, 2004, 16 yanvar.
4. Aktaş, M. AB ve Türkiye / M.Aktaş. Bursa: Dora Yayınları, 2016, 457 s.
5. Aldur, M. 58. ve 59. Türkiye Cumhuriyyeti Hükumetlerinin Ortadoğu Politikası. Yüksek Lisans Tezi, Konya, 2009, 119 s.
6. Aslan, R. Türkiye-Avrupa Birliği: Sancılı Gelişen Ilişiki. Ankara Üniversitesi SBF Dergisi, 2000, №55-3, s. 9-28.
7. Bozan, M. AB Raporları Üzerinden Ak Parti Dönemi Demokratikleşme Politikalarının Analizi // Pesa Uluslararasi Sosyal Araştirmalar Dergisi, Şubat 2018, Cilt:4, Sayı: 1, s. 173-183.
8. Baydarol, C. Avrupa Birliğinin Genişlemesi: Altılar Avrupasından Onbeşler Avrupasına, Onbeşler Avrupasından...? C.Baydarol. İstanbul: Avrupa Komisyonu Türkiye Temsilciliği Yayını, 1991, 31 s.
9. Cumhuriyyet gazetesi. 1999, 6 iyun, s. 4.
10. Derviş, K. Çağdaş Tükiyenin Avrupa dönüşümü. K.Derviş, D.Qros, M.Emerson, Ü.Sinan. İstanbul: Doğan Kitab. 2004, s. 29.
11. Dura, C. Avrupa Birliği, Gümrük Birliği ve Türkiye. C.Dura, H.Atik. Ankara: Nobel Yayın Dağıtım, 2003, 792 s.
12. İnat, K. AK Partinin 15 Yılı: Dış Politika. K.İnat, A.Aslan, B.Duran. İstanbul: Seta, 2017, 557 s.

13. Karluk R, Avrupa Birliği Türkiye İlişkileri: Bir Çıkmaz Sokak. İstanbul: Beta, 2013, 838 s.
14. Lüksemburg Hüsranı // Yeni Şafak Gazetesi, 1999, 8 dekabr.
15. Neziroğlu, İ. Hükümetler-Programları ve Genel Kurul Görüşmeleri / İ.Neziroğlu, T.Yılmaz, Ankara: TBMM Basım Evi, Cilt 10, 2013, s.8115.
16. Özer, A. Avrupa Birliğine Tam Üyeliğin Eşiğinde Türkiye // Yönetim ve Ekonomi, 2009, Cilt: 16, Sayı:1, s. 89-105.
17. Türkiye'nin Katılım Yönünde İlerlemesi Hakkında 2004 Yılı Düzenli Raporu. Brüksel, 2004, 6 Ekim, SEC (2004) 1201, 164 s.
18. Uysal, C. Türkiye-Avrupa Birliği İlişkilerinin Tarihsel Süreci ve Son Gelişmeler // Akdeniz İ.İ.B.F. Dergisi (1). 2001, s. 140-153.
19. 2004 Regular Report on Turkey's Progress Towards Accession / Brussels, 2004, 6 oktyabr, SEC (2004), 187 s.
20. Berend, İ.T. The Further Enlargement of the European Union in a Historical Perspective // European Review, 1999, May, Vol. 7, № 2, pp. 180-189.
21. Bulgaria, Romania and Turkey, Brussel, 5 November 2003, p.16.
22. European Review, 1999, May, Vol. 7, №2, pp. 180-189.
23. February, 2005, Nos. 1-14, 150 p.
24. Financial Times, 1998, 6 March.
25. Journal of European Studies, 1999, 7(1-2), s. 109-165.
26. Kabaalioğlu, H. Turkey and the European Union-Converging or Drifting Apart? // Marmara Journal of European Studies, 1999, 7(1-2), s. 109-165.
27. Turkey in Europe Monitor, January 2004-February 2005, Nos. 1-14, 150 p.
28. Strategy Paper and Report of the European Comission on the Progress Towards Accession by Bulgaria, Romania and Turkey, Brussel, 5 November 2003, p.16.
29. 2004-02-16 Nürnberger Nachrichten (www.ab.gov.tr/_36738.html). İstifadə tarixi: 05.08.2018.
30. Almazsanız kötü olur. 22.05.2004 (www.hurriyet.com.tr/ gundem/almazsaniz-kotu-olur-227525), istifadə tarixi: 05.08.2018.
31. Başbakan Gül Rasmussen'den 2003 için Müzakere Tarihi istedi. 13.12.2002 (www.habervitrini.com), istifadə tarixi: 10.02.2009.
32. Türkiye-AB İlişkileri. TC Avrupa Birliği Bakanlığı Yayını No 3 (www.ab.gov.tr)

***Summary***

***Nargiz Guliyeva***

***Turkey in the EU's Enlargement Policy in the Late Twentieth and Early Twenty-First Centuries***

The article aims to clarify the main directions of the EU's enlargement policy in the late 1990s and early XXI centuries, and the nature of relations between the EU and the Republic of Turkey. The main question of the study is to determine what factors hinder the process of Turkey's accession to the European Union during this period. It is known that the authorities in power in Turkey at that time were taking consistent steps to become a full member of the union. However, in accordance with the geopolitical interests of European countries, obstacles have been created at different times. In this regard, the comparative analysis of the Luxembourg, Cardiff and Vienna summits and the documents signed within these summits is of special importance against the background of geopolitical changes. One of the important issues involved in the study is the decisions of the EU Summit of Heads of State and Government on Turkey on December 10-11, 1999 in Helsinki, Finland. It was at this summit that the European Commission declared expansion to the East as a priority, and approved a program for a number of states to receive candidate status. The full candidacy of the Republic of Turkey was determined at the Helsinki Summit and a fundamentally new era in Turkish-European Union relations had begun. The analysis of the further development of these decisions and processes is also important for clarifying the current state of Turkish-EU relations in modern times.

Various research methods of history and political science were used in the research, and an idealist-liberalist methodological approach was taken as a basis.

The main conclusion of the analysis is that Turkey's political will alone was not enough to become a member of the European Union during the period under review. For the process to be completed properly, the European Union had to show the same political will. It has not been possible to demonstrate political will in a situation where the European Union or the leaders of the European Union, such as Germany and France, have not been able to resolve their positions on Turkey.

***Keywords:*** *European Union, Turkey, European integration, Customs Union, agreement*

***Резюме***

***Наргиз Гулиева***

***Турция в политике расширения ЕС в конце двадцатого и начале двадцать первого веков***

Статья призвана разъяснить основные направления политики расширения ЕС в конце 1990-х – начале XXI веков, а также характер отношений между ЕС и Турецкой Республикой. Главный вопрос исследования – определить, какие факторы тормозят процесс вступления Турции в Евросоюз в этот период. Известно, что власть в Турции в то время предпринимала последовательные шаги, чтобы стать полноправным членом союза. Однако в соответствии с геополитическими интересами европейских стран препятствия создавались в разное время. В этой связи сравнительный анализ саммитов в Люксембурге, Кардиффе и Вене и документов, подписанных в рамках этих саммитов, имеет особое значение на фоне геополитических изменений. Одним из важных вопросов, затронутых в исследовании, являются решения Саммита глав государств и правительств ЕС по Турции 10-11 декабря 1999 г. в Хельсинки, Финляндия. Именно на этом саммите Европейская комиссия объявила расширение на Восток приоритетом и одобрила программу для ряда стран по получению статуса кандидата. На саммите в Хельсинки была определена полная кандидатура Турецкой Республики, и началась принципиально новая эра в отношениях Турции и Европейского Союза. Анализ дальнейшего развития этих решений и процессов также важен для прояснения текущего состояния отношений между Турцией и ЕС в наше время.

В исследовании использовались различные исследовательские методы истории и политологии, за основу взят идеалистско-либеральный методологический подход.

Главный вывод анализа состоит в том, что одной политической воли Турции было недостаточно, чтобы стать членом Европейского Союза в течение рассматриваемого периода. Для того, чтобы процесс завершился должным образом, Европейский Союз должен был проявить такую же политическую волю. Было невозможно продемонстрировать политическую волю в ситуации, когда Европейский Союз или лидеры Европейского Союза, такие как Германия и Франция, не смогли решить свои позиции по Турции.

***Ключевые слова:*** *Европейский Союз, Турция, европейская интеграция, Таможенный союз, соглашение*

Redaksiya heyətinin üzvü t.e.d., prof. Qasımlı Musa Cəfər oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**F İ L O L O G İ Y A**

**UOT 81;1**

# SÜMERCE TÜRKÇE İLİŞKİSİNİN TARİHİ BOYUTU

**Nazim HÜSEYNLI** *

*Məqalə redaksiyaya daxil olmuşdur: 23 sentyabr 2020; çapa qəbul edilmişdir: 7 oktyabr 2020; online-da çap edilmişdir: 31 mart 2021.*

*Received: 16th of September, 2020; accepted: 7th of october, 2020; published online: 15th of March, 2021.*

***Anahtar Kelimeler:*** *Sümer Türk ilişkisi, ilişkinin tarihi boyutu, yayılma alanı bakımından ortaklık, dil benzerlikleri*

## Giriş

Dünya uygarlığının oluşturulmasında Sümerlilerin temel yapı taşı olarak görülmesi yaygın görüşlerden biridir. Sümerlilerin yaşadığı coğrafi konum Mezopotamya toprakları olarak gösterilmektedir. Sümerler, burada böyük bir uygarlık kurarak varlıklarını yaklaşık olarak 2000 yıl korumuşlardır. 6000 yıl önce varlığını sürdürmüş Sümerler günümüzde de Irak'ın Bağdat şehrinden Basra Körfezi'ne kadar olan bölgede yaşıyorlardı. Göçlerin tarihinin kesin verilere dayanarak söylenmesi mümkün olmadığından yapılan kazılarla göreceli kronojiler ileri sürülmektedir.

Tarihi kaynaklara göre Türklerin en eski yurtlarının Balkan, Aral ve Isık Göllerini kapsayan çevre olduğu belirtilmektedir (25, 39). Böyle olmasına karşın, Bozkır Kültürünün temeli üzerinde yükselip, at ve demir ile en eski zamanlarından itibaren yerleşiklerin üzerine hâkimiyet kuran Türkler (14, 208-218). belirtilen sınırların çok çok dışına taşmışlardır. O yüzden, başka çağlarda başka alanlar onların yurtları olmuştur.

6. yüzyılda coğrafi isim olarak Orta Asya "Türkiye" adıyla bilinirken, 9. ve 10. yüzyılların Türkiyesi değişerek Volga'dan Orta Avrupa'ya kadar sokulan alan olmuştur. Daha sonralar Türklerin adıyla anılan saha yine değişmiş 12. yüzyılın Türkiyesi Anadolu, 13. yüzyılın Türkiyesi ise Mısır ve Suriye'yi kapsamıştır. (14, 45)

Onüçüncü yüzyıla gelindiğinde Türk yurdu, dünyanın çeyreği olarak kayda geçecek biçimde Çin ve Hindistan sınırlarından Rum ve Rus ülkelerinedek genişlemiştir. Avrupalı gezginlerin gözüyle yine aynı çağlarda Büyük Turkia tanımı yapılır ki sınırlar bu kez Tuna'dan Altaylar'a kadar olan sahayı kapsamıştır. Bu tanım içinde Kumanların yurdu (Kıpçak İli) ve Turkia adı verilen Selçuklu Anadolusu da vardır (25, 41). Bu yüzyıldan itibaren sınırları Afrika yönüne taşan bir de Devleti't Türkiye (Memlûk Devleti) eklenir (9, 142). Bununla da kalmayıp Asya, Avrupa ve Afrika kıtalarında 16. yüzyılda hâkimiyet kuran Osmanlı Devleti, Asya dışında Türk nüfuzunu en geniş sınırına taşımıştır. O halde Türk yurdu en eski zamanlarından itibaren ya Sümerlilere komşudur ya Sümerli toprağıyla örtüşmüştür.

* Bakü Avrasya Universitesi, felsefi bilimler doktoru, profesör.
*e-mail: huseynli-n1956@rambler.ru*



**Şekil 1**. Türklerin Anayurdu ve Etki Alanları
**Kaynak:** 28

İki kültür arasındaki coğrafi ilişkiyi genetik incelemelerin de desteklediği görülür. Orta Asya uluslarının yahut boylarının genlerini irdeleyen bir çalışmada Asya ile Avrupa insanının karışarak bugünkü yapısını almasında Orta Asya'nın köprü rolü oynadığı belirtilmiştir (6, 1824-1838). Kazı bulgularına göre MÖ 4. binyıldan 3. binyılın başlarına uzanan zaman aralığında Türkmenistan'ın güneyi, Orta Doğu ile doğrudan ilişkili olup onun üzerinde kültürel etkisini hissettiren en önemli merkezlerdendir (19, 115). MÖ 3. binyıla gelindiğinde daha önceki dönemlerin icatları ve insan toplulukların çevrelerine sağladığı uyum ile gerçekleşen yenilenme, Türklerin tarih sahnesine çıkış yeri olarak kayda geçen Asya'nın orta yerinde – Türkistan yahut genelce kullanılan tabirle Orta Asya'da düzenli yerleşik hayatın toplumunu doğurmuştur (23, 196). Mezopotamya'da çıkan bulgular, Türkistan sınırlarındaki Altın Tepe kültür katmanlarının arkeolojik verileriyle karşılaştırıldığında düzenli yerleşimlerin öncülleri bakımından açıkça görülebilen benzerlikler göze çarpmaktadır. Altın Tepe, çömleklerden anlaşıldığına göre bir yandan Göksür tarzı bezeme örneklerini yerelde geliştirirken diğer yandan Mezepotamya'nın gözde kentlerinin gelişmişlik düzeyinde varlığını sürdürmektedir.

Mimarideki benzerlikler zigguratlarda, şehir kapılarını destekleyen kapı kulelerinde ve anıtsal yapıları kuşatan sade duvarların görünüm bakımından zenginleştirilmesinde ve katlı sıva ile güçlendirilmesinde görülebilir (19, 115).

Öte taraftan, sulu tarım yalnızca Sümerliler yoluyla iyi bildiğimiz Mezopotamya'da değil, MÖ 6. bin gibi erken bir dönemde Orta Asyanın güney batısında uygulanmıştır (18, 227). Böylelikle, Cilalı Taş Çağında dahi iki coğrafya arasında medeniyetin en calıcı atılımları bakımından bir ortaklık olduğu sezilir. Sadece sulama ile sınırlı olmayan bu ortaklık belli ki kültürün somut algısında dahi gözlenir. Mesela, Göksur Havzasındaki eski yerleşim yerlerinde bulunan yumru omuzları, iri göğüsleri ve dudakları olan oturur vaziyetteki yayvan kadın heykelcikleri (yontuları) Halaf kültürünün örneklerine benzer (18, 228).

İki medeniyetin geliştikleri bu coğrafyalarda konuşulan dillerin de ortaklıkları bulunur. Fritz Hommel, Sümerlilerin Türk-Tatar-Moğol toplumunun dili ile sıkı benzerliği olan bir dili konuştuğunu ortaya koymuştur. O bunu ileri sürerken 'Turan'daki Türk-Tatar-Moğol toplumlarının Sümer yurdunun en yakın komşuları olduğunu belirtmiştir (11, 352).

Ряд лингвистов объяснили причины, по которым заимствованные слова занимают постоянное место в лексике диалектов с разных сторон. Слова арабского и персидского происхождения, используемые в нашем современном языке, использовались в различные периоды исторического развития нашего языка, как в литературном языке, так и в наших диалектах, и дошли до наших дней. Производные слова арабского и персидского происхождения положительно влияют на обогащение азербайджанского языка сегодня и служат для обогащения словарного запаса. Известно, что ни один язык не берет слова из других языков без цели, и во всех языках есть производные, каждый из которых имеет определенную цель в словарном запасе языка. Процесс словообразования также обеспечивает интеграцию народов и культур за счет обогащения словарного запаса языков. Частью лексической структуры азербайджанского языка является уникальный лексикон диалектов восточной группы, который отличает эти диалекты друг от друга. Ряд специфических слов и терминов из диалектов восточной группы записан на основе материалов, собранных из разных диалектов. Слова и термины, включенные в словарный запас по приобретению, в основном относятся к определенным областям экономики. Поскольку в Азербайджане проживают представители разных наций, с представителями этих народов на этих территориях установились языковые контакты. Например, в результате татского и талышского языковых отношений ряд слов татского и талышского происхождения был перенесен в диалекты восточной группы. Отношения диалектов восточной группы азербайджанского языка с другими тюркскими языками также имеют древнюю историю. Поэтому некоторые слова турецкого происхождения в этих диалектах и диалектах имеют общетюркское происхождение. Эти приобретения можно сгруппировать как тюркизмы. Однако между заимствованными словами в диалектах восточной группы есть существенные лингвистические различия, а также сходство структуры. Это также приводит к тому, что носители этих языков не понимают друг друга полностью в процессе общения.

***Ключевые слова:*** *восточная группа, диалект, приобретение, иностранный*

Redaksiya heyətinin üzvü fil.e.d., prof. Qasımov İkram Ziyad oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 81**

# FRAZEOLOJİ EVFEMİZMLƏRİN FUNKSİONAL TƏHLİLİ

**Şəbnəm ORUCLU** *

*Məqalə redaksiyaya daxil olmuşdur: 14 avqust 2020; çapa qəbul edilmişdir: 25 sentyabr 2020, online-da çap edilmişdir: 31 mart 2021.*

*Received: 14th of August, 2020; accepted: 25th of September, 2020; published online: 15th of March, 2021.*

***Açar sözlər:** evfemizm, frazeoloji evfemizmlər, ingilis dili, təhlil*

## Giriş

Evfemizm termini yunan dilindəki "euphem" sözündən əmələ gəlmişdir, mənası "ədəblə danışıram" deməkdir. Dilçilikdə bu anlayış tabu olunmuş, qadağan olunmuş sözlərin yerinə işlənməsinə icazə verilmiş, qadağan olunmuş sözləri əvəz edən sözlərdir.

Qədim zamanlarda "eupheme" etimoloji baxımdan haqqında danışılması yaxud da adının çəkilməsi münasib olmayan dini məfhumların əvəzinə işlənən sözlər və birləşmələrə deyilirdi, bir sözlə, kafir danışığının (blaspheme) tərsi demək idi. Bu anlayışın etimologiyasını araşdıran zaman görünür ki, ilk mərhələdə dini qadağaların əmələ gəlməsi nəticəsində bu cür sözlərə ehtiyac yaranmışdı. Ən qədim evfemizmlər ifadələri qadağan olunmuş tanrıların adlarıdır (5, s. 86).

Evfemizmlərin tədqiqi ilə D.K.Zelenin, V.Xavern, Ç.Keyni, A.M.Kasev, X.Nurp, A.C.Kurkiyev, B.A.Larin, A.A.Xapanskaya kimi bir sıra tədqiqatçılar məşğul olmuşdur.

Dilçilik ədəbiyyatında "evfemizm" ifadəsinin bir çox tərifi, təhlili mövcuddur ki, bu da, evfemizmlər haqqında müəyyən fikrin formalaşmasına səbəb olur. Natiq üçün arzuolunmaz görünən, nəzakətli olmayan, ədəbsiz və ya təmkinsiz söz və ifadələrin istifadə olunması münasib deyildir. Danışanın evfemizmdən istifadə etməsinə təşviq edən əsas səbəb nəzakətdir. Və həqiqətən, daha çox hallarda bu evfemiyanın əsas prinsiplərindən biridir. Praqmatistlər – nəzakət prinsipini irəli sürmüşlər. Evfemizmlər bu prinsiplə yaradılmış, bir qayda olaraq, nitqdə, müxtəlif fiziki və əqli qüsurları ifadə edən sözlərin yumşaldılmasını təmin edir.

İngilis dilində evfemizmlərin tədqiqi dilçiliyin aktual problemlərindəndir. Bu problemin həlli müxtəlif sosial təbəqələrdə (məişət, tibb, publisistika) evfemizmlərin üslubi imkanlarını aşkar edir, ingilis dilinin ekspressiv sahələrini daha da dərindən dərk etməyə imkan yaradır.

## 1. Frazeoloji evfemizmlərin xarakterik xüsusiyyətləri

Hər bir dildə olduğu kimi ingilis dilində də bu və ya başqa kobud mənalı, insan qəlbinə toxunulacaq anlayışı bildirmək üçün frazeoloji evfemizmlərdən istifadə olunur. Frazeoloji evfemizmlərdə həm məna, həm də üslubi cəhətdən yaxınlıq olur. Bu isə onların sinonimlərinin yaranmasına səbəb olur. Məsələn: to kill oneself, yəni özünü öldürmək əvəzinə to commit suicide, to take one's own life, yəni həyatına son vermək, həyatına qıymaq və s. eyni frazeoloji evfemizmin müxtəlif formalarıdır.

Frazeoloji evfemizmlər fikri hərtərəfli, obrazlı və dəqiq ifadə etmək üçün əlverişli bədii vasitələrə çevirir. Bədii əsərlərin dilində və nitqdə belə evfemistik sinonim cərgələrdən çox istifadə olunur. Bu zaman canlı danışıq dili ilə əlaqə artır və frazeoloji ifadə

* magistrant, Bakı Avrasiya Universiteti
*e-mail: shebnem.orucluu@gmail.com*

yaradıcılığı zənginləşir. Məna və üslubca bir-birinə uyğun gələn, lakin işlənmə mövqeyinə görə fərqlənən frazeoloji evfemizmləri sinonim adlandıra bilərik. Məsələn: to comb somebody's hair, to give somebody a lecture, yəni bir kəsin cavabını vermək, bir kəsə yaxşıca dərs vermək, bir kəsin iynəsini vurmaq.

İngilis dilinin frazeoloji evfemizmlərində olan sinonimliyə yalnız ədəbi dildə deyil, danışıq dilində də rast gəlinir. Məsələn, to blacken smb's eye, yəni bir kəsin gözünü qaraltmaq, göyərtmək; to box smb's ear, yəni bir kəsin qulağının dibindən sillə vurmaq, to beat somebody to feel the pinch, yəni pulsuzluq hiss etmək, ehtiyac hiss etmək və s. The government raised taxes so much that even the rich began to feel the pinch.

Evfemizmlər kobud, nalayiq, deyimi münasib sayılmayan, hətta ayıb sayılan, nəzakətsiz hesab edilən söz və ifadələrin əvəzedicilərdir. Bu termin sadaladığımız ifadələrin yumşaldılması, layiqli və mərifətli, bəlağətli söz və ifadələrlə əvəz olunmasını bildirən frazeoloji birləşmələrdir. Məsələn: to die (ölmək) feilinin bir sıra evfemistk variantları mövcuddur: to go to one's last resting place (son mənzilə köçmək/getmək); to join the majority (əbədiyyətə qovuşmaq) və s.

Bob Harden went to his last resting place in a coffin made of packing cases. Bu cümlədə "coffin" (tabut) sözü olmasa, həmin ifadə "Bob Hardenin uzunmüddətli və axırıncı dəfə istirahətə getməsi" mənasında anlaşılardı.

Müasir mədəniyyətin inkişafı ilə əlaqədar olaraq dildə bir çox frazeoloji evfemizmlər yaranır. Məsələn: lying əvəzinə to be economical with the truth, giving a false coloring to the facts, to tell a tall story (or tale).

Linqvistik ədəbiyyatda evfemizmlərin kifayət qədər tərifinə rast gəlmək olar. Onlar təxminən bir-birinə oxşayan təriflərdir. Bu təriflər təhlil olunmuş və üç böyük qrupa bölünmüşdür.

Ç.Kapu, L.R.Qalperin, A.Spirs və başqaları hesab edirlər ki, evfemizmlər kobud və xoşagəlməz ifadələrin yumşaldılması funksiyasını yerinə yetirən sözlərdir. Bu zaman danışan nitq predmetini qiymətləndirir və düz ifadə onun tərəfindən kobudluq, sərtlik və nəzakətsizlik kimi qəbul olunur.

İkinci qrup alimlər isə evfemizmlərin bizə məlum olan tərifindən başqa sosial motivlərin vacibliyini də vurğulayırlar. E.Patric, A.Kasev, K.Allan, E.İrina və s. alimlər bu qrupa daxildir. Bu zaman əks tərəf üçün kobud və ya xoşagəlməz söz yumşadılır. Bu hal kontekst və nitqin şərtlərindən asılı olaraq əmələ gəlir.

C.Lourens, C.Niman, K.Silver və başqalarına görə, evfemizmlərin əsas funksiyalarından biri reallığın gizlədilməsidir. Burada danışan qəbulolunmaz bəzi söz birləşmələrini nəinki sadəcə yumşaldır, həm də hadisənin mahiyyətini gizlədən ifadələri seçir.

## 2. İngilis dilində frazeoloji evfemizmlərin funksional təhlili

İngilis dilində frazeoloji evfemizmləri leksik, semantik məna qruplarına, işlənmə funksiyasına görə aşağıdakı kimi qruplaşdırmaq olar:

*Ölüm və xəstəliklərin adlandırılması ilə əlaqəli frazeoloji evfemizmlər* ingilis dilində çox rast gəlinir və istifadə olunur. Aşağıdakı nümunələrə diqqət yetirək:

"to die" – "pass away", "departed", "negative patient outcome";

"to kill" – "put to sleep" (hər hansı bir şəxs tərəfindən öldürülən insan)

"murder of unborn babies" – "late-term abortion" (dünyaya göz açmamış öldürülən körpələr);

"death penalty" – "capital punishment" (ölüm cəzası);

to breath one's last-to depart this life (bu həyatı tərk etmək, həyatla vidalaşmaq);

done for (elə bir çətin vəziyyətdə olmaq ki, oradan çıxmaq mümkün deyil); on one's death bed (ölüm yatağında olmaq, ölüm ayağında olmaq); one's number is up (ölümü yaxınlaşıb, vaxtı çatmaq, vaxtı yetişmək); not long for this world (vaxtı bitmək, vaxtına

az qalmaq);

Bir kəsi öldürməklə bağlı: to bite the dust (öldürmək); to blow someone's brains out (beynini göyə sovurmaq ); to cash in one's chips (oyunun sonunda haqq-hesabı çürütmək); to be struck down (öldürmək, ağır xəstəliyin kimisə öldürməsi) mənasındadır (5, s. 99).

"Go" sözü evfemizmlərin yaranmasında fəal iştirak edir. Məsələn: Leaves. On the ivy vine. When the last one falls I must go, too. Çox güman ki, sonuncu yarpaq düşəndə mən də həyatdan gedəcəm. (5, s. 76)

Bəzi frazeoloji birləşmələr birbaşa ölüm mənasında deyil, bir kəsin ölüm halında olmasını bildirir. Məsələn: to die game – qəhrəman kimi ölmək, to breath one's last gasp (son nəfəs), to be gathered to one's fathers (haqq dünyasına qovuşmaq), to sleep in the grave (əbədi yuxuya getmək) və s.

*Doğum və ya boyluluq ilə bağlı yaranmış frazeoloji evfemizmlər* – İngilis dilində gündəlik həyatda, ailə münasibətlərində evfemizmlərdən çox istifadə edilir, çünki orijinal sözlər bəzən uyğun gəlməyə bilir. Məsələn: hamilə (pregnant) əvəzinə expecting a baby, in a delicate condition, in a certain position, eating for two, to be in the family way. Analoji hala Azərbaycan dilində də rast gəlinir. Məsələn: hamilə əvəzinə iki canlı olmaq, boylu olmaq, yüklü olmaq və s

*Cinsi münasibətlə bağlı yaranmış frazeoloji evfemizmlər*-ünsiyyət prosesində daha çox istifadə olunur. Çünki, ailə, ölüm, doğum, evlənmə ilə bağlı olan sözlər kobudluq dərəcəsini yumşaltmaq, cəmiyyət tərəfindən deyilməsi məqbul sayılan formada işlətmək ehtiyacından irəli gəlirsə, hətta bəzən onları əvəz etmədən də işlətmək olur. Lakin cinsi münasibətlə əlaqədar sözləri evfemizmlərsiz işlətmək mümkün deyil. Ona görə ki, bunlar istər danışıq, istərsə də yazılı dildə həm kobudluq, həm də mərifətsizlik hesab olunur. İngilis dilində olan evfemizmlərə aşağıdakıları nümunə gətirmək olar:

Fig (cinsi əlaqədə olmaq); bondage (cinsi yaxınlıq); carry on with (kəbinsiz əlaqədə olmaq); casting couch (cinsi fəaliyyətdə olmaq); distracted by (cinsi münasibətdə olmaq).

Making love, sleeping with, getting it on, hooking up, making the beastwith two backs (sevgi ilə məşğul olmaq)

*Əxlaq pozğunluğu ilə əlaqədar yaranmış evfemizmlər* cəmiyyət üzrə özlərini ədəbsiz aparmaqla ictimaiyyət tərəfindən qəbul edilmiş əxlaq qaydaları heçə sayan şəxslərlə əlaqəli olaraq yaradılmışdır. Kiminsə əxlaqsızlığını ifadə etmək məqsədilə nalayiq sözlərdən yayınmanı evfemistik ifadələr ilə əvəz etmək mümkündür. İngilis dilində isə pozğun əxlaqla əlaqəli evfemizmlər geniş yayılıbdır. Bunlara aşağıdakıları misal gətirmək olar: alley cat, Street girl, angel of the night, lady of the evening, aunt, badger (yüngül əxlaqlı qadın), bun (əxlaqsız), cockchafer, call girl, escort (yüngül əxlaqlı qadın) (3, s. 62).

*İş adları ilə bağlı evfemizmlər* son dövrlər geniş yayılmışdır. Fövqəladə hallar zamanı az nüfuza malik işlər: janitor (süpürgəçi) yerinə sanitation engineer (təmizləmə mühəndisi), window cleaner (pəncərə təmizləyən) əvəzinə transparent – wall maintenance officer (şəffaf divar xidməti məmuru), secretary (katibə) əvəzinə office manager və yaxud assistent işlənir. Əgər iş özlüyündə xoşagəlməz təsir bağışlayırsa o halda evfemizmlərdən istifadə edilir. Məs.: rat – catcher (siçovultutan) —> rodent officer (gəmirici üzrə məsul şəxs), gravedigger (qəbirqazan) —» cemetery – operative (qəbiristan kustarı).

Demaqogiya həqiqi mənasını gizlətmək, ört-basdır etmək yaxud təhrif etmək üzrə məqsədli şəkildə yaradılan bir dildir ki, bu isə tez-tez dolayı ünsiyyətlə nəticələnməkdədir. *Demaqogiya ilə əlaqəli evfemizmləri* başqa evfemizmlərdən fərqləndirən xüsusiyyət onun əvvəlcədən düşünülmüş istifadəsidir. Demaqoqluq açıq -aşkar evfemizmlər formasında və ya ikimənalı tərkiblərlə ifadə edilir. Məs.: "firing ofinany employees" (bir çox işçiləri kənar etmə) əvəzinə "downsizing" və "rightsizing " (kütləni azaltmaq) terminləri,

“assassination” (siyasi motivə görə qətl) əvəzinə “wet work” (məntiqsiz davranış ), “destroy” (dağıtmaq) əvəzinə “takeout” (aparmaq, təmizləmək) kimi ifadələrdən istifadə olunur.

Çox vaxt qarşı tərəf yalan danışan şəxsdə ona açıqca səhv tutmaq olmur. Ona görə ki, bu kobudluq hesab edilir. Nəticədə, evfemizmlər əmələ gəlmiş olur. Bu evfemizmlərin isə nitq mədəniyyətində əhəmiyyəti böyükdür. Çox zaman nöqsan baxımından irad tutulur. Bu cür bir dolayı üsul üzrə evfemizmlərdən bir vasitə olaraq istifadə edilir. Ona görə ki, evfemizmlər dolayı üsulla həqiqi mənanı ifadə etməkdədirlər. Dilimizdə *yalanla əlaqəli evfemizmlər* ayrı evfemizmlərə nəzərən azlıq təşkil edir. İngilis dilində isə yalanla əlaqəli evfemizmlərə aşağıdakıları misal göstərmək olar. Məs.: bullsky somebody (cəfəngiyat danışmaq), misspeak (səhv danışıq), bend the truth (həqiqəti əymək), white lie (zərərsiz yalan), fudge (uydurma), colour the truth (həqiqəti rəngləmək), put one’s foot in it (səhv etmək) (4, s. 73).

Bir sıra *yer adları ilə əlaqəli evfemizmlər* say cəhətdən azlıq təşkil etməkdədir. Bunlara danışıq dilində xeyli çox rast gəlinir. Müəyyən yerlərin adını demək eyib olmadığı üçün onlara “yaramaz yer”, “pis yer” deyirlər. Ancaq belə yerlərin adı bəzi hallarda konkret evfemizmlərlə əvəzlənməkdədir. Məs.: “tualet” mənası ilə “ədəb yeri” yaxud “ayaqyolu” evfemizmləri işlənməkdədir.

İngilis dilində də istifadə edilən bu növ evfemizmlərə aşağıda göstərilənləri nümunə göstərmək olar: bathroom (vanna otağı), restroom (ayaqyolu), powder room (qadınlar üçün ayaqyolu), ballı tissue (tualet kağızı), water eloset (ayaqyolu), lounge (ayaqyolu).

Əslində evfemizmin özü parafrazanın müxtəlifliyidir. Evfemizm bu, yaxud başqa münasibət ilə deyilməsi müəyyən şəkildə məqsədə uyğun gəlməyən sözlərin ayrı sözlərlə əvəzlənməsidir. Evfemizmlərin başlıca xüsusiyyəti mənfi məna, yaxud da emosional çalarlığa sahib sözləri digər sözlərlə əvəz etməkdən ibarət olmaqdaddır (1, s. 89).

Dil faktlarından məlum olur ki, frazeoloji evfemizmlərin hər biri əşya ilə hadisələrin birbaşa adlandırılmasına məqbul sayılmır, nəticə etibarilə onlar yasaq, qadağan statusu qazanmaqla dildə daha münasib və cəmiyyətin məqbul saymış olduğu yeni frazeoloji evfemizmlərin bir çoxu ilə əvəz edilir. Frazeoloji evfemizmlər dilin lüğət tərkibinə daxil olmuş diskret vahidlərdən biri hesab edilir. Həmin vahidlərin deyilişi qadağan olan tabu sözlərdir. Tabu sayılan bu cür tematik qruplar arasında onlar kəmiyyət baxımdan və işlənmə tezliyinə əsasən bütün dillər üzrə diqqəti cəlb edir. “To take one′ s own life” frazeoloji evfemizmi psixi evfemistik əvəzlənmə ilə əlaqəli deyimin yumşaldılmasıdır. Məsələn:

From the poems written at his period we gather that he meditated take his own life. Bu cümlədə “to take one′ s own life” frazeoloji evfemizmini onun sinonimləriylə də əvəz etmək olardı. Lakin birləşmənin sinonimləri Y.Kərimov qeyd etdiyi kimi, sosial, mənəvi aspektdən yasaq sayılırdı, danışanın və dinləyənin şüurunda mənfi reaksiya yarada bilərdi (2, s. 56).

V.Moskvin frazeoloji evfemizmlərin yaranması hadisəsində bir neçə sosial faktoru əsas səbəb kimi göstərir (3, s. 90). Fikrimizcə, frazeoloji evfemizmlərin meydana gəlməsi insanın ünsiyyət vasitəsi olan dilin sosial təbiətə malik olması, insanın özü və onun daxili aləminin sosial xarakterli, yəni ictimai yönümli və ictimai şərtliliyi, ünsiyyət zamanı psixoloji mexanizm və s. ilə sıx bağlıdır.

Qeyd edək ki, bəzi təbəqənin nümayəndələri öz nitqlərində yumşaq ifadələrdən istifadə edərək öz sosial vəziyyətini yüksəltmək üçün hər hansı bir imkandan istifadə edirlər. Buna səbəb yüksək təbəqə tərəfindən qulluq kimi qəbul olunan sosial vəziyyətdir və o insanlar iyerarxik nərdivanın ən yuxarısında dayanaraq, öz statusunun qaldırılması üçün ən yüksək evfemistik ifadədən istifadə etməyə cəhd çalışırlar.

Müvafiq evfemizmlərin istifadəsinin misallarına nəzər yetirək: TheBBC had been

offered the series and had turned it down because one of the pupils was academically subnormal. ′We do have a special course for the Overactive Underachiever continued.

Bu cümlədə "Underachiever" evfemizmi Azərbaycan dilinə tərcümə olunarkən bütün evfemistik xüsusiyyətlərini itirir və adi "bacarıqsızlıq" mənasına gəlir.

Adı çəkilən tematik qrupun bəzi yayılmış evfemizmləri bunlardır: developmentally challenged (burada developmental qabiliyyətsizlik kimi nəzərdə tutulur), yəni inkişaf həvəsli, inkişaf bacarıqlı, academically subnormal, yəni akademik zəif, uniquely proficient (burada uniquely deffektli kimi nəzərdə tutulur), yəni unikal bilikli, xüsusi qabiliyyətli.

K.Priçhard qadınların kişilərə nisbətən evfemizmlərdən çox istifadə etməyə meyilli olduğunu qeyd edir. O, qadınların nitq davranışının xüsusiyyətlərinə, dilin inkişafının təsirinə diqqət yetirərək yazır ki, bir çox evfemizmlər məhz qadınlar tərəfindən yaradılır (6, s.86).

P.Tradqil göstərir ki, qadınlar dilin daha nüfuzlu variantından istifadə edir. Burada kobud ifadələrdən məhrum, nəzakətli və ritorik evfemizmlərin istifadəsi nəzərdə tutulur. Alimə görə, onların istifadəsi qadınlar üçün mühüm olan sosial statusla izah olunur. Bu səbəblərə o, qadının uşağa tərbiyə verməsi, uşağa düzgün nitq normaları öyrədərək, ona mədəniyyəti aşılaması və s. aid edilir. Bundan belə qənaətə gəlirik ki, qadınlar bu cür dil vasitələrindən öz statuslarını vurğulamaq üçün istifadə edirlər. Kişilər hərəkətlərinə görə, qadınlar isə görünüş və danışığına görə seçilir (7, s. 80).

### 3. Siyasi mənalı frazeoloji evfemizmlər

Frazeoloji evfemizmlərin böyük hissəsi siyasi kommunikasiya şəraitində yaranır. Siyasi kommunikasiya həm şifahi, həm də yazılı mətnlərin geniş spektrini əhatə edir (xidməti siyasi sənəd, parlamentdə və ya nümayişdə çıxış, siyasi müsahibə, qəzetdə siyasi məqalə, siyasi partiyanın proqramı və s.

Siyasi ünsiyyətdə evfemiyanın rolunun tədqiqi üçün kütləyə uyğun və müvafiq siyasi ünsiyyətin növlərinin seçimi diqqəti cəlb edir.

Evfemiya düzgün siyasi leksikanın yaranmasında ən effektiv vasitələrdən biridir. Siyasi evfemizmlər Vyetnam müharibəsindən sonra dilçilərin daim diqqətini cəlb edir. Siyasi mənalı frazeoloji evfemizmlər gerçəkliyi bəzəmək və real hadisələri ört-basdır etmək üçün yaradılıb. Buna görə də evfemizasiya tendensiyası siyasi dilin praqmatik qanunauyğunluqlarından biri hesab olunur.

Siyasi mənalı frazeoloji evfemizmlərin əsas xüsusiyyəti onların sehrli gücə malik olmasıdır. Siyasi evfemiya dilə bilərəkdən təsir göstərir və bunun nəticəsində hökümət başçılarına xeyir olan ifadələr yaranır.

Məsələn: "war" (müharibə) terminini "humanitarian mission" (humanitar missiya), "peacemaking operation" (sülh məramlı əməliyyat) və s.

İngilis dilində əvvəllər daha çox işlədilən "search and destroy", yəni "düşmən qüvvələrini aşkarlamaq və məhv etmək" ifadəsi daha yumşaq ifadə olan "search and clear", yəni "düşmən qüvvələrini aşkar etmək və təmizləmək" ilə əvəz edilir. Məsələn: "mass bombing", yəni kütləvi bombardman termini hazırda "protective relation", yəni müdafiə məqsədilə cavab zərbəsi kimi adlandırılır. Müxtəlif nüvə raketləri rəsmi, hərbi dairələrdə təntənəli şəkildə "peace keeper" frazeoloji evfemizmi kimi istifadə olunur ki, hərfi tərcümədə bu "sülh keşikçisi" mənasını verir.

Evfemistik əvəzolunma zamanı mənfi çalar daşıyan ifadələrin "seçilməsi" baş verir. Bu cür əvəzolunmanın nəticəsində (war, invasion terminləri peacemaking operation, humanitarian mission, liberation terminlərlə əvəz olunur) əsas ad ("müharibə") "qeyri-qanuni məqsəd", "zorakılıq" kimi komponentlərlə əvəz olunur. Nəticədə mənanın qeyri-müəyyənliyi mənfi çalarları tamamilə neytrallaşdırır.

Beləliklə, siyasi mənalı frazeoloji evfemizmlərin çoxu üslubi cəhətdən daha güclü

potensiala malik olur.

**Nəticə**

Tədqiqatımız nəticəsində müəyyən etdik ki, bədii ədəbiyyatda geniş istifadə olunan məcazi mənalı söz və söz birləşmələri frazeologizmlərin yaranmasına səbəb olur. Evfemizmlər danışan üçün kobud və xoşagəlməz sözün yumşaldılması, əks tərəf üçün kobud və ya nəzakətsiz söz və birləşmələrin mülayimləşdirilməsi, reallığın gizlədilməsi kimi üç əsas funksiyanı yerinə yetirirlər.

Evfemizm fenomeni müasir dil və mədəniyyətdə kommunikasiyanın ayrılmaz universal komponentidir və münaqişəsiz uğurlu ünsiyyətin əsas vasitələrindən birinə xidmət edir.

Evfemizmlər mənalarına və işlənmə funksiyalarına görə təsnif olunur ki, bu da onların istifadə edilmə mövqeyinə görə müəyyənləşir.

Ölümlə bağlı frazeoloji evfemizmlər, demək olar ki, daha çox üstünlük təşkil edir.

Hər bir şəxsin fikir və düşüncəsi, həmçinin leksik vahidlərin üslub imkanlarından istifadə etmə qabiliyyəti eyni olmadığı üçün evfemizmlərin və istifadəsi də fərqli ola bilər.

Bu gün siyasi arenada da evfemizmlərdən geniş şəkildə istifadə edilir. Burada da yenə məqsəd fikrin daha yumşaq çatdırılması, bir çox dövlət əhəmiyyətli məsələləri gizlətməkdir.

## ƏDƏBİYYAT


1. Aslanov A.Ə. Evfemizmlər. Müasir Azərbaycan dili. I c., Bakı: Elm, 1978, 313 s.
2. Kərimov Y.K. Azərbaycan dilində evfemizmlər. Bakı: Elm, 1999, 178 s.
3. Москвин В. П. Эвфемизмы в лексической системе современного русского языка М.: Наук, 2007, 264 с.
4. Keith Allan and Kate Burridge. Forbidden Words: Taboo and the Censoring of Language. Cambridge University Press, 2006, 303 p.
5. Partridge E. Slang to day and yesterday. London: Cambridge University Press, 1979, 246 p.
6. Prichard K.S. The Roaring Nineties.London: Cambridge University Press, 1989, 178 p.
7. Trudgil P. Standard English in England. England Cambridge University Press, 1984, 190 p.



***Резюме***

***Шабнам Оручлу***

***Функциональный анализ фразеологических эвфемизмов***

В статье исследуются фразеологические эвфемизмы английского языка, их специфика, семантические особенности и функциональность. Определены особенности фразеологических эвфемизмов в английском и азербайджанском языках и определен их статус. Также раскрываются источники развития фразеологических эвфемизмов, их теоретические основы как лексико-стилистического инструмента, причины их использования и социальные факторы, определяющие их выбор.

Установлено, что не каждый фразеологический эвфемизм приемлем для прямого именования вещей и событий, и в результате они приобретают статус запрета, заменяя их множеством новых фразеологических эвфемизмов, более уместных в обществе и принимаемых обществом. Фразеологические эвфемизмы считаются одной из дискретных единиц, входящих в словарный запас языка. Эти единицы являются табуированными словами, которые запрещено произносить. Среди таких табуированных тематических групп они привлекают внимание на всех языках с точки зрения количества и частоты развития.

Представители некоторых слоев используют любую возможность для улучшения своего социального статуса, используя мягкие выражения в своих выступлениях. Причина этого - социальная

ситуация, которая воспринимается высшим классом как услуга, и эти люди стоят на вершине иерархической лестницы и пытаются использовать высшие эвфемистические выражения для повышения своего статуса.

Большинство фразеологических эвфемизмов возникает в контексте политической коммуникации. Политическая коммуникация охватывает широкий спектр устных и письменных текстов (официальный политический документ, выступление в парламенте или демонстрации, политическое интервью, политическая статья в газете, программа политической партии и т. Д.).

Для изучения роли эвфемизма в политической коммуникации следует обратить внимание на выбор подходящих и подходящих типов политической коммуникации для масс.

Метафорические слова и фразы, широко используемые в художественной литературе, порождают фразеологию. У эвфемизмов есть три основные функции: смягчить грубое и неприятное слово для говорящего, смягчить грубые или невежливые слова и фразы противоположной стороны и скрыть действительность.

***Ключевые слова:*** *эвфемизм, фразеологические эвфемизмы, английский язык, анализ*

***Summary***

***Shebnem Orujlu***

***Functional Analysis of Phraseological Euphemisms***

The article examines phraseological euphemisms in English, their specific and semantic features and functionality. The features of phraseological euphemisms in English and Azerbaijani languages are defined and their status is determined. It also reveals the sources of the development of phraseological euphemisms, their theoretical principles as a lexical stylistic tool, the reasons for their use and the social factors that determine their choice.

It has been established that not every phraseological euphemism is acceptable for directly naming things and events, and as a result they gain the status of a ban, replacing them with many new phraseological euphemisms that are more appropriate in society and accepted by society. Phraseological euphemisms are considered to be one of the discrete units included in the vocabulary of the language. These units are taboo words that are forbidden to say. Among such taboo thematic groups, they attract attention in all languages in terms of quantity and frequency of development.

Representatives of some strata use every opportunity to improve their social status by using soft expressions in their speeches. The reason for this is the social situation, which is perceived by the upper class as a service, and those people stand at the top of the hierarchical ladder and try to use the highest euphemistic expression to raise their status.

Most of the phraseological euphemisms arise in the context of political communication. Political communication covers a wide range of both oral and written texts (official political document, speech in parliament or demonstration, political interview, political article in a newspaper, political party program, etc.).

To study the role of euphemism in political communication, the choice of appropriate and appropriate types of political communication for the masses is noteworthy.

Metaphorical words and phrases, which are widely used in fiction, give rise to phraseologies. Euphemisms have three main functions: to soften the rude and unpleasant word for the speaker, to soften the rude or impolite words and phrases of the opposite party, and to hide the reality.

***Key words:*** *euphemism, phraseological euphemisms, English, analysis*

Redaksiya heyətinin üzvü fil.e.d., prof. Qasımov İkram Ziyad oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 82**

# BOZQURD OBRAZI MİFİK SÜJETLƏRİ ÖZÜNDƏ QOVUŞDURAN MİFOLOQEM KİMİ

**Nərmin SADƏDDİNLİ** *

*Məqalə redaksiyaya daxil olmuşdur: 21 avqust 2020; çapa qəbul edilmişdir: 18 sentyabr 2020, online-da çap edilmişdir: 31 mart 2021.*
*Received: 21th of August, 2020; accepted: 18th of September, 2020; published online: 15th of March, 2021.*

***Açar sözlər:*** *qurd obrazı, atəşpərəstlik inancları, simvol, göytürklər, türk-moğol mifologiyası*

## Giriş

"Mifoloqem" bir anlayış kimi motiv və obrazı özündə birləşdirir. "Mifoloqem" adı altında ənənəvi olaraq mifik motiv başa düşülür. Lakin motivin nüvəsini obraz təşkil edir. Bu məqalədə Bozqurd obraz və motivin qovşağında təhlil olunacaqdır. Türk mifoloji sistemində zoomorfik miflər xüsusi yer tutur. Bunlara: ilan, qurd, Simurq quşu, Ağ quş, Qara quş və s. nümunə göstərə bilərik. Bunların arasında Qurd obrazı ən çox diqqət çəkəndir. Həm şifahi, həm də yazılı nümunələrdə həmin zoomorfik obrazlara rast gəlmək mümkündür. Bu gün dünyada, Qurdla bağlı mərasimlər, adət-ənənələr, inanclar mövcuddur. Qurd türklərin milli simvoludur. Özündə gücü, iradəni, qorxmazlığı, cəsarəti və s. kimi xüsusiyyətləri daşıyır. Göydən mavi işıq içərisində peyda olaraq, insanların gözünə görünməsi onu müqəddəs edir. Çətin zamanlarda türklərin qarşısına çıxaraq onları düşdükləri vəziyyətdən xilas edir, yol göstərir. Bozqurd təkcə bir ailəni, bir fərdi deyil, bütöv bir nəsli xilas edir. Bəzi əski türk dastanlarında Bozqurd həmçinin "böri", "börü", "börteçine", "göy qurd", "gök böri" adları ilə də tanınır. Bozqurd obrazına poeziyada da rast gəlinir.

Məmməd Araz, Nihal Atsız, Uluğ Turanoğlu, Niyazi Yıldırım Gəncosmanoğlu və s. yaradıcılıqlarında Bozqurd obrazı bədii obrazlara çevrilmişdir. Bozqurd hər zaman əyilməz, vüqarlı yaşadığı üçün türklər onu özlərinə bir simvol olaraq seçdilər. Deməli, türklər fiziki gücə deyil, mənəvi gücə üstünlük verirmişlər. Digər türk xalqlarında olduğu kimi, Azərbaycan türklərinin də düşüncəsində qurdun yeri ayrı olub. Qurd üzünü mübarək sayıb, qurdun ulamasını bəxtin üzə gülməsi kimi yozurdular. Son dərəcə cəsarətli insan haqqında "Qurd ürəyi yeyib" ifadəsini işlədirlər. İnsanlar qurda o qədər inanırmışlar ki, hətta onun adına and belə içərdilər: "And olsun boz qurdun mübarək üzünə", "Boz qurdun paklığı haqqı" və s. kimi andları buna nümunə göstərmək olar. Qurdla bağlı inanclar bu gün də özünü göstərir.

## 1. Qurd arxetipinin xüsusiyyətləri

Türklərin qurddan törəmiş olduqlarına dair bir çox nümunələr vardır. Prof. Dr Hikmet Tanyu "İslamlıktan önce türklerde tek tanrı inancı" kitabında aşağıdakıları qeyd edir: "Qurd tanrının elçisidir, insan ata, qurd ana obrazındadır, Oğuz xana yol göstərir, Göytürklərdə qurd bir dövlət simvoludur. Əski zamanlarda totem kimi başa düşülsə də,

* doktorant, Bakı Avrasiya Universiteti
*e-mail: sadeddinlinermin@gmail.com*

indi simvoldur. Göytürklər qurddan törəmişdir. Bu özünü "Ərgənəkon" dastanında göstərir [9, s. 47].

Problemin elmi şərhi öz əksini prof. Ramazan Qafarlının "Azərbaycan türklərinin mifologiyası" əsərində aşağıdakı kimi tapmışdır: Alim yazır: "Qurd obrazı bütün tədqiqatçılar tərəfindən skiflərdən əvvəlki çağlara aid edilmişdir. Skif-sibir incəsənətində qurdla bağlı təsvirlər də skiflərdən əvvəlki bəbirin dəyişdirilməsinin nəticəsində meydana gəlmişdir. Faktlar onu deyir ki, yalnız xalqın baş totemə sitayişi uzun müddət davam edəndə həmin varlığın müqəddəsliyinə inam gen yaddaşına keçir, insan özündən asılı olmayaraq, ona xüsusi və birmənalı münasibət bəsləyir – "törətmə" funksiyasını qoruyub saxlayır.

Lakin türk (xüsusilə də Azərbaycan) inanclarında qurd əksər hallarda "bələdçi-xilaskar" rolunda çıxış edib, təzə, daha uğurlu yaşayış yerlərini nişan versə də, onun tamamilə əks hərəkətlərin icrasında fəallığını göstərən nümunələr də az deyil. Məsələn, "Arxalı köpək qurd basar" atalar sözünü yada salaq. Ulu babalarımız totem – yaradıcı hesab etdiyi heyvanı köpəyə basdırmazdı" [6, s. 28].

Bozqurd türk, monqol mifologiyasında müqəddəs heyvan mənasına gəlir. Monqollar qurdu "Böri", "Börü", "Börteçine", "Gök Böri", "Göybörü" adları ilə adlandırırdılar. Hun dövründə qurd ata kultunun bir parçası idi. Hətta Çin qaynaqları qurdu özlərinə igidlik simvolu kimi seçmişdilər.

Türk atalar sözlərindən birində deyilir: "Qurdla qoyun olmaz, ciyərlə (yəni qohum ilə) oyun olmaz! Azəri türklərinin atalar sözündə isə buna qarşılıq olaraq: "Qurd ilə qoyun, qılınc ilə oyun olmaz!" deyirlər. Qurd türklərdə gücün və qüdrətin simvolu idi.

Qurd yağı insanlar arasında dadsızlıq yaratmaq üçün istifadə olunur. Əgər bir insanın qapısına qurd yağı sürtülərsə, o zaman ailə fərdləri arasında dadsızlıq düşür.

Qurddan törəmə əfsanələrinə İslamiyyətdən sonra da rast gəlinir. Türklər Şərqdən Qərbə doğru irəliləməyə başladıqları zaman qarşılarında itə bənzər bir heyvan görürdülər. Bu heyvan gəzdiyi zaman onlarda gəzir, o dayandıqda dayanır və ordugahlarını qururdular.

Qurd bir çox mətnlərdə pis ruhları qovan və uşaqları qoruyan rolundadır. "Qurd dərisinə girənin sümükləri ağrımaz", "Topuğuna qurd aşığı bağlayan tez qaçar", "Qurd dərisindən kəmər taxan güclü olar" deyimləri dilimizdə bu gündə işlənməkdədir.

Qədim türklərdə qurd heç bir zaman totem deyildi. Onlar qədim zamanlarda sadəcə simvol hesab edilirdilər. Bayraqların və onların sancaqlarının üzərində qurd başı təsvir edilirdi.

Qurd adına bir çox çalışmalarımızda rast gələ bilərik: Böri, Canavar, Aşina, Gök böri, Qara Qurd, Qurd dərəsi, Qurd Veli, Qurd Seyid, Qurd oyunu və s.

Bir Çin qəbiləsində insanlar "sancaqlarının başına qurd başı taxardılar". Qəbilə üzvləri sərkərdələrinə, mühafizəkarlarına fu-li (böri) deyərmişlər. Böri Çin dilində qurd deməkdir, yəni qurddan doğulanlar.

Tanrı-qurd izlərinə türk dünyasının bir çox yerlərində rast gəlmək mümkündür. Buna nümunə olaraq: qayaüstü yazıları, məzar daşlarını və başqa əşyaları nümunə göstərə bilərik.

Astroloji ünsürlərlə bağlı olaraq göy qurd, boz qurd ifadələrinin yanında, ağ qurd, al qurd və qara qurd ifadələrinə də rast gəlirik. Burada rənglərin mənasına uyğun olaraq qurdların da keyfiyyətləri üzə çıxır. Ağ qurd göy ünsürünə bağlı olaraq saflıq, təmizlik, ərdəm, al qurd şiddətə ya da yer ünsürünə , qara qurd isə qarşı durulmaz qüvvətə, yeraltı ünsürünə və ya pisliyə işarə edir.

Azərbaycan mif və əfsanələri ilə tanış olduqda görürük ki, qurda münasibət bir yox, ikimənalı və ya bir-birinə əksdir. İnsan-qurd çevrilmələrində insanlar vəhşi kimi göstərilir. Hətta qurd dərisinə girən qadınlar nəslin kökünü kəsirlər, övladlarını yeyirlər.

Ancaq əfsanələrdən fərqli olaraq real həyatda qurd öz balasını qorumaq üçün özündən güclü heyvanlarla vuruşur. Deməli, qurd həm "mübarək üzlüdür", həm də nəslin kökünü kəsən şər qüvvədir. Bu, özünü atəşpərəstlik inanclarında da göstərib.

Qurd müqəddəs və uğurlu bir heyvan sayılır. Totem olaraq, ana, ata sayıldığı kimi həm də qoruyucu, yol göstərən, hami-sərkərdə, şəfqətli, cəsarətli mifoloqem kimi də tanınır.

Qurdla bağlı əfsanələr sonralar moğol ədəbiyyatlarında da özünü göstərir. Qurd ata və "Ərgənəkon" dastanını da moğol ədəbiyyatı hesab edirdilər. Ancaq bu gerçəkdə elə deyildi. Bunun üçün moğolların ilk tarix səhnəsinə çıxdıqları vaxtdan, onların hansı heyvanlara inam bəsləmələrinə qədər hər bir detalı nəzərdən keçirmək lazım idi. Bütün bunları nəzərdən keçirdikdə aydın olur ki, monqolların müqəddəs hesab etdikləri heyvan köpək idi. Onların eyni zamanda qurdu da simvol olaraq inanmaları imkansız idi.

Göytürklər zamanında qurd bir totemdən əlavə bir simvol halına gəlmişdi. Göytürklər bu səbəbə görədir ki, bayraqlarının başına qurd heykəli qoyurmuşlar. Hətta Göytük dövlətinin süqutundan sonra da qurd başlı sancaqlar dağıdılmamışdır.

Moğollar qurdu Çina və ya Çinu adlandırırdılar. Çingiz xanın ilk ataları, erkək qurd ilə dişi maral idi. Bu haqda Moğolların Gizli Tarixi kitabında rast gəlirik. Onlar ata qurdu "Börte-Çinu" adlandırırdılar. Börte və Berte moğolca rəng adıdır.

Türk tədqiqatçısı Necati Gültepeyə görə, qurd bir simvol olaraq tarixdə böyük dövlətlər qurmuş olan türklərin bayraqlarında da öz əksini tapmışdır. Orta Asiyanın türk xalqlarının ədəbiyyatlarında qurd çox zaman kişi (erkək) kimi göstərilmişdir. Ancaq göytürklərin inanclarına görə, qurd bir dişidir və ana rolunda çıxış edir. Oğuzlarda qurd həm də soxulcana deyilir. Bunlar qarışdırılmasın deyə vəhşi heyvan olan qurda "böri" adı verilmişdir. Müəllif yazır: "Kutadgu Bilig'de de kurt, solucansılar için kullanılmıştır. Yine Kutadgu Bilig'de hakan anlamına "Gök-börü" deyimini görürüz" [3, s. 510-511].

Çin qaynaqlarının verdiyi məlumata görə, Hun hökmdarı Vusu Kirala hücum etmiş və öldürmüşdü. Kiralın bir kiçik oğlu varmış. Adına Kun-Mo deyirmişlər. Hun hökmdarı bu uşağı öldürməmiş, onun çölə atılmasını əmr edibmiş. Uşağı öz qədərinə məhkum etmişlər. Uşaq çöldə iməklərkən üzərində bir qarğa dolaşmış və dimdiyindəki əti ona yavaşca yaxınlaşaraq vermiş və oradan uzaqlaşmışdır. Az sonra uşağın ətrafında dişi bir qurd peyda olmuş, uşağa yaxınlaşaraq onu əmizdirmiş daha sonra oradan uzaqlaşmışdır. Bütün bunları Hun hökmdarı uzaqdan izləyirmiş. Uşağı götürüb adamlarına vermiş və onun müqəddəs olduğunu söyləmişdir. Uşağa yaxşı şəkildə baxılmışdır. Uşaq böyüyərək bir igid olmuş və Hun hökmdarının ordularından birinə başçı təyin edilmişdir. Getdikcə inkişaf edən və qabiliyyətli oğlana könül bağlayan Hun hökmdarı atasının vilayətini ona vermiş və onu Vusunun kralı təyin etmişdir. Bu əfsanə Orta Asiyadakı ilk Qurd əfsanəsi idi [7, s. 14-18].

**2. Qurd kosmik varlıq kimi**

Göyürklər qədim hunların bir qolu olan türk dövlətidir. Həmçinin Göytürklərin qədim hunların, xəzərlərin soyundan gəldiyi bildirilir. Aşina sözü monqol dilində "çino" (yəni qurd) anlamına gəlir. Türk mifologiyasına görə, "Günəşi təmsil edən qurd və aslan həmişə Günəş şüası ilə, işıqla bağlı insanların gözünə görünərmiş... Günəşin kişi və eləcə də qadın başlanğıcı olması ana, ata xaqanlığı ilə bağlıdır. [3, s. 510-511]

Türk tədqiqatçı Necati Gültepenin yazdığına görə, "Oğuz dastanlarında bozqurd yol göstərən, Göytürk isə əcdad-qurtarıcı rolundadır. Bütün bunlara əsasən bozqurd türk milli adət-ənənələrində bir çox funksiyaları yerinə yetirir: Əcdad, xilaskar, qoruyucu, yol göstərən, hami-sərkərdə və s. [3, s. 510-511].

Buradan da göründüyü kimi, bozqurd ilk zamanlarda "müqəddəs" kimi təsəvvür edilmişdir. Türk-moğol mifologiyasında bozqurd səmavi mənşəli bir heyvan kimi göstə-

rilir. Yaradılış miflərində də gördüyümüz kimi, "müqəddəs" insanları "Erlik" dən və onun köməkçiləri olan bir ruhlardan qoruyur. İnsanlara od yandırmağı, silah işlətməyi, çadır qurmağı öyrədir.

Türklər öz simvolları olan qurda Kök böri deyərmişlər. Kök, yəni göy, göyün rəngi olan mavilik. Əslində Türklər göyə Mavi göy deyirmişlər. Göy rəng Tanrının da bir simvolu idi. Bir şeyi göy rəngə bürümək və ya göy rəngi ilə bərabər söyləmək o şeyi müqəddəsləşdirirdi. Dastanlarımızda təcrübəli, gün görmüş birinə Ağ Saqqallı adını veririk. Manas dastanında isə Manasın oğluna ad vermək üçün peyda olan Xızır üçün Göy Saqqallı adını verirdilər. Uyğur Oğuznaməsində Oğuz Xaqana yol göstərən qurd "göy yələkli, göy tüklü" adı ilə tanınır. Oğuzlar qurdun maddi keyfiyyətlərindən çox onun tükünün rəngini öndə tuturdular. Göy rəngi bəzən ağarmış saçlara da uyğunlaşdırırdılar. Məsələn, bir qurd sürüsünün önündə gedən başçı qurd çox zaman qoca qurd idi. Bu qurdlar son dərəcə hiyləgər, nə zaman və haradan necə hücum edəcəkləri bilinməyən qurdlar idi. Qurd sürüsündəki digər qurdlar isə onun istəklərini yerinə yetirən bir növ kukla rolundaydılar. Bu səbəbdəndir ki, belə təcrübəli və qorxunc olan qurdlara "göy yələkli qurd" adını verirdilər [7, s. 43].

Əfsanələrdə qurdun özündən başqa onun dərisinin də önəmini qeyd edirlər. Bir yakut əfsanəsinə görə, vaxtiylə dünya çox soyuq bir yer imiş. İnsanlar soyuqdan donarmışlar. Bir gün böyük bir bahadır çıxmış və əlləri donmasın deyə 30 cüt qurd dərisindən əlcək düzəltmiş və göyə çıxaraq Ülkər ulduzunun dəliyini qapatmışdır. Bundan sonra yer üzündə havalar daha isti və ılıq olmağa başlamışdır. Burada qurd dərisinin önəmi izah edilmişdir. Buna görə də qurd əfsanənin ən önəmli motivlərindən biridir [7, s. 49].

"Xannamə"yə görə, Çingiz xanın atalarından Alankoa çadırında yatarkən, pəncərədən parlaq bir ay girmiş və Alankoanı hamilə buraxmışdır. Ay çadırdan girdiyi zamanda qadının gözünə Aslan və Qurd görünmüşdür. Bu söylənti Moğolların Gizli Tarixində də öz əksini tapmışdır [2, s. 315].

Altay qövmlərində də ata-qurd qarşılaşması öz əksini tapmışdır. Çingiz xanın atasının bir qurd olduğu XIX əsrdə belə unudulmamışdır. Altay dağlarında bir çox dağların adı Qurd dağı adlanır. Atillanın üzü də qurda bənzəyirmiş. Oğuz Kağan dastanındakı "Göy yələkli qurd" da erkəkdir. Moğollarda Qurdlarla birgə yaşayan bəzi bahadırlara da rast gəlirik. Məsələn Çingiz xanın atalarından biri olan Bodonçarın günün birində yeməyi bitmiş və qurdlar tərəfindən qovalanaraq qayaların arasına sıxışdırılmışdır. Ov ovladıqca qurdlar da ona yanaşmış və yeməklərini paylaşmışlar. Yeməkləri bitdiyində belə qurdlar ona toxunmamış, bir il müddətinə birgə yaşamışlar. Qurd heç bir surətdə əhilləşməyən bir heyvandır [2, s. 315].

Türk xalqları arasında "Qurd ağzı" adını verdiyimiz mərasim keçirilir. Belə bir mifik inam var ki, sürüyə əmanət qoyun qatanda mütləq qurd ağzı bağlanmalıdır. Və ya sürüdən hər hansısa bir heyvan itdiyi zaman qurd ağzı bağlanması tövsiyə olunur. Kimsənin heyvanı itəndə evdə baltanın və ya iti kəsərli əşyanın ağzını bağlayardılar ki, qurda rast gəlməsin.

Axıska türkləri arasında qurd ağzı mərasimi keçirilir və mərasim zamanı aşağıdakı dua oxunurmuş:

*Qurd-qurd kiş-kişi,*
*Bağladım qurdun dişi,*
*Qurd bənə afiyə*
*Bən də qurda safiyə*
*Həzrəti Alının bıçağı*
*Fatma anamızın sacaqi.* [4, s. 122]

S.Rzasoy yazır: "Salur Qazanın evinin yağmalanması boyunda Qazan Qurda tərif

deyir. Bu təriflərin hamısı Qurdu profan element kimi təqdim edir:

*Gündüzü axşam başlanır;*
*O, qarla yağışdan qorxmur;*
*Atlar onun qorxusundan kişnəyir;*
*Dəvələri mələdir;*
*Qoyunlara hücum edir;*
*Qoyun ağılını arxa tərəfdən sökür;*
*Kök qoçları qovub tutur;*
*Onların qanlı quyruqlarını üzüb udur;*
*Ulartısı itləri qorxuya salır;*
*Çobanlar onun qorxusundan əllərində məşəl ora-bura qacırlar.* [5, s. 45]

Akademik Nizami Cəfərova görə, "Kitabi-Dədə Qorqud" dastanında Bozqurd inam deyildir, bu inam arxaikləşmişdir [1, s. 25]. Bu Qazan xanın qurda müraciətində də özünü göstərir:

*Qaranqu axşam olanda günü doğan,*
*Qar ilə yağmur yağanda ər kibi duran,*
*Qaraqoç atları kişnəşdirən,*
*Qızıl dəvə gördügündə bozlaşdıran,*
*Ağca qoyun gördügündə quyruq çırpıb qamçılayan,*
*Arxasını urub bərk ağılın ardın sökən,*
*Qarma-bükəc simizin alıb tutan,*
*Qanlı quyruq üzüb çap-çap yudan,*
*Avazı qaba köpəklərə qovğa salan,*
*Çaqmaqlıca çobanları dünlə yügürdən...*
*Ordumun xəbərin bilirmisən, degil манлинейкаа,*
*Qara başım qurban olsun, qurdum, sana.* [5, s. 41]

Qazan Qurdu görərkən "Qurd yüzi mübarəkdir" deyir. "Mübarək" – ərəb mənşəli söz olub, "bərəkətli" deməkdir. Qazan, buradan göründüyü kimi, Qurda rast gəlməsini "xeyir-bərəkət" hesab edir. Bu, Qazanın rast gəldiyi Qurdun kosmoloji mənsubiyyət baxımından kosmik varlıq olduğunu göstərir. Qazana ev/ordusu ilə bağlı informasiya/xəbər lazımdır. Bu baxımdan, "Qurdun üzünün mübarək olması" həm də o deməkdir ki, Qazan ondan mübarək/bərəkətli/xeyirli/lazımlı informasiyanı alacaq. Başqa sözlə, bu Qurd kosmosyaradıcı elementdir və onun Qazanla dialoqu xeyirlə nəticələnməlidir" [8, s. 344-346].

**Nəticə**

Bozqurd arxetipi türk və xarici tədqiqatçıların daim maraq obyektində olmuşdur. Bozqurd bir obraz kimi bütün hallarda mifologiya ilə bağlıdır. Obrazın türk düşüncəsindəki məna sıralarının öyrənilməsi göstərir ki, bu obrazın bütün semantik laylarının əsasında mifik arxetiplər durur.

Bozqurd obrazı mifik obrazları özündə qovuşdurur. Bozqurd anlayışı haqqında məlumatı müxtəlif əfsanələrdən alırıq. Bu əfsanələrdə Bozqurd totem-əcdad, xilaskar, hami-sərkərdə funksiyalarında çıxış edir. Bozqurd həm də türk soyunu birləşdirəndir. İnsan övladı qurdlar tərəfindən bəslənilir, onlarla izdivaca girir, hətta övlad dünyaya gətirirlər.

## ƏDƏBİYYAT

1. Cəfərov N. "Kitabi-Dədə Qorqud"da İslama keçidin poetikası. Bakı: Elm, 1999, 60 s.
2. Gökyay O, Ş. Han-Nâme. Ankara: Türk Tarih Kurumu Basınevi, 1969, 315 s.
3. Gültepe N. Türk Mitolojisi (Yeni Araştırmalar İşığında). İstanbul, 2015, 665 s.
4. Hacılı A. Qəribəm bu vətəndə. Bakı: Gənclik, 1992, 216 s.
5. Kitabi-Dədə Qorqud. Bakı: Öndər nəşriyyatı, 2004, 376 s.
6. Qafarlı R. Azərbaycan türklərinin mifologiyası. Bakı: ADPU-nun nəşri, 2010, 420 s.
7. Ögel B. Türk mitolojisi, I c. Ankara: Türk Tarih Kurumu Yayınları, 2010, 644 s.
8. Rzasoy S. Azərbaycan dastanlarında şaman qəhrəman arxetipi. Bakı: Elm və təhsil, 2015, 436 s.
9. Tanyu H. İslamlıktan Önce Türklerde Tek Tanrı İnancı. Ankara: Ankara Üniversitesi İlahiyyat Fakültesi Yayınları, 1980, 216 s.

### *Summary*

***Narmin Sadaddinli***

### *Bozqurd İmage as a Mythology that Combines Mythic Stories*

"Mythology" combines motive and image as a concept. The name "mythologem" is traditionally understood as a mythical motif. But the core of the motive is the image. In this article, Bozkurt will be analyzed at the junction of image and motive. Zoomorphic myths have a special place in the Turkish mythological system. These include: snake, wolf, Simurg bird, White bird, Black bird, etc. we can show an example. Among them, the image of the wolf is the most striking. These zoomorphic images can be found in both oral and written samples. In today's world, there are rituals, traditions and beliefs related to the wolf. The wolf is the national symbol of the Turks. He has strength, will, fearlessness, courage and so on. has features such as. Appearing in the blue light from the sky, appearing in the eyes of people sanctifies it. In difficult times, he confronts the Turks, saves them from their situation and shows them the way. Bozkurt saves not only one family, one individual, but an entire generation. In some ancient Turkic epics, Bozkurt is also known as "wolf", "wolf", "wolf", "blue wolf", "blue wolf". The image of the wolf is also found in poetry. Mammad Araz, Nihal Atsiz, Ulug Turanoglu, Niyazi Yildirim Gencosmanoglu and others. They touched upon the image of Bozkurt in their works. Since Bozkurt has always been inflexible and arrogant, the Turks chose him as a symbol. So the Turks preferred spiritual strength to physical strength. As in other Turkic peoples, the wolf had a special place in the minds of Azerbaijani Turks. They considered the wolf's face blessed, and interpreted the wolf's howl as a smile of fortune. They use the phrase "The wolf ate the heart" to a very brave man. People believed in the wolf so much that they even swore in his name: "By the blessed face of the gray wolf," "The right of the gray wolf to purity," and so on. such as oaths. Beliefs about the wolf are still evident today.

**Key words:** *image of a wolf, fire-worshiping beliefs, symbols, Goyturks, Turkish-Mongol mythology*

### *Резюме*

***Нармин Сададдинли***

### *Образ бозкурда как мифологема, объединяющие мифических сюжетов*

